

**“Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik. Bu tarixi Qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi Qələbə ilə fəxr edəcəyik.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 2-ci nömrəsi*

*Aprel - İyun (2022-ci il)*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

Çapa imzalanmışdır: 19.07.2022
60x84 1/8 formatda 230 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2022

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**5** İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında iştirak edib
**17** İlham Əliyev Səudiyyə Ərəbistanı Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib
**19** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər
**25** İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalında iştirak ediblər
**37** Azərbaycan və Türkiyə prezidentləri 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışında iştirak ediblər
**41** İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın görüşü olub
**43** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "Şərq Bazarı" kompleksində yaradılan şəraitlə tanış olublar


## BAŞ PROKURORLUQDA


**46** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanda rəsmi səfərdə olmuşdur
**50** Baş Prokuror Kamran Əliyev ATƏT-in Media azadlığı üzrə Nümayəndəsi Tereza Ribeyro ilə görüşmüşdür
**51** Baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdulla bin Səud bin Xudeyr ilə görüşmüşdür
**52** Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilib
**54** Prokurorluq əməkdaşları tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə ağacəkmə aksiyası keçirilib
**56** Baş prokuror Kamran Əliyev İtaliyada işgüzar səfərdə olmuşdur
**59** Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü qeyd edilmişdir
**62** "Qanun naminə-Heydər Əliyev salnaməsi" sənədli filminin təqdimatı baş tutub
**63** Səudiyyə Ərəbistanı Krallığının və Azərbaycan Respublikasının prokurorluq orqanları arasında əməkdaşlıq davam edir
**65** Səudiyyə Ərəbistanı Krallığı Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Şuşaya səfər etmişdir
**67** "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı Tvinninq layihəsi üzrə tərəfdaş ölkənin Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər etmişdir
**69** Litva Respublikasının Baş prokuroru və Xüsusi İstintaq Xidmətinin direktorunun iştirakı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilmisdir
**71** Baş prokuror Koreya Respublikasının səfiri ilə görüşmüşdür
**72** Azərbaycan Respublikasının və Qətər Dövlətinin prokurorluq orqanları arasında əməkdaşlıq genişlənir
**75** Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti ölkəmizə işgüzar səfər etmişdir
**78** Baş prokuror Qətər Dövlətinin Bakıdakı səfiri ilə görüşmüşdür
**79** Baş prokuror İran İslam Respublikasının səfiri ilə görüşmüşdür
**80** Baş prokuror ABŞ Dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə köməkçisinin müavini ilə görüşüb
**82** Baş Prokuror Avropa Şurasının səfirləri ilə görüşüb
**84** Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir
**87** Baş prokuror Kamran Əliyev bölgələrdə vətəndaşları qəbul etmişdir
**103** Prokurorluq əməkdaşlarının Muzey Mərkəzinə ziyarəti təşkil edilib
**105** Prokurorluq orqanlarında media ilə əlaqələrə görə məsul işçilər üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzində təlim keçirilmişdir
**107** "Tvinninq" layihəsi üzrə ekspertlərin Bakı şəhərinə səfəri başa çatmışdır
**109** Baş Prokurorluqda "Açıq qapı günü" keçirilib
**111** Prokurorluq əməkdaşları Qobustan Milli Tarix-Bədii Qoruğunda olub
**112** Lənkəranda "Müasir dövrün çağırışlarında media ilə dialoq" adlı konfrans təşkil edilib
**115** Prokurorluqda press-tur keçirilib
**116** Azərbaycan Respublikasının Xalq yazıçısı Çingiz Abdullayevlə prokurorluq əməkdaşları arasında Baş Prokurorluqda görüş keçirilib
**117** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar prokurorluq orqanlarının veteranları ilə görüş keçirilmişdir
**118** Salyan şəhərində "Media və hüquqi maarifləndirmə" adlı konfrans təşkil edilib
**119** "ADA" Universiteti və Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanmışdır
**120** Prokurorluq əməkdaşları Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olub
**120** Avropa Şurasının "HELP e-learning" platformasında hakim və prokurorluq işçiləri üçün təşkil olunan kurs yekunlaşdırılıb
**122** Baş Prokurorluqda TAIEX texniki yardım aləti çərçivəsində bir neçə mövzu üzrə təlim keçirilmişdir
**124** Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilmişdir
**125** Qazax şəhərində "Media və hüquqi maarifləndirmə" adlı regional konfrans təşkil edilib
**127** Gənc hüquqşünaslar Baş Prokurorluqda olublar
**129** 2022-ci ildə prokurorluq orqanlarına qulluğa qəbul olunmuş və stajorluq keçən işçilər üçün təşkil edilmiş hazırlıq kursu uğurla başa çatdırılmışdır
**134** Baş Prokurorluqda "Elektron cinayət işi" proqramının təqdimatı keçirilib
**138** Özbəkistanın Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur
**139** Ağcabədi şəhərində "Media və hüquqi maarifləndirmə" adlı konfrans təşkil edilib
**141** Baş Prokurorluqda dəyirmi masa keçirilmişdir
**142** Gədəbəydə "Hüquqi dövlət quruculuğu və müstəqil Azərbaycan mediasının inkişafında Heydər Əliyev irsi" adlı konfrans təşkil edilib
**145** Prokurorluq əməkdaşlarının peşə hazırlığı səviyyəsinin artırılması daim təmin edilir
**146** "Müasir dövlət qulluğunda innovasiyalar və təcrübələr" adlı konfrans keçirilib
**147** Prokurorluq işçiləri tərəfindən ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sazişlərdən irəli gələn vəzifə və funksiyaların dərindən öyrənilməsi davam etməkdədir
**149** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Hərbi Prokurorluqda tədbir keçirilib
**152** Hərbi Prokurorluqda Vətən müharibəsi iştirakçıları, o cümlədən qazilərlə görüş olub
**155** Bakı şəhər prokurorluğunda ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü qeyd edilmişdir
**157** Mətbuat xidmətinin məlumatları


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**161** Baş Prokurorluğun Xüsusi Müsadirə Məsələlərinin Əlaqələndirilməsi İdarəsinin bir sıra əməkdaşları Haaqa şəhərində keçirilən tədris turunda iştirak etmişlər
**162** Sankt-Peterburq beynəlxalq kriminologiya klubunda keçirilmiş "Kriminologiyada səbəbiyyət problemləri" mövzusunda beynəlxalq müzakirədə Baş Prokurorluğun nümayəndəsi iştirak etmişdir
**163** Azərbaycan Prokurorluğunun xarici tərəfdaşlarla əməkdaşlığı əyani təcrübə mübadiləsi formatında inkişaf etdirilir
**165** "Peşəkar hüquq təhsilində innovasiyalar: mövcud problemlər və yeni imkanlar" mövzusunda beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun nümayəndə heyəti iştirak etmişdir
**166** Baş Prokurorluğun nümayəndəsi Özbəkistanda təşkil edilmiş növbəti plenar görüşdə iştirak edib
**167** Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşları "Tvinninq" layihəsi çərçivəsində Litva Respublikasında tədris turunda iştirak etmişlər
**168** Azərbaycan Respublikasının Prokurorluğunun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir
**170** Baş Prokurorluğun əməkdaşları beynəlxalq seminarda iştirak edib
**171** Azərbaycan Respublikası Prokurorluğunun nümayəndəsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Transmilli Rüşvətxorluğa qarşı Hüquq-Mühafizə Orqanları Şəbəkəsinin növbəti iclasında iştirak etmişdir
**172** Azərbaycan Prokurorluğunun nümayəndələri məlumat bazalarının təhlili yolu ilə korrupsiyanın aşkarlanmasına dair beynəlxalq təlimlərdə iştirak etmişlər
**173** Belarus Respublikasının Minsk şəhərində keçirilmiş beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun nümayəndə heyəti iştirak edib
**175** Baş Prokurorluğun nümayəndələri beynəlxalq tədbirdə iştirak edib


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**176** Xanlar Vəliyev – Heydər Əliyev – əfsanəyə çevrilmiş böyük dövlət xadimi
**185** Fazil Həsənəliyev – Azərbaycan Prokurorluğunun tarixində Heydər Əliyevin rolu
**189** Aynur Osmanova – Azərbaycan Respublikasının və xarici ölkələrin qanunvericilik təcrübəsində İnsan hüquqları üzrə Müvəkkilin (ombudsmanın) hüquqi statusu
**193** Vüqar Əliyev – Azərbaycan Respublikasında cinayət aktivlərinin bərpası sahəsində mövcud vəziyyət və perspektivlər


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**196** Sərdar İmanov – Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri zamanı qarşıya çıxan problemlər


## HƏMKARLARIMIZLA MÜSAHİBƏ


**202** "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında oxucularımızın marağına səbəb olacaq "Həmkarlarımızla müsahibə" rubrikası təsis edilmişdir
**203** Bəkir Şahin, Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru
**204** Şeyx Səud bin Abdullah Əl Müacib, Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru
**206** Nida Qrunskiene, Litva Respublikasının Baş prokuroru
**207** Jıdrunas Bartkus, Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin direktoru


## PROKURORLUĞUN VETERANLARI


**209** Baş Prokurorluğun əməkdaşları prokurorluq orqanları veteranlarını ziyarət etmişlər
**210** Prokurorluğun veteranı Murad Nəsirovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi


## HÜQUQİ AKTLAR


**215** Qanunvericiliyə dəyişikliklər

# Azad Qarabağda, azad Şuşada Zəfərdən sonra ilk dəfə keçirilən Dünya Azərbaycanlılarının **Zəfər qurultayı münasibətilə hamını təbrik edirəm!**



İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

# İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında çıxış edib

22-23 aprel tarixlərində Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləyib.



## Prezident İlham Əliyevin nitqi



– Hörmətli qurultay iştirakçıları, sizi səmimiyyətlə salamlayıram, Şuşaya, Qarabağa xoş gəlmisiniz!

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda canından keçmiş, qəhrəmancasına həlak olmuş əziz şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.

Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir.



Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir – hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz – ulu öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.

Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız – həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi.

Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq həqiqətən mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli



mümkündür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər. Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi. Eyni zamanda, Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də nəhayət dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur – nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda nəhayət anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzun sürən – 30 ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi. Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda.

İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və



dünya ermənilizinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə – cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da – noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi nəhayət anladı ki, müharibəni davam etdirmək onlara daha baha başa gələcək. Halbuki əgər onlar müharibənin ilk günlərində dediyim sözlərimə əməl etsəydilər və bizə işğal edilmiş torpaqlardan onların çıxarılmasının tarixini, cədvəlini versəydilər, müharibə daha tez dayana bilərdi. Mən müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, nə vaxt torpaqlarımızdan çıxır və həmin an biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Ancaq məcburən bunu etdilər. Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hərbi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan.

Vasitəçilərə gəldikdə, əfsuslar olsun ki, bu gün də hələ də Minsk qrupu haqqında Ermənistanda yüksək vəzifəli şəxslər sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olmuşdur. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdir. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, bu qrup məsələni həll etmək üçün yaranmamışdır. Sadəcə olaraq, biz o vaxt bir qədər sadəlövh idik. Bu qrup məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdır. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qrupları çox təsirlidir. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmamışdır.

2019-cu ildə isə qrupun fəaliyyəti demək olar ki, dayanmışdır. Bunun da səbəbi Ermənistanın yeni rəhbərliyinin çox qəribə davranışı olmuşdur. Çünki Ermənistanın yeni rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələndə həm Minsk qrupunda, həm, – onu da açıq deməliyəm, – bizdə də bəzi ümidlər var idi ki, indi kriminal xunta rejim artıq devrildi və hakimiyyətə gələn yeni nəsil siyasətçilər reallığı dərk edəcəklər, anlayacaqlar ki, Azərbaycanla mübarizə aparmaq, müharibə aparmaq onların iqtidarında deyil. Demək olar ki, bir il ərzində aparılan fəal danışıqlar bu fikri daha da gücləndirirdi. Ancaq 2019-cu ildə Ermənistan rəhbərliyi tam fərqli mövqe sərgiləməyə başlamışdır. Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən cəfəng fikirlər faktiki olaraq danışıqlar prosesinə son qoymuşdur. "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesinə son qoyuldu və bu açıqlamadan sonra mənimlə görüşə gələn Minsk qrupu demək olar ki, çox qeyri-müəyyən vəziyyətdə idi. Çünki bu bəyanatdan sonra hər hansı bir danışıqların aparılması qeyri-mümkündür. Çünki danışıqların



## 2001-Cİ İLDƏ DÜNYA AZƏRBAYCANLILARININ İLK QURULTAYINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DEMİŞDİ Kİ,

Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaq. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ



Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün dirəniş, – əgər buna dirəniş demək mümkündürsə, – göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.

Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq. Artıq postmünaqişə dövrünün nəticələri haqqında danışmaq olar. Çünki bir daha demək istəyirəm, bizim Qələbəmiz, özü də 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar qurmuşdur, müdafiə xətləri qurmuşdur. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq. Çoxlu itkilər olacaq, ancaq nəticədə bütün bu fərziyyələr demək olar ki, etibarsız oldu.

Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular – Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, düzdür, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu, tikanlı məftillər, dəmir parçaları və sair. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada – tarixi şəhərimizdə qoyduq.

Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək.

Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir

mahiyyəti ondan ibarət idi ki, işğal altında olan torpaqlar azad olunacaq.

Faktiki olaraq Minsk qrupu ondan sonra, hətta görüntü naminə hər hansı bir fəaliyyət göstərə bilmədi. Ancaq Ermənistan rəhbərliyi daha uzağa getdi. Ondan sonra bizə qarşı açıq təhdidlər dilə gətirildi. Yeni torpaqlar uğrunda yeni müharibə ilə bizi hədələdilər. Amma yenə də beynəlxalq ictimaiyyət buna susdu. Bu, açıq təhdiddir. Özü də işğalçı dövlət tərəfindən işğala məruz qalan dövlətə qarşı növbəti təhdiddir. Yəni, bizi növbəti işğalla hədələyirdilər. Ancaq nə BMT, nə ATƏT, nə başqa təşkilatlar, nə Minsk qrupu heç bir açıqlama verməmişdi. Əlbəttə ki, işğalçı bundan ruhlanaraq daha da azğınlaşmışdı və faktiki olaraq Ermənistan tərəfindən onilliklər ərzində uydurduğu mifologiyaya inanmağa başlamışdı. Biz bu mifologiyanı darmadağın etdik, cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq, Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir. Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi.

Yəni, münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada – Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa



dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir. Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu, var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şəhərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? "Tocka-U", "SCUD", "İskəndər-M" raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində "İskəndər-M" raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İskəndər-M" raketinin qalıqlarını görə bilərlər.

Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması – bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, – əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.

Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma



Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı.

Digər beynəlxalq təşkilatlar – məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləmişlər və postmünaqişə reallıqlarını qəbul etmişlər. İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik.

Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq.

Amma yenə də dediyim bütün bu müsbət məqamlara baxmayaraq, hər birimiz – həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin – xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, – onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, – azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır.



# Qarabağ münaqişəsinin həlli Prezident kimi mənim üçün başlıca vəzifə olub.

**İndi isə postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir.**

Biz hamımız bir hədəfə çatmaq üçün çalışırdıq. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı durub. Biz buna öz gücümüzlə nail olmuşuq. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar və bütün dünya azərbaycanlılarının birliyi.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

Yəni, yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır – həm Azərbaycan reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu, çox vacibdir. Çünki tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir. Tarix də göz qabağındadır. Uzaq tarixə getməyə ehtiyac yoxdur. Sadəcə olaraq, XIX əsrdə imzalanmış müqavilələri beynəlxalq ictimaiyyətə çatdırmaq kifayətdir. Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri. Orada erməni əhalisindən söhbət getmir. Kürəkçay müqaviləsini İbrahimxəlil xan Şuşalı və Qarabağlı, – titulu belə də gedib, – imzalayıb. XIX əsrin bu tarixi hadisələrindən sonra Qarabağa ermənilərin kütləvi köçü başlamışdır. Bu da heç kimə sirr deyil və artıq dünya ictimaiyyəti, ekspertlər bunu bilir, yaxşı olar ki, geniş ictimaiyyət də bunu bilsin. Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra –1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı – Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə bəlkə də iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar. Bunu yaradıblar və eyni zamanda, qədim Azərbaycan şəhərini – Şuşanı da onun tərkibinə salıblar, bir məqsədlə ki, Şuşa erməniləşsin. Çünki Şuşa tək bir qala kimi qalmışdı və yaxşı bilirsiniz ki, Şuşaya bütün yollar ermənilərin məskunlaşdığı yerlərdən keçirdi, ərazilərdən keçirdi. Yəni, Şuşaya gəlmək üçün mütləq ermənilərin yaşadıqları kəndlərdən keçmək lazım idi. İndi biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər, zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə. Yəni, bu da təxribat idi. Yəni, Şuşanı bizdən qoparmaq üçün, erməniləşdirmək üçün Şuşanı da saldılar bu süni qurumun tərkibinə. Amma alınmadı, nə qədər çalışsalar da, alınmadı. Şuşa öz milli ruhunu o vaxt həmişə qoruyurdu və işğal dövründə ermənilər Şuşanı erməniləşdirə bilmədilər.

Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, – bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan zonasına zorla köçürülmüşdür. O Azərbaycana qarşı bu edildi ki, İkinci Dünya müharibəsində 300 min Azərbaycan övladı müharibəyə getdi, qayıtmadı. O Azərbaycan ki, İkinci Dünya müharibəsində Sovet Ordusunun yanacağının 90 faizini verirdi. Əgər Azərbaycan olmasaydı, Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı müharibədə qələbə qazana bilməzdi və 3-4 il bundan sonra xalqımıza qarşı bu ədalətsizlik hansı mənəviyyata sığır?

Bu, tarixdir. Bu tarixi biz bilməliyik. Bu tarixi bilmədən 1980-1990-cı illərin tarixi yarımçıq qalacaq. Ondan sonra 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardı. Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu. Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət öz sözünü deyib. Nəhayət “dəmir yumruq”la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edibdir. Ona görə, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun.

Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar – xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq.

Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir.



*Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. 30 illik işğaldan sonra Azərbaycan yeni dövrə qədəm qoyub. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.*

**Yaşasın Şuşa! Yaşasın Qarabağ!**
**Qarabağ Azərbaycandır!**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ



Bu, bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün – xaricdə yaşayan azərbaycanlılar üçün. Biz bilirdik ki, bu məğlubiyyətin heç bir real əsası olmamışdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr – hakimiyyət uğrunda gedən müharibə, milli xəyanət, satqınlıq və digər bəd əməllər, bax, bu vəziyyəti yaratmışdır. Biz bilirdik ki, bu Qələbəyə layiqik. Bir daha demək istəyirəm, – çıxışımın əvvəlində mən bunu dedim, – mənim üçün Prezident kimi başlıca vəzifəm ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək idi. Sizin üçün də çox çətin idi. Çünki sizin yaşadığınız ölkələrdə erməni diaspor təşkilatları var. Siz ermənilərlə istər-istəməz hansısa ünsiyyətdə olursunuz, görüşürsünüz, ya da ki, haradasa tədbirlərdə bir yerdə olursunuz. Mən başa düşürəm ki, bu dövr sizin üçün çox ağır idi.

Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır! Sağ olun.

Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm.

Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq.

***

Qurultay işini “Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi” və “Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri” mövzusunda panel iclasları ilə davam etdirib.

Aprelin 23-də başa çatmış Zəfər Qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I Qurultayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay isə 2016-cı ildə keçirilib.

# İlham Əliyev Səudiyyə Ərəbistanı Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulayaraq siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd etdi. Səudiyyə Ərəbistanı Krallığına səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər zamanı göstərilən qonaqpərvərliyin xalqlarımız arasında mövcud olan qardaşlıq münasibətlərini bir daha nümayiş etdirdiyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanda Səudiyyə Ərəbistanı Krallığına xüsusi rəğbətlə yanaşılır. Çünki Səudiyyə Ərəbistanı Krallığı dünyanın nadir ölkələrindəndir ki, Ermənistanla heç bir diplomatik əlaqə qurmayıb. Bunun səbəbi isə torpaqlarımızın işğal altında olması idi. Prezident İlham Əliyev qeyd etdi ki, biz bu mövqeyi çox yüksək qiymətləndiririk. Dövlətimizin başçısı bildirdi ki, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması erməni vəhşiliyini, azad edilmiş torpaqlarda hər şeyin, o cümlədən 67 məsciddən 65-nin ermənilər tərəfindən dağıdıldığını bütün dünyaya göstərdi.

Ölkəmizin ərazi bütövlüyünü bərpa etməsindən sonra iqtisadi sahədə, o cümlədən energetika sahəsində əməkdaşlıq imkanlarının daha da artdığını vurğulayan Prezident İlham Əliyev bu baxımdan Səudiyyə Ərəbistanı Krallığının böyük şirkətlərinin Azərbaycana maraq göstərməsinin məmnunluq doğurduğunu bildirdi, bu ölkənin "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda Külək Elektrik Stansiyasının təməlinin qoyulmasını bunun yaxşı nümunəsi kimi qiymətləndirdi.

Beynəlxalq təşkilatlarda da ölkələrimizin bir-birini dəstəklədiyini vurğulayan dövlətimizin başçısı, eyni zamanda, insanlar arasındakı əlaqələrin, qarşılıqlı səfərlərin və turistlərin sayının artmasının əməkdaşlığımızın gələcəkdə daha da inkişaf etməsi üçün yaxşı zəmin yaratdığını bildirdi.

Prezident İlham Əliyev Şeyx Səud bin Abdullah Əl Müacibin səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Şeyx Səud bin Abdullah Əl Müacib İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Salman bin Əbdüləziz Al Səud və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səuda çatdırmağı xahiş etdi.

Azərbaycanda gördüyü inkişaf proseslərinin onlarda sevinc hissi doğurduğunu bildirən qonaq dedi: "Ölkənizin əldə etdiyi inkişafla bağlı Sizi təbrik etmək istəyirəm. Biz Azərbaycan haqqında, ölkənizin iqtisadi, ictimai və sosial sahələrdə əldə etdiyi nailiyyətlər barədə çox eşitmişik. Xüsusilə, böyük Qələbəniz, torpaqlarınızı qısa vaxt ərzində azad etdiyinizə görə Sizi təbrik edirik".

Şeyx Səud bin Abdullah Əl Müacib 10 may – ulu öndər Heydər Əliyevin doğum günü ərəfəsində onun xatirəsini dərin ehtiramla yad etdi.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.



## ULU ÖNDƏRİN XATİRƏSİNƏ AZƏRBAYCAN XALQININ EHTİRAMINI İFADƏ EDƏRƏK AZƏRBAYCAN XALQINI ƏMİN ETMƏK İSTƏYİRƏM Kİ,

bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Mayın 10-da – xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət ediblər.



Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoydular.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz işləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş







böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. “Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub”, – deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişa-



fının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri tariximizdə milli intibah dövrü kimi əbədiləşib.

Dahi Heydər Əliyev ona görə ümummilli liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. “Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir”, – deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz fəaliyyətində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu











dövrün əsas ideoloji fəlsəfəsi isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz uğurlara imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun”.

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı,

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi. Ulu öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı. Bununla da "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən ulu öndərin ən böyük arzularından biri də həyata keçdi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Xalqımız böyük dövlət xadimi, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edir.








TEKNOFEST
AEROKOSMİK VƏ TEXNOLOGİYA FESTİVALI
"TEKNOFEST" Türkiyə və Azərbaycan birliyinin növbəti nümayişidir.
"TEKNOFEST" elm, inkişaf, bilik, texnologiya bayramıdır. Əminəm ki, "TEKNOFEST"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaq.
İLHAM ƏLİYEV

# İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən “TEKNOFEST Azərbaycan” festivalında iştirak ediblər



Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda ilk dəfə keçirilən “TEKNOFEST Azərbaycan” Aerokosmik və texnologiya festivalında iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan “TEKNOFEST Azərbaycan” festivalının keçirildiyi məkana gəldilər.

Türkiyənin “Baykar” şirkətinin texniki direktoru **Selçuk Bayraktar** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident.

Hörmətli Prezidentim.

Dəyərli qonaqlar.

“TEKNOFEST Azərbaycan”a xoş gəlmisiniz. Sizləri sevgi və hörmətlə salamlayıram.

“TEKNOFEST” müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruhdur. Bu ruh ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyidir. Mənə dünən ilk dəfə görmək nəsib olduğu işğaldan azad edilmiş qədim şəhərimiz Şuşada, Cıdır düzündə, o geniş düzdə azad şəkildə gəzərkən bu ruhu daha da dərindən hiss etdim. “TEKNOFEST”i niyə keçiririk?” deyə soruşduğum universitet tələbəsi gənc bir qız bu ruhu belə ifadə edərək dedi: “Dünya Türkün gücünü görsün, yerini bilsin”.



Biz də bu yola bu amalla çıxmışıq, "TEKNOFEST"in şüarının artıq düşüncələrdə yer aldığını görürük. Bundan sonra üzərimizə düşən vəzifə türk nəsillərinin yolunu açmaq üçün dayanmadan çalışmaqdır. İnanıram ki, bu yarışlardan çıxacaq gənc qardaşlarım bu ruhdan aldıqları ilhamla irəliləyəcək və tam müstəqillik mübarizəsində ən öndə olacaqlar.

Hörmətli qonaqlar, "TEKNOFEST Azərbaycan"ın təşkilatçıları Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinə təşəkkür edirəm. Gecə-gündüz əməyi keçən Türkiyə Texnologiya Komandası Vəqfindəki (T3 Vəqfi) heyətimiz və könüllülərimiz olmasaydı, bu qədər uğurlu bir "TEKNOFEST" sevincini yaşaya bilməzdik.

Fəaliyyət göstərdiyi Amerikadan Bakıya gələrək bizi və gənclərimizi şərəfləndirən Nobel mükafatı laureatı, görkəmli alimimiz Əziz Səncərə də ürəkdən təşəkkür edirik.

"TEKNOFEST" bayramında iştirak edən azərbaycanlı bacı və qardaşlarıma minnətdarlığımı bildirirəm.

Qardaşlığımızı daha da gücləndirəcək "TEKNOFEST"i himayə edən hörmətli cənab Prezident İlham Əliyev və hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan başda olmaqla, dəstəyini əsirgəməyən bütün tərəfdaşlarımıza təşəkkürlərimi ifadə edirəm.

Can Azərbaycanın Müstəqillik Günü mübarək! Eşq olsun Azərbaycana! Eşq olsun Türkiyəyə!

***

Festivalda çıxış edən dünyaşöhrətli türkiyəli alim, Nobel mükafatı laureatı professor **Əziz Səncər** dedi:

– Hamınızı hörmət və məhəbbətlə salamlayıram.

Bu gün Türk dünyasında ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 104-cü ildönümüdür. Bu münasibətlə bütün azərbaycanlı qardaşlarımızı, bütün Türk dünyasını təbrik edirəm.

Əziz gənclər, Bakıda "TEKNOFEST Azərbaycan"da sizinlə bir yerdə olduğum üçün çox şadam. Sizin elm və texnologiya sahəsində çalışmaq istəyiniz məni çox xoşbəxt edir. Bir böyüyünüz olaraq sizlərə əhəmiyyətli hesab etdiyim bir məsələ ilə bağlı tövsiyə vermək istəyirəm. Mən xərçəng xəstəliyi ilə bağlı çalışarkən Nobel mükafatı qazanım deyə işə başlamadım. Bu xəstəliyə qarşı bir dərman tapa bilərikmi deyə fəaliyyətə başladım. Həyatda və işlərinizdə yüksəlmək və ya mükafat almaq kimi məqsədlər üçün çalışmayın. Gördüyünüz hər işdə həmişə ən yaxşı olmağa çalışın. Ən önəmlisi insanlığa və Vətəninizə töhfə verməyə çalışın. Dürüst, əxlaqlı və ədalətli olun. Əgər bu şəkildə çalışsanız, mütləq mükafatınızı alacaqsınız. Bundan başqa, gördüyünüz işlərdən duyduğunuz coşqunun sönməsinə izn verməyin. Fateh Sultan Mehmet İstanbulu fəth edərkən "Ya mən səni alacağam, ya da sən məni" dediyi kimi coşqu və həvəslə çalışın.




Əziz gənclər, Vətənimizi sevməkdən əsla vaz keçməyin. Vətəninizə, insanlarınıza fayda verməyən işlərin davamlı olmayacağını bilin. Mənim üçün ən önəmli amillərdən biri Türk dünyasının inkişafı və Türk gənclərinin elmdə ən ön sıralarda yer almasıdır. Mardin vilayətinin Savur rayonundan çıxan və oxuma-yazma belə bilməyən bir ailənin uşağına bu şansı verən millətimizə güvənin. Vətənimizin, – Vətənimiz dediyim zaman mən həm Türkiyə, həm də Azərbaycanı nəzərdə tuturam, onu da açıqlayım, – yüksəlməsi üçün lap çox çalışın. İşlər qaydasında getmədikdə belə düzəltmək üçün mübarizə aparın, inadkar olun və məğlubiyyəti əsla qəbul etməyin.

Mən qırx yaşıma qədər gündə ən az 18 saat işlədim. Gəncliyimdə çox gecəni laboratoriyada keçirdim. İndi də 12 saatdan az işləmirəm. Unutmayın, işləmək və insanlığa faydalı olmaqla siz özünüzü həmişə daha yaxşı hiss edəcəksiniz. İnsanlığa, ölkənizə xeyirli bir iş görmənin verdiyi məmnunluq həmişə daha xoşbəxt olmağınızı təmin edəcək.

Siz gəncləri elmə yönəldən bu festivalları təşkil edən qardaş və bacılarınıza çox təşəkkür edirəm. Bu elm festivallarına dəstək verən prezidentlərimiz Rəcəb Tayyib Ərdoğana və İlham Əliyevə ürəkdən təşəkkürlərimi bildirirəm.

Hamınızı sevgi ilə salamlayıram. Allah yardımçınız olsun! Tanrı Türkü qorusun!

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi.

***

## Prezident İlham Əliyevin çıxışı




– Əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar, bacılar və qardaşlar.

Bildiyiniz kimi, bu gün Azərbaycanda bayram günüdür, Müstəqillik Günüdür, bizim ən əziz bayramımızdır. Bu bayramı ikiqat bayram edən əziz qardaşımın bizimlə bərabər olmasıdır. Xahiş edirəm, bütün Azərbaycan xalqı adından Türkiyə Respublikasının Prezidentini və onunla bərabər Azərbaycana gəlmiş bütün bacı-qardaşlarımızı səmimiyyətlə salamlayaq.

Yüz dörd il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk Xalq Cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, iki ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız 1990-cı illərin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və 30 ildir Azərbaycan xalqı azad yaşayır, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar. Biz 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir.

Biz iki həftə bundan əvvəl Türkiyənin gözəl yerlərindən biri olan Rizedə əziz qardaşımla bərabər idik, iki həftədən sonra Bakıda yenə də bərabərik. Biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və edəcəyik ki, qarşıda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Xatırlayıram, Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq.

Keçən il iyunun 15-də – Milli Qurtuluş Günündə hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa Bəyannaməsini imzalayaraq Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Bu müttəfiqlik özünü hər yerdə göstərir – siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində. Bu gün "TEKNOFEST" bizim birliyimizin növbəti nümayişidir, onun təzahürüdür. "TEKNOFEST" elm, inkişaf, bilik, texnologiya bayramıdır. Əminəm ki, "TEKNOFEST"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın

## 30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar.

Biz bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir.




- Biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq.
- Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün çox önəmli təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaq.
- Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.
- Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq.
- Şuşa Bəyannaməsi ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı.

İLHAM ƏLİYEV

oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar.

Türk dünyasının böyük oğlu, dünyaşöhrətli alim, Nobel mükafatı laureatı hörmətli Əziz Səncər də "TEKNOFEST"in hörmətli qonağı qismində təşrif buyurub. Əziz bəylə keçən görüşümü xatırlayıram, mənə dedi ki, onun böyük arzusu var idi hər zaman – Şuşaya getmək. Mənimlə görüşdən sonra Şuşaya getmişdir və bildirmişdir ki, artıq həyatda nəyə nail olmaq istəmişəmsə, ona nail olmuşam – Şuşanı da gördüm. Bu, bizi də çox xoşbəxt etdi. Əziz Səncər kimi insanlar gənclər üçün örnəkdir, nümunədir – həm alim, həm vətəndaş, həm türkçü, həm vətənpərvər insan. Siz gənclər, Əziz bəyə oxşamağa çalışmalısınız.

Bu gün, eyni zamanda, Selçuk Bayraktarı səmimiyyətlə salamlamaq istəyirəm. Selçuk bəy nəinki "TEKNOFEST"in təşkilatçısı və təşəbbüskarıdır, Selçuk bəy və Bayraktarlar ailəsi dünyada çox məşhur bir ailədir. İkinci Qarabağ savaşında məşhur "Bayraktar" PUA-larının rolunu indi dünyada bilməyən yoxdur. Selçuk bəy dünən Şuşada idi. Əminəm, Şuşanı görərkən bir daha şahidi oldu ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdırlar. Selçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir. Əminəm ki, bizim gənclərimiz Selçuk bəy kimi olmağa çalışacaqlar.

Bir də təvazökarlıqdan kənar olsa da, hesab edirəm ki, bu gün daha iki nümunə var - o da mənim qardaşımla mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik.

Türkiyənin uğurlu inkişafı, ilk növbədə, Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim, Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır.

Mən bir daha əziz qardaşım, hörmətli Prezident və Türkiyədən gəlmiş bütün dostlarımıza, qardaşlarımıza, bacılarımıza bu bayram günündə bizimlə bərabər olduqları üçün öz təşəkkürümü bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək.

Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı! Qarabağ Azərbaycandır!

***

Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

– Hörmətli Prezident, əziz Qardaşım.

Xanımlar və bəylər, əziz gənclər, hörmətli qonaqlar.

Sizi ən səmimi duyğularımla, məhəbbətlə salamlayıram.

Can Azərbaycanın Müstəqillik Günündə sizinlə bərabər olmaqdan böyük məmnunluq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər dəyərli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi-qəlbdən təbrik edirəm. İstiqlal və gələcək yolunda apardığımız şanlı mübarizələri şəhidlikləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və hörmətlə yad edirəm. Rəbbim əziz şəhidlərimizin ruhlarını şad, məkanlarını behişt etsin. Rəbbim bizləri də şəhidlərimizin müqəddəs və mübarək yolundan ayırmasın.

İki həftə əvvəl Rize-Artvin Hava Limanının açılışını əziz qardaşım hörmətli İlham Əliyev ilə birlikdə gerçəkləşdirmişdik. Bu gün isə küləyi sərt, insanı mərd bu gözəl paytaxt Bakıda bir başqa tarixi görüşə yenə birlikdə imza atırıq. Əziz qardaşım İlham Əliyevin timsalında Can Azərbaycanın mümtaz xalqına səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Xəzərin incisi Bakıda "bir millət, iki dövlət, tək festival" şüarı ilə dünyanın ən nüfuzlu aviasiya, kosmos və texnologiya festivalı – "TEKNOFEST"i keçiririk. Bu qürurlu günümüzdə sevincimizi bölüşdüyü üçün dəyərli alimimiz Əziz Səncərə şəxsən öz adımdan və millətim adından təşəkkür edirəm. Badi-Kubədən, yəni, küləklər şəhəri gözəl Bakıdan Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə mübarizə apardığı torpaqların hər qarışına,




Göylərdə nazlı-nazlı dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq. Eynilə Anadolu kimi, bura da bizim torpağımızdır. Eynilə Türkiyə kimi, bura da bizim Vətənimizdir. Eynilə doğulduğumuz yerlər kimi, bura da bizim öz yurdumuzdur. Eyni qaydada Türkiyənin hər bir qarışı da sizlərin Vətəniniz, yurdunuzdur. Türk millətinin qəlbindəki Azərbaycan sevgisini kim qoparıb ata bilər? Qardaşlar arasında kim məsafə qoya bilər? İki qardaşı hansı hüdud ayıra bilər? Könüllərimiz arasında kim sərhəd çəkə bilər?

Natəvanın qəzəlinin eşidildiyi ovalıqlara, şəhidimiz Xudayar qardaşımın mahnı oxuduğu diyarlara, Gəncəyə, Şuşaya, Füzuliyə, Laçına, Azərbaycanın hər bölgəsinə salam və sevgilərimi göndərirəm. Bu gün bir daha burada nümayiş etdirilən əzəli və əbədi qardaşlığımızı Rəbbim daimi etsin.

Əziz qardaşlarım, bu il diplomatik əlaqələrimizin yenidən qurulmasının 30-cu ildönümünü böyük bir qürurla qeyd edirik. Ortaq tariximizdən aldığımız ilhamla aramızdakı dostluq və məhəbbəti daha da sağlamlaşdırır, birlik və bərabərliyimizi daha da möhkəmləndiririk. Diplomatik münasibətlərimiz 30 il əvvəl qurulsa da, taleyimizin birliyi tarixin dərinliklərinə qədər uzanmaqdadır. 1915-ci ildə Çanaqqalada, 1918-ci ildə Gəncədə, Bakıda və Azərbaycanın digər bölgələrində ürəklərimiz və biləklərimiz ortaq mübarizəmizdə yenidən bərabər olmuşdur. Aramızdakı məhəbbətin gücünü mərhum Bəxtiyar Vahabzadənin bu gözəl misraları ilə ifadə etmək istəyirəm:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan, Türkiyə.

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan, Türkiyə.

Bəli, bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik, iki xalqıq.

Ellərin yurdunda çiçək açarkən
Bizim elə qar gəlir, qardaşım.
Bu hüdudu kimlər çəkib könlümə,
Dar gəlir, dar gəlir, qardaşım.

Bəli, biz könüllərimizə çəkilən hüdudları yıxaraq bu gün burada birlikdəyik. Qərbdən Şərqə qədər harada bir qardaşımız varsa, ora bizim evimiz, yurdumuz, könül coğrafiyamızın ayrılmaz bir parçasıdır. Türkiyə və Azərbaycan olaraq bu anlayışla əlaqələrimizi, şükür olsun, əvvəlcə strateji tərəfdaşlıq, keçən il də Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdıq. Enerjidən mədəniyyətə, müdafiədən ticari, iqtisadi və bəşəri münasibətlərə qədər uzanan geniş bir sahədə güclü əməkdaşlıqlar qurduq. Burada Səlçuk qardaşıma, onun böyük qardaşına, Bayraktar ailəsinə təşəkkür edirəm. Xüsusi vurğulamaq istəyirəm ki, silahlı pilotsuz uçuş aparatlarının zirvə nöqtəsi olan "Akıncı" PUA-ları İstanbuldan buraya fasiləsiz uçuş həyata keçirməklə rekorda imza atdı. İnşallah, uğurlarımız daha çox olacaq və onları da görəcəyik.

İlham qardaşımın da misilsiz töhfələri ilə ikitərəfli əlaqələrimizi təkcə bölgəyə deyil, bütün dünyaya nümunə ola biləcək bir səviyyəyə çatdırdıq. Gələcəyimiz olan gənc nəsillərin ölkələrimiz arasında bütün sahələrdəki nümunəvi əməkdaşlığı daha da inkişaf etdirəcəklərinə inanıram. Səfərimin Azərbaycanın qədim şəhərinə həsr olunan "Şuşa

## Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni həyata keçirməyə hazırdır, buna qadirdir.



**Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdır.**

- Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik.
- Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək.
- Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı! Qarabağ Azərbaycandır!

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

İli"ndə gerçəkləşməsi də xüsusi məna daşıyır. Sizlərdən əziz şəhidlərimizin şanlı mirasına lazım gəldikdə canınız bahasına da olsa, sahib çıxmağınızı gözləyirəm.

Əziz gənclər, bu gün buraya aramızdakı məhəbbətin göstəricisi olaraq geniş heyətlə gəldik. Hər birinizə qəlbi sizinlə döyünən gənclərimizin salamını gətirdim. Sizlərə "Can Azərbaycan" deyəndə, "Qarabağ" deyəndə ürəyində fırtınalar qopan 85 milyonun salamını gətirdim. Sizlərə əllərini hər dəfə səmaya açanda Azərbaycanın firavanlığı və sabitliyi üçün dua edən Türkiyədəki qardaşlarınızın salamını gətirdim. Sizlərə Azərbaycan nəğmələri ilə sevinən, Azərbaycan ağıları ilə hüzünlənən milyonlarla dostunuzun, qardaşınızın salamını gətirdim. Sizlərə bölgəsində sabitlik abidəsi olaraq yüksələn Azərbaycan ilə həmrəyliyimizin xüsusi ifadəsi kimi gələcəyə Zəfər dolu həyəcanla, coşqu ilə birgə addımlamağın anlam və mənasını gətirdim. Qarşılaşdığı bu qədər haqsızlığa, ədalətsizliyə baxmayaraq, diplomatiyada, iqtisadiyyatda, mədəniyyətdə dastan yazan Azərbaycan ilə fəxr edirik. Qardaşım İlham Əliyevin qətiyyətli liderliyi ilə Can Azərbaycanın aydın bir gələcəyə doğru əmin addımlarla irəlilədiyini məmnuniyyətlə görürük. Sizlərə bu il anadan olmasının 130-cu ilində rəhmətlə andığım Azərbaycanın milli şairi Əhməd Cavadın bu sözləri ilə müraciət etmək istəyirəm:

Mən Türk övladıyam, dərin ağlım, zəkam var,
Nə vaxtacan çiynimizdə gəzəcəkdir yağılar?
Nə qədər ki, hakimlik var,
məhkumluq var, mən varam.
Zülmə qarşı üsyankaram, əzilsəm də susmaram!

Bəli, biz haqsızlıq qarşısında susanlardan olmadıq və olmayacağıq. Fürsətdən istifadə edərək Heydər babamızı da rəhmətlə yad edirəm. Məkanı cənnət olsun.

Biz təzyiqlə, təhdidlə qorxudulanlardan olmadıq, əsla olmayacağıq. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq. Bizim heç kimin torpağında, ərazi bütövlüyündə gözümüz olmadığı kimi, xəbis niyyətlilərə verəcək bir qarış torpağımız da yoxdur və olmayacaq. Çünki biz təsadüflərin bir araya gətirdiyi insanlar deyil, tarixi, mədəniyyəti və mədəni dəyərləri ilə seçilən böyük bir millətin övladlarıyıq. Harada zülm, haqsızlıq, ədalətsizlik varsa səsini ucaldan, bütün gücü ilə mübarizəyə qalxan ürəkli bir millətin nümayəndələriyik. Qarabağ Zəfəri millətimizin qəhrəmanlıq dastanlarının ən son örnəyidir. Əziz Qardaşım, Müzəffər Ali Baş Komandan cənab Əliyevin qətiyyətli mövqeyi sayəsində Qarabağ otuz il sonra əsarətdən qurtulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin igid mənsubları Qarabağda tarixdə bənzərinə az rast gəlinən böyük bir Zəfərə imza atmışlar. Bu məqam çox həssasdır, 44 günlük Vətən müharibəsi ağıl, texnologiya və cəsarət bir araya gəldikdə nələrin edilə biləcəyini bütün dünyaya göstərmişdir. Bu prosesdə Azərbaycan ilə paylaşdığımız müdafiə sənayesi məhsullarımızın uğuruna bütün dünya şahid olmuşdur. Müdafiə sənayesi məhsullarında çatdığımız səviyyə önəmlidir. Amma qarşımızda qət ediləcək hələ çox məsafə var. Hər məsələdə olduğu kimi, müdafiə sənayesində də gənclərimizin biliklərinə, enerjisinə, əzminə, səylərinə güvənirik. "TEKNOFEST" məhz bu güvənin rəmzi olan bir tədbirdir.

Bu gün "TEKNOFEST"i ölkə xaricində ilk dəfə Can Azərbaycanda təşkil etməyin həyəcanını və haqlı qürurunu sizinlə bölüşürük. Bura Azərbaycan gəncliyinin bacarığını, istedadını nümayiş və inkişaf etdirməsi üçün önəmli bir platformadır. "TEKNOFEST" yarışlarında öz işləri ilə fərqlənən siz gənclərimiz sabahın pilotsuz uçuş aparatlarını, süni zəkalarını, rəqəmsal texnologiyalarını istehsal edən və inkişaf etdirən alimləri olacaqsınız. Azərbaycan ilə birlikdə hələ neçə layihələrdə gənclərimizə yeni üfüqlər açmağı və milli texnoloji həmləmizi birlikdə reallaşdırmağı davam edəcəyik.

"TEKNOFEST Azərbaycan"da Türk Dövlətləri Təşkilatını təmsil edən qonaqlarımızın da yer alması məmnunluğumu daha da artırır. Türk dünyasının ən müasir texnologiyalar istehsal edəcək gənc nəsillərlə mühüm nailiyyətlər əldə edəcəyinə ürəkdən inanıram. "TEKNOFEST"çilər bu günə qədər Türkiyədə son dərəcə gözəl layihələrə imza atdılar. Azərbaycanda da eyni uğuru əldə edəcəyimizə şübhə etmirəm. Türk Dövlətləri Təşkilatının da bu cür platformalarda təməlləri qoyulacaq yeni və daha böyük əməkdaşlıqlarla ortaq gələcəyimizdə daha güclü bir mövqeyə çatacağına inanıram.

Hörmətli Prezidentim, dəyərli qardaşım, sevgili gənclər, parlamentlərimizdə təsdiqlədiyimiz Şuşa






Bəyannaməsində bildirdiyimiz kimi, müdafiə sənayesi sahəsində ortaq araşdırma və istehsal fəaliyyətlərinin reallaşdırılması istiqamətində səylərimiz qətiyyətlə davam edir. Hər sahədə olduğu kimi, kosmos və aviasiya sahələrində də Azərbaycan ilə sıx əməkdaşlıq edəcəyik. Türk Dövlətləri Təşkilatı çərçivəsində qardaş ölkələrimizdəki kosmos agentlikləri və müvafiq nazirliklər bir araya gəlirlər. Artıq bu torpaqlarda uğur, sülh və inkişaf hekayəsi yazmağın vaxtıdır. Keçmişdən və əvvəlki illərdə yaşadığımız acılardan dərs çıxaran bölgə xalqları olaraq hamımız gələcəyi birlikdə inşa etməliyik.

Müharibədə olduğu kimi, sülh dönəmində də Azərbaycanın yanındayıq. Regionda sülh və sabitlik üçün əziz qardaşım Əliyevin Ermənistanla qurmaq istədiyi dayanıqlı sülhü Türkiyə olaraq fəal şəkildə dəstəkləyirik.

Azərbaycanın bütün sahələrdə inkişaf yolunda nümayiş etdirdiyi uğurlara şəxsən şahidlik edirəm. Qarabağda və Şərqi Zəngəzurda Türkiyənin də rol aldığı bərpa-quruculuq işləri ilə “Böyük Qayıdış” üçün daimi şərait yaradılır. Atalarımızın dediyi kimi, nə əkərik, onu biçərik.

Biz illərdir minalanmış bu torpaqlara artıq inkişafın, tərəqqinin, rifahın, sülhün toxumlarını əkirik. Qarabağın dünyaya açılan qapısı Füzuli Beynəlxalq Hava Limanını keçən il qardaşım İlham Əliyev ilə birlikdə açmışdıq. İndi sırada Zəngilan və Laçındakı hava limanı layihələri var. Ağdam Sənaye Parkı və “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı da işğaldan azad olunan torpaqlardakı potensialdan istifadə edilməsinə imkan verəcək. Bu bölgələrdə






"ağıllı kənd"lərin qurulması ilə bağlı layihələrdə birlikdə çalışırıq, qarşıdakı dövrdə çalışmaqda davam edəcəyik.

Əziz Qardaşımın da dediyi kimi, bölgəmizdə yeni bir səhifə açmağın vaxtı çatıb. Hədəfimiz dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgəmizdə sabitliyin möhkəmləndirilməsidir. Bu hədəflərimizin həyata keçirilməsi üçün Azərbaycan ilə sıx həmrəylik, təmas və koordinasiyamızı davam etdirəcəyik.

Allah yolumuzu, bəxtimizi açıq etsin. Bu düşüncələrlə bu gözəl festivalın keçirilməsində əməyi olan bütün qurumlarımıza təşəkkür edirəm. "TEKNOFEST Azərbaycan"ın qardaş ölkələrimizə bir daha xeyirli olmasını Rəbbimdən arzu edirəm. Bu gözəl festivalın təşkilinə görə Azərbaycanın aidiyyəti qurumları ilə yanaşı, Sənaye və Texnologiya Nazirliyimizə və T3 Vəqfinin rəhbərliyinə, iştirakçı gənclərimizə və əməyi olan hər kəsə təşəkkürlərimi bildirirəm. Hamınızı hörmət və sevgi ilə salamlayıram. Salamat qalın.

***








Çıxışlardan sonra festivalın müxtəlif müsabiqələr üzrə qaliblərinin mükafatlandırma mərasimi oldu.

Mükafatları qaliblərə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və Nobel mükafatı laureatı professor Əziz Səncər təqdim etdilər.

Prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və görkəmli alim Əziz Səncər xatirə fotosu çəkdirdilər.

Dövlət başçılarına və Əziz Səncərə "TEKNOFEST Azərbaycan" festivalının xatirə hədiyyələri təqdim olundu.

Birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, həmçinin Sümeyyə Bayraktar və Arzu Əliyeva xatirə fotoları çəkdirdilər.

Sonra hər iki qardaş ölkənin rəsmi nümayəndələri birgə foto çəkdirdilər.

Mərasimdən sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan sərgi zonasındakı pavilyonlarla tanış oldular.

"TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı çərçivəsində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə keçirilən aviaşou bu mötəbər tədbirin ən yaddaqalan hadisələrindən biri oldu.













Prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, qardaş ölkələrimizin rəsmi nümayəndə heyətləri və festival iştirakçıları aviaşounu izlədilər.



# Azərbaycan və Türkiyə prezidentləri 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışında iştirak ediblər






Mayın 28-də Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılışda iştirak ediblər.

Dövlət başçılarına məlumat verildi ki, paytaxtda tikilmiş yeni "ASAN Həyat" Kompleksi üç hissədən ibarətdir. Kompleksdə 7 saylı Bakı "ASAN xidmət" mərkəzi və "INNOLAND", "Bilim Bakı" mərkəzi və ASAN İnnovativ İnkişaf Mərkəzi, həmçinin Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatının yeni inzibati binası yerləşir.

Bildirildi ki, tikintisinə 2019-cu ildə başlanılan kompleksin iki hissəsi - "ASAN xidmət" mərkəzi və "INNOLAND", "Bilim Bakı" və ASAN İnnovativ İnkişaf mərkəzlərinin inşası 2022-ci ilin mayında başa çatdırılıb. Üçüncü hissə isə cari ilin sonunadək hazır olacaq.










Kompleksdə yerləşən "ASAN xidmət" mərkəzi Bakıda yeddinci, ümumilikdə ölkə üzrə 23-cü mərkəzdir. Mərkəz Bakıda xidmətlərə artan ciddi tələbat nəzərə alınaraq inşa edilib və ərazi məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərəcək. Ümumilikdə 288 əməkdaşın və 50 könüllünün çalışacağı mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 325-dən çox xidmət həyata keçiriləcək.

Qeyd edək ki, mərkəzdə "ABAD" publik hüquqi şəxsin sayca 11-ci etnobutiki, habelə 2-ci "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti də nəzərdə tutulur. Fəaliyyətə 2018-ci ilin noyabrından başlayan "INNOLAND" tərəfindən bu günədək inkubasiya dövründə 50, akselerasiya dövründə isə 36 startap ilə iş həyata keçirilir. "INNOLAND" Türkiyə, Macarıstan, Makedoniya, Koreya Respublikası, ABŞ, Almaniya, Litva və Estoniya kimi ölkələrdən olan təşkilatlarla beynəlxalq əməkdaşlıq qurub.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "ASAN xidmət" və "Bilim Bakı" mərkəzlərini işə saldılar.

Sonra dövlət başçıları "Bilim Bakı" mərkəzi ilə tanış oldular.

Məlumat verildi ki, bu mərkəz Azərbaycan Res-









publikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə təsisçisi Selçuk Bayraktar olan Türkiyə Texnologiya Komandası Vəqfi arasında imzalanmış əməkdaşlıq barədə protokola əsasən yaradılıb. Mərkəzin fəaliyyəti ümumtəhsil mərkəzlərinin 6-14 yaş arası şagirdlərinin elmə, innovasiyaya və texnologiyaya marağını və biliklərini artırmağa yönəlib, elmi biliklərin təcrübədə necə tətbiq olunduğunu müşahidə etmək imkanı yaradır. Mərkəzdə hər biri 20 şagird yerlik 6 laboratoriya fəaliyyət göstərəcək. Bunlar təbiət elmləri, texnologiya, riyaziyyat, astronomiya, kosmos və aviasiya, dizayn və sahibkarlıq laboratoriyalarıdır.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan laboratoriyalarda təcrübə aparan şagirdlərlə söhbət etdilər.

Bildirildi ki, “Bilim Bakı” mərkəzində perspektiv ehtiyacları nəzərə alan, layihə əsaslı, gündəlik həyat problemlərinin həllinə yönələn və şagirdlərə XXI əsrin bacarıqlarına yiyələnmək imkanı verən “Deneyap Texnologiya” proqramı həyata keçiriləcək. Burada 11 əməkdaş fəaliyyət göstərəcək və Türkiyə Texnologiya Komandası Vəqfinin təlim proqramı əsasında tədris aparılacaq. Müvafiq təlim proqramı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılıb.

Kompleksdə ASAN İnnovativ İnkişaf Mərkəzi də fəaliyyət göstərəcək. Bu mərkəzin əsas məqsədi qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət orqanlarında vətəndaşlara xidmət sahəsində kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə töhfə vermək, bilik və bacarıqların artırılması istiqamətində təlimlər həyata keçirməkdir.

Dövlət başçılarına məlumat verildi ki, Azərbaycanın intellektual brendi olan ASAN konsepsiyası həm də ixrac səbətində yer alır. Agentliyin ekspertləri tərəfindən müxtəlif ölkələrdə təlimlər keçirilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilir. İndiyədək Dövlət Agentliyi və tabeliyindəki qurumlar öz fəaliyyətləri çərçivəsində 15 ölkə və 2 beynəlxalq təşkilatla müqavilələr imzalayıblar.

Sonda Azərbaycan və Türkiyə prezidentlərinə xatirə hədiyyələri təqdim olundu.

Qeyd edək ki, hazırda Azərbaycanda 22 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir, 5-nin isə inşası davam etdirilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 88 mindən çox vətəndaşın 52 milyondan çox müraciəti daxil olub. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə də vətəndaşlara xidmətlər göstərilir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.









# İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın görüşü olub





Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.



Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı 28 May – Müstəqillik Günündə Azərbaycan və Türkiyə dövlət başçılarının bir yerdə olması qardaşlığımızın rəmzi kimi qiymətləndirildi.

Dövlət başçıları Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalının önəmini qeyd etdilər və bu tədbiri yüksək səviyyədə olan əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdilər.

Görüşdə əməkdaşlığımızın bundan sonra da genişlənəcəyi qeyd olundu, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə nahar yeməyi oldu.





# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda “Şərq Bazarı” kompleksində yaradılan şəraitlə tanış olublar



İyunun 6-da Bakıda “Şərq Bazarı” kompleksi bərpa və yenidənqurmadan sonra istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, “Şərq Bazarı” kompleksinin bərpa və yenidənqurması işləri icra olunarkən bir sıra nüanslara xüsusi diqqət yetirilib. Bərpa zamanı layihə komandasının qarşısında duran əsas vəzifələr ilkin konsepsiyanın qorunması və xüsusi elementlərin saxlanılması olub. Kompleksdə yenidənqurma zamanı yerli materiallardan maksimum istifadə edilib, həmçinin müasir texnologiya və avadanlıqların tətbiqinə xüsusi diqqət yetirilib.

“Şərq Bazarı”nın girişində kiril əlifbası ilə yazılmış orijinal yazı eyni kalliqrafiya inkişaf etdirilərək latın əlifbasına dəyişdirilib, daxildəki işarə və başlıqlar bazarın üslubuna uyğun yenidən dizayn olunub.

Bildirilib ki, bazarda 78 icarədar fəaliyyət göstərəcək. Bu isə 300 yeni iş yerinin yaranması deməkdir.

Kompleksin əsas atributu olan gümbəzlər müxtəlif iaşə obyektlərinin təyinatına görə dizayn edilib. Bazara gələcək alıcıların rahatlığını təmin etmək üçün zərgərlik, əl işləri yarmarkaları, “Sandıqca” incəsənət nümunələrinin satışı bölməsi, “Tamaşa”, qəlyanaltılar, kafe və restoranlar, “Sehrli bazar”, emalatxanalar və sair bölmələrin hər biri ayrıca gümbəz və hissələrdə cəmləşdirilib.







Qeyd edək ki, "Şərq Bazarı"nın ilkin layihələndirilməsi 1980-ci illərin məşhur memarları Uruzmaq Revazov, Pavel Yarinovski və Anatoliy Bessonov tərəfindən icra olunub. Kompleks 3-ü böyük, 13-ü kiçik olmaqla 16 gümbəzdən ibarətdir.

Layihələndirilməsinə 1978-ci ildən başlanılmış kompleksin tikintisinə 1980-ci ildə start verilib və 1982-ci ildə bazarın rəsmi açılışı olub. İlkin olaraq kompleks bazar kimi fəaliyyət göstərib.

Nadir memarlıq üslubuna görə, "Şərq Bazarı" 2001-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilsə də, 2017-ci ildə aparılmış əsaslı müayinə işləri nəticəsində aşkar edilmişdi ki, fərqli təyinatlı ticarət obyektlərinin fəaliyyəti, kor-təbii formada həyata keçirilən davamlı istismar və baxımsızlıq binada ciddi zədələnmələrə, çatlara, aşınmalara, korroziyaya və deformasiyalara səbəb olub. Məhz bunları nəzərə alaraq kompleksin istismar göstəricilərini yaxşı-















laşdırmaq, davamlılığını artırmaq, normal işləmə qabiliyyətini təmin etmək məqsədilə mühəndis tədbirlərinin həyata keçirilməsi zərurəti yaranmışdır. Əsaslı müayinədən sonra dərhal detallı layihələndirmə prosesinə başlanılıb və 2020-ci ildə bərpa işlərinə start verilib.

Onu da qeyd edək ki, "Şərq Bazarı" ötən əsrin 80-ci illərindən paytaxt sakinləri üçün doğma məkana çevrilmişdir. Yenidən qurulan "Şərq Bazarı" kompleksi şəhərimizin gözəlliyinə gözəllik qatıb.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanda rəsmi səfərdə olmuşdur



Azərbaycan və Özbəkistan prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistan Respublikasının Baş prokuroru Niqmatilla Yuldaşevin dəvəti ilə 12-14 aprel tarixlərində Daşkənddə rəsmi səfərdə olmuşdur.

Nümayəndə heyəti "Yangi Özbəkistan" parkına gələrək Müstəqillik Abidəsinin önünə əklil qoydu.

Aprelin 13-də Özbəkistan Baş Prokurorluğunda ikitərəfli görüş keçirildi. Ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Özbəkistanın Baş prokuroru Niqmatilla Yuldaşev bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirdi.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edərək, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini xüsusi olaraq vurğuladı.





Baş prokuror müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə qardaş Özbəkistanın ölkəmizə dəstəyinə görə təşəkkürünü bildirərək, Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda həmkarını məlumatlandırdı.

Niqmatilla Yuldaşev ölkəmizi möhtəşəm qələbə münasibətilə təbrik edərək Azərbaycanın ərazi bütövlüyünün bərpasının bütövlükdə region üçün əhəmiyyətini vurğuladı.







Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparıldı, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışıldı, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edildi.

Həmçinin, 2021-ci ilin 1 noyabr tarixində Bakı şəhərində Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurasının ilk iclası çərçivəsində qurumlar arasında imzalanmış Əməkdaşlığa dair Razılaşma və 2022-2023-cü illər üzrə Əməkdaşlıq Proqramının müddəalarından irəli gələn tədbirlərin görülməsi müzakirə olundu.



Daha sonra nümayəndə heyəti Özbəkistan Baş Prokurorluğunun Akademiyası və Tarix muzeyi ilə tanış oldu.

Görüşdə ölkəmizin Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev iştirak edib.

Baş prokuror Kamran Əliyevin Özbəkistana rəsmi səfəri çərçivəsində nümayəndə heyəti tərəfindən Daşkənddəki səfirliyində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edildi.

Səfərin yekununda iki ölkənin prokurorluq orqanları arasında əlaqələrin bundan sonra daha intensiv şəkildə, o cümlədən Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurası çərçivəsində təlim tədris səfərləri formatında davam etdirilməsi qərara alındı.

# Baş Prokuror Kamran Əliyev ATƏT-in Media azadlığı üzrə Nümayəndəsi Tereza Ribeyro ilə görüşmüşdür









Aprelin 25-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan ATƏT-in Media azadlığı üzrə Nümayəndəsi Tereza Ribeyro ilə görüşmüşdür.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanın ATƏT və onun institutları ilə əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, bu qarşılıqlı münasibətlərin dövlətimizin Avropa ilə inteqrasiya prosesində mühüm rol oynadığını bildirmişdir.

Kamran Əliyev ölkəmizdə söz və mətbuat azadlığının bütün demokratik prinsiplərə cavab verdiyini vurğulayaraq, bu sahədə müsbət nailiyyətlərin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olması, müasir dövrdə isə ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə söz və mətbuat azadlıqlarının inkişafı istiqamətində həyata keçirilən siyasət nəticəsində əldə olunduğunu qeyd etmişdir.

Baş Prokuror ölkəmizdə prokurorluq orqanlarının sosial media siyasətini tənzimləyən sənədlər haqqında Tereza Ribeyroya geniş məlumat verərək prokurorluq orqanlarının insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti, qanunçuluq, hər kəsin qanun qarşısında bərabərliyi, fiziki və hüquqi şəxslərin hüquq və azadlıqlarına əməl və hörmət edilməsi, qərəzsizlik, siyasi bitərəflik prinsiplərinin rəhbər tutmasını vurğulamışdır. Kamran Əliyev, həmçinin Baş Prokurorluq tərəfindən KİV-lərin nümayəndələrinin iştirakı ilə mütəmadi olaraq təşkil olunan görüş və brifinqlər barədə qonağa ətraflı məlumat vermişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Tereza Ribeyro ikitərəfli münasibətlərə toxunaraq ATƏT-in Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və bütün sahələrdə müvəffəqiyyətlə inkişaf etdiyini bildirmişdir.

Tereza Ribeyro Azərbaycan hökumətinin demokratiyanın möhkəmləndirilməsi, xüsusilə də söz və mətbuat azadlıqlarının istiqamətində atdığı addımların təqdirəlayiq olduğunu vurğulamış və gələcəkdə ATƏT-in Media azadlığı üzrə Nümayəndəliyi tərəfindən azərbaycanlı jurnalistlər və müxtəlif qurumların mətbuat xidməti ilə əlaqəli sahədə çalışan əməkdaşları üçün təlimlərin keçiriləcəyini qeyd etmişdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılmışdır.

# Baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdulla bin Səud bin Xudeyr ilə görüşmüşdür



Aprelin 27-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdulla bin Səud bin Xudeyr ilə görüşüb.

Görüş zamanı Kamran Əliyev xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyədə olduğunu məmnuniyyətlə vurğulayaraq, bu sahədə dövlət başçıları cənab İlham Əliyev və Kral Salman bin Əbdül-Əziz Əl Səudun misilsiz xidmətlərini qeyd edib.

Baş prokuror müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə Səudiyyə Ərəbistanı Krallığının ölkəmizə dəstəyinə görə təşəkkürünü bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasının bütövlükdə müsəlman dünyası üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Görüşdə Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru şeyx Səud bin Abdullah əl Müacibin rəhbərlik etdiyi nümayəndə heyətinin yaxın vaxtlarda ölkəmizə səfəri və qarşılıqlı maraq doğuran digər mövzulara dair fikir mübadiləsi aparılmışdır.



# Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilib





Aprelin 29-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun struktur qurumlarının məsul əməkdaşlarının iştirakı ilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın (MFP) icrası ilə əlaqədar qarşıda duran vəzifələrə dair əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə çıxış edən Baş prokuror ölkə başçısı cənab İlham Əliyevin korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin tərkib hissəsi olması, ictimaiyyətin bu işlərə fəal qoşulması, hər bir vətəndaşın neqativ hallara biganə qalmaması barədə proqram xarakterli tapşırıq və tövsiyələri, habelə Milli Fəaliyyət Planından irəli gələn vəzifələrin vacibliyini bildirməklə bu sahədə prokurorluq, o cümlədən ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin qarşısında prioritet istiqamətlərin müəyyən olunmasının zəruriliyini qeyd etmişdir.

Bu baxımdan antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində müvafiq səlahiyyətli qurumlara təkliflərin hazırlanaraq təqdim olunması, dövlət orqanlarının fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, mövcud qanunların daha da sə-





mərəli tətbiq edilməsi, xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi, əməliyyat tədbirlərinin intensivləşdirilməsi və cinayət törətmiş bütün şəxslərin müəyyən edilməklə məsuliyyətə cəlb edilməsinin təmin olunmasının vacibliyi vurğulanmışdır.

Müşavirədə həmçinin qabaqcıl beynəlxalq təcrübənin öyrənilməklə tətbiq olunması, vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın həyata keçirilməsi, əhalinin bu işdə aktiv iştirakının təmin edilməsi məqsədilə onların maarifləndirilməsi işinin yeni müstəviyə qaldırılması, xüsusən əhatəli antikorrupsiya tədris modulunun hazırlanması  qərara alınmışdır.

Əməliyyat müşavirəsinin sonunda Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın (MFP) icrası ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planı" təsdiq edilmişdir.

Müşavirəyə yekun vuran Baş prokuror korrupsiyaya qarşı mübarizə sahəsində ən qətiyyətli  tədbirlərin görülməsinin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirmişdir.

# Prokurorluq əməkdaşları tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə ağacəkmə aksiyası keçirilib





Aprelin 30-da prokurorluq əməkdaşları tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə ağacəkmə aksiyası keçirilmişdir.





Ekoloji mühitin və yaşıllıqların mühafizəsi ilə əlaqədar paytaxtın Binəqədi rayonu Xocasən qəsəbəsində təşkil edilən aksiyanın əsas məqsədi ağac əkininin təşviqinə, Abşeron yarımadasının ekoloji mühitinin yaxşılaşdırılmasına, paytaxtda yaşıllıq sahələrinin salınması və onların mühafizəsinə diqqət cəlb etməkdir.

Prokurorluq əməkdaşlarının keçirdiyi ağacəkmə aksiyasına Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İDEA İctimai Birliyi yaxından dəstək göstərmişdir.

Tədbirdə 1000-ə yaxın şam və zeytun ağacları əkilmiş, eyni zamanda həmin ərazidə ötən illərdə əkilmiş ağaclara aqrotexniki qulluq göstərilmiş və təmizlik-abadlıq işləri aparılmışdır.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

# Baş prokuror Kamran Əliyev İtaliyada işgüzar səfərdə olmuşdur







Cari ilin may ayının 5 və 6 tarixlərində Baş prokuror Kamran Əliyev İtaliyada işgüzar səfərdə olmuşdur. İtaliyanın Baş prokuroru Covanni Salvinin dəvəti ilə Baş prokuror Kamran Əliyev Palermoda keçirilən Avropa prokurorluq orqanları rəhbərlərinin konfransında iştirak etmişdir.

Tarixi Norman Ədalət sarayında işinə başlayan tədbiri açıq elan edən İtaliyanın Baş prokuroru Covanni Salvi müasir dövrün çağırışlarına uyğun olaraq prokurorluq sisteminin inkişafı, insan hüquqlarının qorunmasında prokurorluğun rolu, mütəşəkkil cinayətkarlığa və cinayətkar qruplara, xüsusi ilə mafiyaya qarşı mübarizədə, kibercinayətkarlıq, rəqəmsal valyutalardan istifadə etməklə törədilən cinayətlər və digər sahələrdə prokurorluqlar arasında beynəlxalq əməkdaşlığın vacibliyini vurğulamışdır.

Konfransın plenar sessiyasında əsas hüquqların müdafiəsi kontekstində prokurorların müstəqilliyi, qərəzsizliyi və hesabatlılığı mövzusunda çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində aparılan mütərəqqi islahatlar haqqında məlumat verib. Prokurorluq orqanlarında həyata keçirilən islahatlar çərçivəsində kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr haqqında iştirakçılara məlumat verilmişdir.

Kamran Əliyev transmilli mütəşəkkil cinayətkarlığın müasir çağırışlarına, xüsusilə kriptovalyuta və yeni texnologiyalar vasitəsilə törədilən yeni növ cinayətlərin istintaqında çevikliyin və səmərəliliyin təmin olunması məqsədilə prokurorluq orqanları arasında birgə fəaliyyətin, o cümlədən hüquqi yardım haqqında sorğuların icrasının intensivləşdirilməsinin vacibliyini vurğulayıb.

Konfrans çərçivəsində İtaliyanın Baş prokuroru Covanni Salvi ilə ikitərəfli görüş keçirilmişdir. Ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən dostluq münasibətlərinin mövcudluğu vurğulanaraq bu əlaqələrin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyi qeyd edilmişdir. Prokurorluqlar arasında əlaqələrin bundan sonra daha dinamik inkişaf etdirilməsinə dair razılıq əldə olunub, tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç, Türkiyə, İsveçrə, Almaniya, Estoniya, Xorvatiya, Gürcüstan və sair ölkələrin prokurorluq xidmətlərinin rəhbərləri və digər nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşlər keçirib, mövcud əlaqələr və gələcək əməkdaşlıq perspektivləri müzakirə etmişdir.

Sonda İtaliya Prezidenti Serco Matarella, hökumət üzvləri, hüquq mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə mafiya üzvlərinin mühakimə olunduqları məhkəmə binası












"Aula Bunker"də 20-ci əsrin sonlarında mafiyaya qarşı qətiyyətli mübarizə aparmış və vəzifə səlahiyyətlərinin icrası ilə bağlı 1992-ci ildə qətlə yetirilmiş prokuror, hakim və polis əməkdaşları, o cümlədən Covanni Falkone, Françeska Morvillo və Paolo Borsellinonun xatirələri yad edilmişdir.

# Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü qeyd edilmişdir



Mayın 9-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətimizin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Azərbaycan Prokurorluğunun tarixində Heydər Əliyevin rolu” mövzusunda tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Baş Prokurorluğun inzibati binasının foyesində ulu öndərin büstü önünə əklil və gül dəstələri qoymuş, əbədiyaşar liderin əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev dünya miqyaslı siyasi təfəkkürə, zəngin və qətiyyətli idarəçilik bacarığına, ən çətin vəziyyətlərdə belə tükənməz əzm və qüdrətə malik ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətlərindən, şərəfli ömür yolundan və məharətli dövlətçilik təcrübəsindən bəhs etmiş, görkəmli dövlət xadiminin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasını diqqətə çatdırmışdır.

Baş prokuror qeyd etmişdir ki, Azərbaycan xalqına və millətinə əvəzsiz xidməti həyatının məqsədi və mənası kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq məfkurəsinin formalaşdırılması və möhkəmləndirilməsi, eləcə də ölkəsinin rifahı uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çoxsaylı maneələrin yaradılması, dəfələrlə planlaşdırılan terror və sui-qəsd cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev öz uzaqgörənliliyi, siyasi müdrikliyi, əyilməz iradəsi və qətiyyəti, ən əsası – milli ümumxalq həmrəyliyi nəticəsində müstəqil Azərbaycanı hazırki və gələcək nəsillər üçün qoruyub saxlamış və müasir inkişaf yoluna çıxarmışdır.

Bildirilmişdir ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət qurumlarından biri olan prokurorluq orqanlarının beynəlxalq tələblərə və standartlara





uyğun formalaşaraq əhəmiyyətli statusunun müəyyən edilməsi və son nəticədə dövlətçiliyin maraqlarına xidmət edən bir təsisat kimi idarəçilik sistemində öz layiqli yerini tutması Heydər Əliyevin müdrik siyasəti, onun mütəmadi qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-nin respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmasının prokurorluq orqanlarının fəaliyyətinə verilən yüksək qiymətin təcəssümü kimi dəyərləndirildiyi, proku-











rorluğun kollektivinin fəaliyyətinə verilən yüksək diqqət və etimadı səmimi minnətdarlıq duyğuları ilə qarşıladığı, xalqımıza ləyaqətlə xidmət göstərdiyi qeyd edilmişdir.

Xüsusi vurğulanmışdır ki, Heydər Əliyevin doğma xalqına ən böyük xidməti ölkənin dinamik strateji inkişaf meyarlarını müəyyən etməklə yanaşı özündən sonra həmin konsepsiyanı müstəsna peşəkarlıqla həyata keçirməyə qadir, səmərəli fəaliyyəti nəticəsində ölkəmizi beynəlxalq arenada qabaqcıl dövlət olaraq tanınmasına nail olmuş, həyata keçirdiyi komleks islahatlarla respublikamızın daimi tərəqqisini təmin edən, ulu öndərin özü qədər inanıb-güvəndiyi görkəmli və qətiyyətli siyasi lider İlham Əliyev kimi davamçı hazırlaması olmuşdur.

Tədbirdə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyev çıxış edərək fenomenal şəxsiyyət, dahi lider Heydər Əliyevin qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyinin əldə olunmasından sonra ölkədə aparılan hərtərəfli məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluq orqanlarının mahiyyət və struktur baxımından yenidən qurulmasını, yüksək nəzəri biliyə və peşəkarlığa malik kadrlarla komplektləşdirilməsini, fəaliyyətin beynəlxalq standartlara uyğun formalaşdırılmaqla müasir dövlət təsisatına çevrilməsini diqqətə çatdırmışdır.

Daha sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş prokurorluq orqanları əməkdaşları arasında keçirilmiş şahmat turnirinin qalibləri, həmçinin Həmkarlar İttifaqları Konfederasiyasının ulu öndərin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş sahə həmkarlar ittifaqı komandaları arasında mini futbol turnirində 2-ci yeri tutmuş prokurorluq əməkdaşları təltif olunmuşlar.

Tədbirin işinə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluğun kollektivi adından hər bir prokurorluq işçisinin daim Heydər Əliyev ideyalarına sadiq qalaraq onun unudulmaz xatirəsini əziz tutacağına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni müstəvidə davam etdirilən islahatların həyata keçirilməsində öz xidmətlərini göstərəcəyinə əminliyini bildirmişdir.

Sonda ümummilli liderin xatirəsinə həsr olunmuş "Qanun naminə – Heydər Əliyev salnaməsi" adlı sənədli film nümayiş etdirilmişdir.

# “Qanun naminə - Heydər Əliyev salnaməsi” sənədli filminin təqdimatı baş tutub



“Qanun naminə – Heydər Əliyev salnaməsi” sənədli filmində ulu öndərin prokurorluğa olan mütəmadi dəstəyi, fenomenal Şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilmiş islahatlar, görkəmli dövlət xadiminin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğısı barədə məlumatlar, o cümlədən prokurorluğun veteran əməkdaşlarının xatirələri yer alıb.

Filmin təqdimatı ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbirdə baş tutub.

Təqdimat zamanı filmin yaradıcı heyəti iştirak edib.

Film mayın 10-da saat 23:00-da Xəzər TV-də yayımlanmışdır.

*Aparıcı:* **Azərbaycan Respublikasının Xalq artisti Nürəddin Mehdixanlı**

*Yaradıcı heyət:* **Kamran Əliyev – İdeya müəllifi**

**Heydər Məmmədov – Məsul redaktor**

**Kənan Zeynalov – Redaktor**

**Bəhruz Əliyev – Quruluşçu rejissor**






# Səudiyyə Ərəbistanı Krallığının və Azərbaycan Respublikasının prokurorluq orqanları arasında əməkdaşlıq davam edir






Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyəti 9-14 may tarixlərində ölkəmizdə rəsmi səfərdə olmuşdur.

Səfər çərçivəsində qonaqlar xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Heydər Əliyev Mərkəzini ziyarət etmişlər. Görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanışlıq nümayəndə heyətinin üzvlərində xoş təəssürat yaratmış, həmçinin Mərkəzdə yerləşən muzey və eksponatlar barədə onlara ətraflı məlumat verilmişdir.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilmişdir.

Görüş zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və İki Müqəddəs Ocağın Xadimi, kral Salman bin Əbdüləziz Al Səudun birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, dərin tarixə və mədəni köklərə söykənən ikitərəfli münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanmışdır.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin çağdaş dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat vermişdir.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Şeyx Səud bin Abdullah Əl Müacib təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə etmişdir.

Görüşdə hüquqi sahədə, həmçinin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmaqla hər iki ölkənin prokurorluq orqanları arasında münasibətlərin daha da inkişaf etdirilməsi məqsədilə Əməkdaşlıq haqqında Anlaşma Memorandumunun hazırlanması barədə razılıq əldə olunmuşdur.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyində ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olmuşlar.

Daha sonra qonaqlar Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binasında yaradılmış şəraitlə tanış olaraq 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət etmişlər.









# Səudiyyə Ərəbistanı Krallığı Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Şuşaya səfər etmişdir






Mayın 11-də Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyəti Baş prokuror Kamran Əliyevlə birlikdə Füzuli şəhərinə və ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər edib.

Qonaqlar ilk öncə "Qarabağın hava qapısı" hesab olunan sosial-iqtisadi əhəmiyyətə malik Füzuli Beynəlxalq Hava Limanı ilə yaxından tanış olmuş, onlara bütün müasir və beynəlxalq standartlara cavab verən aeroportda yaradılmış şərait barədə geniş məlumat verilmişdir.

Daha sonra qonaqlar Füzuli şəhərinin təməl daşının qoyulduğu ərazi ilə tanış olmuş, aparılan abadlıq-quruculuq işlərinin əsas hədəfinin "Böyük Qayıdış"a hazırlaşan ərazilərdə keçmiş məcburi köçkünlər üçün yüksək yaşayış şəraitinin yaradılması olduğu diqqətə çatdırılmışdır.

Nümayəndə heyətinin üzvləri yol boyu erməni qəsbkarları tərəfindən Azərbaycanın inkişaf etmiş şəhərlərindən biri olmuş Füzulinin məqsədyönlü olaraq vəhşicəsinə viran edilmiş yaşayış məskənlərinin və infrastruktur obyektlərinin, insanlığı dəhşətə gətirən vandalizmin əyani şahidi olmuşlar.

Daha sonra nümayəndə heyəti İkinci Qarabağ müharibəsində qələbəmizin rəmzlərindən biri hesab edilən rəşadətli Azərbaycan Ordusunun çətin relyef şəraitində irəlilədiyi "Zəfər yolu" ilə tanış olaraq Şuşa şəhərinə səfər etmişdir.

Qonaqlarla görüşən Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı sayəsində işğaldan azad edilmiş Qara-

bağın incisi Şuşa şəhərində dövlət başçısının tapşırığı ilə həyata keçirilən genişmiqyaslı təmir-bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, müstəsna mənəvi, tarixi dəyərə malik olması səbəbindən Şuşada aparılan yenidənqurma işlərinə xüsusi həssaslıq və qayğı ilə yanaşılmış, qısa zaman ərzində şəhər ərazisində zəruri infrastruktur layihələri icra edilməklə yanaşı memarlıq abidələrinin bərpası istiqamətində işlər aparılmışdır.

Qonaqlar ilk öncə ümummilli lider Heydər Əliyevin bilavasitə səyləri nəticəsində qorunub saxlanmış dünya şöhrətli xadimlərin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini ziyarət etmişlər.

Daha sonra, Cıdır düzünü ziyarət edən qonaqlara füsunkar mənzərəyə malik ərazinin şuşalıların və Şuşaya təşrif buyuran qonaqların sevimli məkanı, eləcə də YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş çövkən oyunları, Novruz bayramı və digər el şənliklərinin keçirildiyi seyrəngahı olduğu bildirilmişdir.

Nümayəndə heyəti həmçinin, ölkə başçısının rəhbərliyi ilə əvvəlki görkəmində tam bərpa edilmiş Molla Pənah Vaqifin məqbərəsini, eləcə də tarixi Qala divarlarını, Yuxarı Gövhərağa məscidini, Azərbaycan peşəkar vokal sənətinin banisi Bülbülün ev muzeyini ziyarət etmişlər.

Qonaqlara 12-14 may tarixlərində Şuşa şəhərində V Xarıbülbül Beynəlxalq Folklor Festivalının keçiriləcəyi bildirilməklə 1989-1991-ci illərin may ayında Şuşa şəhərində keçirilən beynəlxalq status almış musiqi festivalının 30 illik fasilədən sonra 2021-ci ilin 12–13 may tarixlərində Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən təşkil edildiyi diqqətə çatdırılmışdır.

Səfərdə Səudiyyə Ərəbistanı Krallığının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyr və ölkəmizin Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev iştirak etmişlər.








## “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı Tvinninq layihəsi üzrə tərəfdaş ölkənin Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər etmişdir

Avropa İttifaqının “Avropa Qonşuluq Siyasəti” planı çərçivəsində həmin quruma üzv ölkələrin Avropa dövlətlərinin müvafiq təsisatlarının iş təcrübəsinin öyrənilməsinə yönəldilmiş “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı “Tvinninq” layihəsi çərçivəsində Litva Respublikasının Baş prokuroru Nida Qrunskienenin rəhbərlik etdiyi və Xüsusi İstintaq Xidmətinin direktoru Jidrunas Bartkusun daxil olduğu nümayəndə heyəti 16-21 may tarixlərində Azərbaycanda rəsmi səfərdə olmuşdur.



2022-ci il mayın 16-da nümayəndə heyəti Fəxri Xiyabana gedərək xalqımızın Ümumilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoymuş, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər. Bundan sonra, qonaqlar Şəhidlər Xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə güllər, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.



Nümayəndə heyətinin Baş prokuror Kamran Əliyevlə keçirilmiş görüşündə Baş prokuror strateji planlaşdırma və hüquqi bazanın inkişaf etdirilməsi yolu ilə aktivlərin bərpası istiqamətində səmərəli mexanizm yaradılması, görülən işlərin miqyasının genişləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə həyata keçirilən, Azərbaycan Respublikası Prokurorluğunun benefisiarı olduğu “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı “Tvinninq” layihəsinin mühüm əhəmiyyəti olduğunu qeyd edib.



Səmimi qəbula görə öz təşəkkürünü bildirən Litva Respublikasının Baş prokuroru Nida Qrunskiene Litva Respublikası tərəfindən Azərbaycanla əlaqələrə böyük önəm verildiyini, aktivlərin bərpası sahəsində ölkəsinin təcrübəsinin paylaşılmasında maraqlı olduqlarını və qeyd edilən təcrübənin bu sahədə Azərbaycan Respublikasının qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində aparılan











işin səmərəliliyinin artırılmasında böyük rolunun olacağını qeyd edib.

Nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyi və yeni inzibati binası ilə tanış olub, 44 günlük Vətən müharibəsinə həsr olunmuş Tarixi-memorial qalereyasındakı eksponatlar, ən müasir cihaz və avadanlıqlarla təchiz edilmiş kriminalistika otağı, müasir hüquq ədəbiyyatı, normativ-hüquqi aktlarla zənginləşdirilən kitabxana qonaqların marağına səbəb olub. Daha sonra qonaqlar  Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binası və fəaliyyəti ilə yaxından tanış olublar.



## Litva Respublikasının Baş prokuroru və Xüsusi İstintaq Xidmətinin direktorunun iştirakı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilmisdir

Baş Prokurorluq tərəfindən tərəfdaş ölkələrin qabaqcıl təcrübəsi olan hüquq mühafizə orqanları, ölkəmizin aparıcı elm və təhsil müəssisələri, tədris və ixtisaslaşdırılmış akademiyaları ilə işgüzar əlaqələrə daim xüsusi önəm verilir. Belə ki, 18 may 2022-ci il tarixdə Baş Prokurorluqda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilmişdir. İclasa fəxri qonaqlar qismində Azərbaycan Respublikasında səfərdə olan Litva Respublikasının Baş prokuroru Nida Grunskiene və Litvanın Xüsusi İstintaq Xidmətinin direktoru Jidrunas Bartkus qatılmışlar. Şuranın iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Milli Məclis, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik, “ADA”, Milli aviasiya akademiyaları, eləcə də digər dövlət orqanları, ali təhsil müəssisələri, Ədliyyə, Polis, Dövlət Təhlükəsizliyi Xidməti, Gömrük akademiyaları, eləcə də İqtisadiyyat nazirliyi yanında Döv-








lət Vergi Xidmətinin Tədris Mərkəzinin nümayəndələri iştirak etmişlər. Elmi-Məsləhət Şurasının iclasını açan Baş prokuror ölkəmizin ictimai-siyasi fəaliyyətində olan mühüm hadisələr, o cümlədən ölkə rəhbərliyinin dəstəyi ilə işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən geniş quruculuq-bərpa işləri, beynəlxalq müstəvidə əldə edilən uğurlar, eləcə də prokurorluq orqanlarının keçən dövr ərzində fəaliyyəti, o cümlədən həyata keçirilən islahatlar barədə Şura üzvlərini məlumatlandırmışdır. Daha sonra Nida Grunskiene cinayət və korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan və Litva arasında əməkdaşlıq barədə çıxış etmişdir. Xüsusi olaraq vurğulanmışdır ki, hər iki qurum arasında əməkdaşlıq əlaqələri zəngin təcrübəyə və uğurlu nəticələrə əsaslanır. Fəxri qonaq Jidrunas Bartkus Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Litva Respublikasının həyata keçirdiyi “Azərbaycanda aktivlərin bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” Tvininq layihəsinin əsas məqsədləri barədə ətraflı çıxış etmişdir. Bundan əlavə, Şuranın iclasında “Azərbaycan Respublikasında aktivlərin bərpası sahəsində mövcud vəziyyət” mövzusunda Baş Prokurorluğun idarə rəisi Vüqar Əliyev, “Milli antikorrupsiya fəaliyyətində beynəlxalq standartların tətbiqi vəziyyəti” mövzusunda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin idarə rəisi Natiq Eyvazov məruzə ilə çıxış etmişlər. Eyni zamanda, Şuranın iclasında Dövlət Gömrük Komitəsi Akademiyasının baş müəllimi Şahin Hüseynov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Fərid Dadaşov və Elmi-Məsləhət Şurasının katibi, hüquq üzrə fəlsəfə doktoru Nigar Qələndərli tərəfindən metodiki vəsaitlərin və kitabların təqdimatları keçirilmişdir. Daha sonra gündəlikdə duran məsələlər, o cümlədən müxtəlif hüquqi məsələləri özündə ehtiva edən mövzular üzrə Elmi-Məsləhət Şurasının üzvləri tərəfindən çıxışlar edilmiş, geniş müzakirələr aparılmışdır.





# Baş prokuror Koreya Respublikasının səfiri ilə görüşmüşdür



May ayın 24-də Baş prokuror Kamran Əliyev Koreya Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Li In-Yonq ilə görüş keçirib.

Kamran Əliyev ölkələrimiz arasında bir çox sahələrdə, o cümlədən siyasi, mədəni, humanitar və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında həyata keçirilən islahatlar, müasir normativ-hüquqi bazanın yaradılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində görülən işlər barədə səfirə ətraflı məlumat verib.

Koreya ilə uğurla davam edən səmərəli hüquqi əməkdaşlıqdan məmnunluq ifadə edən Baş prokuror Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən həyata keçirilən layihələrin təqdirəlayiq olduğunu bildirib. Qarşılıqlı tədris səfərlərinin təşkili, cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən korrupsiyaya qarşı mübarizə və aktivlərin bərpası sahələrində təcrübənin öyrənilməsinin vacibliyi qeyd olunaraq, prokurorluqlar arasında əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalanması müzakirə olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Li In-Yonq ikitərəfli münasibətlərə toxunaraq Azərbaycanla əlaqələrin əhəmiyyətini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini qeyd edib.

Səfir ölkələrimizin hüquq mühafizə orqanları arasında faydalı əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə edərək bu istiqamətdə zəruri tədbirlərin həyata keçiriləcəyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.



# Azərbaycan Respublikasının və Qətər Dövlətinin prokurorluq orqanları arasında əməkdaşlıq genişlənir






Baş prokuror Kamran Əliyevin dəvəti ilə Qətər Dövlətinin Baş prokuroru İssa bin Səad Əl-Nuaiminin rəhbərlik etdiyi nümayəndə heyəti 28-29 may tarixlərində ölkəmizə səfər edib.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət etmişlər. Görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olan nümayəndə heyətinə Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.







Görüş zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçılarının birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, dərin tarixə və mədəni köklərə söykənən ikitərəfli münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanıb.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin çağdaş dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Baş prokuror Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə Qətər Dövlətinin ölkəmizə dəstəyinə görə təşəkkürünü bildirib.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri İssa bin Səad Əl-Nuaimi təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə





arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Görüşdə, həmçinin hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb.

Görüşdən sonra nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyində ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yoluna, eyni zamanda 44 günlük Vətən müharibəsinə həsr olunan, eləcə də cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə müharibədən sonrakı dövrdə həyata keçirilən bərpa-quruculuq işlərini əks etdirən guşə və eksponatlarla tanış olmuşlar.

Daha sonra Baş prokurorlar ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalayıblar.

Tədbirlərdə Qətər Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al-Hinzab və ölkəmizin Qətərdəki fövqəladə və səlahiyyətli səfiri Rəşad İsmayılov da iştirak ediblər.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti ölkəmizə işgüzar səfər etmişdir






Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) Baş katibi Han Moraal və İcraçı Direktoru xanım Yanne Holst Hübnerin rəhbərliyi ilə nümayəndə heyəti ölkəmizə işgüzar səfər etmişdir.






İyunun 1-də keçirilmiş görüş zamanı Assosiasiyanın vitse-prezidenti olan Baş prokuror qonaqlara ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq son dövrlərdə prokurorluq orqanlarında həyata keçirilmiş islahatlar, struktur və kadr dəyişiklikləri barədə ətraflı məlumat verməklə gənc hüquqşünasların işə qəbul edilməsi və onların peşəkar kimi təkmilləşdirilməsinin prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırmışdır.

Qonaqlar səmimi qəbula görə minnətdarlıq ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirmiş, təşkilatın milli prokurorluq orqanlarımızla əməkdaşlığın genişlənməsində maraqlı olduqlarını bildirmişlər.











Daha sonra Assosiasiyanın 29-cu İllik Konfransı və Ümumi Yığıncağına 2024-cü ildə ölkəmizin ev sahibliyi etməsi haqqında qərarın icrası məqsədilə yaradılmış Yerli Təşkilat Komitəsinin fəaliyyəti ilə bağlı ilk iclas keçirilməklə bir sıra təşkilatı məsələlər müzakirə edilmişdir.

Bundan sonra qonaqlar BPA-nın üzvlüyünə yeni qəbul olunmuş gənc əməkdaşlarla görüş keçirməklə üzvlük vəsiqələrini təqdim etmişlər.

# Baş prokuror Qətər Dövlətinin Bakıdakı səfiri ilə görüşmüşdür



İyunun 8-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Qətər Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al-Hinzab ilə görüşüb.



Xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyədə olduğunu məmnuniyyətlə vurğulayan Baş prokuror, bu sahədə dövlət başçıları cənab İlham Əliyev və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl-Taninin misilsiz xidmətlərini qeyd edib.

Baş prokuror müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə Qətər Dövlətinin ölkəmizə dəstəyinə görə təşəkkürünü bildirib.



Səmimi qəbula görə təşəkkürünü bildirən səfir ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasının əhəmiyyətini, həmçinin ölkəmizdə bütün sahələrdə aparılan mütərəqqi islahatların vacibliyini vurğulayıb.

Qətər Dövlətinin Baş prokuroru İssa bin Saad Al Cuffali Al Nuaiminin rəhbərlik etdiyi nümayəndə heyətinin yaxın vaxtlarda ölkəmizə səfəri və qarşılıqlı maraq doğuran digər mövzulara dair fikir mübadiləsi aparılıb.

Görüşdə ölkəmizin Qətərdəki səfiri Rəşad İsmayılov iştirak edib.

## Baş prokuror İran İslam Respublikasının səfiri ilə görüşmüşdür



İyunun 14-də Baş prokuror Kamran Əliyev İran İslam Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüş keçirib.

Baş prokuror ölkəmizdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında həyata keçirilən islahatlar, müasir normativ-hüquqi bazanın yaradılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Həmçinin qədim tarixi, mədəni, dini münasibətlərə malik Azərbaycan-İran əlaqələrinin bugün də müsbət dinamika ilə inkişaf etdiyi qeyd edilib. Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Seyid Abbas Musəvi ikitərəfli münasibətlərə toxunaraq Azərbaycanla əlaqələrin əhəmiyyətini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini bildirib.

Səfir ölkələrimizin hüquq mühafizə orqanları arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüş zamanı tərəflər arasında cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və məhkumların verilməsi məsələlərində işin səmərəliyinin artırılması, habelə mövcud münasibətlərin daha da inkişaf etdirilməsi məqsədilə ikitərəfli səfərlərin təşkil edilməsi ətrafında səmərəli müzakirələr keçirilib.

Cinayətkarlıqla mübarizə sahəsində Azərbaycan və İran hüquq mühafizə orqanlarının səylərinin məqsədyönlü şəkildə əlaqələndirilməsinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.











# Baş prokuror ABŞ Dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə köməkçisinin müavini ilə görüşüb





İyunun 14-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə köməkçisinin müavini Kara MakDonald və ABŞ-ın ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberger ilə görüşüb.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla ABŞ arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, iki ölkənin dövlət qurumları arasında əməkdaşlığı haqqında danışıb.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyədə olduğunu məmnuniyyətlə vurğulayan Baş prokuror, bu sahədə dövlət başçıları cənab İlham Əliyev və Jo Baydenin misilsiz xidmətlərini qeyd edib.






Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında beynəlxalq təhlükəsizlik və terrorizmə qarşı mübarizədə dövlətimizin göstərdiyi səylər, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən institusional və cinayət təqibi tədbirləri qeyd edilərək, insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlığın digər ağır formaları, həmçinin məişət zorakılığı ilə mübarizə sahəsində beynəlxalq qurumlarla, o cümlədən digər ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Kara MakDonald ikitərəfli münasibətlərə toxunaraq ABŞ-ın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Ölkəmizdə qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, xalqın yaşayış rifahının yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması istiqamətində atılan davamlı addımların təqdirəlayiq olduğunu qeyd edib.

Qonaqlar Azərbaycan Prezidenti tərəfindən imzalanmış əfv sərəncamlarının, həmçinin Milli Məclis tərəfindən qəbul edilmiş amnistiya aktlarının ABŞ Dövlət Departamenti tərəfindən alqışlandığını qeyd edərək ölkəmizdə və xüsusilə prokurorluq orqanları tərəfindən insan və vətəndaş, o cümlədən əhalinin həssas təbəqələrinin hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş addımları müsbət hal kimi qiymətləndiriblər.

Daha sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Görüşdə ABŞ Dövlət Departamentinin və Azərbaycan Prokurorluğunun məsul əməkdaşları iştirak ediblər.

# Baş Prokuror Avropa Şurasının səfirləri ilə görüşüb









İyunun 16-da Baş Prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Avropa Şurası Nümayəndələr Komitəsinin Demokratiya üzrə məruzəçilər qrupunun üzvü olan Türkiyə, İsveç, Estoniya və Finlandiyanın





Avropa Şurası yanında daimi nümayəndəliklərinin rəhbərlərindən ibarət nümayəndə heyəti ilə görüşüb. Qonaqları səmimi salamlayan Baş Prokuror Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, müxtəlif sahələrdə, o cümlədən insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində Avropa Şurasının qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu bildirib. Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata kecjrilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, prokurorluq orqanlarında struktur dəyişikliyi ilə əlaqədar yeni yaradılmış idarələrin, o cümlədən Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirmə idarələrinin fəaliyyət istiqamətləri barədə məlumat verərək, bu sahədə Avropa Şurasının uğurlu təcrübəsindən geniş istifadə olunduğunu diqqətə çatdırdı. Baş prokuror müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad edildiyini və ərazi bütövlüyümüzün bərpa olunduğunu vurğulayaraq Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda qonaqları məlumatlandırdı. K.Əliyev AŞ İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratı tərəfindən prokurorların Şurada və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin katibliyində 1 illik staj keçməsinə dair vakansiyaların elan edilməsi və Azərbaycan prokurorluğunun 2 nəfər nümayəndəsinin həmin vakansiyalara qəbul olunaraq həmin qurumlara ezam olunması məsələsinə toxunaraq bu halın Azərbaycanla AŞ arasında olan münasibətlərin inkişafına dəyərli töhfə verəcəyini vurğuladı. Ölkəmizlə bağlı xoş təəssuratlarından danışan nümayəndə heyətinin rəhbəri, Demokratiya üzrə məruzəçilər qrupunun sədri Martin Ehnberq Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək, prokurorluqda həyata keçirilən islahatların Avropa Şurası tərəfindən təqdir edildiyini və dəstəkləndiyini bildirdi. Martin Ehnberq Avropa Şurası ekspertlərinin azərbaycanlı həmkarları ilə bundan sonra da sıx qarşılıqlı əməkdaşlıq şəraitində işləmək niyyətini ifadə edərək ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi, cinayətkarlıqla mübarizə sahəsində görülən işləri yüksək qiymətləndirdi. Görüş zamanı Avropa Şurasının ölkəmizə dair 2022-2025-ci illər üçün Fəaliyyət Planının icra mexanizmləri, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının ölkəmizdə icra vəziyyəti, Avropa Komissiyasının Tvininq və TAİEX alətləri çərçivəsində aktual hüquqi mövzulara həsr olunmuş çoxsaylı tədbirlərin həyata keçirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə səmərəli fikir mübadiləsi aparıldı. Görüşdə Azərbaycan Respublikasının AŞ yanında daimi nümayəndəliyinin rəhbəri Fəxrəddin İsmayılov iştirak edib.

# Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir





Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə 21 iyun tarixində Baş Prokurorluğun, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Respublika Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, həmçinin Ədliyyə Nazirliyinin, Elektron Hökumətin İnkişafı Mərkəzinin məsul əməkdaşlarının və informasiya texnologiyaları sahəsində ixtisaslaşmış şirkətlərin nümayəndələrinin iştirakı ilə “Elektron prokurorluq” informasiya sisteminin tətbiqinə dair əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarına olan inam və etimadının təcəssümü olaraq prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən “Elektron prokurorluq”







informasiya sisteminin yaradılmasına dair 7 may 2021-ci il tarixli Fərmanın icrası ilə əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələrə dair ətraflı məlumat vermişdir.

Bundan sonra, ilkin mərhələdə İnformasiya sistemində tətbiqi nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə müəyyən edilmiş modulların işlənməsinə dair Baş Prokurorluğun idarə rəisi Elnur Musayev təqdimatla çıxış etmiş, ən müasir texnologiyaları və dövlət qurumlarının elektron məlumat bazalarına çıxışı nəzərdə tutulmuş sistemin üstünlükləri, işin səmərəliliyinin artırılmasına yönəlmiş funksiyalar diqqətə çatdırılmışdır.






Müşavirədə qısa müddət ərzində bütün prokurorluq orqanlarında tətbiqi nəzərdə tutulan informasiya sisteminin "Elektron Hökumət" portalına və "Elektron Məhkəmə" informasiya sisteminə tam inteqrasiyasının əhəmiyyəti vurğulanmışdır.

Əməliyyat müşavirəsinin sonunda Baş prokuror tərəfindən cari ilin 28 aprel tarixində Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində baş vermiş yanğının səbəblərinin araşdırılmasında fərqləndiklərinə görə Fövqəladə Hallar Nazirliyi üzrə müvafiq əmrlə təltif olunmuş prokurorluq işçilərinə medal və döş nişanları təqdim edilmişdir.

# Baş prokuror Kamran Əliyev bölgələrdə vətəndaşları qəbul etmişdir

## AĞDAM






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev aprelin 11-də Ağdam rayon prokurorluğunun inzibati binasında Ağdam, Ağcabədi və Laçın rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 116 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Qəbuldan sonra Baş prokuror Ağcabədi və Laçın rayon prokurorluqlarında olmaqla əməkdaşlarla görüş keçirmişdir.





## FÜZULİ



Aprelin 21-də Baş prokuror Kamran Əliyev Füzuli rayon prokurorluğunun inzibati binasında Füzuli, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.





Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 35 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Qəbuldan sonra Baş prokuror Füzuli və Xocavənd rayon pro-







kurorluqlarının işçiləri ilə, eləcə də Füzuli hərbi və Beyləqan rayon prokurorluqlarında olmaqla əməkdaşlarla görüş keçirmişdir.

## AĞSTAFA



Baş prokuror Kamran Əliyev aprelin 28-də Ağstafa rayon prokurorluğunun inzibati binasında Ağstafa, Qazax və Tovuz rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.



Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 23 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.







Qəbuldan sonra Baş prokuror Ağstafa, Qazax və Tovuz rayon prokurorluqlarının işçiləri ilə görüş keçirmişdir.

## BƏRDƏ



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev mayın 20-də Bərdə rayon prokurorluğunun inzibati binasında Bərdə və Tərtər rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.



Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 114 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.











Qəbuldan sonra Baş prokuror Bərdə və Tərtər rayon prokurorluqlarının, eləcə də Tərtər və Ağdam hərbi prokurorluqlarının əməkdaşları ilə görüş keçirmişdir.



## GORANBOY





Baş prokuror Kamran Əliyev mayın 27-də Goranboy rayon prokurorluğunun inzibati binasında Naftalan şəhəri, Goranboy və Xocalı rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.








Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 33 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Qəbuldan sonra Baş prokuror Goranboy rayon prokurorluğunun əməkdaşları ilə görüş keçirmiş, bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar vermişdir.

Daha sonra Kamran Əliyev Xocalı rayon prokurorluğuna gələrək prokurorluğun kollektivinin iştirakı ilə iclas keçirmiş, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması və qəbul işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları diqqətə çatdırılmışdır.

## ŞƏMKİR



İyunun 7-də Baş prokuror Kamran Əliyev Şəmkir rayon prokurorluğunun inzibati binasında Şəmkir, Gədəbəy və Daşkəsən rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.









Qəbulda iştirak edən 30 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Kamran Əliyev Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Qəbuldan sonra Baş prokuror Gədəbəy və Daşkəsən rayon, eləcə də Şəmkir hərbi prokurorluqlarına getmiş, əməkdaşlarla görüşlər keçirmişdir.

## MASALLI






İyunun 17-də Baş prokuror Kamran Əliyev Masallı rayon prokurorluğunun inzibati binasında Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini, Birinci və İkinci Qarabağ Müharibəsi şəhidlərinin xatirəsinə yaradılmış abidə kompleksini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirələrini ehtiramla yad etmişdir.










Qəbulda iştirak edən 82 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Kamran Əliyev Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Qəbuldan sonra Baş prokuror Cəlilabad və Yardımlı rayon prokurorluqlarına getmiş, əməkdaşlarla görüşlər keçirmişdir.

## ZAQATALA



İyunun 28-də Baş prokuror Kamran Əliyev Zaqatala rayon prokurorluğunun inzibati binasında Zaqatala, Qax və Balakən rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişdir.







Qəbulda iştirak edən 37 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Kamran Əliyev Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Bundan əlavə, Kamran Əliyev Şəki, Qəbələ və Gədəbəy rayonlarının hər birindən bir nəfər olmaqla vətəndaşları qəbul edərək müraciətləri üzrə konkret tapşırıqlar vermişdir.

Qəbuldan sonra Baş prokuror Qax və Balakən rayon, eləcə də Zaqatala hərbi prokurorluqlarına getmiş, əməkdaşlarla görüşlər keçirmişdir.

***

Baş prokuror Kamran Əliyev bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar vermiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımalarını tabe prokurorluqların əməkdaşlarının diqqətinə çatdırmışdır.

# Prokurorluq əməkdaşlarının Muzey Mərkəzinə ziyarəti təşkil edilib







Aprelin 9-da Mədəniyyət Nazirliyinin Muzey Mərkəzində yerləşən Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və Azərbaycan İstiqlal Muzeyinə prokurorluq əməkdaşlarının ziyarəti təşkil edilib.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi ilə tanış olan prokurorluq əməkdaşlarına milli musiqi mədəniyyətinin dəyərli nümunələri barədə ətraflı məlumat verilib.

Dövlət Teatr Muzeyində Azərbaycan teatrının ayrı-ayrı inkişaf mərhələlərinin bədii-estetik xarakterini, təbiətini, ruhunu özündə əks etdirən nadir eksponatlar nümayiş etdirilib.

Azərbaycan xalqının müstəqilliyi uğrunda mübarizəsinin qədim dövrlərdən bu günə kimi



işıqlandırıldığı İstiqlal Muzeyində ziyarətçilər nadir sənədlər, fotoşəkillər, numizmatik kolleksiyalar, bədii əsərlər və digər əşyalar ilə tanış olub.

Tədbir çərçivəsində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən qədim musiqi alətləri ansamblının ifasında təşkil edilmiş konsert proqramı qonaqların marağına səbəb olub.

Müsbət təəssüratlarla başa çatan ziyarətin sonunda xatirə fotoşəkli çəkilib.













## Prokurorluq orqanlarında media ilə əlaqələrə görə məsul işçilər üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzində təlim keçirilmişdir





Prokurorluq orqanları tərəfindən media, vətəndaş cəmiyyəti institutları, ictimaiyyətlə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi və bu sahədə məsul əməkdaşların peşə vərdişlərinin mütəmadi olaraq təkmilləşdirilməsi ümdə vəzifələrdəndir.

Azərbaycan Respublikası Baş prokurorunun müvafiq Sərəncamına əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Medianın İnkişafı Agentliyi, Ədliyyə Akademiyası və Bakı Dövlət Universiteti ilə birgə Baş Prokurorluğun Mətbuat xidmətinin işçiləri və tabe prokurorluqlarda KİV ilə əlaqələrə görə məsul şəxslər üçün “Natiqlik və sosial media ilə ünsiyyət” mövzusunda qarışıq (əyani və distant) formada təlim keçirilmişdir.

Cari ilin aprel ayının 12-dən 14-dək davam edən təlimin başlıca məqsədi – müvafiq sahədə fəaliyyət göstərən prokurorluq işçilərinin nəzəri biliklərinin və peşə hazırlığının təkmilləşdirilməsi, sosial media ilə davranışın müasir tələblərə uyğunlaşdırılması, etik dəyərlərə arxalanan natiqlik qabiliyyətinin artırılması olmuşdur.

Bu tədbirlərin həyata keçirilməsi üçün ilk öncə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən tədris aparacaq qurumlarla danışıqlar aparılmış, tədris ediləcək mövzular və təlimçilər müəyyən edilmiş, təlimin məqsədlərinə cavab verən tədris materialları hazırlanmış, əldə edilmiş nəticələrə uyğun tədris proqramı tərtib edilmişdir.

Dinləyici qismində 101 prokurorluq işçisi iştirak edən bu təlim üzrə tədris tədbirləri Bakı və Sum-

qayıt şəhərlərində, habelə Abşeron rayonunda qulluq keçən işçilər üçün Elm-Tədris Mərkəzinin inzibati binasında, digər ərazilərdə qulluq keçən işçilər üçün isə internet üzərindən "Zoom" proqramı vasitəsi ilə distant formada canlı vaxt rejimdə həyata keçirilmişdir.

Tədbirə təlimçi qismində Baş Prokurorluğun işçiləri ilə yanaşı, Medianın İnkişafı Agentliyi və Ədliyyə Akademiyasının əməkdaşları, eləcə də Bakı Dövlət Universitetinin Jurnalistika və Filologiya fakültələrinin müəllim heyəti cəlb edilmişdir.

Müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə edilməklə, təlim çərçivəsində mühazirə, təqdimat və sair formalarda tədris edilən və xüsusi maraq doğuran məşğələlərin elektron mətni dinləyicilərə təqdim olunmuşdur.

"Azərbaycan Respublikası Baş Prokurorluğu və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlığa dair" imzalanmış Memoranduma əsasən təcrübə mübadiləsi məqsədilə Akademiyanın Hüquq kafedrasının müəllim heyətinin üzvləri də bu tədbirdə müşahidəçi qismində iştirak etmişlər.

Təlimin yekunu üzrə müzakirə zamanı dinləyicilər əldə etdikləri bilik və bacarıqlardan, media ilə ünsiyyətdə xüsusi əhəmiyyətli olan mövzuların peşəkarcasına tədrisindən razı qaldıqlarını ifadə etmişlər.









# "Tvinninq" layihəsi üzrə ekspertlər Bakı şəhərinə səfər etmişlər








Əvvəllər məlumat verildiyi kimi, "Avropa Qonşuluq Aləti" çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə tərəfdaş ölkə Litva Xüsusi İstintaq Xidməti arasında "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi həyata keçirilir. Aprelin 11-dən 15-dək layihənin "Strateji planlaşdırma və qanunvericilik bazasının inkişaf etdirilməsi yolu ilə aktivlərin milli bərpası sisteminin formalaşdırılması" və "Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin milli aktivlərin bərpası qurumu kimi formalaşdırılması üçün institusional strukturu və fəaliyyətinin təkmillşdirilməsi" adlı 1-ci və 2-ci komponentləri üzrə Belçika Krallığının Aktivlərin bərpası və idarə olunması ofisinin rəhbəri və Litva Respublikasının Xüsusi İstintaq Xidməti və Polis bürosunun əməkdaşlarından ibarət qısamüddətli ekspertlər qrupu Bakı şəhərinə səfər etmişdir.

Səfər zamanı ekspertlərə ölkəmizdə aktivlərin bərpası və idarə edilməsi sahəsində mövcud qanunvericilik bazası, bu sahənin inkişafı üçün həyata keçirilən tədbirlər,

o cümlədən, maliyyə istintaqı, cinayət təqibindən kənar müsadirə, aktivlərin bərpası və məhkəməyəqədər səmərəli idarə olunmasına dair hazırlanmış yeni qanun layihələri, görülməsi nəzərdə tutulan digər tədbirlər barədə məlumat verilmiş, ekspertlərin sualları ətraflı cavablandırılmışdır.



Səfər çərçivəsində qısamüddətli ekspertlər Baş Prokurorluq və ərazi prokurorluqların 1-ci və 2-ci komponent üzrə cəlb edilmiş 25 əməkdaşının iştirakı ilə Belçika Krallığı və Litva Respublikasında cinayət aktivlərinin bərpası və idarə olunması sahəsində fəaliyyətə dair geniş təqdimatla çıxış etmişlər. Maraqla qarşılanan təqdimatlar üzrə aktivlərin bərpası və idarə olunması sahəsində mütərəqqi Avropa təcrübəsinə dair fikir mübadiləsi həyata keçirilmişdir.



Fakt araşdırma missiyasının sonuncu günü ekspertlər qanunvericilik bazasına dair əldə etdikləri məlumatlar əsasında "Cinayət aktivlərinin bərpası üzrə Milli Strategiya və Fəaliyyət planı", həmçinin "Aktivlərin bərpası haqqında" Qanun layihələrində əks olunmalı müddəalara dair mülahizələrini təqdim etmiş və faydalı müzakirələr aparılmışdır.



# Baş Prokurorluqda “Açıq qapı günü” keçirilib






Gənc hüquqşünasların hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq Baş Prokurorluqda “Açıq qapı günü” keçirilib.

Aprelin 19-da Baş Prokurorluğun paytaxtın Səbail rayonu, Nigar Rəfibəyli küç. 7 ünvanında yerləşən inzibati binasında keçirilmiş tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə gənc hüquqşünasları tanış etmək olub.

Tədbirdə Bakı Dövlət və “ADA” universitetlərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik, Milli Aviasiya, Dövlət Gömrük Komitəsi akademiyalarının hüquq fakültələrində təhsil alan tələbələri iştirak edib.

Qonaqları salamlayan Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışıb.





Gənc hüquqşünaslara neoqotik üslubda inşa olunmuş inzibati binanın rəsmi olaraq dövlət əhəmiyyətli memarlıq abidəsi olması barədə məlumat verilib.

Ekskursiya iştirakçıları Azərbaycan Prokurorluğunun Tarix muzeyində prokurorluğun tarixi keçmişini özündə əks etdirən ekspozisiyalar ilə tanış olub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

Prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən peşəkar dövlət təsisatı kimi yenidən formalaşdırılması məqsədilə həyata keçirilən əsaslı islahatlar barədə söz açan Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə qurumun strukturunun qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla yenidən formalaşdırıldığını qeyd edib.

Tədbir zamanı Baş Prokurorluğun bir neçə struktur qurumunun təcrübəli əməkdaşları tərəfindən müvafiq idarələrin fəaliyyəti barədə dinləyicilərə ətraflı məlumatlar verilib.

Prokurorluq orqanlarında görülmüş işlərlə bağlı videoçarxı izlədikdən sonra gənc hüquqşünaslarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb. Sonda xatirə fotoşəkli çəkdirilib.

# Prokurorluq əməkdaşları Qobustan Milli Tarix-Bədii Qoruğunda olub








Aprelin 23-də Baş Prokurorluq və Qobustan Milli Tarix-Bədii Qoruğunun birgə təşkilatçılığı ilə prokurorluq əməkdaşlarının ziyarəti təşkil edilib.

Ziyarət zamanı qonaqlara Qobustan abidələri, burada aparılan elmi-tədqiqat işlərinin nəticələri, qoruqda görülən işlər və yeni layihələr barədə məlumatlar verilib.

Bəşər cəmiyyətinin ilkin dövründə yaşayan əcdadlarımızdan xalqımıza miras qalan abidələrlə tanış olan ziyarətçilər Qobustan qayalarındakı insan, heyvan, kollektiv əmək, qayıq, döyüş və ov səhnələrinin təsvirlərinə baxıb.

Açıq səma altında muzey ziyarətçilərin böyük marağına səbəb olub.

Müsbət təəssüratlarla başa çatan ziyarətin sonunda xatirə fotoşəkli çəkilib.

# Lənkəranda "Müasir dövrün çağırışlarında media ilə dialoq" adlı konfrans təşkil edilib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinin tələblərinə və beynəlxalq standartlara uyğun olaraq, aşkarlıq və şəffaflığın təmin olunması, əsas insan və vətəndaş hüquqlarının qorunması prokurorluq orqanlarının əsas prioritet istiqamətlərindən biri olmaqla bu sahədə mövcud münasibətlərin inkişaf etdirilməsinə yönələn kompleks islahatlar həyata keçirilməkdədir.

Regional media, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti institutları ilə mövcud kommunikasiyanın möhkəmləndirilməsi məqsədilə cari il martın 14-də Baş Prokurorluğun təşkilatçılığı ilə Gəncə şəhərində təşkil edilmiş konfransın əhəmiyyətli nəticələrə səbəb olması nəzərə alınaraq, silsilə tədbirlərin davamı olaraq aprelin 28-də Lənkəranda "Müasir dövrün çağırışlarında media ilə dialoq" adlı işgüzar konfrans təşkil edilib.

Konfransda Baş Prokurorluq, Daxili İşlər, Ədliyyə, Müdafiə, Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, habelə Dövlət Təhlükəsizliyi Xidmətinin, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Mətbuat Şurasının nümayəndələri iştirak edib.

Astara, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Lerik, Lənkəran, Masallı, Yardımlı rayon və Lənkəran Hərbi prokurorluqlarının








media ilə işləməyə məsul əməkdaşlarının da olduğu konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Lənkəran şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Konfrans iştirakçıları şəhidlərin əziz xatirəsinə həsr olunmuş "Şəhidlər Xatirə Kompleksi"nə baş çəkib, qəbirlər üzərinə tər çiçəklər düzərək xatirələrini ehtiramla yad edib.

Tədbir çərçivəsində media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə Lənkəran rayon prokurorluğunun inzibati binasına press-tur təşkil olunub.

İnzibati binanın infrastrukturu barədə məlumatlandırılan press-tur iştirakçıları inzibati binada əməkdaşlar üçün yaradılmış iş şəraiti, habelə kriminalistik avtomobil və avadanlıqlarla tanış olub.

İştirakçılara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib.

Tədbirdən öncə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətən övladlarının xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Lənkəran rayon prokuroru Taryel Ələkbərov informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə təşkil olunmuş işgüzar konfransın əhəmiyyətindən bəhs edib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev zamanın tələbinə uyğun olaraq prokurorluq orqanlarının sosial media fəaliyyətinin gücləndirilməsi istiqamətində kompleks işlər görüldüyünü qeyd edib, media və qeyri-hökumət təşkilatları ilə kommunikasiyanın gücləndirilməsinin zəruriliyini vurğulayıb,

vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılmasının əhəmiyyətli olduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

2021-2023-cü illər üzrə Baş Prokurorluğun kommunikasiya strategiyasından bəhs edən Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə prokurorluğun sosial media platformalarında olan müraciət, sorğu və təkliflərə həssaslıqla yanaşıldığını, hazıradək 200-ə qədər müraciətin məhz sosial media platformalarında olan hesablar vasitəsilə qəbul edildiyini bildirib.

Tədbir zamanı, həmçinin, dövlət qurumlarının sözçüləri çıxışlar edib, birgə əməkdaşlığın perspektivləri barədə təkliflər səsləndirilib.

Konfrans iştirakçıları mövcud əməkdaşlıqdan məmnunluqlarını bildirərək, gələcəkdə də dəyirmi masa və görüşlərin təşkilinin əhəmiyyətli olacağını vurğulayıblar.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.










# Prokurorluqda press-tur keçirilib

Baş Prokurorluğun təşkilatçılığı ilə Lənkəranda “Müasir dövrün çağırışlarında media ilə dialoq” adlı işgüzar konfrans keçirilmişdir.

Tədbir çərçivəsində media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə Lənkəran rayon prokurorluğunun inzibati binasına press-tur təşkil olunub.

İnzibati binanın infrastrukturu barədə məlumatlandırılan press-tur iştirakçıları inzibati binada əməkdaşlar üçün yaradılmış iş şəraiti, habelə kriminalistik avtomobil və avadanlıqlarla tanış olub.

İştirakçılara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib.

Konfransın detalları barədə ətraflı məlumat veriləcək.














# Azərbaycan Respublikasının Xalq yazıçısı Çingiz Abdullayevlə prokurorluq əməkdaşları arasında Baş Prokurorluqda görüş keçirilib



Azərbaycan Respublikasının Xalq yazıçısı Çingiz Abdullayevlə prokurorluq əməkdaşları arasında mayın 5-də Baş Prokurorluqda görüş keçirilib.

Görkəmli yazıçı prokurorluq əməkdaşlarının suallarını cavablandırıb, onlarla öz xatirələrini bölüşüb.

Məlum olduğu kimi, Çingiz Abdullayev müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olmaqla, əsasən dedektiv janrında yazdığı əsərləri ilə geniş oxucu kütləsinin xüsusi rəğbətini qazanmışdır. Ümumilikdə 27 milyon nüsxədə 600-dən çox kitabı Almaniya, İrlandiya, Rusiya və digər ölkələrdə geniş yayılmışdır.

O, 2014-cü ildən “İnterpol”un fəxri səfiri, 2015-ci ildən isə “Neftçi” futbol klubunun müşahidə şurasının sədridir.

Çingiz Abdullayevin əsərləri əsasında çəkilən bədii filmlər və televiziya serialları tamaşaçılar arasında rəğbətə səbəb olmuşdur.

Səmimi görüşdən sonra dahi yazıçı müəllifi olduğu kitabları prokurorluq əməkdaşları üçün imzalayıb.





# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar prokurorluq orqanlarının veteranları ilə görüş keçirilmişdir









"Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvlərinin, Baş Prokurorluğun əməkdaşlarının və gənc prokurorluq işçilərinin iştirakı ilə 06 may 2022-ci il tarixdə Baş Prokurorluğun inzibati binasında "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş" tədbir keçirilmişdir.

Tədbirdə veteranlar və prokurorluq əməkdaşları tərəfindən Xalqımızın ümummilli lideri Heydər Əliyevin 14 iyul 1969-cu ildən başlayaraq respublikaya rəhbərlik etməsi ilə Azərbaycanda yeni bir tarixi dövrün təməlinin qoyulması, onun fəaliyyətinin gələcəkdə müstəqillik əldə edəcək Azərbaycanın öz suverenliyini qoruyub saxlaması üçün həyati vacibliyi, iqtisadi və sosial inkişaf baxımından digər sovet respublikalarından geri qalan Azərbaycan Respublikasının məhz ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində qısa müddət ərzində regionun və bütün Sovetlər birliyinin lider respublikalarından birinə çevrilməsi, kənd təsərrüfatının, yüngül və ağır sənayenin, təhsilin, idmanın, mədəniyyətin, incəsənətin və ümumilikdə bütün sahələrin inkişafında, sovet dövründə gənc milli kadrların hazırlanmasında ulu öndərin müstəsna rolu qeyd edilmişdir.

Bundan əlavə, tədbir zamanı yenicə qazandığı müstəqilliyini itirmək təhlükəsi ilə üzbəüz qalmış müasir Azərbaycan dövlətinin məhz ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə xilas olması, dövlət idarəçiliyi və azərbaycançılıq ideyalarının əbədiliyi, gənclər siyasəti, həyat yolu barədə, həmçinin ulu öndərin Azərbaycan Prokurorluğunun inkişafında müstəsna rolu barədə gənc prokurorluq əməkdaşlarına məlumat verilmiş, məhz tarixdə ilk dəfə "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" və prokuroluğun fəaliyyətini tənzimləyən digər qanun və normativ aktların qəbul olunmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğu vurğulanmışdır.

Ulu öndər Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də apardığı siyasətin məntiqi nəticəsi olaraq, 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın onun ən layiqli davamçısı, Vətən müharibəsinin fatehi Müzəffər Ali Baş Komandan Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin başçılığı ilə işğaldan azad olunması xüsusi vurğulanmışdır.

# Salyan şəhərində “Media və hüquqi maarifləndirmə” adlı konfrans təşkil edilib



Regional media, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti institutları ilə mövcud kommunikasiyanın möhkəmləndirilməsi məqsədilə Baş Prokurorluğun silsilə tədbirlərinin davamı olaraq mayın 6-da Salyan şəhərində “Media və hüquqi maarifləndirmə” adlı işgüzar konfrans təşkil edilib.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Salyan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Tədbir çərçivəsində media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə Salyan rayon prokurorluğunun inzibati binasına press-tur təşkil olunub.



Salyan rayon prokuroru Rəşad Mansurov informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə təşkil olunmuş işgüzar konfransın əhəmiyyətindən bəhs edib.

2021-2023-cü illər üzrə Baş Prokurorluğun kommunikasiya strategiyasından bəhs edən Baş Prokurorluğun Mətbuat xidmətinin prokuroru Mələk Əliyeva vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə prokurorluğun sosial media platformalarında olan müraciət, sorğu və təkliflərə həssaslıqla yanaşıldığını, hazıradək 200-ə qədər müraciətin məhz sosial media platformalarında olan hesablar vasitəsilə qəbul edildiyini bildirərək vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılmasının əhəmiyyətli olduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin prokuroru Aynur Əfəndiyeva media və qeyri-hökumət təşkilatları ilə kommunikasiyanın gücləndirilməsinin zəruriliyini vurğulayaraq prokurorluq orqanlarının sosial media fəaliyyətinin gücləndirilməsi istiqamətində görülmüş kompleks işlər barədə məlumat verib.

Konfrans iştirakçıları mövcud əməkdaşlıqdan məmnunluqlarını bildirərək, gələcəkdə də görüşlərin təşkilinin əhəmiyyətli olacağını vurğulayıblar.

Daha sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.







# "ADA" Universiteti və Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanmışdır







Müasir dövrün tələblərindən irəli gələrək prokurorluq orqanlarının prioritet fəaliyyət istiqamətlərindən olan peşə hazırlığının və tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi, ölkənin aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir.

Qeyd olunanlarla bağlı ölkəmizin aparıcı ali təhsil müəssisələrindən olan "ADA" Universiteti ilə səmərəli əməkdaşlığın daha da inkişaf etdirilməsi və birgə layihələrin həyata keçirilməsi xüsusi önəm kəsb edir.

12 may 2022-ci il tarixdə "ADA" Universitetinin Hüquq Proqramının direktoru Rəşad İbadovun rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur. Qonaqlar Baş Prokurorluğun yeni inzibati binalar kompleksi, o cümlədən Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, mühazirə zalı, praktiki və fakültativ məşğələlər auditoriyaları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar. Eyni zamanda, tədbir çərçivəsində "Baş Prokurorluğun Elektron Kitabxanası" və "Prokurorluğun Tədris Tədbirlərinin Elektron Bazası" informasiya sistemlərinin, "Distant Tədris" platformasının və Mərkəzin əməkdaşları tərəfindən idarə olunan digər informasiya texnologiyalarının təqdimatı da həyata keçirilmişdir.

Tədbirin nəticələrinə uyğun olaraq, "ADA" Universiteti və Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Bu Memorandum hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin və müəllimlərin Baş Prokurorluğun struktur bölmələrində və tabe prokurorluqlarda təcrübə keçməsi, birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, tədris-metodiki vəsaitlərin və mətbu nəşrlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edir.

# Prokurorluq əməkdaşları Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olub








Mayın 14-də prokurorluq əməkdaşlarının Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinə ziyarəti təşkil edilib.

Ziyarət zamanı qonaqlar Qala kəndinin qədim tarixi ilə tanış olub.

Məlumat verilib ki, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi dünyanın açıq səma altında yaradılmış nadir muzeylərindən biridir.

Prokurorluq əməkdaşları qədim Qala kəndində yaşayan əhalinin həyat tərzi, kurqanlar, sərdabələr, yaşayış evləri, qədim qəsrin qalıqları və sair eksponatlarla canlı olaraq yerində tanış olub.

Dulusçuluq, çörəkbişirmə sexlərinin orta əsrlərdəki kimi bu gün də fəaliyyət göstərdiyi Kompleks qonaqların böyük marağına səbəb olub.

Müsbət təəssüratlarla başa çatan ziyarətin sonunda xatirə fotoşəkli çəkilib.

# Avropa Şurasının “HELP e-learning” platformasında hakim və prokurorluq işçiləri üçün təşkil olunan kurs yekunlaşdırılıb




Avropa Şurası və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə əməkdaşlıq çərçivəsində Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini, HELP milli tyutoru Günay Əyyubova tərəfindən Avropa Şurasının “HELP e-learning” platforması üzərindən 23 nəfər – 11 hakim və 12 prokurorluq işçisinə “Cinayət prosesində prosessual təminatlar və qurbanların hüquqları” mövzusunda distant kurs təşkil edilmişdir.

2 ay müddətində davam edən distant kursa yekun vurulmuşdur. 8 nəfəri prokurorluq işçisi olmaqla 12 nəfər müvəffəqiyyət əldə etmişlər. Yüksək nəticə nümayiş etdirən şəxslərə Avropa Şurasının sertifikatları təqdim ediləcək.

Kursun gedişi maraq doğurduğu üçün Avropa Şurası rəsmi veb-saytında və “Facebook”, “Twitter” sosial media hesablarında işıqlandırılmışdır.

https://go.coe.int/4OuBU
https://www.facebook.com/CoEHELP
https://twitter.com/CoEHELP






# Baş Prokurorluqda TAIEX texniki yardım aləti çərçivəsində bir neçə mövzu üzrə təlim keçirilmişdir






Baş Prokurorluqda TAIEX texniki yardım aləti çərçivəsində "Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin qarşısının alınması (prevensiyası) və bu işlər üzrə dövlət ittihamının müdafiə edilməsinin xüsusiyyətləri" movzusunda cari ilin 16-19 may tarixlərində təlim keçirilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun müraciəti əsasında TAIEX texniki yardım aləti çərçivəsində Avropa Komissiyası tərəfindən "Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin qarşısının alınması (prevensiyası) və bu işlər üzrə dövlət ittihamının müdafiə edilməsinin xüsusiyyətləri" movzusunda 16-19 may 2022-ci il tarixlərdə təşkil edilmiş ekspert missiyası başa çatmışdır.

Dəyirmi masa formatında təşkil olunmuş 4 günlük təlimdə Baş Prokurorluq, Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi və bir sıra birinci instansiya məhkəmələrinin hakimləri, habelə Daxili İşlər və Ədliyyə nazirliklərinin nümayəndələri iştirak etmişlər.

Təlimin ilk günü tədbiri giriş nitqi ilə açan Baş prokurorun müavini Heydər Məmmədov bildirmişdir ki, dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan beynəlxalq əməkdaşlığın gücləndirilməsi, habelə qabaqcıl ölkələrin müsbət təcrübəsinin öyrənilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin təşəbbüsü ilə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi tərəfindən 2022-ci il və sonrakı müddət üçün həyata keçirilməsi nəzərdə tutulmuş Avropa İttifaqının TAİEX proqramı






çərçivəsində əməkdaşlığa başlanılmışdır. Fərdi yanaşma və praktiki səmərəlilik prinsipləri əsasında həyata keçirilən TAIEX aləti İttifaqa üzv ölkələrin müsbət təcrübəsinin öyrənilməsində mühüm vasitə kimi çıxış edir.

Heydər Məmmədov çıxışında bildirmişdir ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkədə gənclərin iqtisadi, sosial, mədəni və sair hüquqlarının təmin edilməsi ilə bağlı bir sıra qanunlar qəbul edilmiş, bu sahədə milli qanunvericiliyin Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalara uyğunlaşdırılması sahəsində xeyli işlər görülmüş və Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrində yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə bir çox mütərəqqi normalar nəzərdə tutulmuşdur. Bu xüsusda qabaqcıl ölkələrin müsbət təcrübəsinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir və müvafiq ekspert missiyasının təşkili bu istiqamətdə görülən işlərin səmərəliliyinin daha da artırılmasına yönəlmişdir.

İnteraktiv formada təşkil edilmiş təlim zamanı İspaniyadan olan ekspertlər Silviya Martinez Kanton və Vanessa Untiyed tərəfindən təlimin mövzusu ətrafında çıxışlar və təqdimatlar edilərək Avropa İttifaqının yuvenal ədliyyəsinin ümumi prinsipləri, bu sahədə cinayət prosesinin istintaq texnikası, psixoloji cəhətləri və məhkəmə icraatının xüsusiyyətləri, Avropa İttifaqı və BMT çərçivəsində formalaşmış beynəlxalq-hüquqi baza, habelə Avropa İnsan Hüquqları Məhkəməsinin yanaşma və standartları, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin qarşısının alınması və sair mövzular barədə geniş məlumat verilmişdir.

# Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilmişdir





Mayın 17-də Baş Prokurorluqda Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmaqla təsdiq edilmiş Baş Prokurorluğun 2022-ci il üçün mülki müdafiə üzrə tədbirlər planına müvafiq olaraq Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsi və FHN-in Mülki müdafiə işinin təşkili baş idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluğunun mərkəzi aparatında fəaliyyət göstərən idarələr üzrə rəis müavinlərinin iştirak etdiyi rəhbər heyətin mülki müdafiə məşqinə dair tədbir keçirilmişdir.

Tədbirin keçirilməsində məqsəd fövqəladə hadisələr zamanı Baş Prokurorluğun rəhbər heyətinin funksional vəzifələrinin öyrənilməsi, əməkdaşların təhlükəsizliyini təmin edən tədbirlərin həyata keçirilməsi üzrə hazırlıq səviyyəsinin yüksəldilməsi, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə qüvvələrinin idarə olunmasının təşkilində praktiki vərdişlərin artırılması olmuşdur.

Tədbirdə Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəis müavini Sahib İsmayılov çıxış edərək mülki müdafiənin təşkili məsələlərinin əhəmiyyətini vurğulamaqla prokurorluq orqanlarında bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərdən bəhs etmişdir.

Məşğələdə FHN-in Mülki müdafiə işinin təşkili baş idarəsinin əməkdaşları Kərim Rəhimov və Şəmsəddin Hüseynov mövzu ilə bağlı çıxış edərək fövqəladə hadisələrin baş verməsi təhlükəsinin maksimum azaldılması və insanların sağlamlığının qorunmasına yönəldilən tədbirlər barədə ətraflı məlumat vermişdir.

Tədbirin sonunda Fövqəladə Hallar Nazirliyi tərəfindən keçirilmiş qəza-xilasetmə təlimlərinin gedişini əks etdirən sənədli film nümayiş etdirilmişdir.

# Qazax şəhərində “Media və hüquqi maarifləndirmə” adlı regional konfrans təşkil edilib










Regional media, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti institutları ilə mövcud kommunikasiyanın möhkəmləndirilməsi məqsədilə Baş Prokurorluğun silsilə tədbirlərinin davamı olaraq mayın 20-də Qazax şəhərində “Media və hüquqi maarifləndirmə” adlı işgüzar konfrans təşkil edilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin Qazax şəhərinin mərkəzində ucaldılmış abidəsini, Heydər Əliyev Mərkəzini, Şəhidlər Xiyabanını və İkinci Qarabağ Müharibəsi şəhidlərinin xatirəsinə yaradılmış abidə kompleksini ziyarət edib.

Qazax Rayon İcra Hakimiyyətinin inzibati binasında təşkil olunmuş tədbirdə Qazax, Tovuz və Ağstafa rayon prokurorları və əməkdaşları, Bakı Dövlət Universitetinin Qazax filialının, Qazax Dövlət Sosial-İqtisad kollecinin tələbələri, media qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və rayon prokuroru Rauf Gözəlov çıxış edərək informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə təşkil olunmuş işgüzar konfransın əhəmiyyətindən bəhs ediblər.

2021-2023-cü illər üzrə Baş Prokurorluğun kommunikasiya strategiyasından bəhs edən Baş Prokurorluğun Mətbuat xidmətinin prokuroru Mələk Əliyeva vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə prokurorluğun sosial media platformalarında olan müraciət, sorğu və təkliflərə həssaslıqla yanaşıldığını, hazıradək 220-ə qədər müraciətin məhz sosial media platformalarında olan hesablar vasitəsilə qəbul edildiyini bildirərək vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılmasının əhəmiyyətli olduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin prokuroru Aynur Əfəndiyeva media və qeyri-hökumət təşkilatları ilə kommunikasiyanın gücləndirilməsinin zəruriliyini vurğulayaraq prokurorluq orqanlarının sosial media fəaliyyətinin güclən-




dirilməsi istiqamətində görülmüş kompleks işlər barədə məlumat verib.

Konfransda həmçinin son dövrlər aktuallığı ilə seçilən narkomaniya probleminin mübarizə yolları müzakirə olunub, tədbir iştirakçılarına Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi tərəfindən hazırlanmış "Narkomaniyaya yox de" adlı broşurları təqdim edilib.

Konfrans iştirakçıları mövcud əməkdaşlıqdan məmnunluqlarını bildirərək, gələcəkdə də görüşlərin təşkilinin əhəmiyyətli olacağını vurğulayıblar.

Daha sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.






# Gənc hüquqşünaslar Baş Prokurorluqda olublar








Gənc hüquqşünasların hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq Baş Prokurorluqda "Açıq qapı günü" keçirilib.





Mayın 20-də Baş Prokurorluğun paytaxtın Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsində yerləşən inzibati bina kompleksində keçirilmiş tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə gənc hüquqşünasları tanış etmək olub.

Tədbirdə Bakı Dövlət və "ADA" universitetlərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik, Milli Aviasiya, Dövlət Gömrük Komitəsi akademiyalarının hüquq fakültələrində təhsil alan tələbələri iştirak edib.

Qonaqları salamlayan Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov əməkdaşların səmərəli fəaliyyəti üçün bütün imkanların yaradıldığı inzibati bina kompleksi ilə bağlı ətraflı məlumat verib.

Gənc hüquqşünaslar kitabxana, kriminalistika otaq və texnikaları ilə tanış olub, habelə onlara bina kompleksində yerləşən bir neçə struktur qurumunun təcrübəli əməkdaşları tərəfindən müvafiq idarələrin fəaliyyəti barədə ətraflı məlumatlar verilib.

Müasir dövrün tələblərinə cavab verən peşəkar dövlət təsisatı kimi yenidən formalaşdırılması məqsədilə prokurorluq orqanlarında həyata keçirilən əsaslı islahatlar barədə söz açan Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə qurum tərəfindən beynəlxalq əlaqələrin qurulması məqsədilə həyata keçirilən tədbirlərdən danışıb.

Gənc hüquqşünaslarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

Sonda xatirə fotoşəkli çəkdirilib.

# 2022-ci ildə prokurorluq orqanlarına qulluğa qəbul olunmuş və stajorluq keçən işçilər üçün təşkil edilmiş hazırlıq kursu uğurla başa çatdırılmışdır



Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin müvafiq sərəncamına əsasən prokurorluq orqanlarına 2022-ci ildə qulluğa qəbul olunmuş və stajorluq keçən 75 işçi üçün hazırlıq kursu üzrə tədris tədbirləri qarışıq formada, o cümlədən cari ilin may ayının 11–25 və 31-i iş yerindən ayrılmadan internet üzərindən onlayn rejimində, may ayının 26 və 27-si isə əyani formada Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirildi.

Bu tədbirlərin həyata keçirilməsi üçün ilk öncə Mərkəz tərəfindən tədris aparacaq qurumlarla danışıqlar aparılmış, tədris ediləcək mövzular







peşəkar əməkdaşları cəlb olunaraq, bu tədbirin ərsəyə gəlməsində müxtəlif statusda 130 nəfərdən artıq şəxs iştirak etdi.

Hazırlıq kursunun tədris proqramında praktiki əhəmiyyət kəsb edən, öyrənilməsi dövlət proqramlarında nəzərdə tutulan, eləcə də praktiki fəaliyyətdə əhəmiyyətli, habelə mürəkkəb xarakter daşıyan mövzulara üstünlük verilmişdir. Dinləyicilərdə peşə vərdişlərinin formalaşmasına töhfə verəcək bu mövzular üzrə məşğələlər müasir informasiya-kommunikasiya texnologiyalar-



və təlimçilər müəyyən edilmiş, kursun məqsədlərinə cavab verən tədris materialları hazırlanmış, əldə edilmiş nəticələrə uyğun tədris proqramı tərtib edilmişdir.

Kursa təlimçi qismində prokurorluğun təcrübəli işçiləri ilə yanaşı, Azərbaycan Respublikası Milli Məclisinin və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın məsul nümayəndələri, səhiyyə və ədliyyə orqanlarının ekspertiza mərkəzlərinin

dan, eləcə də təhlil-tədqiqat materiallarından geniş istifadə etməklə tədris edildi. Bu səbəbdən dinləyicilər tədris olunan materiallara maraq, təlimçilərlə ünsiyyətdə isə aktivlik göstərmiş, təcrübədə istifadə olunması üçün əksər məşğələlərin elektron mətni onlara təqdim edildi.

Həmçinin kurs dövründə dinləyicilər Ədliyyə Nazirliyinin Bakı İstintaq Təcridxanasının fəaliyyəti ilə yaxından tanış oldular, Baş Prokurorluğun

Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfindən hazırlanmış səhnələşdirilmiş hadisə yerinə baxışın və dronla çəkilişinin aparılmasında iştirak etdilər, habelə təcrübə mübadiləsi məqsədilə Bakı şəhərinin rayon prokurorluqlarında real şəraitdə keçirilən prosessual hərəkətləri müşahidə etdilər.

Mədəni tədbirlər çərçivəsində gənc prokurorluq işçiləri milli-mənəvi dəyərlərimizi, tariximizi,











NİZAMİ RAYON PROKURORLUĞU


Zəfər sizindir
AZƏRBAYCAN ƏSGƏRİ
Qarabağ



adət-ənənələrimizi, ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında əvəzsiz xidmətlərini, onun ictimai-siyasi fəaliyyətini təbliğ edən, bugünkü Azərbaycanın dinamik inkişafını, keçmişdən gələcəyə bağlılığını təcəssüm etdirən Heydər Əliyev Mərkəzi ilə tanış oldular.

Mövcud olan əməkdaşlıq haqqında anlaşma memorandumlara əsasən təcrübə mübadiləsi məqsədilə bu tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyanın Hüquq kafedrasının müəllim heyətinin üzvləri, eləcə də Dövlət Gömrük Komitəsi Akademiyasının magistratura səviyyəsində təhsil alan şəxslər müşahidəçi qismində iştirak etdilər.





# Baş Prokurorluqda "Elektron cinayət işi" proqramının təqdimatı keçirilib





İyunun 3-də "Elektron cinayət işi" proqramının yenilənmiş versiyası və tam yeni "Elektron cinayət xəritəsi" proqramının Baş Prokurorluğun Binəqədi rayonundakı yeni inzibati binasında təqdimatı keçirilib.

Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov tədbiri giriş nitqi ilə açaraq prokurorluq orqanlarında müasir informasiya texnologiyalarının tətbiqi barədə iştirakçılara məlumat verib.

İdarənin mühəndis-proqramçıları tərəfindən proqramların funksiyaları barədə geniş izah verilib.

"Elektron cinayət işi" proqramı Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfindən hazırlanmış ən funksional proqram olmaqla, ilkin araşdırma və ibtidai istintaqa cəlb edilmiş əməkdaşların işinin daha da asanlaşdırılması və səhvlərə yol verilməsinin qarşısının alınması məqsədilə əvvəlki proqram təminatının iş təcrübəsi və çatışmazlıqları, habelə daxil olmuş təklifləri nəzərə alınmaqla yaradılmışdır. Yeni proqram modul arxitekturası əsasında yazılmış, proqramın yaradılması zamanı elektron imza sertifikatlarının, FİN və











QR kodlarının geniş istifadəsi nəzərə alınmış, “Elektron prokurorluq” və “Elektron məhkəmə” informasiya sistemlərinə, “Elektron hökumət” və digər dövlət portallarına qoşulma imkanları yaradılmışdır.

Proqram, ilkin araşdırma və ibtidai istintaqı əhatə edərək, işlər üzrə proses iştirakçıların anket məlumatlarını, törədilmiş cinayət əməlinin tövsifini, fabulasını, iştirakçılığı, məhkumluqları, təqsirləndirilən şəxsin şəxsiyyətini səciyyələndirən halları, prosesin digər iştirakçılarını, ilkin araşdırmanı və ibtidai istintaqı aparan şəxs barədə məlumatları, keçirilmiş ekspertiza nəticələrini və digər əhəmiyyətli parametrləri nəzərə almaqla iş üzrə ətraflı arayış hazırlamaq imkanına malikdir. Proqram çoxsaylı parametr üzrə daxil edilmiş məlumatları nəzərə almaqla lazımi hesabatların çıxarılmasına imkan verir. Proqramda həmçinin istintaqçıların və prosessual rəhbərlərin fəaliyyətinə rəhbər heyət tərəfindən nəzarətin həyata keçirilməsi nəzərə alınmışdır.

Tam yeni yazılmış və ölkənin İT təcrübəsində analoqu olmayan “Cinayət xəritəsi” proqramı vasitəsilə yaradılmış elektron xəritədə cinayətlərin baş verdiyi yerlərinin dəqiq koordinatları, törədilmə vaxtı, cinayəti törətmiş və zərərçəkən şəxslərə, cinayət işinin başlandığı maddəyə dair məlumatların, hadisə yerinin fotoşəkillərinin əks olunması nəzərdə tutulmuşdur. Göstərilən məlumatlar illərə, aylara, ərazilərə, maddələrə, cinayətkarın və cinayətin qurbanının yaş həddinə, cinsinə və digər xüsusatlar üzrə axtarış nəticəsinə əsasən əhəmiyyət kəsb edən cinayət hadisələrini elektron xəritədə göstərir.

Tədbirdə ölkədə istintaq aparan qurumlarının istintaq və informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən nümayəndələri iştirak edib, təqdimat üzrə fikir mübadiləsi aparılmaqla, qeyd edilən proqramlarının həmin orqanlarında istifadə imkanları müzakirə edilmişdir.

# Özbəkistanın Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur








2021-ci ilin 1 noyabr tarixində Bakı şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının baş prokurorlarının birinci iclası çərçivəsində Azərbaycan və Özbəkistan baş prokurorluqları arasında imzalanmış “2022-2023-cü illər üçün Əməkdaşlıq Proqramı”ndan irəli gələn müddəaların icrası məqsədilə Özbəkistan prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.



İyunun 8-də Baş prokurorun birinci müavini Elçin Məmmədov nümayəndə heyəti ilə görüşüb. Qonaqları səmimi salamlayan E.Məmmədov bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, ölkə başçılarının siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağı, xalqlarımızın rifahına xidmət göstərəcəyini vurğulayıb.

Özbəkistan Baş Prokurorluğunun idarə rəisi Bəxtiyor İbrohimov yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını ifadə edərək səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd edib.



Daha sonra əməkdaşlıq proqramı çərçivəsində “Prokurorun işlərə məhkəmələrdə baxılmasında iştirakı” mövzusunda seminar keçirilib. Tədbirdə Azərbaycan və Özbəkistan prokurorluq əməkdaşları





mövzu ətrafında təqdimatlarla çıxış ediblər.

Səfər çərçivəsində qonaqlar ölkəmizin prokurorluq orqanlarının, o cümlədən Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsinin, Elm-Tədris Mərkəzinin, Sumqayıt şəhər prokurorluğunun fəaliyyəti, habelə ölkəmizin zəngin mədəni-tarixi irsi ilə tanış olublar.



# Ağcabədi şəhərində "Media və hüquqi maarifləndirmə" adlı konfrans təşkil edilib





Regional media, QHT və vətəndaş cəmiyyəti institutları ilə mövcud kommunikasiyanın möhkəmləndirilməsi məqsədilə Baş Prokurorluğun silsilə tədbirlərinin davamı olaraq iyunun 10-da Ağcabədi şəhərində "Media və hüquqi maarifləndirmə" adlı işgüzar konfrans təşkil edilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.






Tədbir çərçivəsində media qurumları və QHT nümayəndələrinin iştirakı ilə Ağcabədi rayon prokurorluğunun inzibati binasına press-tur təşkil olunub,onlar infrastruktur və əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olub.

Ağcabədi rayon prokuroru Vüqar Hacıyev informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə təşkil olunmuş işgüzar konfransın əhəmiyyətindən bəhs edib.

2021-2023-cü illər üzrə Baş Prokurorluğun kommunikasiya strategiyasından söz açan Mətbuat xidmətinin prokuroru Əbdülsəməd Əzizli vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə prokurorluğun sosial media platformalarında olan müraciət, sorğu və təkliflərə həssaslıqla yanaşıldığını, hazıradək 200-dən çox müraciətin məhz sosial media platformalarında olan hesablar vasitəsilə qəbul edildiyini bildirərək aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılmasının əhəmiyyətini diqqətə çatdırdı.

Konfrans iştirakçıları mövcud əməkdaşlıqdan məmnunluqlarını bildirərək, gələcəkdə də görüşlərin təşkilinin əhəmiyyətli olacağını vurğulayıblar.

Daha sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Baş Prokurorluqda dəyirmi masa keçirilmişdir



Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş valyuta vəsaitlərinin xaricdən qaytarılmaması faktları ilə əlaqədar ibtidai araşdırma və inzibati icraat zamanı şəxslərin məsuliyyətə cəlb edilməsində yaranan suallara dair Baş Prokurorluqda dəyirmi masa keçirilmişdir.

Məlum olduğu kimi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208-ci maddəsi ilə nəzərdə tutulmuş xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması cinayəti ölkəmizin valyuta sisteminin təhlükəsizliyinə təhdid yaradan ən təhlükəli cinayət əməllərinə aid olmaqla, ölkəmizin maddi sərvətlərinin xaricə axmasına zəmin yaradır.



Bu qəbildən olan cinayət əməllərinin qarşısının alınması üçün aidiyyəti dövlət orqanları tərəfindən qətiyyətli addımlar atılmışdır.

Eyni zamanda bu əməllər üzrə başlanmış cinayət işləri üzrə vahid istintaq təcrübəsinin formalaşdırılması üçün prokurorluq orqanları tərəfindən zəruri işlər görülmüş, o cümlədən "Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208-ci maddəsi və İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsi) faktları üzrə aparılan araşdırmaya dair" Metodiki vəsait hazırlanmışdır.



Mövzunun aktuallığı ilə əlaqədar cari ilin 10 iyun tarixində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ibtidai araşdırma və inzibati icraat zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208 (xarici valyuta vəsaitlərini xaricdən qaytarmama cinayəti) və İnzibati Xətalar Məcəlləsinin 483-cü (xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması inzibati xətası) maddələrinin tətbiqi ilə bağlı yaranan suallara dair dəyirmi masa keçirilmişdir.

Azərbaycan Respublikası Baş prokurorunun müavini Elmar Camalovun rəhbərliyi ilə keçirilən tədbirdə ekspertlər qismində Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Pricewaterhousecoopers Azerbaijan MMC-nin, eləcə də Azərbaycan Respublikası Auditorlar palatasının peşəkar nümayəndələri iştirak etmişlər.

Eyni zamanda, tədbirə dinləyicilər qismində Baş Prokurorluğun aidiyyəti struktur qurumlarının əməkdaşları cəlb edilmişlər.

Geniş müzakirələr, fikir mübadiləsi şəraitində keçən tədbirdə ekspertlərin məruzələri dinlənilmiş və mühüm praktiki əhəmiyyəti olan suallar cavablandırılmışdır.

Tədbirin yekunlarına uyğun olaraq, bu sahədə səylərin birləşdirilməsi və müvafiq müzakirələrin işçi qaydada davam etdirilməsi qərara alınmışdır.

# Gədəbəydə "Hüquqi dövlət quruculuğu və müstəqil Azərbaycan mediasının inkişafında Heydər Əliyev irsi" adlı konfrans təşkil edilib






15 iyun Milli Qurtuluş Günü ərəfəsində Gədəbəy rayon Heydər Əliyev Mərkəzində Gədəbəy, Daşkəsən, Şəmkir rayon və Şəmkir hərbi prokurorları və həmin prokurorluqların əməkdaşları, rayonda fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbərləri, media və qeyri-hökumət təşkilatlarının, eləcə də







Gədəbəy rayon ictimaiyyətinin nümayəndələri və ziyalılarının iştirakı ilə "Hüquqi dövlət quruculuğu və müstəqil Azərbaycan mediasının inkişafında Heydər Əliyev irsi" adlı konfrans təşkil edilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin Gədəbəy şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Daha sonra konfrans iştirakçıları Gədəbəy rayon Heydər Əliyev Mərkəzi ilə tanış olub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbirdə açılış nitqi ilə çıxış edən Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyev fenomenal şəxsiyyət, dahi lider Heydər Əliyevin qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyinin əldə olunmasından sonra ölkədə aparılan hərtərəfli məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluq orqanlarının mahiyyət və struktur baxımından yenidən qurulmasını, yüksək nəzəri biliyə və peşəkarlığa malik kadrlarla komplektləşdirilməsini, fəaliyyətin beynəlxalq standartlara uyğun formalaşdırılmaqla müasir dövlət təsisatına çevrilməsini diqqətə çatdırıb.

Konfrans zamanı çıxış edən Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısının səlahiyyətlərini icra edən










Natiq Nağıyev mötəbər tədbirin Gədəbəy şəhərində təşkil edilməsindən məmnunluğunu ifadə edərək dahi şəxsiyyət Heydər Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaratdığını qeyd etmiş, memarı və qurucusu ulu öndər Heydər Əliyev olan Müstəqil Azərbaycan Respublikasının möhtərəm Prezident cənab İlham Əliyevin uzaqgörən siyasəti və müdrik rəhbərliyi nəticəsində regionun ən inkişaf etmiş ölkəsinə çevrildiyini vurğulamışdır.

Ulu öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasətinin hər zaman xüsusi yer tutduğunu tədbir zamanı qeyd edən Gədəbəy rayon prokuroru Əli Babayev ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətlərindən, şərəfli ömür yolundan və məharətli dövlətçilik təcrübəsindən bəhs edib.

Konfrans zamanı, həmçinin, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Gədəbəy Rayon Ağsaqqallar Şurasının sədri Kərəm Məmmədov, Şəmkir Regional QHT Resurs və Təlim Mərkəzi İctimai Birliyinin sədri Fuad Bədəlov çıxışlar edib.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin ideya müəllifliyi əsasında ərsəyə gəlmiş ümummilli liderin xatirəsinə həsr olunmuş “Qanun naminə-Heydər Əliyev salnaməsi” adlı sənədli filminə baxıb.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Prokurorluq əməkdaşlarının peşə hazırlığı səviyyəsinin artırılması daim təmin edilir







Cari ilin 16-17 iyun tarixlərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə həyata keçirilən "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II" proqramının "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi" layihəsi çərçivəsində beynəlxalq səviyyəli ekspertlər və müvafiq dövlət qurumların nümayəndələrinin iştiraki ilə "Aktivlərin bərpası üzrə beynəlxalq əməkdaşlıq sahəsində yaxşı təcrübələr" mövzusunda təlim keçirilmişdir.

Layihəyə əsasən Azərbaycanda aktivlərin bərpası üzrə institusional və qanunvericilik bazasının qiymətləndirilməsi və bu istiqamətdə beynəlxalq standartlara uyğun tövsiyələrin hazırlanması nəzərdə tutulub.

Azərbaycan Respublikası Daxili İşlər və Ədliyyə nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Maliyyə Monitorinqi Xidməti və digər dövlət qurumların nümayəndələrinin qatıldığı təlim tədbirində Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev, həmin idarənin prokurorları Nigar Yəhyazadə və Teymur Aşurov, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru Tərlan Kərimov, həmçinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin rəis müavini Şəhriyar Məmmədzadə, Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Ruhlan Nəsirov, Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Rəşad Məmmədov, Əməliyyat idarəsinin mühüm işlər üzrə əməliyyatçısı Emin Yusibov və Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı Anar Əhmədov iştirak etmişlər.

Tədbirdə çıxış edən Avropa Şurasının Bakı ofisinin rəhbərinin müavini Kirilo Boiçeniuk hazırkı layihənin təmsil etdiyi beynəlxalq qurum tərəfindən Azərbaycanda çirkli pulların yuyulmasına qarşı aparılan mübarizəyə göstərilən dəstəyin ifadəsi olduğunu qeyd edərək, belə maarifləndirmə layihələrinin Azərbaycan və Avropa Şurasının gələcək əməkdaşlığı üçün də prioritet olacağına ümidvar olduğunu bildirmişdir.

Təlim zamanı iştirakçılar cinayət işləri üzrə istintaqın aparılmasına və ya məhkəmə icraatına dəstək olmaq üçün beynəlxalq əməkdaşlıq mexanizmləri haqqında Avropa Şurasının ekspertləri tərəfindən məlumatlandırmış, ekspertlər tərəfindən hazırlanmış kazuslara dair praktik məşğələlər keçirilmişdir.

Tədbirin sonunda iştirakçıları maraqlandıran mövzular ətrafında sual-cavab sessiyası keçirilmiş, aidiyyəti mövzular üzrə səmərəli fikir mübadiləsi aparılmışdır.

# "Müasir dövlət qulluğunda innovasiyalar və təcrübələr" adlı konfrans keçirilib

Prokurorluq orqanlarının əsas prioritet istiqamətlərindən biri kimi dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi, innovasiya və təcrübədən yararlanması üçün mövcud münasibətlərin inkişaf etdirilməsinə yönələn kompleks işlər görülür.





"23 iyun Dövlət Qulluqçularının Peşə Bayramı Günü" ilə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin təşkilatçılığı ilə 17 iyun 2022-ci il tarixdə "Müasir dövlət qulluğunda innovasiyalar və təcrübələr" adlı konfrans keçirilib.

Konfransın məqsədi dövlət qulluqçuların yüksək mənəvi dəyərləri və xidməti fəaliyyətinin yüksəldilməsi, dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlər və təkliflərin dinlənilməsi olmuşdur.

Konfransda iştirak edən Anti-korrupsiya Təlim Mərkəzinin rəhbəri Kamal Cəfərov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Talıb Cəfərov, Anti-korrupsiya Təlim Mərkəzinin katibi Nigar Qələndərli dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, innovativ metodların tədbiqi, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması kimi mühüm məsələlər üzrə dinləyicilərə ətraflı məlumat vermişlər.



Konfrans zamanı, Mətbuat Xidmətinin məsləhətçisi Aynurə Əliyeva "Dövlət qulluqçusunun məsuliyyəti", həmçinin Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin baş məsləhətçisi Şahxanım Ağayeva "Müasir dövrdə dövlət qulluqçularının xidməti fəaliyyətinin yüksəldilməsi", Elm-Tədris Mərkəzinin baş məsləhətçisi İlkanə Qasımova "Dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi", Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin baş məsləhətçisi Aydan Nurəlizadə "Dövlət qulluğunun inkişaf prinsipləri", Maddi-texniki təminat şöbəsinin aparıcı məsləhətçisi Ay Sənəm Müslümova "Dövlət qulluğuna qəbul edilmək hüququ və qulluğa qəbul" və Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin baş məsləhətçisi Yaqut Şövkətova "Dövlət qulluqçuların sosial təminatın yüksəldilməsi" mövzularında çıxışlar edib.

Konfransın sonunda maraq doğuran suallar təlimçilər tərəfindən cavablandırılıb, eləcə də dinləyicilər arasında faydalı fikir mübadiləsi aparılıb və konfrans iştirakçılarına təşəkkürnamə təqdim edilib.

# Prokurorluq işçiləri tərəfindən ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sazişlərdən irəli gələn vəzifə və funksiyaların dərindən öyrənilməsi davam etməkdədir






Prokurorluq orqanlarını ixtisaslı kadrlarla təmin etmək, işçilərin nəzəri biliyini və peşə hazırlığını artırmaq məqsədilə yerli və xarici dövlətlərin, habelə beynəlxalq təşkilatların təhsil sistemindən istifadə olunur. Bu məqsədlə yüksək potensiallı təhsil imkanı olan tədris tədbirlərində prokurorluq əməkdaşlarının iştirakı artıq ənənə halına çevrilib.

Cari ilin 28 – 30 iyun tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının dəstəyi





ilə "İrsin idarə edilməsi bacarıqlarının inkişafı" təlim proqramı çərçivəsində Bakı şəhərində təşkil edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyası ilə bağlı ingilis dilli təlimdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova və Cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru Heydər Yusifov iştirak ediblər.

Təlim çərçivəsində ilk öncə Esseks Universitetinin hüquq üzrə fəlsəfə doktoru xanım Dr. Marina Lostal müvafiq konvensiyanın müddəalarını beynəlxalq məhkəmə təcrübəsi üzərindən şərh edərək, mədəni mülkiyyət obyektlərinin hərbi hədəf kimi zərər görməsinə dair nümunələr barədə danışıb. Həmçinin, təlimçi çıxışında münaqişə zamanı gücləndirilmiş mühafizə rejimi, təcrübədə tətbiq edilən təhlükəsizlik tədbirləri və ölkələr arasında qarşılıqlı qorunma razılaşmaları kimi məsələlər barədə ətraflı məlumat verib.

Daha sonra mədəni sərvətlərlə bağlı cinayət aktları, milli cinayət qanunvericiliyində tələb olunan uyğunlaşma məsələləri, beynəlxalq səviyyədə müharibə cinayətləri kontekstində mədəni mülkiyyətin dağıdılması, hərbi komandirlərin məsuliyyəti, insanlıq əleyhinə cinayət təqibi, genosid, Beynəlxalq cinayət məhkəməsinin yurisdiksiyası və sair məsələlər barədə çıxışlar edilib.

Təlimdə dinləyici qismində Baş Prokurorluğun əməkdaşları ilə yanaşı, bir sıra dövlət qurumlarının, ali təhsil müəssisələrinin və digər təşkilatların nümayəndələri də iştirak ediblər.

Tədbirin sonunda təlim iştirakçıları sertifikatlarla təltif ediliblər.

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Hərbi Prokurorluqda tədbir keçirilib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə mayın 6-da Hərbi Prokurorluqda tədbir keçirilib.

Hərbi Prokurorluğun inzibati binasındakı "Heydər Əliyev guşəsi"ndə ulu öndərin büstü önünə gül dəstələri düzülüb, dünya şöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin müqəddəs və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıb.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən ətraflı bəhs etməklə çıxışını davam etdirən Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider









dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılıb. Onun istefa verdiyi vaxtdan - 1987-ci ilin oktyabrından 1993-cü ilin iyununda növbəti dəfə hakimiyyətə qayıdışınadək olan dövrdə ölkədə yaranmış özbaşınalığın, anarxiyanın, xaosun, hakimiyyət nümayəndələrinin xalq və dövlətin deyil, ayrı-ayrı şəxslərin maraqlarına xidmət etməsinin iqtisadiyyatımızın tənəzzülə uğraması, ictimai-siyasi sabitliyin pozulması, eləcə də tarixi torpaqlarımızın işğal olunması ilə nəticələndiyini, eyni zamanda, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdığını, yalnız dahi şəxsiyyət Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayan Xanlar Vəliyev qeyd edib ki, Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab olunan bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alınıb, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb. Bununla da Azərbaycan sürətli inkişaf yoluna qədəm qoyub.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 19 ildə ölkəmizdə görülmüş müstəsna əhəmiyyətli işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş misli görünməmiş uğurlardan söz açan Hərbi prokuror bildirib ki, Prezidentin dərin zəkası, zəngin biliyi, mükəmməl rəhbərliyi, qətiyyəti və yorulmaz fəaliyyəti sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşdırılıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm qələbəmizi şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib. Millətinə xidməti həyat amalına çevirmiş Prezident İlham Əliyevin verdiyi bütün vədləri əməlləri ilə doğruldaraq, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirməklə xalqın sonsuz məhəbbətini qazandığını vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev, dövlətimizin başçısının növbəti dəfə də vədinə əməl etməsindən, işğal altında olan tarixi ərazilərimizin azad olunmasından, bu şərəfli missiyanın həyata keçirilməsi zamanı müşahidə olunan bənzərsiz lider-xalq-ordu vəhdətindən, Ali Baş Komandanın rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazdıqlarından ətraflı danışıb.



Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin dühası və gərgin əməyi ilə xalqın

müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən yer kürəsini bürüyən koronavirus (COVID-19) pandemiyasına və müharibədən yeni çıxmış dövlət olmasına rəğmən, ölkəmizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı bu gün də uğurla təmin edilir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, əldə olunan uğurlarda və dövlətimizin qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, mədəniyyətimizin bütün dünyaya tanıdılmasında hərtərəfli biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi və səmimiliyi ilə seçilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Mehriban xanımın respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafındakı xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü nəhəng işlər dövlətimizin tərəqqisinə və xalqın rifahının yaxşılaşdırılmasına töhfələr verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə çıxışını yekunlaşdıran ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən ulu öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcək.







Hərbi prokuror Xanlar Vəliyev çıxışının sonunda qeyd edib ki, dəyərli və mənalı ömrünü Vətəninə həsr edərək, milləti qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış dünya siyasətinin parlaq siması ulu öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq, bu nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman böyük ehtiramla yad ediləcək.

Tədbir əbədiyaşar Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatıb.

# Hərbi Prokurorluqda Vətən müharibəsi iştirakçıları, o cümlədən qazilərlə görüş olub







İyunun 23-də Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçuları, o cümlədən qazilərlə görüş keçirilib.

Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə ulu öndərin büstü önünə gül dəstələri düzülüb, dünyaşöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən əvvəl mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin müqəddəs və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimi Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev açaraq tədbir iştirakçılarını, bütün qaziləri və şəhid ailələrini 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib, onlara xoş arzularını ifadə edib. Hərbi prokuror bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyevin zəngin elmi bilikləri, müdrik düşüncəsi, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən planetimizi cənginə almış koronavirus pandemiyasına və müharibədən çıxmış ölkə olmağımıza rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Xanlar Vəliyev həmçinin qeyd edib ki, ölkəmizin sürətli tərəqqisində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Ölkəmizin dinamik inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla bir qədər də zənginləşdirilib. Həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq

səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılıb, bir sözlə, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Təsadüfi deyildir ki, ötən illərdə olduğu kimi, “Global Firepower” hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı son hesabatında da Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusu reytinqini qoruyub saxlayıb. Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirib və nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut edərək zəfərlərimizi və 44 günlük haqq savaşındakı tarixi qələbəmizi təmin ediblər. Vətən müharibəsindən, qazanılan möhtəşəm qələbədən bəhs edən Xanlar Vəliyev Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin









əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti vəzifələrini layiqincə icra etmələrindən danışaraq əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi qeyd edib. Millətinə xidməti həyat amalına çevirmiş Prezident İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə hər zaman doğrultduğunu vurğulayan Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, müdrik rəhbər hərbi və siyasi-diplomatik yolla ölkəmizin əzəli ərazilərini işğaldan azad etməklə, növbəti vədini də yerinə yetirib. Dövlətimizin uğurları və Vətən müharibəsindəki şanlı qələbəmiz dövlət başçısının yürütdüyü siyasətin alternativsiz olduğunun təcəssümüdür.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev həmçinin vurğulayıb ki, müharibə əlillərinin və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin prioritet istiqamətlərindən olub, bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılıb. Qürurverici və sevindiricidir ki, ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilib, onlar müxtəlif növ dövlət təminatı ilə təmin edilib. Bu diqqət və qayğının təməli







xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Son illərdə ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin daha da gücləndirilməsi, o cümlədən bu qəbildən olan insanların sağlamlıq, reabilitasiya və yaşayış şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilib və bu istiqamətdə işlər uğurla davam etdirilir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də şəhid ailələri üçün verilən Prezident təqaüdünün artırılması məqsədilə qısa zaman ərzində ölkə rəhbərinin ard-arda bir neçə fərman və sərəncam imzalaması bu zümrədən olan insanlara göstərilən diqqət və qayğının bənzəri olmayan ən yüksək göstəricisi olub. Təsadüfi deyil ki, dövlət başçısının 2018-ci il prezident seçkilərindən sonra imzaladığı ilk Fərman da şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı olub. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mütəmadi olaraq şəhid ailələri və müharibə əlilləri ilə görüşmələri, onların qayğı və problemləri ilə maraqlanmaları, onlara hərtərəfli dəstək göstərmələri, mənzil və avtomobillər təqdim etmələri bu qəbildən olan insanlara dövlət səviyyəsində verilən yüksək dəyərin və göstərilən böyük qayğının təzahürüdür. Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi üçün mübarizəyə qalxmaqla mərdlik göstərmiş, əlil olmuş şəxslərə və canlarını qurban verməklə şəhidlik zirvəsinə ucalmış Vətən övladlarının ailələrinə mənəvi və maddi dəstək göstərilməsi üçün tədbirlər müntəzəm olaraq davam etdirilir. Bu müqəddəs missiyanın həyata keçirilməsində prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları da iştirak edir və bundan sonra da iştirak edəcəklər.

Sonra Hərbi prokuror Xanlar Vəliyev Vətən müharibəsində iştirak etməklə xidməti vəzifələrini layiqincə icra edən şəxslərə öz dərin təşəkkürünü bildirərək qeyd edib ki, Prezidentin müvafiq sərəncamları ilə Vətən müharibəsi iştirakçılarının müxtəlif orden və medallarla təltif olunması onların xidmətinə dövlət səviyyəsində verilən yüksək dəyərin təcəssümüdür.

Daha sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin inspektorlar qrupunun inspektoru, ehtiyatda olan polkovnik Abdulla Qurbani və digər çıxışçılar Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi Qələbədən, eləcə də 44 günlük döyüşlərdə Hərbi Prokurorluğun özünəməxsus rolundan, Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi və aidiyyəti təşkilatlarla birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs ediblər. Eyni zamanda, çıxışçılar Vətən müharibəsində iştirak edən şəxslərə, o cümlədən qazilərə göstərilən diqqət və qayğıya görə Hərbi Prokurorluğun rəhbərinə və kollektivinə dərin minnətdarlıqlarını bildiriblər.

Sonda Vətən müharibəsində iştirak edən şəxslərə hədiyyələr təqdim olunub, onlar isə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

# Bakı şəhər prokurorluğunda ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü qeyd edilmişdir





Mayın 7-də Bakı şəhər prokurorluğunda Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Bakı şəhər prokurorluğun inzibati binasının foyesində müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun unudulmaz xatirəsini dərin ehtiramla yad etmişlər. Sonra dahi rəhbərin həyat və fəaliyyətini özündə əks etdirən fotoguşə nümayiş etdirilmişdir.

Mərasimdə çıxış edən Bakı şəhər prokuroru Elşən Abbasov görkəmli dövlət xadimi, ölkəmizi davamlı inkişaf yoluna çıxaran ulu öndər Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən və misilsiz xidmətlərindən söz açmış, əbədiyaşar liderin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş yüksək nailiyyətləri diqqətə çatdırmışdır.

Xüsusi qeyd edilmişdir ki, Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi andan ümummilli lider daim milli həmrəyliyin və dövlətçilik ənənələrinin yaşadılmasına müstəsna əhəmiyyət verərək milli-mənəvi dəyərlərin qorunması, gənc nəslin vətənpər-

vərlik ruhunda tərbiyəsi, milli-strateji məqsədlərə çatmaq üçün hərbi kadr potensialının formalaşdırılması istiqamətində atdığı əməli addımlar müstəqilliyimizin bərpası yolunda mühüm önəmə malik olmuşdur.

1993-cü ilin iyun ayında xalqın çağırışı ilə respublika rəhbərliyinə qayıdaraq xalqımızı və dövlətimizi böyük təhlükələrdən, vətəndaş müharibəsindən xilas etmiş dahi öndərin zamanında səsləndirdiyi bir çağırışı ilə yaranmış qüdrətli Azərbaycan ordusunun o dövrdə erməni silahlı qüvvələrinin bədnam niyyətlərinin qarşısını almaqla ilk qələbələrini qazanaraq düşməni atəşkəsə məcbur etməsi, qısa müddətdə müasir, mütəşəkkil ordunun yaradılmasının qələbəmizi şərtləndirən ən vacib amillərdən olması bildirilmişdir.







Xüsusi vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə Azərbaycan Ordusu qısa müddət ərzində böyük inkişaf yolu keçərək bölgənin ən güclü qüvvəsinə çevrilmiş, ümummilli liderin xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Ermənistanın 30 illik işğalına cəmi 44 gündə son qoyulmaqla şanlı tariximizə əbədi həkk olunan möhtəşəm zəfər salnaməsinin yazıldığı diqqətə çatdırılmışdır.

Çıxışın sonunda Bakı şəhər prokuroru kollektiv adından hər bir prokurorluq işçisinin daim Heydər Əliyev ideyalarına sadiq qalaraq onun unudulmaz xatirəsini əziz tutacağına və bütün qüvvələrini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu siyasətin həyata keçirilməsinə istiqamətləndirəcəyinə əminliyini bildirmişdir.

# Mətbuat xidmətinin məlumatları




Mayın 23-də Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev, Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov və Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə Baş Prokurorluğun instagram sosial şəbəkəsindəki səhifəsində canlı yayıma çıxaraq vətəndaşları maraqlandıran sualları cavablandırıblar.

**#maariflənək – XÜSUSİ MÜLKİYYƏTDƏ OLAN TORPAQ SAHƏLƏRİNDƏ OLAN AĞACLARIN KƏSİLƏ BİLİNİB-BİLİNMƏMƏSİ İLƏ BAĞLI** Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən hazırlanmış videoda xüsusi mülkiyyətdə olan torpaq sahələrindəki ağacların kəsilə bilinib-bilinməməsi ilə bağlı maarifləndirici məlumat verilir.






**#prokurorluqdanizah** rubrikasında Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Teymur Aşurov "Ölkə ərazisindən kənarda cinayət törətmiş Azərbaycan Respublikasının vətəndaşı xarici dövlətə ekstradisiya oluna bilərmi?" sualını cavablandırıb. Video-izahı izləməklə həmin sualın cavabını öyrənə bilərsiniz.

**Heç bilirdinizmi Kibercinayətkarlıq nədir?** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hazırlanmış slaydlarda "Kibercinayətkarlıq nədir ?" mövzusu ilə bağlı vətəndaşlarımıza maraqlı izah verilmişdir.




**Sabunçu rayon prokurorluğunun Məlumatı**




Sabunçu rayonu Bakıxanov qəsəbəsində yerləşən sığınacaqda 10.05.2022-ci il tarixdə müxtəlif dövlət orqanlarının iştirakı ilə keçirilmiş monitorinq zamanı uşaqların bədəni üzərində xəsarət izlərinin aşkar olunması faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda araşdırma aparılmışdır.

Aparılmış araşdırmalarla, qeyd edilən sığınacaqda 2022-ci ilin fevral ayının sonundan may ayının əvvəlinə qədər saxlanılmış C.M-nın (şərti) sığınacaqda qaldığı müddətdə müxtəlif psixi və fiziki zorakılığa məruz qaldığı, həmçinin onun sığınacaqdakı digər azyaşlılara da psixi və fiziki zorakılıq göstərilməsinə şahid olduğu müəyyən edilmiş, o cümlədən sığınacaqda saxlanılan digər iki nəfər azyaşlının bədəni üzərində orada saxlandıqları tarixlərə yetirilməyə uyğun gələn xəsarət izləri aşkar edilmişdir.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 309.1 (vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda), 133.2.1 (iki və ya daha çox şəxsə qarşı əzab vermə) və 133.2.4-cü (təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı əzab vermə) maddələri ilə cinayət işi başlanmışdır.

İstintaq davam edir.

## Baş Prokurorluğun məlumatı




28 yanvar 2017-ci il tarixdə saat 01 radələrində 1991-ci il təvəllüdlü Asif Manafov yaxın münasibətlərdə olduğu Ayşən Qəhrəmanova ilə Ağsu rayonunun Qaraqaşlı kənd qəbristanlığında aralarında yaranmış mübahisənin gedişində bıçaqla xəsarət yetirməklə onu öldürmüş, daha sonra saat 22 radələrində meyiti götürüb Baş Şirvan kanalına yaxın ərazidə basdırmışdır. 19.03.2022-ci il tarixdə Asif Manafova Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə yekun ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

## Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin Birgə Məlumatı




Azərbaycan Respublikası Baş Prokurorluğu

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması istiqamətində istintaq-əməliyyat tədbirlərinin davam etdirilməsi nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş növbəti ağır cinayətin üstü açılmışdır. Belə ki, 2010-cu il noyabrın 18-də paytaxt sakini Qürbət Abzərovun kəllə-beyin travması diaqnozu ilə daxil olduğu xəstəxanada 8 gün sonra ölməsi faktına görə Yasamal rayon prokurorluğunda cinayət işi başlanılıb istintaq aparılsa da, cinayəti törətmiş şəxsin müəyyən edilməsi mümkün olmadığından iş üzrə icraat dayandırılmışdır. Lakin sonradan cinayət işi təkrar öyrənilməklə istintaqın davam etdirilməsi Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunmuşdur. Aparılmış istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, 1964-cü il təvəllüdlü Telman Məcidov cəzaçəkmə müəssisəsində olarkən, onunla eyni vaxtda cəza çəkən 1969-cu il təvəllüdlü Qürbət Abzərovun, onun ailə üzvləri barəsində təhqiredici ifadələrə yol verdiyinə görə cəzasını çəkib qurtardıqdan sonra 18 noyabr 2010-cu il tarixdə qisas almaq məqsədilə sonuncu ilə görüşərkən aralarında yaranmış mübahisənin gedişində gəzdirdiyi dəmir çəliklə qəsdən bir dəfə baş nahiyəsinə zərbə vuraraq sağlamlığına ağır zərərvurmaya aid xəsarət yetirmiş, qeyd olunan xəsarətin təsirindən Qürbət Abzərov müalicə olunduğu xəstəxanada ölmüşdür. Toplanmış mötəbər sübutlar əsasında Telman Məcidova Cinayət Məcəlləsinin 126.3-cü (zərərçəkmiş şəxsin ölümünə səbəb olmuş qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə ittiham elan edilərək barəsində həbs qətimkan tədbiri seçilmişdir. Hazırda cinayət işi üzrə istintaq və əməliyyat tədbirləri davam etdirilir. Əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması daim diqqət mərkəzində saxlanılır.

## Qazax rayon prokurorluğunun Məlumatı




Qazax rayon sakinlərinin işə düzəltmək adı ilə onlardan pul vəsaitlərinin alınması barədə müraciətləri əsasında rayon prokurorluğunda araşdırma aparılmışdır. Araşdırmalarla "Azəriqaz" İB-nin Şəmkir Regional Qaz İstismar İdarəsinin Qazax Xidmət Sahəsinin sabiq operatoru Bəxtiyar Mehdiyevin iki nəfəri "Təmiz Qaz" QSC-nin Şəmkir Regional Mərkəzinin Qazax bölməsinə işə düzəltmək adı ilə ümumilikdə 5 min 500 manat məbləğində pul alaraq təkrar dələduzluq etməsinə əsaslı şübhələr müəyyən edilmişdir. Faktla bağlı Qazax rayon prokurorluğunda Cinayət Məcəlləsinin 178.2.2 və 32.4, 312.1-ci maddələri ilə cinayət işi başlanmışdır. İş üzrə istintaq davam edir.




Azərbaycan Respublikası Baş Prokurorluğunun vəsatəti əsasında Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 22 yanvar 1993-cü il tarixli Konvensiyaya əsasən **Azərbaycan Respublikasının vətəndaşı Elnur Abbasovun ekstradisiyası haqqında** qərar qəbul edilmişdir.

Nəsimi rayon prokurorluğunda istintaq olunan cinayət işi üzrə Elnur Abbasov xüsusi amansızlıqla qəsdən adam öldürmə, öldürməklə hədələmə və zorlama əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (köhnə redaksiyada) 94-cü maddəsinin 6-cı hissəsi, 109-cu maddəsinin 1-ci hissəsi və hazırda qüvvədə olan Azərbaycan Respublikası CM-nin 134-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə cinayət təqibi orqanından gizləndiyinə görə 1998-ci ildə barəsində beynəlxalq axtarış elan edilmişdir.

Elnur Abbasov Rusiya Federasiyası ərazisində törətmiş olduğu digər cinayətə görə Petroqrad rayon məhkəməsinin 29 sentyabr 2017-ci il tarixli hökmü ilə cəzaçəkmə müəssisəsində cəza çəkdiyi müəyyən olunmuşdur. 2022-ci il fevralın 24-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə Elnur Abbasov Rusiyadan Azərbaycana gətirilmişdir.

## Tikinti işlərinin aparılmasına icazə verilməsi məqsədi ilə rüşvət almış vəzifəli şəxslər həbs edilmişdir




Sabirabad Rayon İcra Hakimiyyəti başçısı Aparatının Memarlıq və Tikinti şöbəsinin müdiri Qasımov Müşviq Vidadi oğlunun qanunsuz əməlləri ilə əlaqədar daxil olmuş məlumat əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.

Aparılmış əməliyyat-istintaq tədbirləri ilə Müşviq Qasımovun FHN-nin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Dövlət Əhəmiyyətli Obyektlər üzrə Dövlət Tikinti Müfəttişliyinin baş məsləhətçisi Quliyev Eldar Musa oğlu və digər şəxslərlə qabaqcadan əlbir olaraq Sabirabad rayonu ərazisində yerləşən qeyri-yaşayış obyektində tikinti işlərinin aparılmasına icazə verilməsi, bunun üçün zəruri olan memar rəyi və digər aktların verilməsinə köməklik göstərilməsi üçün onlara müraciət etmiş vətəndaşdan külli miqdarda rüşvət almalarına əsaslı şübhələr müəyyən edilmişdir.

Toplanmış kifayət qədər sübutlar əsasında Müşviq Qasımov və Eldar Quliyevə Cinayət Məcəlləsinin 311.3.1 və 311.3.3 (rüşvət alma- qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda törədildikdə) maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

Cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində istintaq davam edir.




15.02.2022-ci ildə **"Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında"** Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanaraq dərc olunmuşdur.

Fərmana əsasən 2022-ci il noyabrın 1-dən himayədar ailə sahəsində dövlət siyasətinin, tənzimləmənin və dövlət nəzarətinin, o cümlədən himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların vahid uçotunun elektron qaydada aparılması, valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi, habelə həmin müəssisələri tərk etməsi ilə bağlı qərarların qəbul edilməsi, sosial dəstək mexanizmlərinin tətbiqi vasitəsilə uşaqların müəssisələrdən ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi, eləcə də onların müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsi və müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanması sahəsində səlahiyyətlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilmişdir.

## #İNSANHÜQUQLARI




Şəxsi və ailə həyatı: 10-cu maddə (ifadə azadlığı) kontekstində

Şəxsi həyata hörmət hüququnun ifadə azadlığı hüququ ilə balanslaşdırılmasının tələb olunduğu hallarda Avropa Məhkəməsi hesab edir ki, şikayət ərizəsinin xəbər materialının subyekti olan şəxs tərəfindən Avropa Konvensiyasının 8-ci maddəsi və ya naşir tərəfindən 10-cu maddə əsasında verilməsindən asılı olmayaraq, nəzəri cəhətdən işin nəticəsi fərqli olmamalıdır. Prinsip etibarı ilə bu hüquqlara hörmət edilməsi eyni dərəcədə təmin edilməlidir (Kuderk və "Aşett Filipakki Assosye" şirkəti Fransaya qarşı iş, § 91). Müvafiq olaraq, hər iki halda qiymətləndirmə sərbəstliyinin hüdudları nəzəri cəhətdən eyni olmalıdır. Presedent hüququnda müəyyən edilmiş müvafiq meyarlar aşağıdakılardır: araşdırılan material ictimai maraq doğuran məsələlərin müzakirəsinə töhfə verirmi, xəbər materialında barəsində bəhs edilən şəxs nə dərəcədə pis ad çıxarıb, müvafiq şəxs əvvəllər necə davranıb, dərc edilən materialın məzmunu, forması və nəticələri nədən ibarətdir və müvafiq hallarda, fotoşəkillər hansı şəraitdə çəkilib (eyni mənbə, §§ 90-93; Fon Hannover Almaniyaya qarşı iş (№ 2), §§ 108-113; "Aksel Şpringer AG" Almaniyaya qarşı iş, §§ 89-95).

# Baş Prokurorluğun Xüsusi Müsadirə Məsələlərinin Əlaqələndirilməsi İdarəsinin bir sıra əməkdaşları Haaqa şəhərində keçirilən tədris turunda iştirak etmişlər





5-7 aprel tarixlərində Baş Prokurorluğun Xüsusi Müsadirə Məsələlərinin Əlaqələndirilməsi İdarəsinin idarə rəisi Vüqar Əliyev və idarə prokuroru Əhməd Həsənov cinayət aktivlərinin izlənməsi, dondurulması, müsadirəsi və idarə olunması sahəsində qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə Niderlandın Haaqa şəhərində keçirilən tədris turunda iştirak etmişlər. Tədris turu Avropa İttifaqının Şərq tərəfdaşlığı ölkələrinə dəstək proqramı çərçivəsində BMT-in Beynəlxalq cinayətkarlıq və ədalət mühakiməsi məsələləri üzrə elmi-tədqiqat institutu (UNİCRİ) tərəfindən cinayət yolu ilə əldə edilmiş aktivlərin qaytarılmasının səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən layihə çərçivəsində reallaşdırılmışdır.

Tədbirin ilk günü Niderland Prokurorluğunun Əmlakın bərpası ofisi tərəfindən aktivlərin izlənməsi və bərpası üsulları, həyata keçirilən maliyyə istintaqı barədə təqdimatlar nümayiş etdirilmiş, dəyirmi masa ətrafında müzakirələr aparılmışdır.

Tədbirin ikinci günü Niderland Prokurorluğunun Aktivlərin bərpası idarəsi cinayət aktivlərinin məhkəməyə qədər və məhkəmədən sonra mütərəqqi idarə olunması ilə bağlı müsbət iş təcrübəsi diqqətə çatdırılmışdır. Həmin gün Niderland Krallığının Daşınar Əmlak Agentliyinin fəaliyyəti ilə yerində tanışlıq olmuş, qurumun prokurorluğun əmlakın idarə edilməsi ofisi ilə qarşılıqlı əlaqəsi, əmlakların məhkəməyə qədər onlayn və hərrac vasitəsilə satışı qaydaları barədə məlumatlar əldə edilmişdir.

Tədbir çərçivəsində həmçinin virtual valyutalarla əlaqəli cinayətlərin istintaqı, aktivlərin bərpası qurumlarının rəqəmsal aktivlərin izlənməsi, aşkarlanması və müsadirəsi istiqamətində üzləşdiyi problemlərlə bağlı Bazel İdarə etmə institutunun Aktivlərin geri qaytarılması üzrə beynəlxalq mərkəzinin nəzdində fəaliyyət göstərən Aktivlərin reallığı ofisi (Asset Reality) ekspertinin çıxışı üzrə müzakirələr aparılmışdır.

Tədris çərçivəsində ölkə prezidenti cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Baş Prokurorluğun yeni strukturunda Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin yaradılması, İdarənin cinayət aktivlərinin aşkar edilməsi, izlənməsi və xüsusi müsadirənin təmin edilməsi ilə əlaqədar fəaliyyəti, habelə Azərbaycan Respublikasında əmlakın bərpası və idarə edilməsi sahəsində islahatlara dəstək məqsədilə reallaşdırılan Tvinninq layihəsi barədə slaydlarla müşayiət olunan təqdimat nümayiş etdirilmişdir.

# Sankt-Peterburq beynəlxalq kriminologiya klubunda keçirilmiş “Kriminologiyada səbəbiyyət problemləri” mövzusunda beynəlxalq müzakirədə Baş Prokurorluğun nümayəndəsi iştirak etmişdir

Sankt-Peterburq beynəlxalq kriminologiya klubunda Qaradəniz-Xəzər region ölkələrinin hüquqşünaslar assosiasiyası və ali təhsil müəssisələri ilə birgə aprelin 22-də “Kriminologiyada səbəbiyyət problemləri” mövzusunda beynəlxalq müzakirə keçirilmişdir.

Tədbirin konsepsiyasına görə bu müzakirədə müxtəlif ölkələrin hüquqşünasları, hüquq üzrə alimləri və praktiki işçiləri iştirak edərək, ilk öncə professor Xanlar Ələkbərovun “Fərdi cinayətkar davranışın səbəblərinə yeni baxış” adlı elmi məruzəsi təqdimat formasında nümayiş etdirilmişdir. Məruzə ilə bağlı Lobaçevski adına Dövlət Universitetinin professoru Qennadiy Qorşenkov və digər natiqlər çıxış edərək elmi işin fundamental məsələlərinə toxunmuşlar, kriminoloji tədqiqatın nəticəsinə öz münasibətlərini bildirmişlər.

Azərbaycan Respublikası Baş prokurorunun tapşırığına əsasən bu tədbirdə onlayn rejimdə iştirak edən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi, baş ədliyyə müşaviri Talıb Cəfərov müzakirə obyekti olan elmi tədqiqata əvvəlcədən öz münasibətini bildirmiş, cinayətin baş verməsində səbəb-nəticə əlaqələrinin kriminoloji aspektlərinin öyrənilməsinin və bu problemlərin müzakirəsinin ümumilikdə kriminologiya elminin inkişafına müsbət töhfə verəcəyini qeyd etmişdir.




Daha sonra mövzu ətrafında aparılan müzakirədə həmçinin digər tanınmış alimlər, o cümlədən Sankt-Peterburq beynəlxalq kriminologiya klubunun prezidenti professor Dmitriy Şestakov, Rusiya-Türkiyə İctimai Forumunun baş katibi Serqey Markov, Rusiya Federasiyası İstintaq Komitəsinin Moskva Akademiyasının professorları Yuriy Qolik və Tatyana Minyazeva, Rusiya Dövlət Ticarət və İqtisad Universitetinin professoru Vladimir Djatiyev, Şimal (Arktika) Federal Universitetinin dosenti Aleksey Rıbak və digərləri iştirak etmişlər.

# Azərbaycan Prokurorluğunun xarici tərəfdaşlarla əməkdaşlığı əyani təcrübə mübadiləsi formatında inkişaf etdirilir





Cari ilin 16 may tarixində Hüquq-Mühafizə Orqanlarının İşçiləri üçün Avropa İttifaqının Təlimlər Agentliyinin (CEPOL) dəstəyi və Azərbaycan Respublikası Prokurorluğunun təşkilatçılığı ilə ölkəmizə ezam olunmuş Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin nümayəndəsi İeva Lukoşeviç dövlət qurumlarında beş günlük təcrübə mübadiləsi keçmişdir.

“Azərbaycanın hüquq sistemi ilə tanışlıq” mövzusunda baş tutan təcrübə mübadiləsi proqramının planına uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olan xarici nümayəndəyə ixtisaslaşmış prokurorluq orqanının fəaliyyətinin müxtəlif aspektləri- Baş İdarənin struktur qurumlarında işin təşkili, istintaq, əməliyyat-axtarış sahələrində müsbət təcrübələr, o cümlədən də beynəlxalq əməkdaşlıq əlaqələri üzrə ətraflı məlumat verilmiş, müasir inzibati binada yaradılmış səmərəli əmək şəraiti ilə tanış edilmişdir.

Daha sonra, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi, Cinayət təqibindən kənar icraatlar, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri, Elm-Tədris Mərkəzi və digər struktur qurumlarının işi ilə yaxından tanış olan İ.Lukoşeviçə dövlət orqanında aparılmış struktur islahatlar nəticəsində cinayətkarlığa qarşı mübarizədə yeni tətbiq olunan qabaqcıl hüquqi yanaşmalardan bəhs edilmiş, həmçinin o, Baş Prokurorluğun yeni inzibati bina kompleksinin kriminalistik və digər elmi-texniki imkanları barədə məlumatlandırılmışdır.

Eləcə də, təcrübə proqramının prioritetlərinə uyğun olaraq ölkəmizin milli irsi,









hüquq sistemi və hüquqi-institusional quruluşu barədə müfəssəl məlumatlılığın təmin edilməsi məqsədi ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Maliyyə Monitorinqi Xidməti, Sumqayıt Məhkəmə Kompleksi, “ASAN Xidmət” və “DOST” mərkəzlərinin fəaliyyəti ilə tanışlıq keçirilməklə, sözügedən qurumların faydalı təcrübələri yerində öyrənilmiş, o cümlədən bir sıra mədəni-tarixi məkanlara səfərlər təşkil edilmişdir.

Beynəlxalq təlim proqramının formatına uyğun olaraq, növbəti mərhələdə Azərbaycan Prokurorluğu nümayəndəsinin də qarşılıqlı olaraq Litva Respublikasının tərəfdaş dövlət qurumuna analoji təcrübə səfəri nəzərdə tutulur.

# “Peşəkar hüquq təhsilində innovasiyalar: mövcud problemlər və yeni imkanlar” mövzusunda beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun nümayəndə heyəti iştirak etmişdir

Mayın 17-də Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiyası tərəfindən təşkil edilmiş “Peşəkar hüquq təhsilində innovasiyalar: mövcud problemlər və yeni imkanlar” mövzusunda beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Talıb Cəfərov, şöbə prokuroru Rauf Abdullayev və Kadrlar idarəsinin prokuroru Tamara Əlişzadə onlayn rejimdə iştirak etmişlər. Konfrans qarışıq formatda (əyani və onlayn) özbək, rus, fransız və ingilis dillərində keçirilmişdir.







Konfransın məqsədi müasir hüquq tətbiqi təcrübəsinin ehtiyac və tələblərinin ödənilməsinə yönəlmiş peşəkar hüquq təhsilinin inkişafı üzrə məsələlərin müzakirəsi və birgə həllinin axtarışı üçün platforma yaradılması olmuşdur.

Tədbirdə Özbəkistan Respublikası Baş prokurorunun müavini Erkin Yoldaşev, Ali Məclisin Qanunvericilik Palata sədrinin birinci müavini Akmal Saidov, Ali və orta xüsusi təhsil nazirinin müavini Raximjon Hakimov, ATƏT koordinatorı İm Xans-Ulrix və digər rəsmi şəxslər, eləcə də Malayziya, Koreya, Fransa, Rusiya, Almaniya və digər ölkələrin peşəkar hüquq sahəsində ixtisaslaşmış təhsil müəssisələrinin nümayəndələri iştirak etmişlər.

Konfrans çərçivəsində çıxış edən Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiya rəisi Yevqeniy Kolenko, Yaponiya təmsilçisi Taro Morinaqa, Çin Milli prokurorluq məktəbinin professoru Son Jinqlin, Qazaxıstan təmsilçisi Saule Saparliyeva və digərləri rəqəmsal texnologiyalardan istifadə etməklə peşə hazırlığının təşkilinə dair öz təcrübələri ilə iştirakçıları tanış etmişlər.

Konfrans iki hissədən ibarət olmaqla, Azərbaycan Prokurorluğunu təmsil edənlər əvvəlcə plenar sessiyada, sonra isə mövzu üzrə bölünərək paralel sessiyalarda səslənmiş fikirləri dinləmişlər, xarici ölkələrin təcrübəsi ilə tanış olmuşlar. Qərara alınmışdır ki, milli prokurorluq orqanlarında peşə hazırlığının keyfiyyətinin artırılması məqsədilə həyata keçirilən tədbirlər zamanı konfransda səslənilmiş müasir təlim komponentləri və xarici ölkələrin qabaqcıl təcrübəsi nəzərə alınsın.

# Baş Prokurorluğun nümayəndəsi Özbəkistanda təşkil edilmiş növbəti plenar görüşdə iştirak edib





Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin yayılmasına qarşı mübarizə və digər müvafiq sahələrdə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.

01-02 iyun tarixlərində Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq Ofisinin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsinin (CASC) növbəti plenar görüşü baş tutmuşdur. CASC şəbəkəsinin plenar iclasları ona üzv olan dövlətlərin səlahiyyətli orqanları arasında qarşılıqlı əlaqə kanallarının yaradılması üçün mühüm vasitə olmaqla Mərkəzi Asiya və Cənubi Qafqazda regional cinayətkarlıqla mübarizə çərçivəsində qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələlərinin həllinə yönəlmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunu sözügedən plenar iclasda Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı təmsil edərək, kibercinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığa dair müvafiq sessiyada çıxış etmişdir.

Plenar görüşün əsas məqsədi cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizə sahəsində beynəlxalq əlaqələrin genişlənməsi olmuşdur. Görüşdə mütəşəkkil cinayətkarlıq, o cümlədən insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq və əmlakın bərpası məsələlərində təcrübə mübadiləsi aparılmış, həmçinin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsinin 2023-cü il üçün iş planı müzakirə olunmuşdur.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşları "Tvinninq" layihəsi çərçivəsində Litva Respublikasında tədris turunda iştirak etmişlər

"Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi çərçivəsində 30 may – 03 iyun tarixlərində Azərbaycan Respublikası Baş prokurorunun müavini Elmar Camalovun rəhbərlik etdiyi nümayəndə heyəti layihə üzrə tərəfdaş ölkə olan Litva Respublikasında tədris turunda iştirak etmişlər. Səfər zamanı Litva Respublikasının aktivlərin bərpası, idarə edilməsi və maliyyə istintaqına dair təcrübəsi yaxından öyrənilmişdir.








30 may 2022-ci il tarixdə Tvinninq layihəsi üzrə əsas tərəfdaş Litva Respublikasının Xüsusi İstintaq Xidmətində (STT) görüş keçirilmiş və Xidmətin fəaliyyəti haqqında ümumi məlumat verilmişdir. Gün ərzində Xidmətin analitik cinayət araşdırması, aktivlərin bərpası üzrə məlumat bazalarından istifadənin praktiki və hüquqi aspektləri və "BİG data" məlumat bazasnın (Xidmətə aid ümumi məlumat baza) təhlili, maliyyə istintaqının praktiki aspektlərinə dair təqdimatlar edilmişdir. Təqdimat zamanı "BİG data" məlumat bazasının işləmə prinsipi və digər informasiya resurslarından faydalanma mexanizmi yaxından öyrənilmiş və adı çəkilən digər fəaliyyət istiqamətlərinin barədə tərəfdaş qurumun əməkdaşları ilə geniş müzakirələr aparılmışdır.

31 may 2022-ci il tarixdə Litva Respublikasının Maliyyə Cinayətlərinin İstintaqı Xidmətində əmlakların müəyyən edilməsi, izlənilməsi və müsadirəsi (nümunələrin təhlili), mülki müsadirə haqqında qanunun tətbiqinin praktiki və hüquqi aspektləri, əmlakların müəyyən edilməsində analitik proqram təminatı, məlumat bazaları və İT alətlərindən istifadə və çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması (risklərin idarə edilməsi sistemi, məlumatların təhlili, maliyyə qurumları ilə əməkdaşlıq) mövzusunda ekspertlər tərəfindən təqdimatlar nümayiş edilmişdir.

01 iyun 2022-ci il tarixdə Litva Respublikasının Dövlət Vergi Müfəttişliyi ilə keçirilmiş görüş zamanı










təhlil, modelləşdirmə və risklərin idarə edilməsi üzrə mükəmməllik mərkəzi, müsadirə edilmiş əmlakların satış prosedurları və praktiki aspektləri mövzusunda çıxışlar edilmiş, istifadə olunan bazalar nümayiş etdirilmişdir.

02 iyun 2022-ci il tarixdə günün birinci yarısı Litva Cinayət Polisi Bürosunda əmlakların aşkar olunması üzrə CARİN, SİENA ilə əməkdaşlıq formalarına dair məlumatlar əldə edilmişdir. Görüş zamanı ilk olaraq Əmlakların Bərpası şöbəsinin təqdimatı və məlumat mübadiləsi və beynəlxalq əməkdaşlığı təmin etmək üçün hüquqi və İT alətləri barədə təqdimatlar dinlənilmiş, müzakirələr aparılmışdır.

Tədbir çərçivəsində həmçinin Litvanın Ali Məhkəməsinə təşkil edilmiş səfər zamanı məhkəmənin əmlakın müsadirəsi ilə bağlı işlərin araşdırılması və icraatında rolu barədə edilmiş təqdimat ətrafında geniş müzakirələr aparılmışdır.

Səfərin sonuncu günü, 03 iyun 2022-ci il tarixdə Litvanın Baş Prokurorluğuna təşkil edilmiş görüşdə “Əmlakların bərpası sistemində Prokurorluğun rolu” və “Cinayət işlərində qanunsuz varlanma və müsadirə elementlərinin tətbiqinin praktiki aspektləri” adlı təqdimatlar nümayiş etdirilmişdir.

Tədbir zamanı keçirilən görüşlərdə Azərbaycan Respublikasının prezidenti Cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq prokurorluqda davam etdirilən hüquqi islahatlar, həmçinin Müzəffər Ali Baş komandanın rəhbərliyi altında şücaətli ordumuzun 30 ilə yaxın müddət öncə Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqları azad etmələrinə dair məlumatlar verilmiş və Baş Prokurorluq tərəfindən hazırlanan 44 günlük Vətən müharibəsinə həsr olunmuş “Qarabağ Azərbaycandır” adlı kitab həmin qurumlara təqdim edilmişdir.

# Azərbaycan Respublikasının Prokurorluğunun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir

Cari ilin 01-03 iyun tarixlərində Serbiya Respublikasının Belqrad şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən yaradılmış "Təmiz İpək Yolu Pekin Təşəbbüsü" Şəbəkəsinin 3-cü iclası keçirilmişdir.






2019-cu ildə Çin Xalq Respublikasının Pekin şəhərində təşkil olunmuş İkinci "Bir Kəmər, Bir Yol-Beynəlxalq Əməkdaşlıq Forumu" zamanı irəli sürülən "Təmiz İpək Yolu Pekin Təşəbbüsü" BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının icrasına dəstək məqsədi ilə sözügedən region ölkələrində beynəlxalq infrastruktur layihələrinin korrupsiyadan azad iqtisadi mühitlərdə maneəsiz inkişafı və şəffaf nəzarət mexanizmlərinə malik milli təsisatların təşviqi çağırışlarına uyğun olaraq yaradılmış bir layihədir.

BMT nümayəndələri, habelə, Türkiyə, Çin, İran, Albaniya, Qazaxıstan, Monqolustan, Qırğızıstan və digər dövlətlərin təmsilçilərinin qatıldığı tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokurorunun xüsusi tapşırıqlar üzrə köməkçisi Saleh Hacıyev və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Kamil Kamilli təmsil etmişlər.

Beynəlxalq investisiyalar sahəsində korrupsiya risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi və idarə edilməsi, sözügedən sahədə korrupsiya hüquqpozmalarının qarşısının alınması üçün həyata keçirilməli olan preventiv tədbirlər, eləcə də həmin hallarla bağlı cinayət işlərinin istintaqının xarakterik xüsusiyyətləri kimi mövzular ətrafında geniş müzakirələrin aparıldığı görüşün birinci sessiyasında beynəlxalq ekspertlər tərəfindən qeyd olunan mövzular üzrə geniş təqdimatlar həyata keçirilərək iştirakçılara müvafiq sahə üzrə mövcud səmərəli təcrübə barədə ətraflı məlumatlar verilmişdir.

Tədbirin ikinci sessiyasında isə beynəlxalq investisiyalar sahəsində baş vermiş korrupsiya hüquqpozmalarının müəyyən edilərək qarşısının alınması mövzusunda ekspertlər tərəfindən təqdim edilmiş praktiki məsələlər nümayəndələrimiz tərəfindən həll edilmiş, habelə sözügedən məsələlər üzrə ölkəmizdə mövcud istintaq təcrübəsi barədə görüş iştirakçıları məlumatlandırılmışdır.

# Baş Prokurorluğun əməkdaşları beynəlxalq seminarda iştirak edib







Cari ilin 13-15 iyun tarixlərində Moskva şəhərində "Rusiya Federasiyasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında 2021-2023-cü illər üzrə Əməkdaşlıq Proqramı"nın 2-ci bəndinin icrası ilə əlaqədar "Prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərə, habelə İnternetdə qadağan olunmuş məlumatların, o cümlədən ekstremist və terror xarakterli məlumatların yayılmasına qarşı mübarizə" adlı seminar keçirilmişdir.

Seminarda Baş Prokurorluğun Kriminalistika və İnformasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Ramil Ədilov, Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova və Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Elvar Həsənovdan ibarət nümayəndə heyəti iştirak etmişdir.

Seminar zamanı informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlər, qadağan olunmuş, ekstremist və terror xarakterli məlumatların yayılmasına qarşı mübarizə və digər mövzular ətrafında müzakirələr aparılmış, bu sahədə milli qanunvericilik barədə ətraflı məlumat verilmişdir. Bunlarla yanaşı təlim iştirakçıları arasında faydalı təcrübə mübadiləsi aparılmışdır.

# Azərbaycan Respublikası Prokurorluğunun nümayəndəsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Transmilli Rüşvətxorluğa qarşı Hüquq-Mühafizə Orqanları Şəbəkəsinin növbəti iclasında iştirak etmişdir




Cari ilin iyunun 14-də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Fransa Respublikasının paytaxtı Paris şəhərində yerləşən qərargahında Transmilli Rüşvətxorluğa qarşı Hüquq-Mühafizə Orqanları Şəbəkəsinin 4-cü iclası keçirilmişdir."COVID-19 pandemiyası və digər böhranlar zamanı korrupsiya cinayətlərinin istintaqı" mövzunda keçirilmiş tədbirdə müxtəlif dövlətlərin prokurorluq, ədliyyə və digər hüquq mühafizə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə yanaşı, ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyev təmsil etmişdir.

İclasda pandemiya dövründə transmilli korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin müzakirəsi zamanı fövqəladə hallarda korrupsiya faktlarının aşkarlanması, araşdırılması və təqibinin ən çətin aspektləri, bu sahədə jurnalistlər və korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərlə əməkdaşlığın artırılması, o cümlədən korrupsiya cinayətlərinin istintaqında müasir texnologiyaların tətbiqi kimi mövzular ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Bundan başqa, tədbir çərçivəsində "COVID-19 pandemiyasına qarşı mübarizədə informasiya texnologiyalarının istifadəsi və təsiri" mövzusunda keçirilmiş 3-cü qrupun aralıq sessiyasında çıxış edən nümayəndəmiz ölkəmizdə pandemiya dövrünə korrupsiya hüquqpozmaları ilə bağlı prokurorluq orqanları tərəfindən aparılmış cinayət işlərinin istintaqı təcrübəsi, bu sahədə kütləvi informasiya vasitələrinin rolu, eyni zamanda müvafiq dövr ərzində informasiya texnologiyalarının imkanlarının istifadə praktikası və onun gələcək perspektivləri haqqında danışmışdır.

# Azərbaycan Prokurorluğunun nümayəndələri məlumat bazalarının təhlili yolu ilə korrupsiyanın aşkarlanmasına dair beynəlxalq təlimlərdə iştirak etmişlər








Cari ilin 13-15 iyun tarixlərində Litva Respublikasının Vilnüs şəhərində Avropa Komissiyasının dəstəyi ilə Litvanın Xüsusi İstintaq Xidməti (STT) tərəfindən "Avropa İttifaqının maliyyə maraqlarına təsir edən korrupsiyanın aşkarlanması və qarşısının alınması üçün Geniş Məlumat Bazasının təhlili" mövzusunda təlimlər keçirilmişdir.

Sözügedən tədbirdə 18 müxtəlif ölkənin hüquq-mühafizə orqanlarının nümayəndələri ilə yanaşı, ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Anar Tağıyev və Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Nicat Nağıyev təmsil etmişlər.

Təlimlərdə dünyanın müxtəlif ölkələrində korrupsiyaya qarşı mübarizə aparan qurumların nümayəndələri arasında cinayətkarlar tərəfindən geniş istifadə edilən trans-sərhəd xarakterli, mürəkkəb korrupsiya və dələduzluq sxemlərinin aşkar edilməsi üsulları, "Geniş Məlumat Bazası"nın (Big Data) növləri, struktur quruluşu, o cümlədən həmin bazaların idarə edilməsi və təhlükəsizliyi ilə bağlı yaranan problemlərə dair təqdimatlar keçirilmişdir.

Bundan əlavə, korrupsiya cinayətlərinə qarşı səmərəli mübarizə aparmaq üçün qabaqcıl təcrübələr nəzərə alınmaqla elektron databazanın yaradılması ilə bağlı fikir mübadiləsi aparılmış və Avropa Birliyinin "opentender.eu" veb-saytı və digər bu kimi reyestrlərdən istifadə edilməklə açıq mənbəli dövlət satınalma analitikasının əyani nümayişi həyata keçirilmişdir.




Yekunda tədris edilən mövzu ətrafında verilmiş praktiki tapşırıqlar yerinə yetirilmiş, tədbir iştirakçılarına müvafiq sertifikatlar təqdim edilmişdir.

# Belarus Respublikasının Minsk şəhərində keçirilmiş beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun nümayəndə heyəti iştirak edib







Prokurorluq orqanlarında peşə hazırlığının təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədi ilə digər ölkələrin hüquq üzrə ali və ixtisaslaşmış təhsil müəssisələri, eləcə də hüquq mühafizə orqanları ilə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün əməli addımlar atılır, qarşılıqlı əməkdaşlığı əhatə edən memorandumlar imzalanır, birgə tədqiqatlar aparılır, tədris sahəsində yeni təhsil model və metodların tətbiqi təmin edilir.

Bu kimi tədbirlərə Belarus Respublikası İstintaq komitəsinin dəvətinə əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Talıb Cəfərovun və İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Teymur Qarayevin 23 iyun 2022-ci il tarixdə Minsk şəhərində iştirak etdikləri "İstintaq fəaliyyəti: elm, təhsil, təcrübə" mövzusunda II beynəlxalq elmi-praktiki konfransı aid etmək olar.

Konfrans Belarus milli kitabxanasında keçirilərək, tədbirdə yerli dövlət, məhkəmə və hüquq mühafizə orqanlarının, ali və hüquq sahəsində ixtisaslaşmış təhsil müəssisələrinin, habelə Rusiya hüquq mühafizə orqanlarının nümayəndələri iştirak etmişlər.









Konfransı Belarus Respublikası İstintaq komitəsinin sədri Dmitriy Qora açıq elan etdikdən sonra, konfransa dəvət olunmuş Rusiya Federasiyasının İstintaq komitəsinin sədri Aleksandr Bastrıkin, Belarus Respublikasının Təhlükəsizlik Şurasının Dövlət katibinin müavini Aleksandr Raxmanov və digər vəzifəli şəxslər təbrik nitqi ilə çıxış etmişlər.

Konfrans iştirakçıları öz məruzələrində istintaq və təhsil sahələrində tətbiq edilən yeni üsul, metod və texnologiyalar barədə geniş məlumatlar vermişlər, qanunvericiliyin və təcrübənin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürmüşlər. Digər natiqlərlə yanaşı, Talıb Cəfərovun rus dilində “İbtidai istintaq kadrlarının peşə hazırlığında situasiya təhlili metodu (case study)” adlı məruzəsi konfrans materiallarında dərc edilərək, Mərkəzin fəaliyyətinin təqdimatı video formatda tədbir iştirakçıları üçün nümayiş etdirilmişdir. Tədbir başa çatdıqdan sonra səslənilmiş fikirlər ətrafında konfrans iştirakçıları tərəfindən müzakirələr aparılmış, tədbirin ümumi nəticələri qiymətləndirilmişdir.

“Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Belarus Respublikası İstintaq komitəsinin “İxtisasartırma və yenidən hazırlıq institutu” təhsil müəssisəsi arasında əməkdaşlıq haqqında” imzalanmış Memoranduma əsasən Baş Prokurorluğun nümayəndə heyəti 24 iyun 2022-ci il tarixdə İstintaq komitəsinin institutunun funksional təyinatı, imkanları və texniki təchizatı ilə tanış olmuşlar, tərəflər arasında təcrübə mübadiləsi aparılaraq tədris prosesində tətbiq olunan yeniliklər diqqətə çatdırılmış, xatirə suvenirləri və bu qurumlar tərəfindən hazırlanmış yeni kitablar mübadilə edilmişlər.

Mədəni tədbirlər çərçivəsində Belarus milli kitabxanası ilə tanış olunaraq, səfər iştirakçıları üçün Qədim kitablar qalereyasına və Böyük vətən müharibəsinin tarix muzeyinə ekskursiya təşkil edilmişdir. Səfərin yekununda qərara alınmışdır ki, bir sıra aktual mövzular üzrə birgə tədris tədbirlərinin təşkili istiqamətində qarşılıqlı fəaliyyət davam etdirilsin.

# Baş Prokurorluğun nümayəndələri beynəlxalq tədbirdə iştirak edib



Hüquq-Mühafizə Orqanlarının İşçiləri üçün Avropa İttifaqının Təlimlər Agentliyinin (CEPOL) tərəfindən "TOPCOP" layihəsi çərçivəsində cari ilin 27 iyun – 01 iyul tarixlərində Rumıniyanın Buxarest şəhərində "Narkotik vasitələrin qaçaqmalçılığı – sintetik narkotik vasitələr" mövzusunda təlim həyata keçirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunu sözügedən təlimdə Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəis müavini İsmayıl Qayıbov, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru İlkin Abdullayev və Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Rəfael Süleymanovdan ibarət nümayəndə heyəti təmsil etmişlər. Təlimin əsas məqsədi cinayətkarlığın bütün təzahürlərinə qarşı, xüsusilə də narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində beynəlxalq əlaqələrin genişlənməsi olmuşdur. Təlimdə müxtəlif ölkələrin gündəmdə olan məsələlərə dair təqdimatları və çıxışları dinlənilmiş, faydalı fikir və təcrübə mübadiləsi aparılmışdır. Təlimdə Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev təqdimatla çıxış edərək ölkəmizdə sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin ümumdövlət vəzifəsi kimi müəyyən edildiyini vurğulamış, bütün sahələrdə olduğu kimi narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində də ardıcıl və məqsədyönlü addımların atıldığını, bunun üçün ölkədə lazım olan normativ-hüquqi baza, müvafiq təsisatların yaradıldığını və milli proqramların hazırlandığını iştirakçıların diqqətinə çatdırmışdır. Təlimin sonunda xatirə fotoşəkili çəkilmişdir.



# Heydər Əliyev – əfsanəyə çevrilmiş böyük dövlət xadimi

*Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub.*

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının ümummilli lideri**

*Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim, Şuşanı azad etdik! Bu, böyük qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Müzəffər Ali Baş Komandan**

## Lider fenomeni



Millətin nümayəndələri özlərini o vaxt xoşbəxt hesab edə bilərlər ki, uca Allah onlara zamanında müqəddəratlarını düzgün müəyyənləşdirən müdrik lider əta edir. Tanrının Heydər Əliyev kimi nəhəng şəxsiyyət bəxş etdiyi azərbaycanlılar da xoşbəxtdirlər.

Tarixdən hər birimizə bəllidir ki, istənilən xalqın müəyyən əlverişli məqamda milli-etnik soykökünə qayıdışı, tarix boyu əxz etdiyi milli-mənəvi dəyərlər və təfəkkür-tərzi sisteminə söykənən özünəməxsusluğunu bərpa və bəyan etməsi əsasən lider fenomeninin fövqəladə missiyası ilə şərtlənir. Azərbaycan xalqı ilə bağlı bu şərəfli missiyanı məhz ümummilli lider Heydər Əliyev həyata keçirmişdir. Belə şəxslər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından püxtələşir. Azərbaycana günəş kimi doğaraq bənzərsiz dühası ilə xalqını və vətənini qaranlıqdan çıxarmaqla nura qərq edən uzaqgörən siyasi xadimin fövqəlbəşərliyi, milləti və dövləti qarşısındakı müstəsna xidmətləri zaman keçdikcə daha aydın görünür.

Ali bəşəri xüsusiyyətləri özündə cəmləşdirən, vətəninə və millətinə ürəkdən bağlı olan, azərbaycançılıq ideyalarını və milli dövlətçiliyi hər şeydən üstün tutan müdrik liderin ən əsas istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq və buna söykənən müstəqil, qüdrətli, müasir dövlət qurmaq olmuşdur. Buna görə də ulu öndər Heydər Əliyev səlahiyyət sahibi olduğu ilk günlərdən tarixi ənənə və soykökün təməl prinsipləri üzərində milli şüurun düzgün formalaşması, onun tərəqqisi naminə misilsiz xidmətlər göstərmiş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, nəticədə proseslərin düzgün məcrada inkişaf

etməsinə, azərbaycançılığın milli ideologiyaya çevrilməsinə, millətin həmrəyliyinə və mənəvi bütövlüyünə nail olmuşdur. Bu isə millətin təkamülündə və monolitliyində aparıcı amil olmaqla yanaşı, həm də xalqın öz rəhbərinin ətrafında birləşməsinə, bununla da milli birliyin daha da möhkəmlənməsinə və əzəmətli dövlətin yaranmasına rəvac vermişdir.

Nadir şəxsiyyətlərdən olan Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə hər cür ideoloji-siyasi və digər maneələrə sinə gərərək, Azərbaycan xalqının milli özünüdərki üçün zəruri tədbirləri həyata keçirmiş, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağa müvəffəq olmuşdur. Ulu öndər xalqın şanlı keçmişini, soykökünü qaytarmaq, habelə zəngin mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, eləcə də ana dilini inkişaf etdirmək üçün böyük işlər görmüşdür.

Ötən əsrin 60-cı illərinin əvvəllərində Azərbaycanın əksər göstəriciləri aşağı, həmçinin sənaye potensialı zəif olduğu üçün, ölkəmiz Sovet İttifaqında geridə qalmış kənd təsərrüfatı respublikası kimi tanınırdı. Ölkəni böhran vəziyyətdən çıxarmaq üçün liderə böyük ehtiyac duyulurdu. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev məqsədyönlü tədbirlər görərək, hərtərəfli islahatlar həyata keçirərək respublikamızı qısa müddətdə sürətlə inkişaf etdirdi və bütün bunların nəticəsində Azərbaycan geridə qalmış kənd təsərrüfatı ölkəsindən aqrar-sənaye respublikasına çevrilərək, bir çox cəhətdən özünü təmin edən və ümumittifaq büdcəsinə töhfələr verən iki respublikadan biri oldu.

1982-ci ildə ulu öndərimizin ittifaq rəhbərliyinin ən yüksək pillələrindən birinə–SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Mərkəzi Komitənin Siyasi Bürosuna üzv seçilməsi, eyni zamanda müxtəlif fəxri adlar alması ermənilərin ciddi narahatlığına səbəb oldu. Yeni vəzifənin öhdəsindən məharətlə gələn müdrik insanın uğurları bəzi rəhbər vəzifəli şəxslərdə də ona qarşı qısqanclıq hissləri yaradır və bu erməniпərəst Qorbaçovun hakimiyyətə gəlişindən sonra daha qabarıq nəzərə çarpırdı. Yaranmış fürsətdən istifadə edən ermənilər onun vəzifədən uzaqlaşdırılması planını işə salaraq, bu prosesə dünyada məşhur olan erməni lobbisini də cəlb edirdi. Heydər Əliyevin 1987-ci ilin oktyabrında vəzifədən istefa verməsindən sonra, vətənin və xalqın məşəqqətli günləri başlayır. Əvvəlcə, Azərbaycanın tarixi ərazilərini Ermənistana birləşdirmək ideyası meydana çıxır ki, bu da torpaqlarımızın işğal edilməsi ilə nəticələnir, bir müddət sonra isə “Qanlı yanvar” faciəsi törədilir. Sözsüz ki, o zaman Heydər Əliyev hakimiyyətdə olsaydı bu hadisələrin heç biri baş verməzdi.

Yenidən fəal siyasətlə məşğul olmaq niyyəti olmayan ümummilli lider, baş verənlərə biganə qala bilmədiyi üçün hər bir təhlükəni gözaltına almaqla, heç nədən və heç kəsdən çəkinmədən 1990-cı ilin sərt qış günlərinin birində oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, respublikada “20 Yanvar” qırğınını törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən son dərəcə cəsarətli və qətiyyətli bəyanatla çıxış etməklə, hər zaman Azərbaycan xalqının yanında olduğunu bəyan edir. Bu, yeni tarixi epoxanın başlanğıcında Heydər Əliyevin müstəqillik uğrundakı mübarizəsinin şərəfli səhifəsi olmaqla çox böyük əhəmiyyət kəsb edirdi. Bundan sonra ona qarşı təzyiqlər və təxribatlar kampaniyası geniş vüsət alır. Bütün bunlara baxmayaraq, doğma yurduna qayıdan vətənpərvər insana Bakıda yaşamağa imkan verilmədiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana qayıdır və orada xalq onu, o, isə xalqını qoruyur.

Vurğulanmalıdır ki, həmin vaxt ermənilərin məkirli niyyəti, həmçinin Naxçıvanın da işğalına yönəlsə də, Heydər Əliyev buna imkan vermir və eyni zamanda müstəqilliyin əldə edilməsi üçün həlledici addımlar atmağa başlayır. Məhz onun təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda dövlət bayrağı elan edilir və Azərbaycanın Ali Məclisinə bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi barədə vəsatət göndərilir. Bununla yanaşı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarılır.

Göründüyü kimi, Azərbaycanın dövlət müstəqilliyinə gedən yol böyük şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvandan başlamışdır. 1992-ci ilin noyabrında bilavasitə onun liderliyi ilə siyasi platforması Azərbaycanın parlaq gələcəyindən xəbər verən Yeni Azərbaycan Partiyası yaradılır. Müxalifət partiyası kimi yaradılmış partiyanın siyasi arenaya gəlməsi bütün məsələlərin demokratik və sivil qaydada həll edilməsi üçün xüsusi əhəmiyyətə malik olan çox mühüm bir hadisə idi. Hazırda nəinki Azərbaycanda, eləcə də cənubi Qafqazda ən böyük partiya olan Yeni Azərbaycan Partiyası bilavasitə xalqa və milli maraqlara xidməti sayəsində qısa

zaman kəsiyində, 1993-cü ildə iqtidar partiyasına çevrilir və bununla da hər şey müsbətə doğru dəyişir.

**Xalqın böyük etimadı**

Müstəqilliyimizin ilk illərində bir tərəfdən ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında yaranmış uçurum, digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının reallaşdırılması ölkəmiz üçün ciddi çətinliklər yaradır. SSRİ-nin süqutu ilə əlaqədar yaranmış tarixi şəraiti düzgün qiymətləndirən müdrik və əzmkar xalqımız 1991-ci ildə ikinci dəfə dövlət müstəqilliyini əldə etmiş olsa da, AXC-Müsavat iqtidarı təmsilçilərinin şəxsi ambisiyaları, eləcə də səriştəsizlikləri və torpaqlarımızın işğalı ilə müşayiət olunan müharibə çox qısa müddətdə istiqlalımızı uçurumun kənarına gətirib çıxarır. Nicatın yalnız Heydər Əliyevdə olduğuna əmin olan Azərbaycan xalqı doğru seçim edərək öz sınanmış rəhbərinə üz tutur və müdrik liderin hakimiyyətə gəlməsini israrla tələb edir.

Vətənini və xalqını canından çox sevən ulu öndər heç bir təhlükəyə məhəl qoymadan xalqın çağırışını qəbul edərək Naxçıvandan Bakıya gəlir və 15 iyun 1993-cü il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Böyük qayıdışından sonra ölkəni dərin böhrandan, əslində dövlətçiliyi süquta uğramaqdan və müstəqilliyi itirmək təhlükəsindən xilas etmək üçün qısa müddət ərzində Respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirilir, vətəndaş müharibəsinin qarşısı alınır, separatçı meyillərə son qoyulur, ictimai-siyasi sabitlik bərqərar edilir ki, bütün bunlar hərtərəfli islahatların başlanmasına zəmin yaradır.

İndi sağlam düşüncəli hər bir Azərbaycan vətəndaşı çox yaxşı dərk edir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin zamanda Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə onun mövcudluğu şübhə altına düşə bilərdi. Yeri gəlmişkən, alman filosofu İmmanuel Kantın dediyi “sürətlə öz siyasi süqutuna yaxınlaşan xalqın taleyini yalnız dahi şəxs dəyişə bilər” fikri müstəqilliyin ilk illərində ulu öndərin timsalında bir daha öz təsdiqini tapdı.

Beləliklə də, ölkəsini olduqca ağır vəziyyətdən yüksək məharətlə çıxarmış ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə hərtərəfli rişəli islahatlar həyata keçirilməyə başlanıldı. Dahi rəhbərin müəyyən etdiyi bütün sahələrdə islahatlar aparmaq yolu ilə ölkə iqtisadiyyatını inkişaf etdirmək və mövcud iqtisadi potensialdan istifadənin səmərəsini artırmaqla onu xalqın bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək kimi bir-birini tamamlayan iki istiqamət ölkənin müasir inkişaf gerçəkliyinin obyektiv nəzəri-praktiki təməli olmaqla, Respublikamızın tərəqqisinə və xalqın rifahının yaxşılaşmasına böyük təkan verdi. İslahatların uğurla həyata keçirilməsi sözsüz ki, Heydər Əliyev dühasının bəhrəsi idi.

Heydər Əliyev yeni iqtisadi sistemə keçid prosesində iqtisadi potensialın ilk növbədə xalqın rifahına yönəldilməsini, əhalinin sosial maraqlarının təminatını, xüsusən aztəminatlı insanların sosial müdafiəsini dövlət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyən edirdi. Mövcud imkanlardan, o cümlədən təbii sərvətlərdən və iqtisadi potensialdan səmərəli istifadə etmək üçün hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışmağın zəruri olduğunu vurğulayan Heydər Əliyev, bunu iqtisadiyyatın inkişafının, nəticədə ölkəmizin qüdrətlənməsinin və vətəndaşlarımızın rifahının yüksəldilməsinin əsası kimi qiymətləndirirdi.

Dünya təcrübəsi təsdiq edir ki, islahatların müvəffəqiyyəti düşünülmüş, əsaslandırılmış strategiya və taktikadan başqa, bir çox sosial-siyasi və ideoloji amillərdən də asılıdır. Ümummilli liderin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olunması iqtisadi inkişafın davamlılığına və yeni hədəflərə rəvac verməklə yanaşı, tərəfdaşlar qazanılmasına da zəmin yaratdı. Ulu öndərin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulduğu, atəşkəs rejimini təzəcə əldə etdiyi üçün, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, ulu öndər 1994-cü ilin sentyabr ayında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə “Əsrin müqaviləsi” kimi möhtəşəm bir müqavilənin bağlanılmasına nail oldu.

Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ərsəyə gəlməsi, Azərbaycanı dünya-

da böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan "Şahdəniz"in reallaşması da bu böyük şəxsiyyətin misilsiz xidmətlərinin nəticəsi idi. Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-biri ilə, eləcə də bütün dünya ilə birləşdirilməsinə xidmət edən tarixi "İpək Yolu" layihəsində də Heydər Əliyevin təşəbbüsü ilə görülən işlər müstəsna əhəmiyyət kəsb etmişdir. Əsas məqsədi Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarət olan bu böyük layihənin reallaşdırılmasında Bakı-Tbilisi-Ceyhan boru xəttinin mühüm əhəmiyyətini nəzərə alan müdrik lider, bu səbəbdən əvvəlcə bütün qüvvəsini həmin xətt layihəsinə yönəltmişdir. Tarix onun növbəti uzaqgörənliyini təsdiq etdi və göstərdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin, Şərq-Qərb nəqliyyat dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və qədim "İpək Yolu"nun bərpası Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının qüdrətlənməsinə yönələn müdrik siyasəti olmaqla bərabər, həm də türk dünyasının birləşdirilməsinə hesablanmışdır.

Sadalananlar qəti əminliklə onu deməyə əsas verir ki, müasir şəraitdə dövlət müstəqilliyimiz üçün vacib olan iqtisadi potensialımızın əsası Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə qoyulmuşdur. Azərbaycanın son inkişaf tarixi bariz şəkildə göstərdi ki, Heydər Əliyev məntiqindəki "müstəqillik-iqtisadiyyat" dialektikası öz dərinliyi, yeniliyi və konkretliyi ilə hər zaman aktualdır. Möhtərəm Prezident cənab İlham Əliyev demişdir: "...1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır...".

**Qüdrətlənən Azərbaycan**

Ulu öndərin sürətli iqtisadi inkişaf konsepsiyasını uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilir, həmçinin iqtisadiyyatımızın daha da güclənməsinə xidmət edən digər əhəmiyyətli işlər görülür, tərəqqinin davamlılığı təmin olunur. Belə ki, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verilmişdir. Bundan başqa, 2018-ci ildə Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin Bakıda rəsmi açılış mərasimləri keçirilmişdir.

Bundan əlavə, 20 sentyabr 1994-cü il tarixində Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci ilin sentyabr ayının 14-də yeni, ölkəmiz üçün daha əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadılmış, bu isə Azərbaycanda bundan sonra da uzun illər neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına zəmin yaratmışdır. Xüsusi vurğulamaq lazımdır ki, praqmatik lider cənab İlham Əliyevin yürütdüyü son dərəcə təmkinli, səbirli, balanslaşdırılmış siyasət sayəsində 12 avqust 2018-ci il tarixdə Qazaxıstanın Aktau şəhərində 5 Xəzəryanı dövlət başçılarının iştirakı ilə imzalanan tarixi Aktau Konvensiyası ilə 1996-cı ildən davam edən Xəzərin hüquqi statusu ilə bağlı 22 illik danışıqlar milli maraqlarımızı qane edən sonluqla bitmiş və Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik öz həllini tapmışdır.

2018-ci ilin oktyabr ayının 19-da Azərbaycan–Türkiyə qardaşlığının təzahürü olaraq birgə səylərlə reallaşdırılan, hər iki ölkənin iqtisadi inkişafına, bütövlükdə regionun tərəqqisinə böyük töhfə olan «STAR» neft emalı zavodunun açılışı da neft strategiyasının uğurlarından olmuşdur. Azərbaycandan Avropa bazarlarına təbii qazı ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilmiş, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsi də yekunlaşdırılmışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də müstəsna əhəmiyyətli işlər görülmüşdür. Belə ki, təməli 2007-ci ildə qoyulmuş Bakı–Tbilisi–Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olmuşdur. 2018-ci il sentyabrın 18-də isə yeni Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün işlər başa çatdırılmışdır. Sözsüz ki, bu uğurları iqtisadi islahatların siyasi islahatlarla paralel şəkildə və yüksək peşəkarlıqla aparılması şərtləndirmişdir.

Fərəhləndirici və qürurverici haldır ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik və zamanı

önləyən siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin zəngin elmi bilikləri, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, eləcə də Yer kürəsini bürüyən koronavirus (COVID-19) pandemiyasına, həmçinin müharibədən yeni çıxmış ölkə olmasına rəğmən, bu gün də respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə nəhəng layihələr reallaşdırılır, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülür, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin daha da sağlamlaşdırılması, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılır.

Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilir. Dünyada gedən neqativ proseslərlə əlaqədar olaraq yaranmış beynəlxalq iqtisadi böhran vəziyyətinin fəsadları Azərbaycan iqtisadiyyatına az da olsa sirayət etsə də, sevindirici haldır ki, dövlət başçısının operativ və səmərəli iqtisadi siyasəti, bilavasitə onun tapşırığı ilə görülən qabaqlayıcı tədbirlər nəticəsində ciddi təsir göstərməmişdir. Reallaşdırılması nəzərdə tutulan tədbirlərdən və işlərdən heç birinin, o cümlədən hər hansı bir sosial layihənin icrasının təxirə salınmaması da bunun bariz təcəssümüdür.

Dövlətlərarası münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı dəstəkləyən və təbliğ edən Azərbaycanın mövqeyi beynəlxalq arenada da möhkəmlənmişdir. Təsadüfi deyil ki, 120 üzvlə BMT-dən sonra ikinci ən böyük təsisat olan Qoşulmama hərəkatına üzv dövlətlərin hamısı ötən il böyük etimad göstərərək ölkəmizin sədrlik müddətini yekdilliklə daha bir il uzatmışlar. Azərbaycan Türk Şurasına sədrliyini də uğurla başa vurmuşdur. İslam Əməkdaşlıq Təşkilatı ənənəvi olaraq ölkəmizin haqlı mövqeyini müdafiə edir. Dövlətimiz NATO tərəfindən də dəstəklənir. Digər dövlətlərlə, xüsusən də qonşu ölkələrlə qurulmuş mükəmməl əlaqələrin davamlılığı uğurla təmin olunur.

Xüsusi vurğulanmalıdır ki, Türkiyə ilə qardaşlıq münasibətləri, Türkiyə-Azərbaycan əlaqələri 15 iyun 2021-ci il tarixdə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq rəsmən müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Rusiya ilə olan əlaqələrin də uğurla davam etdirilməsi "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" 22 fevral 2022-ci il tarixli Bəyannamə ilə bir daha öz təsdiqini tapmışdır. İran və Gürcüstanla daim təmaslar və fikir mübadiləsi əsnasında dostluq və tərəfdaşlıq əlaqələri inkişaf etməkdədir. Bütün bunlar təbii ki, milli maraqlara uyğun həyata keçirilən müdrik xarici siyasətin nəticəsidir.

Göründüyü kimi, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızda ictimai-siyasi sabitlik hökm sürür, dövlətimiz yüksək templə inkişaf edir, beynəlxalq əlaqələr genişlənir və vətənimiz Azərbaycan dünya ölkələri sırasında tutduğu layiqli mövqeyini daha da möhkəmləndirir.

### Zəfərə doğru gedən yol

Ümummilli liderin zəngin və çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən birini də Azərbaycanın təhlükəsiz gələcəyinə, müstəqilliyinə və ərazi bütövlüyünə zəmanət verən ordu quruculuğu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəmizdə bu sahədə yaranmış tənəzzülə ulu öndərin birinci dəfə hakimiyyətə gəlişindən sonra son qoyuldu. Azərbaycanda SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsi, bu zavodlarda o dövrün ən müasir texnologiyalarının tətbiq olunması Azərbaycan Respublikasının müdafiə sənayesi istehsalında keyfiyyətli məhsulların həcmini dəfələrlə artırırdı ki, bu da müstəqilliyə doğru gedən yolda vacib amillərdən idi.

Bununla yanaşı, milli hərbi kadrların hazırlanması prosesi də vüsət aldı. Müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə ixtisaslı milli mütəxəssislərin yetişdirilməsi istiqamətində Heydər Əliyevin gördüyü böyük işlər bu müdrik şəxsiyyətin uzaqgörənliyinin parlaq sübutu idi. Ordu qururculuğunda keyfiyyətli hərbi təhsilin formalaşdırılmasının və ixtisaslı gənc

hərbi kadrların püxtələşdirilməsinin son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman qeyd edən ulu öndər, bu sahəni də daim diqqət mərkəzində saxlayırdı. Bu məsələnin vacibliyini nəzərə alan ümummilli lider Heydər Əliyev hələ Sovetlər dönəmində, SSRİ-nin iflas təhlükəsi heç kimin ağlına gəlmədiyi bir vaxtda milli kadrların, xüsusilə peşəkar hərbçilərin hazırlanması istiqamətində misilsiz işlər görürdü. Belə ki, o, azərbaycanlı gənclərin hərtərəfli formalaşması üçün onların ali təhsil, o cümlədən xaricdə təhsil almalarına xüsusi önəm verməklə yüzlərlə şəxsin müxtəlif dövlətlərin ali təhsil müəssisələrində, həmçinin ali hərbi məktəblərində təhsil almaları istiqamətində əməli tədbirlər həyata keçirirdi.

Ümummilli liderin şəxsi müdaxiləsi və qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı və bu sahədə də milliləşdirmə prosesi sürətləndi. Digər istiqamət isə ölkə daxilində milli təhsil müəssisələrinin təkmilləşdirilməsi və yeni təhsil ocaqlarının yaradılması idi. Bakıda hərbi məktəbin açılmasına mərkəzi hakimiyyətdən icazə almaq çox çətin olsa da, ulu öndər buna nail oldu və məhz onun əzmi sayəsində 19 iyul 1971-ci il tarixində silahlı qüvvələrin peşəkar milli hərbçi heyəti ilə komplektləşdirilməsində müstəsna əhəmiyyəti olan Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Sözügedən hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə təkan verdi.

Böyük şəxsiyyət Heydər Əliyev növbəti dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da köklü islahatlar həyata keçirildi. Silahlı qüvvələrin beynəlxalq əlaqələrinin genişləndirilməsini də hər zaman diqqətində saxlayan Ali Baş Komandan Heydər Əliyev, onu müasirləşdirmək üçün sovet hərb sistemini dəyişib, NATO standartlarını tətbiq etməyin zəruriliyini, Şimali Atlantika Alyansının isə beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alaraq, ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması barədə qətiyyətli qərar verdi və 4 may 1994-cü ildə Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Bundan sonra, digər ölkələrin qanunvericiliyindən və təcrübəsindən bəhrələnilməklə, eləcə də hərb tariximizə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı, həyata keçirilən mühüm tədbirlər sayəsində çağırış və səfərbərlik işi də xeyli təkmilləşdirildi, həmçinin hərbi hissələrdə intizam möhkəmləndi və qanunun aliliyi prinsipi bərqərar oldu. Bununla da, görülən işlər qısa zamanda öz bəhrəsini verdi və Azərbaycanın qüdrətli ordusu formalaşmağa başladı.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu sahəsində həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq silahlı qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirildi, arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirildi, hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı artırıldı, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan Silahlı Qüvvələri formalaşdı.

Təsadüfi deyildir ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı müxtəlif illərdə hazırladığı hesabatlarda da Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusu olması qeyd edilirdi. Hərbi qulluqçuların xidmət şəraitinin müasirləşdirilməsi, əsgərlərin məişət işlərindən azad edilməsi, yüksək tələblərə cavab verən əsgər yataqxanalarının istifadəyə verilməsi, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, həmçinin onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli də bir daha sübut edirdi ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli peşəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Bütün bunlar silahlı qüvvələrdə nizam-intizamı daha da möhkəmləndirir, hərbçilərin döyüş ruhunu və qabiliyyətini artırır, əzmini yüksəldirdi ki, bu da Vətən müharibəsindəki qələbəmizi şərtləndirdi.

### Möhtəşəm qələbə

Məlum olduğu kimi, 27 sentyabr 2020-ci il tarixdə səhər saatlarında Ermənistan silahlı qüvvələrinin növbəti dəfə təxribat törədərək genişmiqyaslı şəkildə cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artil-

leriya qurğularından intensiv atəşə tutması ordumuzu mənfur düşmənin layiqli cavabını verməyə vadar etdiyindən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi və bununla da İkinci Qarabağ müharibəsi başladı. Böyükdən kiçiyə hər kəs Vətən müharibəsinin qələbə ilə başa çatmasını qarşıya məqsəd qoydu. Dövlət başçısı cənab İlham Əliyevə olan sonsuz inam xalqı öz liderinin ətrafında daha da sıx birləşdirdi. Ali Baş Komandanın rəhbərliyi ilə silahlı qüvvələrimiz tərəfindən işğal altında olan ərazilərimizin bir birinin ardınca qısa zamanda erməni qəsbkarlarından təmizlənməsi düşmənin zəbt etdiyi tarixi torpaqlarımızın tezliklə tam azad ediləcəyindən və ərazi bütövlüyümüzün bərpa olunacağından xəbər verirdi ki, bu da xalqın mübarizə əzmini, o cümlədən orduda olan ruh yüksəkliyini daha da artırırdı.

Xalqımız tam əmin idi ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə işğal altında olan tarixi torpaqlarımız tezliklə azad edilməklə, doğma yurdumuzun hər bir guşəsində Azərbaycan bayrağı dalğalanacaqdır və bu belə də oldu. Elə ilk günlərdən düşmənə sarsıdıcı zərbələr vuran qəhrəman övladların ardıcıl zəfərlər qazanmaqla kəndlərimizi, qəsəbələrimizi, yaşayış məntəqələrimizi, eləcə də şəhərlərimizi, o cümlədən 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və nəhayət 8 noyabrda Şuşa şəhərini işğaldan azad etməsi Ermənistanı sülhə sövq etdi və bu düşmənin kapitulyasiya aktını imzalaması ilə nəticələndi. Ardınca 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər və 1 dekabrda Laçın işğaldan azad olundu.

Bununla da, haqq mübarizəsi hərbi-siyasi qələbəmizlə başa çatdı və ədalət bərpa edildi. Təbii ki, bütün bunlar müzəffər Ali Baş Komandanın mükəmməl siyasətinin və sarsılmaz qətiyyətinin, dövlətimizin qüdrətinin, silahlı qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsində mümkün olmuşdur. Qazandığımız tarixi zəfər millətimizin ruhunu dəyişdi, vüqarını və qürurunu daha da artırdı, alnını açıq, üzünü ağ, başını uca etdi, milli məğrurluğumuzu daha da möhkəmləndirdi. Fürsətdən istifadə edib, uca Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza isə şəfa diləyirəm.

Qürurvericidir ki, Ermənistanın növbəti təxribatlarının qarşısını almaq və düşməni sülhə məcbur etmək məqsədi ilə gedən 44 günlük müharibədə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə qüdrətli Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinin şücaəti hərb tariximizin qəhrəmanlıq salnaməsini yaratmağa müvəffəq oldu. Təsadüfi deyil ki, NATO, eləcə də ABŞ, Böyük Britaniya, Almaniya, Ukrayna və digər ölkələrin hərbçiləri Azərbaycanın Vətən müharibəsi təcrübəsindən bəhrələnmək, bununla əlaqədar öz ordularında müəyyən dəyişikliklər aparmaq fikirlərində olduqlarını açıq etiraf etdilər.

**Məsləkdaş dəstəyi**

Ulu öndər Heydər Əliyevin layiqli siyasi varisi cənab İlham Əliyevin prezidentlik dövrü Azərbaycanın daha da qüdrətlənməsi, xalqın rifahının hərtərəfli yaxşılaşdırılması, eləcə də ardıcıl uğurları ilə səciyyələnmiş və bu müsbət tendensiya yüksələn xətlə davam etməkdədir. Bütün bunları şərtləndirən isə ümummilli lider Heydər Əliyevin mükəmməl və uzaqgörən siyasəti, bu siyasəti dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin dühası, onun etibarlı məsləkdaşı Mehriban xanım Əliyevanın dəstəyi və millətimizin müdrikliyi, eləcə də sarsılmaz xalq-iqtidar birliyidir.

Vurğulanmalıdır ki, ölkəmizin tərəqqisində və əldə olunan uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında yüksək erudisiyaya, dərin düşüncəyə və mükəmməl idarəçilik qabiliyyətinə malik nəcib insanın – Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin və yorulmaz fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Onun Respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafında xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü böyük işlər dövlətimizin daha da qüdrətlənməsinə və xalqın rifahının hərtərəfli yaxşılaşdırılmasına töhfələr verməkdədir.

Qeyd olunanlar, eləcə də sadəliyi, təvazökarlığı, səmimiliyi, vətəninə və xalqına bağlılığı, bütün məsələlərə ədalətli yanaşması, cəmiyyətdə mənəvi aşınma yaradan, eləcə də saf və ali dəyərləri ucuzlaşdıran mənfi meyllərə qarşı barışmaz mövqe tutması, insanlığın təntənəsinə xidmət edən təşəbbüsləri və saysız-hesabsız xeyirxah əməlləri Mehriban xanıma sonsuz xalq məhəbbəti qazandırmışdır. Onun bəşər mədəniyyətinin inkişafı istiqamətindəki səriştəli fəaliyyəti, dövlətlərarası dialoq

prosesinə verdiyi töhfələr və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər isə Birinci xanıma Azərbaycan xalqının sevgisi ilə bərabər, bir sıra xarici ölkə vətəndaşlarının da rəğbətini qazandırmışdır. Fərəhləndiricidir ki, Mehriban xanımın xüsusən də Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları ümumbəşəri maraqlar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq səviyyədə təqdir olunur. Təsadüfi deyil ki, şöhrəti respublikamızın hüdudlarından kənara çıxan Birinci vitse-prezidentin gördüyü böyük işlərin sədası dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələrindən gəlir və onun səmərəli fəaliyyəti digər ölkələr tərəfindən də ali dövlət mükafatları verilməklə yüksək qiymətləndirilir.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə birlikdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşmələri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri vətən uğrunda, xalq yolunda öz qanını və canını əsirgəməyən, bu yolda xidmətləri olan insanlara qarşı yüksək diqqətin təcəssümü olmaqla bərabər, həmçinin hərbi qulluqçularımızda ruh yüksəkliyi yaradaraq döyüş əzmini artırırdı ki, bu da haqq mübarizəsində qələbəmizə böyük töhfə oldu. Aprel döyüşlərində yaralanan və yüksək texnologiyalı protezlərlə təmin edilmiş hərbi qulluqçularla 03 aprel 2019-cu il tarixdə keçirilən görüşdə Mehriban xanım Əliyeva onlara “qardaşlarım” deyərək müraciət etməklə söyləmişdir: “...Belə xalqla, belə əsgərlərlə biz Qarabağı mütləq qaytaracağıq...”. Bəli, bu, belə də oldu.

Qeyd etmək zəruridir ki, cənab Prezidentin ən sadiq silahdaşı Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti Vətən müharibəsi zamanı da diqqəti cəlb etmişdir. Birinci vitse-prezident ölkəmizin ədalətli mübarizəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün vətənpərvər çağırışları ilə hər bir azərbaycanlını informasiya platformalarında mübarizəyə səfərbər etməyi uğurla bacardı. Cəbhədə döyüşən qəhrəman hərbçilərimizə, eləcə də yaralılarımıza hərtərəfli dəstəyi və duaları ilə yardımçı olan, şəhidlərimizin əzizlərinin ağrı-acısına şərik çıxaraq bir ana, bir bacı, bir övlad kimi doğma və qayğılı münasibəti ilə onları ovunduran, hər bir məqamda dövlət başçısının yanında olan Mehriban xanım xalqımıza və ölkə rəhbərinə böyük dəstək verdi.

Möhtəşəm tarixi qələbədən sonra müzəffər Ali Baş Komandanın və birinci xanımın işğaldan azad olunmuş torpaqlarımızda sevinc və qürur dolu davranışları, səmimi paylaşımları xalqımız tərəfindən böyük maraq və fərəhlə qarşılanmaqla hər birimizdə sözlə ifadə oluna bilməyən iftixar hissləri yaradır.

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş hərbçilərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilmiş yürüş hər kəsi duyğulandırmaqla bərabər qəlblərdə unudulmaz izlər buraxdı.

Mehriban xanım Əliyevanın Vətənin və xalqın taleyində bundan sonra da misilsiz rol oynayacağına, ölkənin sürətli və davamlı inkişafına, dövlət başçısının rəhbərliyi ilə respublikamızda həyata keçirilən hərtərəfli islahatlara, görülən nəhəng işlərə böyük dəstək verəcəyinə hər kəs əmindir. Bu əminliyi yaradan başlıca amil isə vətənpərvər insanın hər zaman azərbaycançılıq məfkurəsinin inkişaf etdirilməsi, ölkəmizin davamlı tərəqqisi üçün yeni yollar axtarışında olması, xalqa və dövlətçiliyə xidmətin onun həyat amalının qayəsini təşkil etməsidir.

### Gülüstana çevrilən Vətən

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətini yeni müstəvidə yüksək məharətlə davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi uğurlu 19 il hərtərəfli köklü islahatların həyata keçirilməsi, dövlətimiz üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanaraq işlək mexanizmlər əsasında müvəffəqiyyətlə icra edilməsi və bütün sahələrdə tərəqqi prosesinin vüsət alması ilə səciyyələnmişdir. Qeyd olunan dövr ərzində dərinləşən islahatlar fonunda Azərbaycan sürətli inkişaf tempini qoruyub saxlamış, iqtisadiyyatını uğurla şaxələndirmiş, regional və qlobal məsələlərdə sabitləşdirici faktor kimi çıxış etmişdir. Neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, eyni zamanda qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması, regionların davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, əhalinin so-

sial müdafiəsi tədbirlərinin gücləndirilməsi ötən müddətdə dövlət başçısının iqtisadi siyasətinin əsasını təşkil etmişdir.

Müdrik liderin yürütdüyü siyasətin mükəmməlliyi, obyektiv gerçəkliyə adekvatlığı, milli maraqları əks etdirməsi, qayəsinin insan amili olması və nəticədə qazanılan hərtərəfli uğurlar hər bir Azərbaycan vətəndaşını fərəhləndirir, qürurlandırır, onda daha firavan gələcəyə böyük inam və əminlik yaradır ki, bununla da cənab Prezidentə olan sonsuz xalq sevgisi dərinləşir.

Bu gün respublikamızın digər bölgələri ilə bərabər, işğaldan azad edilmiş vaxtilə ermənilər tərəfindən viran qoyulmuş kənd və şəhərlərimizdə sürətli abadlıq-quruculuq işləri aparılır və həyata keçirilən siyasətin prioritet istiqamətlərindən olan bu proses dövlət başçısının şəxsi nəzarəti ilə uğurla reallaşdırılır ki, bunun da nəticəsində Vətənin hər bir guşəsi gülüstana çevrilir. Möhtərəm cənab Prezident artıq bir neçə dəfə Birinci vitse-prezidentlə birlikdə işğaldan azad olunmuş tarixi ərazilərimizə səfər edərək, yenidənqurma işləri ilə şəxsən tanış olmuş, bununla əlaqədar öz dəyərli məsləhətlərini vermiş və bir neçə müxtəlif infrastruktur layihələrinin təməlqoyma və açılış mərasimlərini keçirmişdir. Təkcə ötən il 7-si Şuşaya olmaqla, 32, o cümlədən dekabrın 24-də, məhz doğum günündə Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Şuşa şəhərinə olan səfər dövlət başçısının, eləcə də birinci xanımın və onların övladlarının Vətənə, yurda, torpağa və xalqa bağlılığının təcəssümüdür.

Ölkə rəhbərinin Şuşaya növbəti səfəri zamanı, 22 aprel 2022-ci il tarixində Azərbaycanın mədəniyyət paytaxtında keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı isə hər bir azərbaycanlını sevindirməklə bərabər, millətin özünəgüvənliyini daha da artırdı. Yeri gəlmişkən, ulu öndər Heydər Əliyevin 23 may 2001-ci il tarixli Sərəncamına əsasən, həmin ilin 9-10 noyabrında keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında çıxış edən ulu öndər demişdir: "...İşğal olunmuş torpaqlar azad ediləcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır...".

Hazırda geniş tikinti-quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda dövlət başçısının tapşırıqları və tövsiyələri əsasında "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, bütün infrastrukturların yenidən qurulması, avtomobil və dəmir yollarının, elektrik, su və qaz xətlərinin çəkilməsi, hava limanlarının, tunellərin, körpülərin, müasir yaşayış komplekslərinin, məktəblərin, xəstəxanaların, su-elektrik stansiyalarının tikilməsi, eyni zamanda Mehriban xanım Əliyevanın təşəbbüsü ilə rəhbəri olduğu və ulu öndərin xeyirxah ideyalarını layiqincə davam etdirən Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni və dini abidələrimizin bərpa edilməsi prosesi uğurla davam etdirilir ki, bu da dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə respublikamızın qüdrətini və iqtisadi gücünü sübut edən növbəti bariz nümunədir. Bütün bunlar düşmən tapdağından azad edilmiş dədə-baba torpaqlarımızda yeni tarixi mərhələnin, mütərəqqi bir dövrün başlanmasını müjdələyərək, bölgə üçün yeni imkanlar və perspektivlər vəd edir.

Bütün bunlardan göründüyü kimi, hələ sağlığında canlı əfsanəyə çevrilmiş dünya şöhrətli siyasətçi, nəhəng dövlət xadimi Heydər Əliyevin mütərəqqi ideyaları onları hər zaman fəaliyyətində rəhbər tutan möhtərəm Prezident cənab İlham Əliyevin yürütdüyü mükəmməl siyasətdə yaşayır və dövrün tələblərinə uyğun uğurla həyata keçirilir ki, bu da Azərbaycanın daha da qüdrətlənməsini və xalqın rifahının hərtərəfli yaxşılaşmasını şərtləndirir.

Bu gün cənab Prezidentə ünvanlanan minnətdarlıq məktublarının ardı-arasının kəsilməməsi, Mehriban xanımın saysız-hesabsız xeyirxah təşəbbüslərinə görə insanların məmnunluq hissləri ilə dolu təşəkkürlərini ifadə edən müraciətlərinin sənginməməsi ölkədə zamanla uzlaşdırılaraq uğurla həyata keçirilən Heydər Əliyev siyasətinin qədirbilən xalq tərəfindən dəyərləndirilməsinin və dəstəklənilməsinin təcəssümü, ulu öndərə, eləcə də dövlət başçısına və Birinci vitse-prezidentə olan misilsiz xalq məhəbbətinin təzahürüdür.

Bunlar isə qəti əminliklə onu deməyə əsas verir ki, nə qədər Azərbaycan dövləti və milləti varsa dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyevin parlaq siması qədirbilən insanların qəlbində hər zaman yaşayacaq, onun əziz və unudulmaz xatirəsi həmişə yüksək ehtiramla anılacaqdır.

**Xanlar VƏLIYEV,**
**Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı, respublikanın Əməkdar hüquqşünası, hüquq üzrə fəlsəfə doktoru.**

# Azərbaycan Prokurorluğunun tarixində Heydər Əliyevin rolu



1993-cü ilin iyun ayında Azərbaycanda siyasi hakimiyyətə ikinci dəfə xilasedici qayıdış edən Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlətçilik siyasətinin aparıcı və əsas istiqamətlərindən olan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda görülən tədbirlər və milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları nəticəsində demokratiyanın, insan hüquq və azadlıqlarının bərqərar olması üçün əsaslı zəmin yaradılmışdır.

Bu il biz Azərbaycan dövlətinin və Azərbaycan xalqının ictimai, siyasi, sosial və mədəni həyatında irəliyə doğru mühüm dönüş nöqtələrinin təməlini atmış ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illiyini qeyd etdik.

Məhz Ulu Öndər tərəfindən həyata keçirilən məqsədyönlü və uzaqgörən siyasət tədbirləri sayəsində bu gün Azərbaycan Respublikası inkişaf etmiş dünya dövlətləri sırasında öz xüsusi yeri olan bir dövlətə çevrilmiş, mütərəqqi və beynəlxalq standartlara uyğun islahatlar nəticəsində demokratik, hüquqi və sivil bir dövlət yaradılmış, ictimai-siyasi sabitliyə və tam əmin-amanlığa nail olunmaqla qanunun aliliyinə təminat verən vətəndaş cəmiyyəti formalaşdırılmışdır.

Doğma xalqına və millətinə təmənnasız xidməti həyatının mənası və məqsədi kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çox böyük maneələrlə rastlaşmasına baxmayaraq, Heydər Əliyev öz siyasi müdrikliyi, polad iradəsi və qətiyyəti, ən əsası - xalqının dəstəyi nəticəsində doğma Azərbaycanı bugünkü və gələcək nəsillər üçün qoruyub saxlamış və müstəqil inkişaf yoluna çıxarmışdır.

Xüsusi qeyd edilməlidir ki, insan hüquq və azadlıqlarının hərtərəfli müdafiəsi, humanizm və sosial ədalət prinsiplərinin möhkəmləndirilməsi hakimiyyətdə olduğu bütün dövrlərdə, xüsusilə də 1993-cü ildən sonrakı mərhələdə Heydər Əliyev dövlətçilik siyasətinin mahiyyətini təşkil edən əsas vəzifə olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq məhz Azərbaycanda ölüm cəzasının ləğv edilməsi, Azərbaycan dövlətinin insan hüquq və azadlıqları sahəsində çoxsaylı beynəlxalq konvensiya və sazişlərə qoşulması, ölkəmizin dünyaya və Avropaya inteqrasiyası proseslərinin sürətləndirilməsi sahəsində mühüm rolu olan «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» 1998-ci il 22 fevral tarixli Fərmanın verilməsi ilə bu istiqamətdə görülən işlər dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

Hüquq islahatları sahəsində çox əhəmiyyətli sənədlərdən biri də möhtərəm Heydər Əliyevin 1996-cı il iyun ayının 8-də imzaladığı «Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında» Sərəncamdır. Bununla yanaşı, görülən böyük işlər sırasında ulu öndərin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasının fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Həmin Sərəncamlara əsasən beynəlxalq standart-

lara uyğun «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında», «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında» Konstitusiya qanunları, Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Cəzaların İcrası, Əmək və digər məcəllələrin, həmçinin «Konstitusiya Məhkəməsi haqqında», «Prokurorluq haqqında», «Məhkəmə və hakimlər haqqında», «Polis haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında» və sair qanunların qəbul edilməsi insan hüquqlarının təminatının hüquqi bazası olmaqla ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına necə böyük əhəmiyyət verilməsinin əyani təsdiqi olmuşdur.



Müstəqil Azərbaycan Respublikasının mühüm dövlət təsisatlarından biri olan milli prokurorluğun bugünkü vəziyyətdə mövcudluğuna və formalaşmasına görə biz prokurorluq əməkdaşları, ilk növbədə, ulu Öndər Heydər Əliyevin şəxsiyyətinə borcluyuq. Çünki, prokurorluğun dövlətçiliyimizin maraqlarına xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Hər kəsə məlumdur ki, istər Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı, istərsə də ölkəmizin SSRİ-nin tərkib hissəsi olduğu dövrdə milli prokurorluq orqanları tam formalaşa, cəmiyyətdə və dövlətdə öz layiqli yerini tuta bilməmiş, onun milli maraqları və insan hüquqlarını layiqincə müdafiə edən təsisata çevrilməsi mümkün olmamış, müstəqilliyimizin ilk illərində isə ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında olan uçurum bunu mümkünsüz etmişdir. Bununla belə, çətin dövrlərdə, eləcə də ölkəmizdə separatçılıq meyillərinin və dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında prokurorluq əməkdaşları da üzərlərinə düşən vəzifələri layiqincə icra edərək, dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törətmiş şəxslərin tez bir zamanda ifşa edilib məsuliyyətə cəlb olunmasına bütün güclərini səfərbər etməklə cəmiyyətin və dövlətin onlara olan etimadını doğrultmuşdur.

Müstəqillik dövründə Xalqımızın ümummilli liderinin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları gedişində görülən tədbirlər sayəsində Azərbaycan Prokurorluğunun fəaliyyətində əsaslı dönüş yaradılmış, prokurorluğa qarşı tələbkarlığın artırılması, onun kadr korpusunun sağlamlaşdırılması və əməkdaşların məsuliyyət hissinin artırılması təmin edilmiş, prokurorluğun maddi-texniki təminatının daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər öz müsbət nəticələrini vermişdir.

Hər birimizə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların əsasını və onun hüquqi bazasının təməlini ulu öndərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmiş və ali qanunda ilk dəfə olaraq cinayət mühakimə icraatında mühüm funksiyaları yerinə yetirməsi nəzərə alınmaqla ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, funksiyaları və səlahiyyət dairəsi qanunvericilik qaydasında təsbit olunmuşdur. Bir müddət sonra müdrik rəhbər Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya



Təsadüfi deyil ki, Azərbaycan prokurorluğu orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda dərin məzmunlu nitq söyləyən müdrik rəhbər demişdir: "İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər."

Ümummilli lider həmin yığıncaqda prokurorluğun fəaliyyətini ağır, çətin, eyni zamanda, çox şərəfli və hörmətli peşə adlandırmışdır. Müdrik rəhbərin prokurorluq işçilərinin əməyinə verdiyi yüksək qiymət, bu sahəyə aid göstəriş və tövsiyələri hər bir prokurorluq işçisini xalqa və dövlətə daha sədaqətlə xidmət etməyə ruhlandırmışdır.

digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir. Beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" Azərbaycan Respublikası Qanunlarının və digər hüquqi aktların qəbul olunması ilə isə prokurorluğun fəaliyyətini tənzimləyən hüquqi baza dövrün tələblərinə və beynəlxalq standartlara uyğun formalaşdırılmışdır.

Onu da nəzərə almaq lazımdır ki, ölkə prokurorluğu çoxillik tarixə malik olaraq bir sıra onilliklər ərzində fəaliyyət göstərsə də, yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində onun tərəfindən imzalanmış 17 iyul 1998-ci il tarixli sərəncama əsasən hər il oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi prokurorluğa böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürü olmuşdur.

Azərbaycan Prezidenti kimi Azərbaycan prokurorluğuna inandığını, güvəndiyini və arxalandığını hər fürsətdə bəyan edən Heydər Əliyevin Respublika prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi və bütün prokurorluq əməkdaşları üçün tarixi əhəmiyyət kəsb edən müşavirədəki proqram xarakterli dərin məzmunlu çıxışından irəli gələn tövsiyə və göstərişlər məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanlarında həyata keçirilən islahatların əsasını təşkil etmişdir. Məhz həmin tövsiyə və göstərişlərə müvafiq olaraq həyata keçirilən islahatlar və struktur dəyişiklikləri nəticəsində Azərbaycan prokurorluğu dövlətçiliyimizin maraqlarına və qanunun aliliyi prinsipinin reallaşması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması məqsədlərinə xidmət edən modern və sivil bir quruma çevrilmişdir.

Bu tarixi müşavirədən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli islahatlara təkan verilmiş, prokurorluq orqanlarında struktur dəyişikliyi aparılmış, səlahiyyətləri və fəaliyyət istiqamətləri ilə

yanaşı, onun yeni strukturu müəyyənləşdirilmiş, normativ hüquqi bazası formalaşdırılmış, fəaliyyəti beynəlxalq standartlara uyğunlaşdırılmış, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində ciddi nailiyyətlər əldə edilmişdir.

Onun vurğuladığı "Prokurorluq orqanlarının əsas hədəfi qanunun aliliyinin təmin olunmasıdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir." fikirləri bütün prokurorluq əməkdaşlarının xidməti fəaliyyətində rəhbər tutduğu əsas devizlərdən birinə çevrilmişdir.

Hakimiyyətdə olduğu bütün dövrlərdə prokurorluğa böyük dəstək, yüksək diqqət və xüsusi qayğı göstərmiş ümummilli lider Heydər Əliyev deyirdi: "...Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz - prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır...". Böyük insanın söylədiyi bu dəyərli kəlamlar reallığa çevrilməklə davamlı xarakter aldı.

Xüsusi vurğulanmalıdır ki, ulu öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin qəbul edilməsi və onun icraya yönəldilməsi Azərbaycan Prokurorluğunda aparılan islahatların ən böyük uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi əhəmiyyətli məsələnin hüquqi əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər rəhbər tutularaq, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsi nəticəsində prokurorluğun kadr tərkibinin yüksək mənəvi keyfiyyətlərə və dərin biliyə malik, geniş dünyagörüşü olan, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq, bir sözlə, püxtələşmiş gənc hüquqşünaslardan formalaşdırılmasına və mütəmadi olaraq yenilənməsinə müyəssər olunmuşdur.

Eyni zamanda bu islahatların fonunda 19 sentyabr 2002-ci il tarixdə qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Referendum Aktı ilə Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsi prokurorluğun əhəmiyyətini daha da artırdı. Beləliklə, ölkədə görülən nəhəng işlər çərçivəsində həyata keçirilən mütərəqqi islahatlar sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında struktur və mahiyyət baxımından tamamilə yenidən qurulmuş, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilmiş, fəaliyyəti, eləcə də vəzifələri və səlahiyyətləri beynəlxalq standartlara uyğun və müasir tələblərə cavab verən Azərbaycan Prokurorluğu formalaşdırıldı.

Göründüyü kimi, Azərbaycanı bütün bəlalardan və çətinliklərdən məharətlə qorumaqla, qısa zaman ərzində ölkəsini olduqca çətin vəziyyətdən yüksək peşəkarlıqla çıxarmış müdrik lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət qurumlarının, o cümlədən prokurorluğun müasir dövlət təsisatına çevrilməsi istiqamətində görülən əhəmiyyətli işlərin nəticəsində prokurorluq demokratik orqan kimi tamamilə yenidən təşkil olunaraq, dövlət orqanları sırasında öz layiqli yerini tutdu və bununla da, dövlətçiliyimizin əsas sütunlarından birinə çevrildi.

Sonda onu da qeyd etmək vacibdir, bu gün də prokurorluğun kollektivi üçün müstəsna əhəmiyyət kəsb edən haldır ki, Azərbaycan prokurorluğu orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət Respublika Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən də davam etdirilir və prokurorluğa hərtərəfli qayğı göstərilir. Prokurorluğun dövlət təsisatı kimi daha da təkmilləşdirilməsi, prokurorluq işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər prokurorluq orqanlarına Dövlət başçısı və dövlət səviyyəsində göstərilən inam və etimadın təzahürü kimi bütün prokurorluq əməkdaşları tərəfindən yüksək qiymətləndirilir.

**Fazil Həsənəliyev,**
**Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi,**
**III dərəcəli dövlət ədliyyə müşaviri.**

# Azərbaycan Respublikasının və xarici ölkələrin qanunvericilik təcrübəsində İnsan hüquqları üzrə Müvəkkilin (ombudsmanın) hüquqi statusu

"Ombudsman" sözü İsveç mənşəli olub – "müvəkkil, etibar edilmiş, müvəkkil edilmiş şəxs, nümayəndə, sədr" mənalarında işlədilir. Ombudsman təsisatının İsveç kralı XII Karlın Osmanlı dövlətində yaşadığı zaman yaradılması qəbul edilir. XVII əsrin əvvəllərində XII Karl ombudsman kabinetinin yaradılması haqqında qərar qəbul etmişdir və bu kabinet sonralar kralın "Ədalət Dəftərxanası" adlandırılmışdır. Yeni kabinet Osmanlı dövlətində fəaliyyət göstərən və dövlət məmurlarının islam qaydalarına riayət etməsini təmin edən "Qadi Qudat" Baş Ədalət Kabinetinin təsiri altında yaradılmışdır. Burada Baş Ədalətçi, həmçinin insanları hakimiyyətin ədalətsizliyindən qoruyurdu və onların hüquqlarının pozulmasının qarşısını alırdı. XII Karl tərəfindən yaradılan Ədalət Dəftərxanası icra hakimiyyətinin bir hissəsi idi və qanunların icra olunmasına nəzarət etmək üçün yaradılmışdır.

Ombudsman vəzifəsinin təsis edilməsi 1809-cu ildə qəbul edilən İsveçin Konstitusiyasında nəzərdə tutulmuşdur. Həmin dövrdə bu təsisat Ədliyyə Ombudsmanı adlandırılırdı və onun təsis edilməsində başlıca məqsəd insan hüquq və azadlıqlarının bərpası sahəsində vahid konsepsiya olmadığından, dövlət strukturları tərəfindən qanuni və ədalətli idarəetmənin təmin edilməsi idi. Ombudsman institutunun təsis edildiyi ikinci ölkə Finlandiyadır. Bu ölkədə 1919-cu ildə yaradılan Ombudsman vəzifəsi demək olar ki, onun İsveç analoqundan heç nə ilə fərqlənmirdi. Ombudsman institutu böyük bir müddət ərzində yalnız Skandinaviya ölkələrinə məxsus olan spesifik təsisat kimi qalsa da, artıq ikinci dünya müharibəsindən sonra sürətlə digər Avropa və dünya ölkələrində də təşəkkül tapmağa başlamışdır.

Hal-hazırda Ombudsman təsisatı müxtəlif adlarla 100-ə yaxın dövlətdə fəaliyyət göstərir. Əsasən Skandinaviya ölkələrində olduğu kimi, Ombudsman adından istifadə edilir. Bəzi ölkələrdə bu təsisat Xalqın Müdafiəçisi (İspaniya və bəzi Latın Amerikası ölkələrində), Xalqın vəkili (Rumıniya), Xalq Hüquq Müdafiəçisi (Xorvatiya), Vətəndaşların Yardımçısı (Ayova ştatı, ABŞ), Administrasiyanın işləri üzrə komissar (Böyük Britaniya), Mediator (Fransa) adı altında fəaliyyət göstərir. Lakin adlandırmada olan fərq onların mahiyyətində də təzahür etmir. Mövcud olduğu bütün ölkələrdə Ombudsman konkret şəxsin dövlət qurumları tərəfindən pozulmuş hüquqlarının məhkəmədən kənar qaydada bərpasını təmin edən müvəkkil kimi çıxış edir.

İnsan hüquqları üzrə Müvəkkil İnstitutu dünya təcrübəsində artıq mühüm yer tutmasına baxmayaraq, ölkəmiz üçün nisbətən yeni təsisatdır. Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və dövlət orqanları, yerli özünüidarəetmə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqlarının və azadlıqların bərpa edilməsi məqsədilə təsis edilmiş bu institut ilk növbədə, dövlət orqanlarının fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsi vasitələrindən biri kimi qiymətləndirilir. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi və Konstitusiyada sadalanan hüquq və azadlıqların Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi müəyyən edilmişdir. Konstitusiyanın 71-ci maddəsinə əsasən Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Həmin hüquqların həyata keçirilməsi heç kəs tərəfindən məhdudlaşdırıla və Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanından irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq, respublikanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 saylı Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı xüsusilə qeyd etmək lazımdır. Dövlət Proqramında insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması, Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmiş, müvəkkil təsisatının yaradılması və fəaliyyət göstərməsi üçün maddi və hüquqi baza yaradılmışdır.

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun 12-ci maddəsində insan hüquqlarının pozulmasına

dair şikayətə baxılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi qaydası müəyyən edilmişdir. Belə ki, Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı barəsində şikayət verilən orqanın və ya vəzifəli şəxsin həmin şikayətlə bağlı mülahizələrini öyrənməlidir. 10 iş günü müddətində mülahizə Müvəkkilə təqdim edilməlidir. İnsan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkilin aşağıdakı hüquqları vardır: istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, habelə polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə  və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq; səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq; dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən zəruri məlumat, sənəd və materialları 10 iş günü müddətində almaq; cinayət, mülki və inzibati işlərə dair qanuni qüvvəyə minmiş qərarlarla, həmçinin cinayət işlərinin başlanmasının rədd edilməsi barədə materiallarla tanış olmaq; şikayətin araşdırılması zamanı vəzifəli şəxslərdən yazılı arayışlar almaq; şikayətdə əks etdirilmiş halların yoxlanılması üçün müvafiq orqanlara tapşırıq vermək (yoxlama, qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən orqana və ya vəzifəli şəxsə tapşırıla bilməz); müvafiq dövlət orqanları və təşkilatlarına ekspert rəyinin hazırlanmasını tapşırmaq; dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, polis bölmələrinin, müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin, qarnizon hauptvaxtlarının, psixiatriya müəssisələrinin, qanunsuz miqrantların saxlanılması mərkəzlərinin  və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək. Müvəkkilə məlumat verilməsinə görə hər hansı şəxsə və ya təşkilata təzyiq göstərilməsi, yaxud şəxsin və ya təşkilatın təqib edilməsi yolverilməzdir. İnsan hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda Müvəkkil öz təşəbbüsü ilə araşdırma aparır. Araşdırma zamanı şikayətdə qeyd olunmayan digər hallar aşkar edilərsə, araşdırma Müvəkkilin səlahiyyətlərinə aid olduqda, onun tərəfindən aparılır, onun səlahiyyətlərinə aid olmadıqda isə materiallar digər səlahiyyətli dövlət orqanlarına göndərilir. Şikayətə 30 gün müddətində baxılır. Şikayətə baxmaq üçün əlavə yoxlama aparmaq və ya material tələb etmək zərurəti yarandıqda müraciətə baxılma müddəti 30 günədək uzadılır. Ərizəçinin yazılı razılığı ilə əlavə yoxlama aparmaq lazım gəldiyi halda müraciətin baxılma müddəti yenidən uzadıla bilər.

Bundan başqa, Konstitusiya Qanununun 13-cü maddəsində insan hüquqlarının pozulmasına dair şikayətə baxılmanın nəticələrinə dair müddəalar təsbit edilmişdir. Belə ki, Müvəkkil şikayətə baxılması ilə bağlı görülmüş tədbirlər və nəticələr barədə 5 iş günü müddətində ərizəçiyə yazılı surətdə məlumat verir. Müvəkkil şikayətin araşdırılması zamanı insan hüquqlarının pozulması hallarını aşkar etdikdə, aşağıdakı tədbirləri həyata keçirir: qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək (müvafiq orqanlar, vəzifəli şəxslər 10 iş günü müddətində Müvəkkilə görülən tədbirlər barədə yazılı surətdə məlumat verməlidirlər. Məlumat verilmədiyi və ya Müvəkkilin tələbləri həyata keçirilmədiyi hallarda Müvəkkil həmin təşkilatın yuxarı orqanına və ya digər dövlət orqanlarına müraciət edir); cinayət əlamətləri aşkar edildikdə, müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək; əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək; qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq orqanlara təkliflər vermək; insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə kütləvi informasiya vasitələrini tanış etmək;  İnsan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün Müvəkkilin səlahiyyətlərində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məruzə ilə çıxış etmək; dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək; şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.

Bundan əlavə, Konstitusiya qanununda informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətə baxılmasının xüsusiyyətləri də təsbit edilmişdir.

Qeyd edilməlidir ki, həyata keçirilən hüquq islahatlarının davamı olaraq Azərbaycan Respublikasının insan hüquq və əsas azadlıqlarının həyata keçirilməsinin təmini, respublikada məhkəmə islahatlarının həyata keçirilməsindən irəli gələn, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin və seçki sisteminin təkmilləşdirilməsi ilə əlaqədar yeni müddəaların Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunması

məqsədilə 24 avqust 2002-ci il tarixində keçirilmiş referendum nəticəsində insan hüquq və azadlıqlarının daha effektiv həyata keçirilməsi məqsədilə, ombudsman təsisatının təşkili və fəaliyyəti ilə bağlı bir sıra mühüm müddəalar Konstitusiyada təsbit olunmuşdur. Belə ki, Konstitusiyada ilk dəfə olaraq hər kəsin onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının, bələdiyyələrin normativ aktlarından, məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət vermək hüququ təsbit olunmuşdur. Referendum nəticəsində Konstitusiyada Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) namizədliyinin irəli sürülməsi, seçilməsi, həmçinin insan hüquq və azadlıqlarını pozan normativ hüquqi aktların Konstitusiya və insan haqlarına uyğunluğunun müəyyən olunması məqsədilə Konstitusiya Məhkəməsinə müraciət etməsi hüququ ilə bağlı müddəalar təsbit olunmuşdur.

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun 1.2-ci maddəsinə əsasən, müvəkkil "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir. İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın Fakultativ Protokolunun 19-cu maddəsinə əsasən milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

Protokolun 22-ci maddəsinə əsasən, müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün tədbirlərlə bağlı dialoq aparır.

BMT-nin Baş Assambleyasının 20 dekabr 1993-cü il tarixli 48/134 nömrəli Qətnaməsi ilə qəbul edilmiş Ombudsmanın statusu haqqında Paris prinsiplərinin 2-ci bəndinə əsasən, milli təsisata konstitusiya və ya qanunverici aktda müəyyən edilmiş mümkün qədər geniş səlahiyyətlər verilir. 3-cü bəndə əsasən milli təsisat xüsusilə aşağıdakı funksiyaları həyata keçirir:

- hər hansı insan hüquqlarının pozulması halına baxılmasını qərara almaq;

- ölkənin istənilən hissəsində insan hüquqlarının pozulması hallarına hökumətin diqqətini cəlb etmək, bu pozulmaların qarşısının alınmasına yönəlmiş tədbirlər barədə hökumətə təkliflər vermək, o cümlədən lazım gəldikdə hökumətin mövqeyi və reaksiyası barədə öz fikrini bildirməklə.

Sənədin tərkib, müstəqillik təminatları və plüralizm məsələlərinə həsr edilmiş hissəsində qeyd olunmuşdur ki, milli təsisat onun fasiləsiz fəaliyyətini təmin edən infrastruktura malik olmalı, o cümlədən kifayət qədər maliyyə ilə təmin olmalıdır. Bu maliyyələşmənin məqsədi milli təsisatın hökumətdən asılı olmaması və maliyyə nəzarətinə məruz qalmaması üçün öz personalına malik olmasını təmin etmək, otaqlara malik olmaqdır.

Sənədin kvaziməhkəmə səlahiyyətlərinə malik olan komissiyaların statusunu müəyyən edən hissəsində milli təsisata ayrı-ayrı şəxslərin vəziyyətinə dair ərizə və şikayətlərin dinlənilməsi və baxılması səlahiyyətinin verilə bilməsi göstərilmişdir. Bu halda səlahiyyətli orqanlara tövsiyələrin verilməsi, o cümlədən qanunlara əlavə və dəyişiklərin edilməsinə dair, inzibati təcrübəyə və qaydalara, xüsusilə onlar ərizə vermiş şəxslər üçün çətinliklər yaratdıqda tövsiyələrin verilməsi nəzərdə tutulur.

Qeyd edilməlidir ki, Beynəlxalq Avropa Şurasının Parlament Assambleyası 1974-cü ildə Nazirlər Komitəsinə Ombudsman institutu olmayan üzv ölkələrin hökumətlərinə bu təsisatın yaradılması məsələsinin öyrənilməsini təklif etməyi tövsiyə etmişdir. Avropa Şurasının Nazirlər Komitəsi üzv ölkələrə Ombudsman institutu olmadıqda onun yaradılmasını və onun səlahiyyətləri çərçivəsində insan hüquqları ilə bağlı məsələlərə fikir verilməsini və Ombudsmana «insan hüquqlarının müdafiəsi məsələləri üzrə araşdırmaya başlamaq və öz fikrini bildirmək» səlahiyyətinin verilməsini tövsiyə etmişdir.

14-16 oktyabr 2007-ci il tarixdə Strasburqda Avropa Şurasına üzv və namizəd dövlətlərin Milli Ombudsmanlarının 6-cı seminarında qəbul edilmiş Bəyannaməyə əsasən, məhkəmələrdən fərqli olaraq ombudsman hüquqi məcburi qərarlar qəbul etmir, lakin dövlət səlahiyyətliləri adətən ombudsman tövsiyələrinə əməl edir. Əks halda, ombudsman Parlamentin siyasi və ya ictimai diqqəti işə cəlb edə bilər.

Ombudsman institutu ilə əlaqədar digər dövlətlərin, xüsusilə inkişaf etmiş Avropa dövlətlərinin hüquq təcrübəsi də öyrənilərək ümumiləşdirilmişdir.

Qeyd edilməlidir ki, Fransada Ombudsman vəzifəsini "Fransa Respublikasının Mediatorunun təsis olunması haqqında" 3 yanvar 1973-cü il tarixli 73-6 nömrəli Qanuna əsasən Fransa Respublikasının Mediatoru həyata keçirir. Qanuna əsasən bütün nazirlər və dövlət səlahiyyətli şəxslər Fransa Respublikası Mediatorunun işini asanlaşdırmalıdırlar. Onlar tabeliyində olan bütün vəzifəli şəxsləri Mediator tərəfindən verilən bütün

sualları, sorğuları cavablandırmağa səlahiyyətləndirməli, yoxlama səlahiyyətlərinə malik bütün vəzifəlilərə səlahiyyətləri daxilində Mediator tərəfindən sorğu (xahiş) edilən bütün araşdırma və yoxlamaları həyata keçirməyə icazə verməlidirlər. Belə vəzifəlilər və ya yoxlama səlahiyyətlərinə malik şəxslər belə sorğulara (xahişlərə) ya cavab verməli, ya da qəbul etməlidirlər.

Mediator insan hüququ və azadlıqlarının pozulması halları ilə əlaqədar ona edilən müraciətləri əsaslı hesab edərsə, ona istinad edilən çətinlikləri həll etmək üçün zəruri hesab etdiyi tövsiyələr və ya zəruri hesab etdiyi hallarda aidiyyəti orqanların və ya təşkilatların fəaliyyətini təkmilləşdirmək məqsədilə təkliflər verməlidir. Müəyyən olunmuş müddət ərzində qənaətbəxş cavab alınmadıqda mediator öz tövsiyələrini ictimaiyyətə açıqlaya bilər. Aidiyyəti orqan da bununla əlaqədar olaraq öz cavabını açıqlaya bilər. Səlahiyyətli orqanın hərəkətsizliyi hallarında Mediator həmin orqanın əvəzinə hüquq pozuntusuna cavabdeh olan vəzifəli şəxsə qarşı intizam icraatını başlaya bilər. Eyni zamanda mediator qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməməsi hallarında məhkəmə qərarının təyin etdiyi vaxt ərzində icrasını əmr edə bilər. Bu əmr icra edilmədikdə icra edilməmiş məhkəmə qərarına dair Rəsmi Nəşrdə xüsusi hesabat dərc olunur.

Ombudsman vəzifəsi Almaniyada federal dövlət səviyyəsində tam olaraq yoxdur və həmin funksiyalar Petisiyalar şöbəsi tərəfindən həyata keçirilir. Petisiya şöbəsinin səlahiyyətləri haqqında qanunun 7-ci maddəsinə görə məhkəmə və inzibati orqanlar Petisiya şöbəsinə öz səlahiyyətlərini həyata keçirməkdə kömək etmək öhdəliyi daşıyır. Almaniyada federasiya subyektləri səviyyəsində (Petisiya şöbəsi ilə yanaşı) ombudsman vəzifəsi mövcuddur (yalnız bu torpaqlarda: Mecklenburg-Vorpommern, Rheinland-Pfalz, Schleswig-Holstein und Thüringen) və bu federasiya subyektlərinin ombudsman səlahiyyətlərini tənzimləyən öz qanunları var. Mecklenburg-Vorpommern torpağının qanununa görə Ombudsman (Bürgerbeauftragter) öz səlahiyyətlərini həyata keçirən zaman müvafiq orqanlardan məlumatlar almaq, sənədlərlə tanış olmaq hüququ var və bu orqanlar Ombudsmana öz səlahiyyətlərini həyata keçirməkdə köməklik etmək öhdəliyi daşıyır. Ombudsman eyni zamanda qanunun 7-ci maddəsinə əsasən digər orqanlara tövsiyələr vermək hüququ var.

İsveçdə Parlament tərəfindən seçilən 4 Parlament Ombudsmanı vardır. Ombudsman ona daxil olan şikayətlər üzrə müvafiq orqanlara yazılı sorğu verə bilər. Aşkar edilmiş pozuntular barədə orqanlara tövsiyə, bəyanat, təkliflər verə, habelə müvafiq pozuntular barədə məhkəmə qarşısında iddia qaldıra, qanunlarda insan hüquq və azadlıqlarını pozan müddəalar aşkar etdikdə bu barədə Parlament və ya hökumət qarşısında məsələ qaldıra bilər.

Danimarkada Ombudsman institutu 1953-cü ildə yaranmışdır. Qanunvericiliyə əsasən Ombudsman şikayəti qəbul etdikdən sonra araşdırma zamanı orqanlardan yazılı bəyanat tələb edə bilər və orqanlar Ombudsmanın yurisdiksiyası daxilində tələb etdiyi informasiyanı ona verməlidirlər. Ombudsmanın konkret məsələlər dair tənqid etmək, tövsiyə vermək hüquqları vardır.

Rusiya Federasiyasında Ombudsman vəzifəsini “Rusiya Federasiyasının insan hüquqları üzrə müvəkkili haqqında” 26 fevral 1997-ci il tarixli Federal Konstitusiya Qanununa əsasən Rusiya Federasiyasının insan hüquqları üzrə müvəkkili həyata keçirir. Qeyd olunan Konstitusiya Qanununun 23-cü maddəsinə əsasən Müvəkkilin səlahiyyətləri sırasında şikayətə baxılması ilə əlaqədar araşdırılmalı olan məsələlər üzrə hakimlər istisna olmaqla vəzifəli şəxslərin və dövlət qulluqçularının izahlarını almaq, müstəqil olaraq və ya səlahiyyətli orqanlarla, vəzifəli şəxslərlə və dövlət qulluqçuları ilə birgə dövlət orqanlarının , yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin fəaliyyətini yoxlamaq, səlahiyyətli dövlət orqanlarına ekspert tədqiqatlarının aparılmasını və rəy hazırlanmasını tapşırmaq, barəsində qərarları qanuni qüvvəyə minmiş cinayət, mülki və inzibati işlərlə, həmçinin xitam olunmuş işlər, rədd materialları ilə tanış olmaq səlahiyyətləri var. Müvəkkil qərarlarında və ya əməllərində insan hüquqlarının pozulması hallarını müəyyən etdiyi dövlət orqanlarına, yerli özünüidarə orqanlarına və ya vəzifəli şəxslərə göstərilən hüquq və azadlıqların bərpası üçün zəruri və mümkün tədbirlərlə əlaqədar tövsiyələrindən ibarət nəticəsini (qərarını) göndərməlidir. Müvəkkilin tövsiyələri olan nəticəni (qərarı) almış dövlət orqanı, yerli özünüidarə orqanı və ya vəzifəli şəxs bir ay müddətində onlara baxaraq müvəkkilə yazılı cavab verməyə borcludur.

Yoxlamaların nəticələrinə uyğun olaraq müvəkkilin dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin qərarları və ya əməlləri nəticəsində pozulmuş insan hüquqlarının müdafiəsi ilə əlaqədar məhkəməyə müraciət etmək, səlahiyyətli dövlət orqanlarına insan hüquqlarının pozulmasına yol verməsi hesab olunan vəzifəli şəxs barəsində intizam, inzibati icraatın və ya cinayət işinin başlanması ilə əlaqədar vəsatətlə müraciət etmək, konstitusion hüquq və azadlıqların pozulması halları ilə əlaqədar Konstitusiya Məhkəməsinə müraciət etmək səlahiyyətlərinə malikdir.

Qeyd olunanlara əsasən, nə qanunverici, nə icra, nə də məhkəmə hakimiyyətinə aid olmayan Ombudsmanın birinci səciyyəvi əlaməti onun tam müstəqilliyidir. Dünya təcrübəsinə görə, bu orqan parlament tərəfindən təsis olunmaqla, onun qarşısında hesabat verən, konkret şəxsin dövlət qurumları tərəfindən pozulmuş hüquqlarının məhkəmədən kənar qaydada bərpasını təmin edən orqandır.

Beləliklə, Ombudsman təsisatı ilə əlaqədar bərqərar olmuş beynəlxalq standartlar və xarici ölkələrin qanunvericilik təcrübəsi nəzərə alınaraq, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi bu sahədə hüquqi bazanın inkişafını təmin edəcəkdir.

**Aynur Osmanova,**
**Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi, baş ədliyyə müşaviri.**

# Azərbaycan Respublikasında cinayət aktivlərinin bərpası sahəsində mövcud vəziyyət və perspektivlər

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Azərbaycanda yeni təyin olunmuş Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edərkən prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi, müasir şəraitə uyğunlaşma istiqamətində geniş miqyaslı islahatlar aparılmasına dair tövsiyə vermişdir. Dövlət başçısının Sərəncamı ilə Baş Prokurorluğunun yeni strukturunda Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi yaradılmışdır.




İdarənin yaradılmasında əsas məqsəd cinayət yolu ilə əldə edilmiş əmlakların müəyyən edilməsi və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi sahəsində effektivliyin artırılmasından ibarətdir.

Vurulmuş ziyanın ödənilməsi üçün cinayət yolu ilə əldə olunmuş aktivlərin aşkar edilməsi və müsadirəsi mühüm əhəmiyyət kəsb edir və beynəlxalq standartların tələbinə əsasən bu vəzifə inkişaf etmiş Avropa ölkələrində əmlakın bərpası üzrə ixtisaslaşmış qurumlar tərəfindən həyata keçirilir.




Göründüyü kimi cinayət aktivlərinin bərpası (qaytarılması) üzrə ixtisaslaşmış qurumun yaradılması zamanın tələbidir və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi məhz Avropa ölkələrində fəaliyyət göstərən əmlakın bərpası ofisləri ilə eyni vəzifələri həyata keçirmək məqsədilə yaradılmışdır.

İdarənin dövlət orqanlarının informasiya sistemləri və məlumat bazalarına birbaşa çıxışının təmin olunması istiqamətdə lazımi tədbirlər görülür. "Elektron prokurorluq" informasiya sistemi haqqında əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 03 mart 2022-ci il tarixli Fərmanı ilə müvafiq qurumlara 6 ay müddətində prokurorluğun elektron məlumat bazalarına çıxışının təmin edilməsi ilə bağlı tapşırıq verilmişdir.




## ƏMLAKIN BƏRPASI SAHƏSİNDƏ QANUNVERİCİLİK ÇƏRÇİVƏSİ




Azərbaycanda əmlakın bərpası ilə bağlı xüsusi bir strategiya, fəaliyyət planı və ayrıca qanun yoxdur.

Lakin Azərbaycanda aktivlərin bərpası və idarə olunması üçün effektiv sistemin yaradılması istiqamətində işlərə başlanılıb. Həyata keçirilməsi nəzərdə tutulan önəmli tədbirlər ilk növbədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq təcrübədə sınanmış mütərəqqi üsul və metodların tətbiqidir.

Aktivlərin bərpasının gücləndirilməsi istiqamətində səylər çərçivəsində qulluqda mütərəqqi motivasiya modellərinin tətbiqi və şəffaflığın təmin edilməsi üçün 16 aprel 2021-ci il tarixdə "Prokurorluq haqqında" qanunun 39-cu maddəsinə dəyişiklik edilmişdir. Həmin dəyişikliyə əsasən vurulmuş ziyanın ödənilməsi və şəxsin məsuliyyətdən azad olunması ilə əlaqədar dövlət büdcəsinə daxil olmuş vəsaitin 5 faizi, prokuror tərəfindən

baxılması üçün məhkəməyə göndərilmiş inzibati xətalara dair işlər üzrə isə tətbiq edilən cərimələrin 23 faizi Prokurorluğunun xəzinə hesabına köçürülür .

## QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ

2021-ci ildə İdarə tərəfindən görülən tədbirlər nəticəsində təqsirləndirilən şəxslərə məxsus çoxsaylı daşınmaz əmlak, nəqliyyat vasitələri və digər əmlaklar müəyyən edilmiş, 54 sayda müxtəlif növ əmlakların qiymətləndirilməsi həyata keçirilmişdir.




## XARİCDƏ OLAN ƏMLAKLARIN QAYTARILMASI




İlk dəfə olaraq iki təqsirləndirilən şəxs barəsində çıxarılmış məhkəmə qərarları üzrə Türkiyə, Almaniya Respublikasının və "İsveçrə Konfederasiyasının banklarında külli miqdarda pul vəsaitinin ölkəyə qaytarılması ilə bağlı həmin ölkələrin səlahiyyətli orqanlarına vəsatətlər göndərilmişdir.

İdarə tərəfindən görülmüş tədbirlər nəticəsində prokurorluqda istintaq olunan 1 cinayət işi üzrə (qanunsuz sahibkarlıqla bağlı) fərqli valyutalarda 2 milyon manata yaxın vəsaitin əsassız qaytarılmasının qarşısı alınaraq məhkəmə qərarı ilə cinayətin alət və vasitəsi kimi xüsusi müsadirə edilməsi və dövlət büdcəsinə bərpası təmin edilmişdir.

Həmçinin, xüsusi müsadirə obyekti olan əmlakların hərəkətinin izlənməsi istiqaməti üzrə görülmüş tədbirlər çərçivəsində məhkəmələr tərəfindən xüsusi müsadirə barədə yekun qərar çıxarılsa da uzun illər ərzində hərəkətsiz qalmış qeyri yaşayış sahəsi yenidən qiymətləndirilərək hərracda satılmaqla 1 milyon 900 min manatın dövlət büdcəsinə bərpası təmin olunmuşdur. Habelə, xüsusi müsadirə edilməsi barədə qərar çıxarılmış 425 min manat dəyərində fərdi yaşayış evi və 393 min manat dəyərində 1 yanacaq doldurma məntəqəsinin hərrac mərkəzinə təhvil verilməsi təmin edilmişdir.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ




Aktivlərin bərpası sahəsində beynəlxalq təşkilat və tərəfdaşlarla səmərəli əməkdaşlığa başlanılmışdır. Belə ki, Azərbaycan Respublikası Aktivlərin Bərpası üzrə Kemden Qurumlararası Şəbəkəsinə (CARIN), həmçinin Qərbi və Mərkəzi Asiya Aktivlərin Bərpası üzrə Qurumlararası Şəbəkəsinə (ARİN-WCA) müşahidəçi qismində üzv qəbul olunmuşdur.

Bundan əlavə aktivlərin bərpasının artırılmasında Avropa ittifaqının Şərq tərəfdaşlığı ölkələrinə dəstək məqsədilə həyata keçirdiyi layihə çərçivəsində Birləşmiş Millətlər Təşkilatının Regionlararası cinayət və ədliyyə Üzrə tədqiqat institutu (UNİCRİ) ilə məhsuldar əməkdaşlıq həyata keçirilir.

Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə icra olunan proqram üzrə "Azərbaycanda aktivlərin bərpası üzrə qanunvericilik və institusional bazanın təhlili aparılmış və müvafiq tövsiyələr hazırlanmışdır.

## TVİNNİNQ LAYİHƏSİ

Aktivlərin bərpası istiqaməti üzrə əsas tərəfdaş olan Litva Respublikasının Xüsusi İstintaq Xidməti ilə "Tvinninq" layihəsinin icrasına başlanmışdır.

Həmin layihənin həyata keçirilməsində əsas məqsəd Azərbaycanda aktivlərin bərpası və idarə edilməsi sisteminin modernləşdirilməsi yolu ilə cinayət təqibinin effektivliyinin artırılması, qanunvericilik və institusional

bazanın beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Layihə çərçivəsində həmçinin cinayət aktivlərinin müəyyən olunması, izlənməsinin tam həcmdə həyata keçirilməsini təmin etmək üçün XMMƏ-in institusional və əməliyyat potensiyalının gücləndirilməsi nəzərdə tutulur.




## AKTİVLƏRİN SƏMƏRƏLİ İDARƏ OLUNMASI

Effektiv xüsusi müsadirənin təmin edilməsi üçün üzərinə həbs qoyulmuş əmlakların yekun məhkəmə qərarı çıxarılanadək iqtisadi dəyərinin qorunub saxlanması çox mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq standartların tələbinə əsasən, yurisdiksiyalar yekun məhkəmə qərarı çıxarılanadək üzərinə həbs qoyulmuş və müsadirə edilmiş əmlakların effektiv idarə olunması üçün mexanizm təsis etməlidirlər.

Aktivlərin bərpası üzrə səmərəli mexanizm yaradılması istiqamətində Azərbaycanda da əmlakların idarə olunmasının ixtisaslaşmış qurum tərəfindən həyata keçirilməsi zəruridir.




Hazırda “Tvinninq” layihəsi çərçivəsində Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin səlahiyyətləri sırasına əmlakların idarə edilməsi funksiyalarının daxil edilməsi nəzərdə tutulur.

Qabaqcıl beynəlxalq təcrübəyə əsasən cinayət aktivlərinin səmərəli idarə olunması mexanizmləri sırasında xüsusi müsadirənin obyekti olan əmlakların məhkəməyə qədər hərraclar vasitəsilə satışı mühüm yer tutur.

Hazırda beynəlxalq təcrübə nəzərə alınmaqla aktivlərin səmərəli idarə olunması ilə əlaqədar qanunvericiliyə dəyişikliklər edilməsi üçün bir sıra təkliflər hazırlanmışdır:

– CPM-ə dəyişikliyi nəzərdə tutan layihəyə əsasən üzərinə həbs qoyulan əmlakın icarəyə verilməsi, tez xarab olan, dəyərini tez itirə bilən, saxlanması çətinlik yaradan əmlakın mülkiyyətçinin razılığı ilə məhkəməyəqədər hərracda satılması və daxil olan vəsaitin müsadirə ilə bağlı məhkəmənin yekun qərarı qəbul edilənədək müvafiq dövlət orqanının depozit hesabında saxlanılmasını nəzərdə tutur. Həmçinin, dəyişikliyə əsasən zəruri olduqda yararlı vəziyyətə gətirmək üçün əmlakın idarə olunmasını həyata keçirən müvafiq dövlət orqanı tərəfindən üzərinə həbs qoyulan əmlakın yaxşılaşdırılması ilə əlaqədar müvafiq tədbirlər həyata keçirilə bilər;

Eyni zamanda qanunvericiliyə paralel maliyyə istintaqı aparılması institutunun daxil edilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

Xüsusi müsadirə tədbirlərinin ədalət mühakiməsindən yayınan cinayətkarlara tətbiq edilməsi üçün sınaqdan keçmiş səmərəli üsul olan cinayət təqibindən kənar mülki müsadirə institutu tətbiq edilir. Bununla əlaqədar cinayət təqibindən kənar mülki müsadirə institutunun qanunvericiliyə daxil edilməsi ilə bağlı qanun layihəsi hazırlanmışdır.

Eyni zamanda müsadirənin digər növlərinin, əmlakın bərpasının digər mexanizmlərinin milli qanunvericiliyə daxil edilməsi nəzərdən keçirilir.

Belə ki, beynəlxalq praktikada tətbiq olunan aktivlərin bərpasının səmərəli mexanizmlərindən biri ittiham hökmünə əsaslanmayan genişləndirilmiş müsadirədir. Genişləndirilmiş müsadirədə hüquqi prezumpsiyaya əsasən şəxs əmlakı qanuni yolla və vicdanla əldə etdiyini sübut edə bilmirsə əmlak qanunsuz hesab olunur və müsadirə edilir.

Aktivlərin effektiv idarə edilməsi mexanizmlərdən biri də cinayət yolu ilə əldə edilən və istintaq zamanı aşkarlanmayan gəlirlərin geri qaytarılması məqsədilə ittiham hökmündən sonra araşdırmaya imkan verən müddəaların qanunvericiliyə daxil edilməsidir.

Hesab edirik ki, aktivlərin geri qaytarılması sahəsində beynəlxalq standarlara əsaslanan səmərəli mexanizm yaradılması cinayətkarlığın səmərəli şəkildə təqib edilməsi işinə öz müsbət təsirini göstərəcəkdir.

**Vüqar Əliyev,**
**Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndiriİməsi idarəsinin rəisi,**
**III dərəcəli dövlət ədliyyə müşaviri.**

# Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri zamanı qarşıya çıxan problemlər

Hazırda bəşəriyyəti düşündürən, cəmiyyətin ciddi bəlasına çevrilən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq ən ağrılı problemlərdən biridir. Həmin problemin vurduğu ziyanın həcmi praktiki olaraq çox böyükdür və həm narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyasına, həm də müxtəlif cinayətlər törədilməsinə, cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir. Bu baxımdan, dünya dövlətləri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar.




Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən hüquqi baza yaradılmış, onun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Azərbaycan Respublikası narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni tənzimləyən beynəlxalq hüquq normalarını tam, hərtərəfli və sistemli şəkildə əks etdirən Birləşmiş Millətlər təşkilatının Konvensiyalarına, o cümlədən 1972-ci il protokolu ilə edilmiş düzəlişlərlə « Narkotik vasitələrə dair 1961-ci il Vahid Konvensiyasına», «Psixotrop maddələr haqqında» 1971-ci il Konvensiyasına» və «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında 1988-ci il Konvensiyasına qoşulmaqla bu cinayətlərə qarşı mübarizədə öz üzərinə mühüm vəzifələr götürmüşdür. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı» təsdiq edilmişdir. Qeyd olunan Dövlət Proqramının məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir texnologiyaların imkanlarından istifadə olunması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 26-cı fəsli (234-240-cı maddələri) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə həsr olunub.

«Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 04 mart 2011-ci il tarixli 2 №-li qərarının 28-ci bəndində göstərilir ki, Azərbaycan Respublikası CPM-nin 246.2.1-ci maddəsinə əsasən məhkəmənin qərarı olmadan şəxsi axtarış şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq mühafizə orqanına gətirildikdə aparıla bilər. Həmin Məcəllənin 153-cü maddəsinə görə isə tutulmuş şəxs təxirə salınmadan polis və digər təhqiqat orqanlarının müvəqqəti saxlanma yerlərinə gətirilməli və onun tutulması müvafiq protokolla rəsmiləşdirilməlidir. Qanunun bu normalarının düzgün tətbiqi məsələsini nizama salmaq məqsədi ilə məhkəmələrə izah edilmişdir ki, şəxsi axtarışın şübhəli şəxs qismində tutulma protokolu tərtib olunmazdan əvvəl (şəxsi axtarış barədə məhkəmə qərarı olmadan) aparılması halı müəyyən edildikdə, məhkəmə buna münasibətini bildirməli və bu yolla əldə olunmuş sübutların mümkünlüyü məsələsini Azərbaycan Respublikası CPM-nin 125.1, 125.2.1 və 125.2.7-ci maddələrinə uyğun olaraq həll etməlidir.



Narkotik vasitələrin, psixotrop maddələrin və ya onun prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı dövlət səviyyəsində həmişə mübarizə aparılmış və bu gün də həmin mübarizə davam etdirilir. Qeyd olunmalıdır ki, 2021-ci il ərzində rayon ərazisində narkotik vasitələrin saxlanması və alqı-satqısı ilə bağlı 221 fakt qeydə alınmış, onlardan 100-ü alqı-satqısı, 121-i isə saxlama ilə bağlı olmuş, bütövlükdə 148 nəfər şəxs barəsində 140 cinayət işi baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir.

Hazırki istintaq və məhkəmə təcrübəsinə görə bir qayda olaraq əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyekti tərəfindən qəbul olunmuş qərar əsasında narkotik vasitələrin və ya onun prekursorlarının qanunsuz əldə olunması, saxlanması yaxud satışı ilə məşğul olan və şübhəli bilinən şəxs tutulduqdan sonra onun üzərində şəxsi axtarış keçirilir və müvafiq sənədləşdirmə aparılır. Bundan sonra məhkəmə-bioloji ekspertizası təyin olunur, rəy alınır və həmin şəxs təqsirləndirilən şəxs qismində cəlb olunaraq dindirilir, şahidlərin ifadələri alınır, təqsirləndirilən şəxs barəsində qətimkan tədbiri seçilir.

Narkotik vasitələrin, psixotrop maddələrin və ya onun prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işlərinin təhlili göstərir ki, hazırda bu növ cinayətlərə dair işlər üzrə cinayət təqibi əksər halda əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən konkret şəxs barəsində əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair qəbul olunmuş qərarla başlanır.

Həmin qərarda «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsinin IV hissəsinə istinad edilsə də, həmin Qanunda nəzərdə tutulmayan, yəni konkret olaraq, qərarda şəxsin ətrafında tədbir keçirilməsi, ünvanına baxış keçirilməsi və zərurət yarandığı halda polis orqanına gətirilməsi kimi ifadələrdən istifadə olunur.

Qeyd olunan məsələnin üzərində xüsusilə dayanmaq istərdim. Belə ki, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsində 18 adda əməliyyat-axtarış tədbirləri sadalanmışdır.

Lakin əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qəbul olunan qərarlar »Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsinin IV hissəsinin 2-ci bəndində nəzərdə tutulan tələblərə uyğun gəlmir. Belə ki, həmin qərarlarda konkret şəxsin adı qeyd edilməklə, onun ətrafında məhz qanunla nəzərdə tutulan hansı əməliyyat-axtarış tədbirlərinin keçirilməsi göstərilmir.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsinin 4-cü hissəsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsaslar olduğu hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektləri hakimin qərarı olmadan: 1) şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə; 2) cinayəti hazırlayan, törədən, törətmiş, cəzaçəkmə müəssisələrindən və ya həbsdən qaçmış və ya gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara və torpaq sahələrinə baxış keçirə bilərlər. Beləliklə, yalnız bilavasitə qanunla nəzərdə tutulmuş hallarda, yəni narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayəti hazırlayan, törədən, törətmiş şəxslə bağlı məhkəmənin qərarı olmadan yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara və torpaq sahələrinə baxış keçirilə bilər və 48 saat müddətində həmin qərar əsaslılığının yoxlanılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və məhkəməyə təqdim olunmalıdır.

Qeyd olunanlara baxmayaraq, əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyekti tərəfindən «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsinin 4-cü hissəsinin və 12-ci maddəsinin tələbləri pozularaq, qərar qəbul edilir (qərarda Qanunun 10-cu maddənin I hissəsində nəzərdə tutulan konkret olaraq məhz hansı əməliyyat-axtarış tədbiri, kimin barəsində və 12-ci maddənin 3-6-cı bəndlərində nəzərdə tutulan nəticələr göstərilmir.).

Eyni zamanda, əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyekti tərəfindən qəbul olunan qərar DİN-nin BƏSİİ-nə kartoçkalarla birlikdə göndərilmir.

Azərbaycan Respublikası CPM-nin 445.1-ci maddəsinə görə telefon danışıqlarına qulaq asma; poçt, teleqraf və digər göndərişlərin yoxlanılması; texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması; binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi; texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino və digər çəkiliş cihazların quraşdırılması yolu ilə yaşayış yerinin müşahidə edilməsi; insanların güdülməsi məhkəmənin qərarı əsasında həyata keçirilir.

Həmin Məcəllənin 445.2-ci maddəsinə əsasən «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallarda bu Məcəllənin 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası CPM-nin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 12 fevral 2015-ci il tarixli qərarında qeyd olunmuşdur ki, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi barədə qərar məhkəmə nəzarəti qaydasında yoxlanılmalı və bu qərar nəticəsində əldə olunan materiallar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanuna uyğun olaraq əldə olunduqda və Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim olunduqda, habelə məhkəmə nəzarəti qaydasında ətraflı yoxlanıldıqda, CPM-nin 137-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

Lakin əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyekti tərəfindən yuxarıda qeyd olunduğu kimi qəbul olunan qərarlar Azərbaycan Respublikası CPM-nin 445.2-ci maddəsinə uyğun tərtib olunmadığından, qanunla nəzərdə tutulan əməliyyat-axtarış tədbirlərinin keçirilməməsinə görə əməliyyat-axtarış tədbirinin qanuniliyi yoxlanılmadan, məktubla məhkəməyə daxil olmuş müraciətlər və təqdimatlar geri qaytarılır.

Azərbaycan Respublikası CPM-nin 48.2 və 148.2.3-cü maddələrinə görə şəxsin cinayət törətməsinə bilavasitə şübhə yarandıqda təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror onun tutulmasını aşağıdakı hallarda tətbiq edə bilər: 148.2.1- şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törədərkən, yaxud bilavasitə bundan sonra cinayət başında yaxalandıqda; 148.2.2 - zərər çəkmiş, yaxud hadisəni görən digər şəxslər cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərdikdə; 148.2.3 - şəxsin bədənində, üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitələrində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunduqda.

Həmin Məcəllənin 148.3-cü maddəsinə görə şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduqda, o, təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror tərəfindən aşağıdakı hallarda tutula bilər:

148.3.1 – hadisə yerindən qaçıb gizlənməyə, yaxud cinayət prosesini həyata keçirən orqandan gizlənməyə cəhd göstərdikdə;

148.3.2 – daimi yaşayış yeri olmadıqda və ya başqa ərazidə yaşadıqda;

148.3.3 – şəxsiyyəti müəyyən olunmadıqda.

Beləliklə, CPM-nin 148.2.3-cü maddəsinin tələblərinə zidd olaraq, tutma zamanı şəxsin üzərində narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının olub-olmaması araşdırılmadan, bununla bağlı ekspertiza rəyi olmadan, şəxs narkotik vasitələrlə bağlı tutulmaya məruz qalır. Göründüyü kimi, təhqiqat orqanı tərəfindən Azərbaycan Respublikası CPM-nin 147 və 148-ci maddələrinin tələbləri pozularaq, şəxs barəsində tutma protokolu tərtib olunur.

Tutma protokolu tərtib olunarkən müdafiəçinin iştirakı təmin olunur, lakin şəxsi axtarış və götürmə aparılarkən müdafiəçinin iştirakı təmin edilmir (Konstitusiya məhkəməsinin Plenumunun «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1,92.10.3 və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair» 28 mart 2019-cu il tarixli qərarına əsasən şübhəli şəxs müdafiəçi tələb etmədiyinə görə).

29.11.2016-cı il tarixli 439-VQD Qanunla Azərbaycan Respublikası CPM-nin 236.4, 245.3 və 246.3-cü maddələrinə dəyişikliklər olunaraq, müvafiq olaraq hadisə yerinə baxış..., axtarış və götürmə... şəxsi axtarış və götürmə zamanı azı 2(iki) hal şahidi iştirak etmədikdə videoçəkilişdən istifadənin məcburiliyi göstərilmişdir. Buna baxmayaraq, videoçəkilişdən istifadə zamanı da müəyyən problemlər yaranır. Əvvəla çəkilişin hansı şəxs tərəfindən və hansı qaydada aparılması çətinliklər yaradır (əksər hallarda polis idarəsinin kriminalisti və ya digər şəxs tərəfindən aparılır, bu səbəbdən çəkilişə nisbətdə qərəzli olub-

olmaması sualı yaranır), həmçinin çəkilişin əvvəldən axıra kimi aparılmalı olduğu halda, şəxs müəyyən olunduğu yerdə başlanması və orada da bitməsi müşahidə edilir. Halbuki sənədləşdirmə polis idarələrində sonradan başa çatdırılır. Bu da özü-özlüyündə qanunsuzdur.

İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin bu məsələyə dair geniş presedent təcrübəsi olduğundan, Avropa Məhkəməsinin presedentlərinə istinad etməyi zəruri hesab edirəm.



Məsələn, Kurt Türkiyəyə qarşı məhkəmə işində Avropa Məhkəməsi qərara aldı ki, hər bir azadlıqdan məhrum etmə təkcə milli hüququn əsas prosessual normalarına uyğun həyata keçirilməməli, həm də 5-ci maddənin məqsədinə, yəni fərdi hakimiyyət orqanlarının zorakılığından qorumaq məqsədinə cavab verməlidir. Avropa Məhkəməsinin mövqeyinə görə, hüquq-mühafizə orqanının əməkdaşı (faktiki gücün tətbiq edilib-edilməməsindən asılı olmayaraq) aydın şəkildə bildirsə ki, şəxs bu və ya digər yeri tərk edə bilməz, yaxud onun ardınca hər hansı başqa bir yerə getməlidir, bu artıq şəxsin tutulması, həbsə alınması deməkdir. Beləliklə, bu anlayış şəxsin küçədə saxlanılaraq, ondan polis məntəqəsinə getməyin tələb edildiyi hallara da şamil olunur. Burada məcburiyyət amilinin olması önəmlidir. De Vilde, Qoms və Versip Belçikaya qarşı məhkəmə işində Avropa Məhkəməsi bildirdi ki, şəxsin könüllü gəlməsi heç bir əhəmiyyət daşımır. Bundan başqa, azadlıqdan məhrum edilmiş şəxsin azadlıqdan məhrum edildiyindən xəbərsiz olması xüsusi əhəmiyyətə malik deyil; əgər şəxs konkert yeri sərbəst tərk edə bilmirsə, bu kifayətdir. Azadlıq ifrat dərəcədə məhdudlaşdırılırsa və bu tədbirə məruz qalan şəxs istər küçədə, istərsə də, hər hansı digər açıq məkanda müəyyən yeri tərk edə bilmirsə, yaxud hər hansı nəqliyyat vasitəsinin içərisində və ya binada (bunun kamera olması vacib deyil) qalmağa məcbur edilirsə, 5-ci maddənin müddəaları tətbiq edilməlidir. Bununla belə, şəxs müəyyən yerdə olarkən müəyyən dərəcədə azadlığa malikdirsə, bu mütləq o demək deyil ki, 5-ci maddə tətbiq edilə bilməz (məsələn Eşinqdeyn Birləşmiş Krallığa qarşı, Qutsardi İtaliyaya qarşı, Mantsoni İtaliyaya qarşı, Kipr Türkiyəyə qarşı işlər). Avropa Konvensiyası tutulan şəxsin hüquqlarının, o cümlədən müdafiə hüququnun təmin edilməsini tələb edir və əks halı Konvensiyanın 6.3-cü maddəsinin pozuntusu kimi qiymətləndirir. Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının CPM-də və digər qanunvericilik aktlarında tutulmuş şəxsin hüquqlarının, o cümlədən müdafiə hüququnun təmin edilməsi xüsusi olaraq qeyd edilir.

Mayzit Rusiyaya qarşı işdə (20 yanvar 2005-ci il tarixli qərar) Avropa Məhkəməsi qeyd etmişdir ki, Avropa Konvensiyasının 6-cı maddəsinin 3 «c» yarımbəndində təsbit olunmuş hüququn məqsədi müdafiə tərəfini adekvat təqdim etməkdən ibarətdir. Bulut Avstriyaya qarşı (22 fevral 1996-cı il tarixli iş üzrə qərar), həmçinin Popov Rusiyaya qarşı (13 sentyabr 2006-cı il tarixli iş üzrə qərar) işlərdə Avropa Məhkəməsi qeyd etmişdir ki, çəkişmə prinsipi baxımından bu müddəanın məqsədi təqsirləndirilən şəxsə qarşı tərəflə müqayisədə onu əlverişsiz vəziyyətə qoymayan şərtlərlə öz müdafiəsini qura bilməsi üçün ağlabatan imkan verməkdir. Puatrimol Fransaya qarşı işdə (23 noyabr 1993-cü il tarixli qərar) Avropa Məhkəməsi öz hüquqi mövqeyini belə ifadə etmişdir ki, hər bir təqsirləndirilən şəxsin müdafiəçi ilə səmərəli müdafiə olunmaq hüququ ədalət mühakiməsinin əsas cəhətlərindən biridir. Təqsirləndirilən şəxsin müdafiəçisi, həmçinin cinayət prosesinin qanuniliyinin təminatçısı kimi çıxış edir. Avropa Məhkəməsi Pisalnikov Rusiyaya qarşı işdə (24 sentyabr 2009-cu il tarixli qərar) nəzərə çatdırmışdır ki, tələb olunan hüquqdan imtina təkcə könüllü deyil, eyni zamanda bilikli və şüurlu olmalıdır. Ədalətli məhkəmə araşdırılmasının anlayışını təşkil edən fundamental hüquqlardan biri olaraq və Konvensiyanın 6-cı maddəsinin təminatlarının səmərəliliyini təmin edən müdafiəçiyə malik olmaq hüququ bilikli və şüurlu imtina standartlarının xüsusi mühafizəsini tələb edən hüquqların vacib nümunəsidir. «Dayanan» Türkiyəyə qarşı iş üzrə Avropa Məhkəməsinin 13.10.2009-cu il tarixli qərarında göstərilir ki, məhkəmənin qəbul etdiyi və özünün presedent hüququnun əsaslandığı hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarının vurğuladığı kimi, təqsirləndirilən şəxs məruz qaldığı dindirmələrdən asılı olmadan, tutulduğu andan vəkilin yardımından istifadə edə bilməlidir. Həqiqətən prosesin ədalətliliyi tələb edir ki, təqsirləndirilən şəxs məsləhətə xas olan bütün geniş imkanlardan istifadə edə bilsin. Bununla bağlı

işin müzakirəsi, müdafiənin təşkili, təqsirləndirilən şəxsin xeyrinə olan sübutların toplanması, dindirmələrin hazırlanması, narahatlıq içində olan təqsirləndirilən şəxsə dəstək olması və həbsin şərtlərinə nəzarət olunması vəkilin sərbəst keçirməli olduğu müdafiənin fundamental elementlərini təşkil edir.

Yuxarıda istinad olunan Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsinə əsasən şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

Deveyer Belçikaya qarşı işdə Avropa Məhkəməsi qeyd etmişdir ki, ittiham-fərdin cinayət hüquq pozuntusu törətdiyinə dəlalət edən və ya şübhəli şəxs qismində onun vəziyyətinə mühüm təsir göstərən ehtimalların olduğu barədə səlahiyyətli dövlət hakimiyyəti orqanı tərəfindən ona rəsmi məlumatın verilməsidir.

Benhem Birləşmiş Krallığa qarşı işdə Avropa Məhkəməsi qeyd etmişdir ki, azadlıqdan məhrum edilmə riski mövcud olduqda ədalət mühakiməsinin maraqları prinsip etibarı ilə müdafiəçi ilə təmsil olunmaq hüququnu nəzərdə tutur.

Vanyan Rusiyaya qarşı işdə (15 dekabr 2005-ci il tarixli qərar) Avropa Məhkəməsi qeyd etmişdir ki, narkotiklərlə bağlı qanunsuz keçirilmiş milis əməliyyatı nəticəsində əldə edilmiş sübutlar nəticəsində şəxs haqqında cinayət işinin qaldırılması ədalət mühakiməsinin ədalətliliyinə zərbə vurmuşdur. Həmin işdə Avropa Məhkəməsi qanunsuz yolla əldə edilmiş sübutların şəxsə qarşı cinayət işi qaldırılması və onun təqsirliliyinin sübut olunmasında istifadəsini Avropa Konvensiyasının 6-cı maddəsinin (ədalətli məhkəmə araşdırması hüququ) pozuntusu kimi qiymətləndirmişdir.

Bu qəbildən olan cinayət işlərinə baxılmasının nəticələri onu göstərir ki, şəxsin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olması barədə əməliyyat məlumatının daxil olması adı ilə şəxs barəsində polis əməkdaşı tərəfindən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərar qəbul edilir, həmin qərar rayon polis şöbəsinin rəisi tərəfindən təsdiq edilir, sonra rayon polis şöbəsinin müvafiq qərarı ilə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün polis əməkdaşlarından ibarət əməliyyat qrupu yaradılır. Bu işlərdə eyni orqan, yəni polis şöbəsinin əməkdaşları tərəfindən müvafiq qərarla əməliyyat-axtarış tədbirləri həyata keçirilir, həmçinin sonra işin təhqiqatı və istintaqı aparılır. Eyni hüquq-mühafizə orqanının, yəni polisin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə bağlı öz fəaliyyətini sanksiyalaşdırması, bu fəaliyyəti həyata keçirməsi, sonradan həmin işin təhqiqatını və ibtidai istintaqını (ibtidai araşdırma) aparması və qanunvericilikdə bununla bağlı hər hansı digər nəzarət mexanizminin olmaması təbii ki, bu işlərdə müəyyən qanunsuzluqların baş verməsinə şübhələr yarada bilər. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda əməliyyat-axtarış fəaliyyəti subyektlərinin həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri barədə əsaslandırılmış qərarı 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməsi (10-cu maddənin V hissəsi), əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarətinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilməsi (maddə 19-1) və əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin olması (maddə 20) göstərilsə də, Azərbaycan Respublikası CPM-də bu fəaliyyətə məhkəmə nəzarətinin hansı prosessual qaydalar çərçivəsində hansı əsaslarla həyata keçirilməsi, bu zaman kimin müraciətinə, hansı müddətdə baxılması, hansı şəxslərin həmin prosesdə iştirak etməli olması, işə hansı ardıcıllıqla baxılması və hansı qərarın qəbul edilməsi barədə hər hansı qanun norması yoxdur. Eynilə hətta əməliyyat -axtarış fəaliyyəti subyektinin əməliyyat-axtarış tədbirləri ilə bağlı əsaslandırılmış qərarı 48 saat ərzində məhkəməyə daxil olsa belə, qanunda (o cümlədən Azərbaycan Respublikası CPM-də) bu qərara məhkəmə tərəfindən necə baxılması, ona hansı əsaslarla və hansı formada hüquqi qiymət verilməsi nəzərdə tutulmamışdır.

Cinayət təqibi orqanı bu hərəkətlərin məhkəmə nəzarəti qaydasında yoxlanılmasına tərəfdardır, çünki bu qərarın məhkəmə nəzarəti qaydasında yoxlanılmaqla, əməliyyat-axtarış fəaliyyətinin subyektinin qərarı əsasında həyata keçirilmiş istintaq hərəkətinin və prosessual məcburiyyət tədbirlərinin qanuniliyi təsdiqlənir və tutulma, şəxsi axtarış və onun əsasında şəxsdən götürülmüş narkotik vasitə, psixotrop maddə və onun prekursorları maddi sübut kimi tanınaraq işə əlavə olunması qanuni və ya əksinə etibarsız hesab edilir. Əfsuslar olsun ki, Konstitusiya Məhkəməsinin Qərarının qəbul olunmasından uzun müddət keçməsinə baxmayaraq, məhkəmələr tərəfindən bu qəbildən olan işlərə məhkəmə nəzarəti qaydasında baxılmır.

Digər tərəfdən, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda (20-ci maddənin IV hissəsi) əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatların prokuror nəzarətinin predmetinə daxil olmaması, yəni prokurorun onları yoxlayıb, müvafiq hüquqi qiymət verə bilməməsi qeyd edilmişdir. Qeyd olunanlar məhkəməyə əməliyyat-axtarış fəaliyyətinə məhkəmə və prokuror nəzarətinin effektli olması barədə nəticəyə gəlməyə heç bir əsas yaratmır. Əksinə, qanunun özü bu nəzarətin effektini şübhə al-

tına almağa əsas verir. Belə hallarda polis tərəfindən əməliyyat-axtarış fəaliyyətinə sanksiyanın verilməsi və onun həyata keçirilməsi, qanuni təminatlarla əməliyyat-axtarış fəaliyyəti üzərində effektiv məhkəmə və prokuror nəzarətinin olmaması şəxsi hüquq-mühafizə orqanı qarşısında tam əlverişsiz vəziyyətə salır və nəticədə onun ədalətli məhkəmə araşdırılması hüququ pozulur. Ümumiyyətlə, göstərilənlər işığında eyni orqan tərəfindən bu fəaliyyət növlərinin həyata keçirilməsi, bir tabeçilikdə olan polis əməkdaşlarının bir-birinin hərəkətinə nəzarət etməsi və bir-birinin əleyhinə qərarlar verməsini ehtimal etmək belə çətinlik yaradır. Belə ki, əməliyyatı həyata keçirən şəxslər, işin təhqiqatını aparan təhqiqatçı və ibtidai istintaqını aparan müstəntiq polis işçiləri olmaqla, birbaşa bu əməliyyatı sanksiyalaşdıran rayon polis şöbəsinin rəisinə tabe olan şəxslərdir və onların tabe olduğu şəxsə qarşı gedərək, sanksiyalaşdırdığı işlə bağlı hər hansı fərqli qərarlar qəbul etməsi az inandırıcıdır. Eyni zamanda belə vəziyyətə tutulma ilə bağlı Avropa Konvensiyasının və Avropa Məhkəməsinin presedentlərinin tələbləri ilə milli qanunvericilikdə olan ziddiyyətlər, bu zaman artıq praktika halına çevrilmiş milli qanunvericiliyin normalarının tətbiqi və şəxsin Avropa Konvensiyasının tələbinə baxmayaraq, tutulduğu andan müdafiəçi ilə təmin olunmaması da birbaşa təsir göstərir və tutulan şəxs tam olaraq hüquq-mühafizə orqanına münasibətdə əlverişsiz vəziyyətə salınır. «Veselov və başqaları» Rusiyaya qarşı işdə Avropa Məhkəməsi bir sıra Avropa ölkələrinin qanunvericiliyini tədqiq edərək, həmin ölkələrdə əməliyyat-axtarış fəaliyyətini sanksiyalaşdıran orqanın və onu həyata keçirən orqanın başqa-başqa olduqlarını göstərmişdir. Mütləq əksər ölkələrdə bu fəaliyyət məhkəmə və prokurorun sanksiyalaşdırılması əsasında həyata keçirilir. Məsələn Türkiyə, Bolqarıstan, Estoniya, Yunanıstan, Lixtenşteyn, Polşa və Sloveniyada bu sanksiya məhkəmə tərəfindən, Çexiya, Fransa, Makedoniya, Portuqaliya, İspaniya və İtaliyada prokuror və xüsusi hallarda məhkəmə tərəfindən verilir. Veselovun işində, həmçinin Vanyan Rusiyaya qarşı və Xudobin Rusiyaya qarşı işlərdə Avropa Məhkəməsi eyni orqan tərəfindən əməliyyat-axtarış tədbirinin sanksiyalaşdırılaraq, həyata keçirilməsini və qanunun buna imkan verməsini, şəxsə qarşı polis özbaşınalığına və nəticədə şəxsin ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına yol açmasını bildirmişdir. Avropa Məhkəməsinin qənaətinə görə qanun əlçatan olmalı, nəticələrini öncədən görmək mümkün olmalı, kifayət qədər aydın şəkildə ifadə edilməli, eləcə də onun qüvvəsinin şamil olunduğu şəxslərlə rəftarda özbaşınalığa qarşı digər təminatlar orada yer almalıdır (Amyur Fransaya qarşı iş və s.).

Minelli İsveçrəyə qarşı işdə Avropa Məhkəməsi qeyd etmişdir ki, təqsirsizlik prezumpsiyası ibtidai istintaqın necə nəticələnməsindən asılı olmayaraq, cinayət prosesinin bütün mərhələlərinə aiddir; o, təkcə ittihamın mahiyyətinin araşdırılması ilə məhdudlaşmır.

Sübutların mötəbərliyinin müəyyən olunması və qiymətləndirilməsi baxımından İnsan hüquqları üzrə Avropa Məhkəməsi özünün bir çox qərarlarında uzun müddət formalaşmış yanaşma standartını müəyyən etmişdir. Məmmədov Azərbaycana qarşı 11.01.2007-ci il tarixli, İrlandiya Birləşmiş Krallığa qarşı 18.01.1978-ci il tarixli məhkəmə qərarlarında sübutları qiymətləndirərkən «əsaslı şübhə yerinin qalmaması» sübutetmə standartını tətbiq edir.

Təsadüfi deyildir ki, «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramının 4.2.2-ci bəndində Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində əməliyyat-axtarış tədbirlərinin səmərəliliyinin artırılmasına dair təkliflərin hazırlanması, 4.2.4-cü bəndində isə normativ hüquqi aktlarda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən şəxsin üzərində hər hansı qanunsuz saxlanılan əşyanın aşkar edilib götürülməsinin prosedur qaydalarını dəqiq müəyyənləşdirəcək dəyişikliyin edilməsi, həmçinin Proqramın qeyd hissəsində Azərbaycan Respublikasının Ali məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna bu sahədə qanunvericiliyinin təkmilləşdirilməsi işində iştirak etməsi tövsiyə olunmuşdur.

Beləliklə, 2011-ci ildən etibarən bu sahədə müəyyən çatışmamazlıqlar olan istintaq və məhkəmə təcrübəsi bərqərar olmuşdur. Nəticədə bu kimi qanun pozuntuları məhkəmələr tərəfindən haqlı olaraq bəraət hökmlərinin çıxarılmasına səbəb olur. Bu baxımdan narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı həyata keçirilən əməliyyat-axtarış tədbirləri və ibtidai araşdırma yeni kompleks yanaşma tələb edir və qabaqcıl ölkələrin təcrübəsi nəzərə alınmaqla, bu sahədə qanunvericilyin təkmilləşdirilməsi, o cümlədən «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanuna və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə dəyişikliklər edilməsi zərurətini yaradır. Məsələnin cinayət təqibi orqanları üçün mühümlüyünü və aktuallığını nəzərə alaraq, mövzu ilə bağlı müzakirələrin keçirilməsi məqsədəmüvafiqdir.

**Sərdar İmanov,**
**Xətai rayon prokuroru**
**baş ədliyyə müşaviri.**

# "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında oxucularımızın marağına səbəb olacaq "Həmkarlarımızla müsahibə" rubrikası təsis edilmişdir

"Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyəti tərəfindən mütəmadi olaraq jurnalımızda oxucularımızın marağına səbəb olacaq yeniliklər tətbiq edilməkdədir.

Məlum olduğu kimi, Ölkə Başçısı cənab İlham Əliyevin prokurorluq orqanlarında islahatların dərinləşdirilməsinə və fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş bir sıra mühüm tapşırıqlarına uyğun olaraq, Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluqda həyata keçirilən müasir məzmunlu islahatlar prokurorluğun bütün fəaliyyət istiqamətlərini əhatə etmişdir.

Həmin islahatların mühüm tərkib hissəsi kimi prokurorluq orqanlarının mövcud beynəlxalq əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli formatlar, eləcə də regional, ümumdünya və ixtisaslaşdırılmış beynəlxalq təsisatlar çərçivəsində yeni əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir.

Keçən müddətdə Baş Prokurorluğun rəhbərliyinin bilavasitə iştirakı ilə beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsinə yönələn çoxsaylı tədbirlər həyata keçirilmiş, o cümlədən çoxsaylı səfərlər edilmiş, görüşlər, qəbullar təşkil edilmişdir. Baş Prokurorluğun dəvəti ilə tərəfdaş ölkələrin prokurorluq və digər hüquq mühafizə orqanlarının geniş tərkibli nümayəndə heyətlərinin ölkəmizə səfəri bu prioritet sahənin surətli inkişafına təkan vermişdir.

Bununla bağlı "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiyası tərəfindən ölkəmizə səfər edən tərəfdaş ölkələrin baş prokurorlarının, əlaqəli dövlət orqanları rəhbərlərinin, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin müsahibələrinin alınması və dəyərli oxucularımızın diqqətinə təqdim edilməsi qərara alınmışdır.

Jurnalımızın hazırki sayında ölkəmizə rəsmi səfər edən Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahinin, Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin, Litva Respublikasının Baş prokuroru Nida Qrunskiene və Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin direktoru Jıdrunas Bartkusun müsahibələri təqdim olunur.



## Bəkir Şahin, Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru



**Soru: Sayın Bekir Bey, öncelikle "Azerbaycan Savcılığı" dergisi ile röportaj yapmayı kabul ettiğiniz için yazı ekibi adına size en derin teşekkürlerimizi sunarız. Sizlerle gerçekleştirdiğimiz çok önemli ve samimi konuşma tüm hukuk camiası tarafından büyük bir sevinç ve ilgiyle karşılanacağından eminiz. İlk sorumuz kısa olacaktır, şöyle ki, kardeş Azerbaycan denilince ilk ne hissediyorsunuz?**

**Cevap:** Birbirlerini hiçbir zaman kendinden farklı görmeyen, sevincine sevinen, kederine üzülen, dili bir, dini bir, ortak tarih ve kültüre sahip aynı kökler üzerinde büyüyen bir çınarın dallarından olan, Umum Milli Lider Haydar Aliyev'in ifadesiyle "Bir Millet, İki Devletiz".

**Soru: Azerbaycan Cumhuriyeti Başsavcısı Sayın Kamran Aliyev ile olan samimi dostluk ilişkileriniz, Azerbaycan ve Türkiye savcıları arasındaki yakın işbirliğini de etkilemiştir. İki kurum arasındaki mevcut işbirliği durumunu nasıl değerlendirebilirsiniz?**

**Cevap:** Öncelikle Azerbaycan Cumhuriyeti Başsavcısı Sayın Kamran Aliyev kardeşimin ve değerli heyetinin tarihi Karabağ Zaferinden sonra 2021 yılı Ocak ayında Ankara'ya gerçekleştirdikleri ziyaretin mevcut ilişkilerimizin gelişmesinde önemli bir dönüm noktası olduğunu belirtmeliyim. Özellikle bu ziyaret sonrasında ilişkilerimizin ve işbirliğimizin çok ileri bir düzeye geldiğini büyük bir memnuniyetle ifade etmeliyim. Başsavcı olarak göreve başlamam sonrasında ilk resmi ziyaretimi 2021 yılı Mayıs ayı sonunda Azerbaycan'a yaptım. Daha önce Başsavcılıklarımız arasında imzalanmış olan Mutabakat Zaptının yerine geçmek üzere yeni bir Mutabakat Zaptı imzaladık. Bu ziyaretim sırasında Sayın Aliyev tarafından işbirliğimizin geliştirilmesinin nişanesi olarak "madalya" ile onurlandırıldım. 2021 yılının Kasım ayında Azerbaycan Başsavcılığından 10 savcı meslektaşım Ankara'da 10 gün süre ile mesleki incelemelerde bulundular. Mevkidaşım Sayın Aliyev ile olan samimi dostluğumuz, karşılıklı fikir alışverişi ve dayanışma içerisinde atılan adımlar sonucunda 1 Kasım 2021 tarihinde Türk Dili Konuşan Devletler Başsavcılar Şurasının Kuruluş Belgesini Bakü'de imzaladık. Şu an Azerbaycan ve Türkiye savcıları arasındaki mevcut işbirliğimizin güçlü bir dayanışma halinde en üst düzeyde olduğunu belirtmeliyim.

**Soru: Ülkemize ve Azerbaycan Cumhuriyet Başsavcılığı`na özel sempatinin bir göstergesi olarak ülkemizi birkaç kez ziyaret ettiniz. O gezilerin en unutulmaz anılarını bizlerle paylaşmanızı isteriz.**

**Cevap:** Azerbaycan ziyaretlerimde kardeşim Kamran Aliyev ve ekibinin, beni ve heyetimi sıcak, candan ve samimi karşılamaları beni çok etkilemiştir. Gence ziyaretimde gördüğüm Ermeniler tarafından bombalanan sivil yerleşim bölgesinde, etrafa saçılmış çocuk oyuncakları, yıkılmış evlerin görüntüleri bende derin izler bırakmıştır.

Gence'de bulanan Maral Göl ve Göğ Gölün muhteşem doğal güzelliğini de unutamam.

**Soru: Uzun yıllar hakimlik ve ağır ceza mahkemelerinde başkanlık yaptığınızı ve adaleti sağladığınızı biliyoruz. Deneyimli bir yargıç ve mahkeme başkanı olarak savcılık görevi size ne gibi avantajlar sağladı?**

**Cevap:** Ülkemin değişik bölgelerinde hakim ve ağır ceza mahkemesi başkanlığı yaptım, 2013 yılında Yargıtay Üyeliğine, 2019 yılında da Yargıtay Ceza Dairesi Başkanlığına seçildim. 2020 yılında Sayın Cumhurbaşkanımız tarafından Yargıtay Cumhuriyet Başsavcısı olarak seçildim. Öncelikle Başsavcı olarak yüksek bir makamda ülkeme hizmet etmenin gururunu yaşıyorum. Bu göreve geldikten sonra, birçok ülkeye resmi ziyaretlerde bulundum ve uluslararası toplantılarda ülkemi temsil ettim. Ülke savcılıklarının çalışma sistemleri ve işleyişleri hakkında bilgi sahibi oldum.

**Soru: Bildiğiniz üzere, iki kardeş ülkenin Cumhurbaşkanları arasındaki Müttefik İlişkiler Şuşa Deklarasyonu 15 Haziran 2021 tarihinde Azerbaycan'ın kültür başkenti Şuşa'da imzalanmıştır. Stratejik ortaklık ve karşılıklı yardıma ilişkin bu belge, ülkelerimiz arasındaki çok çeşitli kardeşlik ilişkilerini kapsamaktadır. Şuşa Deklarasyonu sizce Azerbaycanlı ve Türk savcılara ne gibi yeni ufuklar açıyor?**



**Cevap:** Azerbaycan Türkiye arasında 15 Haziran 2021 tarihinde Cumhurbaşkanlarımız tarafından, stratejik ortaklık belgesi olan Şuşa Beyannamesi imzalanmıştır.

Bu beyanname ile, Tek Millet İki Devlet ilkesi doğrultusunda savcılıklar da karşılıklı bilgi paylaşımı, her alanda birbirlerine yardımcı olma uluslararası platformlarda ortak hareket etme, birbirlerine destek olma şeklinde gerçekleşecektir.

Bu arada şunu da ifade edeyim, bir dahaki Azerbaycan ziyaretimde kültür başkentimiz olan bu güzel kenti ziyaret etmek isterim.

**Soru: Bu yıl 28 Mayıs'ta Azerbaycan Cumhurbaşkanı Sayın İlham Aliyev'in daveti üzerine Türkiye Cumhurbaşkanı Sayın Recep Tayyip Erdoğan Bakü'de ilk TEKNOFEST Azerbaycan Havacılık ve Uzay Mühendisliği ve Teknoloji Festivali'ne katıldı. Aynı gün, iki devlet başkanı, diğer önemli etkinliklerle birlikte, "Bilgi Bakü" merkezinin açılışına katılarak, bilimin yanı sıra genç nesile özel ilgi gösterdiklerini gösterdiler. Hukuk biliminin yeniliklerine sürekli hakim olmak ve sürekli gelişmek adına genç çalışanlarımıza ne gibi tavsiyelerde bulunabilirsiniz?**

**Cevap:** Cumhurbaşkanlarımızın teşrifleriyle gerçekleşen TEKNOFEST açılış törenini TV'de izledim ve gurur duydum.

Her bilim alanında olduğu gibi hukuk bilimi de, sürekli gelişen teknolojinin imkanlarından yararlanmaktadır.

Zira, teknolojik gelişmelere paralel olarak yeni suç tipleri ortaya çıkmaktadır. Örneğin (siber suçlar ve kripto para gibi) bu alanda çalışan gençlerimizin de, teknolojik gelişmeleri yakından takip edip, kendilerini sürekli yenilemeleri suçla mücadele eden savcılarımızın sanıklardan bir adım önde olmalarını sağlayacaktır.

Azerbaycanlı kardeşlerime, meslektaşlarıma, hemkârlarıma selam, sevgi ve saygılarımı sunuyorum.

## Şeyx Səud bin Abdullah Əl Müacib, Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru




**Sual: Cənab Baş prokuror, hörmətli şeyx!**

**Zəngin səfər qrafikinizin olmasına baxmayaraq, bizə - Azərbaycan Prokurorluğunun jurnalına müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə redaksiya heyəti adından dərin təşəkkürümüzü bildiririk. Sizdən səfərinizlə bağlı təəssüratlarınızı bizimlə bölüşməyinizi xahiş edirik.**

**Cavab:** Bu səfər Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında bütün sahələrdə yaranmış olan yüksək səviyyəli

əlaqələrin bir hissəsi kimi, bir nəticəsi olaraq gerçəkləşmişdir. Mən Azərbaycan Baş Prokurorluğunun dəvətinə əsasən və İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanı Kralı və onun vəliəhdi tərəfindən görəvləndirilərək Azərbaycana ziyarətə gəlmişəm. Məqsədimiz Səudiyyə Ərəbistanı Krallığının prokurorluq orqanları ilə Azərbaycanın prokurorluq orqanları arasındakı əlaqələri daha da genişləndirməkdən ibarətdir. Həmçinin, iki ölkənin prokurorluq qurumları arasında gələcək əməkdaşlıq imkanlarını müzakirə edib axtarmaq istəyirik. Hesab edirik ki, bu da son nəticədə hər iki ölkənin ədliyyə sahəsinə öz töhfəsini verəcək. Bu səxavətli ölkəyə qədəm basandan bəri və cənab Prezidentlə, Zat-Aliləri ilə görüşdükdən sonra mən özümü ikinci vətənimdə - qardaşlarımın arasında hesab edirəm.

Zati-Aliləri cənab Prezidentlə görüşümüz çox səmimi oldu. İki ölkə arasındakı əlaqələrin inkişaf etdirilməsi ilə bağlı hörmətli Prezidentdə böyük bir əzmkarlıq müşahidə etdik. Cənab Prezident bizim ölkənin rəhbərliyinin, İki Müqəddəs Məscidin Xadiminin və onun vəliəhdinin ölkələrimiz arasındakı münasibətlərin yüksəldilməsi təşəbbüsünə və iradələrinə qoşulduğunu bildirdi, eyni zamanda bu əlaqələrin daha da irəli aparılması ilə bağlı fikirlərini bizimlə də bölüşdü.

Daha sonra mən öz həmkarımla iki ölkənin prokurorluq orqanları arasında əlaqələrin inkişafını, bu əlaqələrin inkişaf yollarını müzakirə etdim. Qeyd etmək istərdim ki, hər iki prokurorluq orqanı arasında, həmçinin bir çox prokurorluq qurumları arasında bu münasibətlərin genişləndirilməsi üçün yaxşı imkanlar var. Biz yaxın vaxtlarda iki qurum arasında anlaşma memorandumu imzalayacağıq ki, onun da əsas qayələrindən birini təcrübə mübadiləsi təşkil edir. Bütün bunlar son nəticədə hər iki ölkənin xalqlarının mənafeyinə cavab verir.

Biz cənab Prezidentin ölkəmiz haqqında dediklərindən çox böyük məmnuniyyət duyuruq. Dövlət başçınızın ölkələrimiz arasındakı əlaqələri çox yüksək qiymətləndirdiyini böyük məmnunluqla qarşıladıq. Cənab Prezidentin bizim təmsil etdiyimiz qurumla Azərbaycandakı qurumun əlaqələrinin gücləndirilməsi ilə bağlı söylədiklərini çox xoş qarşıladıq.

Mən öz həmkarıma – Azərbaycan Respublikasının Baş prokuroruna təşəkkürümü bildirmək istəyirəm, həmçinin onun komandasında da, bütün həmkarlarına da minnətdarlığımı bildirirəm. Bizə, bütün nümayəndə heyəti üzvlərinə elə bir şərait yaradıldı ki, özümüzü evimizdəki kimi hiss etdik. Prokurorluğun iş prinsiplərini bizə təfsilatı ilə izah etdiyi üçün cənab Baş prokurora təşəkkürümüzü bildiririk. Azərbaycanda prokurorluq institutunun inkişafı ilə bağlı görülən işləri yüksək qiymətləndiririk. Bizə bu gözəl yerlərə səfər imkanı yaratdığına görə təşəkkür edir və sevinirik ki, sizin böyük xalqınız öz ərazilərini işğaldan azad edərək doğma torpaqlarına qayıtmışdır.

Biz burada turizm imkanlarının necə çox olduğunun da şahidi olduq. Bütün bunlar bizi sövq edir ki, bir daha buraya turist kimi qayıdaq. Mən düşünmürdüm və zənn etmirdim ki, bu cür gözəl yerlər görəcəyəm. Lakin sizin kimi qəhrəman xalqın nümayəndələri ilə, bu ölkənin inkişafı uğrunda etdiklərinizlə bütün bunlar mümkün olmuşdur. Çox sağ olun.

**Sual: Əgər etiraz etmirsinizsə, daha bir sualım var. Məlum olduğu kimi, Azərbaycan Respublikasında Səudiyyə Ərəbistanı Krallığına xüsusi rəğbətlə yanaşılır. Bunun başlıca səbəbi də ölkənizin Azərbaycanın haqq səsini müxtəlif beynəlxalq təşkilatlarda müdafiə etməsi və islam dünyası ölkələrinə verdiyiniz dəstəkdən irəli gəlir. Azərbaycan Prokurorluğunun kollektivinə dəyərli tövsiyə və arzularınızı bilmək istərdik.**

**Cavab:** Mənim Azərbaycan prokurorluq orqanlarının əməkdaşlarına tövsiyəm ondan ibarətdir ki, prokurorluq işçilərinin hər biri öz üzərinə düşən məsuliyyəti duysun və bu gözəl ölkənin inkişafı naminə, ədalətin bərqərar olması naminə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirsin. Həmçinin, ölkənizin rəhbərliyinin arxasında duraraq, bu ölkənin daha da irəli aparılmasında, inkişaf etdirilməsində ona bütün qüvvələri və imkanları ilə dəstək göstərsinlər. Sizin Baş prokurorunuzun iradəsində olan bütün işlərin həyata keçirilməsi ilə bağlı işçilər əgər ona dəstək verərlərsə, cəmiyyətdə də ədalət bərqərar olar və cəmiyyət asayiş içərisində yaşayar.

Biz Səudiyyə Ərəbistanının prokurorluq işçiləri olaraq, sizə bütün işlərdə dəstək verməyə hazırıq. Bundan ötrü Baş prokurorla artıq müzakirə etdiyim anlaşma memorandumunun imzalanmasından sonra bizim gələcəkdə qarşılıqlı səfərlərimiz və təcrübə mübadiləsi sayəsində öz işlərinizi daha da təkmilləşdirməyi arzu edərdim. Prokurorluğun işi ilə əlaqədar bütün məsələlərdə sizinlə əməkdaşlıq etmək üçün Səudiyyə Ərəbistanının prokurorluq orqanlarının nümayəndələri həmişə dəstək verməyə hazırdırlar. Biz sizin səfərinizi gözləyəcəyik ki, bütün əməkdaşlıq yolları daha ətraflı müzakirə edilsin və gerçəkləşdirilsin. Ümidvaram ki, mənim çox böyük hörmət etdiyim sizin bu əziz və doğma ölkənizə səfərim yeni başlanğıcın əsasını qoyacaq və bu əlaqələr daha da inkişaf edəcək.

## Nida Qrunskiene, Litva Respublikasının Baş prokuroru



**Sual: Xanım Nida Qrunskiene, icazə verin gərgin səfər qrafikinizə baxmayaraq, bizə vaxt ayıra bildiyiniz üçün jurnalımızın redaksiya heyəti adından Sizə dərin minnətdarlığımızı bildirim. Bildiyimiz qədər ölkəmizə ilk səfərinizdir. Bununla bağlı təəssüratlarınızı oxucularımızla bölüşməyinizi rica edərdik.**

**Cavab:** Təşəkkür edirəm. İlk növbədə, ölkənizə və prokurorluq orqanlarına səfər etmək, bu qurumun fəaliyyəti ilə tanış olmaq fürsətinə görə azərbaycanlı həmkarlarıma səmimi qəlbdən təşəkkür etmək istəyirəm. Azərbaycana bu mənim ilk səfərimdir. Bakı şəhəri haqqında məlumatlı idim, amma əyani tanışlıq fərqli hisslər yaratdı. Mən çox gözəl və təmiz şəhər gördüm. Burada özümü yaxşı, rahat və çox təhlükəsiz hiss edirəm. Üç prokurorluq qurumlarınızda oldum, məndə çox yaxşı təəssürat yarandı. Həmin prokurorluqlar yeni və gözəl binalarda yerləşir, burada əlverişli iş mühiti yaradılmışdır. Hesab edirəm ki, prokurorlar və digər işçilər bununla fəxr etməlidirlər. Eyni zamanda, mən müşahidə etdim ki, burada öz işinin peşəkarları çalışır.

**Sual: Şəhərimizə və qurumumuza belə yüksək qiymət verdiyiniz üçün çox şadıq. İcazənizlə növbəti sualımı vermək istərdim. Litva Baş Prokurorluğu ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq əlaqələrin hazırki vəziyyətini necə qiymətləndirirsiniz?**

**Cavab:** Mən çox məmnunam ki, Azərbaycana səfər edən Litvanın ikinci baş prokuroruyam. İlk dəfə ölkənizə həmkarım Darius Valis səfər etmiş və onun səfəri 2011-ci ilə baş tutmuşdur. Mən Litva və Azərbaycanın baş prokurorluqları arasında hüquqi yardım sahəsində uzunmüddətli səmərəli əməkdaşlığı yüksək qiymətləndirirəm və hesab edirəm ki, biz birlikdə işləməli, təcrübə mübadiləsi aparmalı və gələcəkdə əlaqələrimizi yalnız inkişaf etdirməliyik.







**Sual: Cavabınıza görə təşəkkür edirəm. Sizin korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizədə çox dəyərli təcrübəniz vardır. Azərbaycan və Litva arasında mütəşəkkil cinayətkarlığa və digər neqativ təzahürlərə qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə hansı imkanlar mövcuddur?**

**Cavab:** Mənim təkcə korrupsiya cinayətləri ilə deyil, eləcə də insan alveri cinayətlərinə qarşı mübarizə sahəsində də böyük təcrübəm var. Mən Litvada bu işi yekunlaşdıran ilk prokuror olmuşam. Daha əvvəl Litvada bu əməllər üzrə cinayət işinin başlanması təcrübəsi yox idi, bu ilk cinayət işi olmuşdur. Mən 2006 – 2013-

cü illərdə insan alveri əməlləri ilə bağlı cinayət işlərinin istintaqını aparmışam. Korrupsiya işlərinin istintaqı ilə də məşğul olmuşam, amma fəaliyyətimin əsas istiqaməti insan alveri cinayətləridir. Biz hörmətli həmkarım Kamran Əliyevin vitse prezidenti olduğu Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvləriyik. Hazırda bizim əsas fəaliyyətimiz təcrübə mübadiləsidir. Məqsədimiz qarşılıqlı yardım göstərməkdir və biz əməkdaşlıq etmək niyyətindəyik. Hesab edirəm, qeyd etdiyiniz sahə üzrə geniş əməkdaşlıq imkanları vardır.

**Sual: Çox sağ olun. Litva Respublikası tərəfindən həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı Tvinninq Layihəsinə olduqca dəyərli dəstəyiniz barədə məlumatlıyıq. Bu layihənin perspektivlərini və imkanlarını necə qiymətləndirirsiniz?**

**Cavab:** Hesab edirəm bu layihə strateji xarakter daşıyır və iştirakçıların ciddi iradəsinə əsaslanır. Layihənin uğurlu olacağına əminəm. Bu layihə cinayət yolu ilə əldə olunmuş aktivlərin aşkar edilməsi və müsadirəsi sahəsində qabaqcıl təcrübənin tətbiqinə və effektliyin artmasına ciddi töhfə verəcəkdir.

## Jıdrunas Bartkus,
## Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin direktoru



**Sual: Hörmətli cənab Bartkus, Azərbaycana xoş gəlmisiniz. Dəyərli müsahibənizə görə, ilk növbədə, Azərbaycan Prokurorluğu jurnalının redaksiya kollektivi adından Sizə minnətdarlığımızı bildirmək istərdik. Bildiyimizə görə, Siz 20 ildən artıqdır ki, korrupsiya və maliyyə cinayətlərinə qarşı mübarizə sahəsində ixtisaslaşırsınız. Belə zəngin təcrübəyə malik olmaqla Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatların ilk nəticələrini necə qiymətləndirirsiniz?**

**Cavab:** Sizinlə söhbət etmək fürsətinə görə təşəkkür edirəm. Bəli, bu mənim Azərbaycana ilk səfərim deyildir. Hazırda mənim müşahidə etdiyim əmlakların bərpası və idarə edilməsi, onların dövlətə qaytarılması ilə bağlı layihənin icrası vəziyyəti məni çox qane edir. Deyərdim ki, əldə edəcəyimiz müsbət yeniliklər artıq layihənin nəticəsi olmayacaq, layihənin özü artıq sizin islahatlarınızın nəticəsi kimi qiymətləndiriləcək. Çünki bu sahədə ixtisaslaşdırılmış idarə artıq yaradılıb və bu idarənin yaradılması üçün strateji iradə iki il əvvəl artıq formalaşıb. Bu o deməkdir ki, mənim və komandamızın burada olmağı artıq bir nəticədir, mən bunu çox yüksək qiymətləndirirəm.

**Sual: Cavabınıza görə təşəkkür edirəm. Litva Respublikası tərəfindən həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" layihəsinin perspektivləri və imkanları ilə bağlı baxışlarınızı bilmək istərdim.**

**Cavab:** Çox yaxşı sualdır, çünki burada deyiləcək çox şey var. Bildiyimiz kimi, korrupsiya və bu neqativ təzahürə qarşı mübarizə tarixi inkişaf yolunu keçmişdir. Korrupsiya, təbii ki, daha qədimdir, çünki bu təzahür qədim zamanlardan mövcud olub, onunla mübarizənin necə aparılması həm insanları, həm də dövlətləri hər zaman düşündürüb. Bir vaxtlar, bəzi ölkələrdə isə bu günə kimi əsas məsələ təqsirkarların cəzalandırılması olmuşdur. Daha inkişaf etmiş ölkələr isə belə qənaətə gəldilər ki, insanı cəzalandırmaq kifayət deyildir.

Korrupsiyaya qarşı mübarizədə başlıca məqsəd əmlakın xalqa qaytarılmasıdır. Mən çox şadam ki, Azərbaycan hazırda bu layihə üzərində işləyir, bu o deməkdir ki, siz inkişaf etmiş ölkələrlə ayaqlaşırsınız. Bu layihənin həyata keçirilməsində ən vacib olan nədir? Mən bu fəaliyyəti iki hissəyə ayırardım: birinci mərhələdə əmlakın tapılması, növbəti mərhələdə isə hüquqi aktlara aydın şəkildə riayət olunmaqla əmlakın dövlətə qaytarılması prosedurlarının hazırlanması təmin edilir. Ən vacib və çətin iş əlbəttə ki əmlakın







tapılmasıdır. Amma əmlak artıq tapıldıqda, bu nemətlərin geri qaytarılacağı şəxslərdə ədalət hissini gücləndirəcək prosedurlar həyata keçirilməlidir ki, hətta əlindən alınacağı insanlar da bilsinlər ki, bu əmlak yanlış yolla əldə edilmişdir. Düşünürəm ki, bu layihə və yuxarıda qeyd olunan prosedurlar məhz bu vacib məqsədlərə yönələcək – cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasına, daha sonra isə həmin nemətlərin xalqa qayıtarılmasına.

**Sual: Cavabınıza görə minnətdarlığımı bildirirəm. Bildiyimizə görə, hazırki gəlişiniz ölkəmizə növbəti səfərinizdir. Əvvəlki səfərlərin nəticələrini və görülən işləri necə qiymətləndirirsiniz?**

**Cavab:** Haqlısınız, bu dəfəki səfərim mənim Azərbaycana ilk gəlişim deyildir. Xatırlayıram ki, ölkənizə ilk səfərim 2010-cu ilə təsadüf etmişdir. Həmin dövrdə biz başqa çox əhəmiyyətli layihənin üzərində çalışırdıq. Həmin layihə korrupsiyaya qarşı mübarizəni həyata keçirən ixtisaslaşmış prokurorluq orqanının fəaliyyətinə dəstək verməkdə ifadə olunurdu. Nəticələri necə qiymətləndirdiyimi soruşduqda demək istəyirəm ki, ötən gün mənim və bütün komandamızın Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olduqca səmərəli görüşü baş tutmuşdur. Bu isə mənim üçün sevindirici haldır, çünki 2009-cu ildən başlayaraq gerçəkləşdirilən həmin layihənin məqsədinə nail olunmuşdur. Belə ki, ötən 10 ildən artıq müddətdə bu qurum səmərəli fəaliyyət göstərir, genişlənərək çoxlu sayda işçi heyətinə malikdir. Eyni zamanda, bizə bildirildi ki, bu nəticələr birinci layihə sayəsində əldə olunub və həmin nəticələr də müsbət olmuşdur. Mənim üçün bu böyük sevincdir. Hazırda biz ikinci layihəmiz üzərində çalışırıq, bu layihənin rəsmi açılışı sabah təşkil ediləcək. Qeyd etmək istəyirəm ki, bu layihə ilə bağlı artıq bir neçə aydır ki, hazırlıq işləri gedir və bu layihə çərçivəsində Azərbaycana səfərlər etmişəm. Mənim diqqətimi çəkən Azərbaycan Prokurorluğunun əməkdaşlarının fəal fəaliyyətidir və layihənin uğuru bu amildən çox asılıdır. Azərbaycanlı həmkarlar bu layihənin bütün aspektlərində çox peşəkardırlar. Onlar özləri bu layihə ilə bağlı təşəbbüslə çıxış ediblər, nə istədiklərini dəqiq bilirlər və bunu bizimlə birlikdə etməyə hazırdırlar. Bu isə, öz növbəsində, bizdə sevinc və gələcək birgə əməkdaşlığın uğurlu nəticələrinə inam yaradır.

# Baş Prokurorluğun əməkdaşları prokurorluq orqanları veteranlarını ziyarət etmişlər

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyasına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilən ardıcıl və sistemli islahatlar prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, maddi-texniki təminatın yaxşılaşdırılması, əməkdaşların və veteranların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün atılan məqsədyönlü addımların davamı olaraq Mingəçevir şəhər prokurorluğunun əməkdaşları prokurorluğun







veteranı Tağıyev Arzuman Tağı oğlunun və İsmayıllı rayon prokurorluğunun əməkdaşları Seyidov Şükür Qafar oğlunun 80 illik, eləcə də Oğuz rayon prokurorluğunun əməkdaşları Rəhimov Ağarəhim Hacıbala oğlunun 65 illik yubileyləri münasibətilə onları ziyarət edib hədiyyələr təqdim edərək, Baş prokurorun və Baş Prokurorluğun kollektivinin təbriklərini, xoş arzularını çatdırmışlar.

Veteranlar prokurorluq əməkdaşları ilə xatirələrini bölüşüb səmimi söhbətlər etmişlər və sonda xatirə şəkilləri çəkdirmişlər.

# Prokurorluğun veteranı Murad Nəsirovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



***Nəsirov Murad Camov oğlu 3 yanvar 1953-cü il tarixdə ölkəmizin zəngin tarixə sahib və gözəl şəhərlərindən olan Qubada anadan olmuşdur. O, 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirərək prokurorluq orqanlarına qulluğa qəbul edilmiş, 1983-cü ilədək Bakı şəhəri Orconikidze (indiki Suraxanı) rayon prokurorluğunda prokuror köməkçisi, həmin ildən 1990-cı ilədək Azərbaycan SSR Prokurorluğunun Ümumi nəzarət şöbəsinin prokuroru, böyük prokuroru vəzifələrində işləmişdir. M. Nəsirov 1992-2005-ci illərdə Qax, Kürdəmir və Qəbələ rayon prokuroru vəzifələrində xidmətini davam etdirmiş, 2005-2006-cı illərdə Baş Prokurorluğun Kadrlar idarəsinin Tədris mərkəzində prokuror, 2006-cı ildən isə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsində böyük prokuror-metodist vəzifələrində çalışmışdır. Azərbaycan Respublikası Baş prokurorunun 04.02.2013-cü il tarixli əmrinə əsasən prokurorluqda qulluqda olmanın yaş həddinə çatdığına görə prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilmişdir.***

***Prokurorluqda xidmət etdiyi dövrdə fərqləndiyinə, əməyinin yüksək nəticələrinə görə M.Nəsirov dəfələrlə təşəkkür, pul mükafatı, qiymətli hədiyyə, vaxtından əvvəl növbəti rütbə dərəcəsi və fəxri fərmanlarla təltif edilmişdir.***

***Ailəlidir, iki övladı vardır.***

**Sual: Əvvəla, redaksiya heyəti adından jurnalımıza müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Murad müəllim, 35 ildən artıq prokurorluq orqanlarında səmərəli fəaliyyət göstərməklə, prokurorluğun ən mühüm fəaliyyət istiqamətlərinə peşəkar və savadlı hüquqşünas kimi mühüm töhfə vermisiniz. Bu illər necə xatirənizdə qalmışdır?**

**Cavab:** Mən də, öz növbəmdə, "Azərbaycan Prokurorluğu" jurnalının redaksiyasına öz təşəkkürümü bildirirəm. Hesab edirəm jurnalınızın "veteranlarla müsahibə" rubrikası Baş Prokurorluğun rəhbərliyi, eləcə də mənə doğma olan kollektivi tərəfindən veteranlara dəyər verilməsi və onları daim diqqətdə saxlanılmasının əyani sübutudur.

Hüquqi dövlət quruculuğu yolunda dövlətçiliyimizin maraqlarının, qanunun aliliyi və insan hüquqlarının daha etibarlı müdafiəsi, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılmasında prokurorluq orqanlarının fəaliyyəti olduqca vacibdir. Şərəfli inkişaf yolu keçmiş prokurorluq orqanları xalqa və dövlətçilik ideyalarına sədaqətlə qulluq edir və qanunçuluğun möhkəmləndirilməsində öz yüksək xidmətlərini göstərir. Təcrübəmdə çox sayda cinayət hadisələrinin istintaqını aparmışam, eləcə də istıntaqa prosessual rəhbərliyi həyata keçirən prokuror kimi  çox maraqlı və ağlagəlməz hallarla qarşılaşmışam. Belə halları həmçinin məhkəmələrdə dövlət ittihamının müdafiəsi zamanı da müşahidə etmişəm. Onları sadalamaqla vaxtınızı almaq istəməzdim. Sovet və dövlətimizin müstəqilliyi dövründə prokurorluq orqanlarında uzun müddət fəaliyyət göstərmişəm. Həqiqət naminə demək lazımdır ki, sovet dövründə də prokurorluq tutduğu mövqeyə və prinsipiallığına görə vətəndaşların inandığı və çox müraciət etdiyi orqan olmuşdur.

Ötən əsrin 90-cı illərinin ilk illərində müstəqilliyimiz ciddi sınaqlarla üzləşmişdir. Lakin, ədalət naminə demək lazımdır ki, cinayətkar qrupların hökm sürdüyü vəziyyətdə, hakimiyyətin müxtəlif qurumlarının fəaliyyəti iflic vəziyyətinə düşdüyü dönəmdə prokurorluq orqanları öz funksiyalarını layiqincə yerinə yetirməyə çalışır, hadisə yerlərinə vaxtında yetişir, cinayətlərin istintaqını, cinayətlərin açılmasında prokuror nəzarətini yüksək səviyyədə həyata keçirirdi. Bəzən isə səlahiyyətinə aid olmayan hərc-mərclik, özbaşınalıq və xaosun qarşısını almaq məqsədilə rayonun (şəhərin) təsərrüfat məsələlərinə qarışmalı olurdu. Belə ki, bəzi icra hakimiyyəti başçıları fəaliyyətlərini dondurmuş, digərləri qaçmış, bəziləri isə qanunsuz silahlı dəstələr tərəfindən vəzifələrindən kənarlaşdırılmışlar. Rayonların giriş və çıxışlarında naməlum silahlı şəxslər qanunsuz postlar qurub gedib gələn maşınları saxlayıb yoxlayırdılar. Vətəndaşlar problemlərini həll etmək üçün hara şikayət etmələrini bilmirdilər, məcbur olub prokurorluq orqanlarına onların səlahiyyətlərinə aid olmayan məsələlər üzrə də müraciət edirdilər. Baxmayaraq ki, prokurorluq əməkdaşlarına və ailə üzvlərinə qarşı təhdidlər də var idi,





prokurorluq bu dövrdə də öz simasını qoruyub saxlaya bilmişdir.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının fəaliyyətində yeni bir dövr başlamışdır. Keçən dövr ərzində qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində atılan qətiyyətli addımlar ölkəmizi bütün sahələr üzrə sürətli inkişaf yoluna qoymuşdur. Qəbul olunmuş çoxsaylı qanun və məcəllələr, habelə bir sıra digər mühüm normativ-hüquqi aktlar bütövlükdə demokratik cəmiyyətdə prokurorluğun yeri və rolunu müəyyən etmişdir. Prokurorluğun maddi-texniki bazası möhkəmlənmiş, səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Ölkəmizdə hüquqi dövlət quruculuğu prosesi uğurla gerçəkləşməklə, qanunun aliliyi və sabitlik nəhayət ki bərqərar olmuşdur.

**Sual: Məlum olduğu kimi, ali təhsil ocaqlarında hüquq elminin müxtəlif sahələri üzrə biliklərə yiyələnsək də, prokurorluq orqanlarında peşə vərdişlərimizin formalaşmasında bizdən öndə olan daha yaşlı nəslə aid həmkarlarımızın əməyi əvəzsizdir. Peşəkar prokurorluq əməkdaşı kimi formalaşmağınızda hansı həmkarların rolunu xüsusi qeyd etmək istərdiniz?**

**Cavab:** Mən prokurorluqda fəaliyyətimə 1977-ci ildə Bakı şəhəri Suraxanı (həmin dövrdə Orconikidze adlanırdı) rayonunda başlamışam. Bəxtim gətirmişdir ki, ilk prokurorum Mahir Ziyazadə olmuşdur. O, alicənab, savadlı, dünyagörüşü geniş, intellektual səviyyəsi yüksək olan ziyalı, eyni zamanda sadə və qayğıkeş bir insan idi. Onunla bağlı bir məsələni xatırlatmaqla, Mahir müəllimin necə insan olduğunu oxucuların gözündə təsvir etmək istərdim. Belə ki, o, günortalar əksər günlərdə özünün təkidi ilə işçilərlə birlikdə nahar edərdi. Stajor olduğum dövrdə rəhbərim çox güclü istintaqçı olan müstəntiq Hüseyn Hüseynov idi. Sonradan o, Yasamal (əvvəlki Oktyabr) rayon prokuroru, Respublika prokurorluğunun İstintaq idarəsinin rəisi və Naxçıvan MR prokuroru vəzifələrinə qədər yüksəlmişdir. Dayımın dostu olduğu üçün, əvvəllər tanıdığım, həmin dövrdə qonşu Xəzər (əvvəlki Əzizbəyov) rayon prokuroru İkram Kərimovdan da məsləhətlər alardım. Bundan əlavə, Respublika prokurorluğunda idarə rəisi olmuş, respublika inzibati orqanların ağsaqqalı sayılan İdris Qasımov, Respublika Prokurorunun müavini Vaqif Nəzərov, Bakı şəhər prokuroru olmuş Əliş Əliyev və Nəriman Yusifov tutduqları yüksək vəzifəyə və işlərinin çox olmasına baxmayaraq, vəzifəsindən asılı olmayaraq prokurorluğun istisna olmadan bütün əməkdaşları onlara istənilən vaxt müraciət etdiyi təqdirdə imkan daxilində qəbul edib, lazımı tövsiyələr verməyə məm-








nuniyyətlə razı olurdular. Dünyasını dəyişmiş bütün həmkarlarımızın əziz xatirəsini yad edir və onlara Allahdan rəhmət diləyirəm.

**Sual: Dövlət ittihamının müdafiəsi üzrə idarədə işlədiyiniz dövrdə apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamını peşəkarlıqla müdafiə etmisiniz. Cəzanın labüdlüyü, sosial ədalətin bərpası, mərhəmət - peşəkar dövlət ittihamçısı kimi bu məfhumlardan hansı sizin üçün daha önəmli olmuşdur.**

**Cavab:** Sovetlər vaxtı məhkəmələrdə dövlət ittihamının müdafiəsi yerli şəhər (rayon) prokurorlarına həvalə olunmuşdur və bu 2000-ci ilə kimi davam etmişdir. Suraxanı rayonunda rayon prokuroru köməkçisi vəzifəsində işləyərkən rayon məhkəməsində dövlət ittihamının müdafiəsi mənə tapşırılmışdır. Daha sonra 2006-2013-cü illərdə də mən apellyasiya və kassasiya instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsində iştirak etmişəm. Dövlət ittihamçısı peşəsinə yiyələndiyim vaxtdan məhkəmə təcrübəsində belə qənaətə gəlmişəm ki, cəza qisas məqsədilə deyil, sosial ədalətin bərpası, mərhəmətin təntənəsi, cinayətkarın islahı və başqalarını cinayət törətməsindən çəkindirmək məqsədi ilə tətbiq olunmalıdır.

**Sual: Oxucularımıza xidməti fəaliyyətiniz dövründə qarşılaşdığınız və hər zaman xatırladığınız cinayət hadisəsi, habelə xidməti fəaliyyətinizin ən çətin dövrlərini bilmək maraqlı olardı.**

**Cavab:** Xatırladığım cinayət işləri çoxdur, lakin məndə böyük təəssürat doğuran və uzun müddət bu cinayətin şok təsirindən çıxa bilmədiyim, indi də həyəcansız xatırlaya bilmədiyim Yeni Suraxanı qəsəbəsində bir ailənin faciəsinə səbəb olan cinayət hadisəsi olmuşdur.



Prokurorluqda yenicə fəaliyyətə başladığım stajor olduğum dövrdə bir gün məlumat gəldi ki, Yeni Suraxanı qəsəbəsində bir evdə yanğın hadisəsi baş vermiş, ailənin beş üzvü: ata – ana, iki bacı və bir qardaş yanaraq ölmüşdür. Hadisə yerinə müstəntiq kimi yuxarıda xatırladığım təcrübəli müstəntiq Hüseyn Hüseynovla stajor kimi mən də getmişdim. Hadisə yerinin müayinəsinə yenicə başlamışdıq ki, H.Hüseynov yanan meyitlərdə zorakılıq əlamətlərinin olmasını müəyyən edərək rayon prokurorunun hadisə yerinə gəlməsini, əlavə ekspertin və əməliyyatçıların da hadisə yerinə çağırılmasını zəruri bilmişdir. Az müddət keçmiş əvvəl rayon prokuroru, sonra isə Respublika və Bakı şəhər Prokurorluğunun əməkdaşları, əlavə ekspert və əməliyyatçılar da hadisə yerinə gəlmişlər. Nənənin deməsinə görə ailənin bir üzvünün, hadisə baş verən gün təsadüfən onun evində gecələyən, 16 yaşına çatmamış məktəbli oğlan uşağının sağ qalması müəyyən edilmişdir. H.Hüseynovun tapşırığı ilə həmin oğlan sorğu-sual edilməsi üçün bizim yanımıza gətirildi. Yeniyetmə yanıqlı-yanıqlı ucadan ağlayırdı, buna görə mənim ona ürəyim yandı və ona hətta su da verdim. H.Hüseynov tənə ilə mənə baxıb, oğlana ucadan "İndi danış! Niyə onları öldürmüsən?" sualını verdi. Yeniyetmə əvvəlcə dinmədi, sonra isə hər şeyi olduğu kimi danışaraq, atasının ona icazəsiz maşın sürməyi qadağan etdiyini, hətta bu qadağaya riayət etmədiyi üçün onu döydüyünü bildirdi. Bundan təsirlənərək, ailə üzvləri yatdıqda əvvəlcə ata-anasını kəsici alətlə öldürdüyünü, daha sonra isə azyaşlı qardaş və bacılarını yatan yerdə eyni üsulla qətlə yetirdiyini etiraf etdi. Sonra isə evdə olan qızıl və digər qiymətli əşyaları qarajda olan atasının maşınına qoyaraq, evi yandırıb maşınla qaçmaq istədiyini bildirdi. Qarajdan maşını çıxara bilmədiyi üçün nənəsigilə gedərək, ona küçədə uşaqlarla oynayıb vaxtdan xəbəri olmadığını, gec olduğundan və valideynləri tərəfindən danlanmamaqdan ötrü onun yanına gəldiyini söyləmişdir. Hər zaman xatırladığım və mənə ən çox təsir edən məhz elə bu cinayət hadisəsidir.

Xidməti fəaliyyətimin ən çətin dövrləri isə bir azərbaycanli kimi 20 yanvar və Xocalı hadisələri dövrü, həmçinin Şuşanın işğal olunduğu gün idi. Bu hadisələrin təsiri altında işləmək çox ağır idi. Respublika Prokurorluğunun Ümumi nəzarət idarəsinin prokuroru vəzifəsində işləyərkən tez-tez Ağdama, Şuşaya, Xankəndinə ezam olunurdum, oraları yaxşı tanıyırdım. Sumqayıt hadisələri vaxtı da üç ay müddətinə Qarabağ bölgəsində ezamiyyətdə olmuşdum.

**Sual: Bəziləri təqaüd dövrünü istirahət dövrü, digərləri isə əksinə, kifayət qədər sərbəst vaxtın yaranması səbəbindən hər hansı yeni əmək, yaradıcılıq və ya digər fəaliyyət dövrünün başlanğıcı kimi qəbul edir. Murad müəllim, təqaüddə olduğunuz dövrdə hər hansı yeni fəaliyyətlə məşğul olmağa təşəbbüs göstərmisinizmi?**

**Cavab:** 2013-cü ildə prokurorluqdan pensiya yaşıma çatdığıma görə təqaüdə çıxmışam, sonradan Konstitusiya Məhkəməsində məsləhətçi-ekspert kimi işə qəbul olunub işləmiş, 65 yaşım tamam olduqda isə pensiyaya çıxmışam. Hal-hazırda nəvələrimlə məşğulam. Bu heç də az məsuliyyətli vəzifə deyildir.

**Sual: Bizdə olan məlumata görə, övladlarınızın əmək fəaliyyəti hüquq mühafizə orqanlarında xidmətlə əlaqəli deyil. Övladlarınızın fəaliyyətinizi davam etdirmək arzusu Sizdə olmuşdurmu?**

**Cavab:** İki oğlum var. İsrar etməyimə baxmayaraq, onların heç biri hüquq mühafizə orqanlarında xidmət etməyi peşə kimi seçməmişlər. Böyük oğlum Azərbaycan Dillər Universitetinin Beynəlxalq hüquq fakültəsini, eyni ixtisas üzrə Türkiyədə ali təhsilin magistr pilləsini bitirmişdir. Uzun müddət Ombudsman aparatında məsul vəzifəsində çalışmış, hal-hazırda isə "AzərGold" QSC-də şöbə rəisinin müavini vəzifəsində işləyir. Digər oğlum isə İqtisadiyyat Universitetini fərqlənmə diplomu ilə bitirmiş və fərdi sahibkarlıqla məşğuldur. Lakin, dörd nəvəmdən ikisi artıq prokuror

olmağı arzulayırlar (red. sevinclə gülümsəyir).

**Sual: Son iki il prokurorluq orqanlarında müasir dövrün tələblərindən irəli gələn islahatlar dövrü kimi səciyyələndirilir. Hər zaman səmərəli fəaliyyətinizlə bizlərə örnək olan veteranımız kimi doğma prokurorluğumuzda olan dəyişiklərə münasibətiniz necədir? Eyni zamanda, Kürdəmir, Qax və Qəbələ rayonlarının qanunun aliliyini rəhbər tutan, prinsipial sabiq prokuroru kimi gənc həmkarlarımıza hansı dəyərli tövsiyələriniz vardır?**



**Cavab:** Mətbuatdan son iki ildə prokurorluq orqanlarında müasir tələblərdən irəli gələn islahatlar aparılmasından xəbərim var və bundan çox məmnunam. Ümumiyyətlə, prokurorluğun hər bir uğurunu şəxsi uğurum kimi qəbul edirəm.



Bildiyimə görə, CPM-in məntiqinə və prinsiplərinə uyğun gəlməyən ağır cinayətlər məhkəmələrinə aid olan cinayət işlərinin ittiham aktının Baş Prokurorun müavini tərəfindən təsdiq olunması qaydası ləğv olunub, belə işlər artıq istintaqa bilavasitə prosessual rəhbərlik edən prokuror tərəfindən təsdiq olunur. Əvvəlki qaydada müstəntiqlər istintaq müddətində bir neçə dəfə işin məruzəsinə görə Bakı şəhərinə ezam olunur, lüzumsuz yerə vaxt itirirdilər. Bu istintaqın operativliyinə və səmərəliliyinə mənfi təsir göstərirdi. Bundan əlavə, istintaq aparan şəxsdə və istintaqa bilavasitə prosessual rəhbərliyi həyata keçirən prokurorda arxayınçılıq yaranırdı ki, müvafiq qurumun prokuroru işi lazımınca öyrənib, onlara nöqsanlar barədə iradlar bildirəcək, bu nöqsanları aradan qaldırmaqla işi yekunlaşdıracaqlar. Belə vəziyyətdə iş üzrə yerlərdə daha ətraflı məlumata malik olan bu şəxslərin bəziləri əlavə sübutlar toplamaq və araşdırmalar aparmaq təşəbbüsünü lüzum görmürdülər.

Bundan əlavə, şikayət və məlumat əsasında dövlət idarə, təşkilat və təsərrüfatlarda təftiş və yoxlama təyin edilməsində CPM-in tələblərinə uyğun olmayan məhdudiyyətlər də ləğv olunmuşdur. Bu isə öz növbəsində cinayət işlərinin vaxtında başlanmasına, dövlət əmlakının mənimsənilməsi, israf edilməsi, cinayətin ört-basdır edilmə cəhdlərinin qarşısının alınmasına xidmət edə bilər.

Son iki ildə çox sayda təşəbbüskar və bacarıqlı gənc prokuror əməkdaşların, o cümlədən gənc xanımların məsuliyyətli vəzifələrə təyin edilməsi aparılan islahatların bir nümunəsidir.

Gənc həmkarlarıma öz fəaliyyətləri ilə prokurorluğun şərəf və nüfuzunun daha da yüksəldilməsinə nail olmalarını arzulayıram. Əminəm ki, Baş Prokuror hörmətli Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında gedən islahatlar dayanıqlı, effektiv və uğurlu olacaqdır.

**Sual: Ənənəvi sualımızı vermə istərdik. Olduqca maraqlı və şərəfli xidmət illərinizin ən yüksək nailiyyəti kimi nəyi hesab edirsiniz?**

**Cavab:** Onillikləri əhatə edən xidmət illərimdə ən yüksək nailiyyətim kimi prokurorluqda qulluq etməyimi görürəm. Bu qurum və onun kollektivi hər zaman mənə doğma və əzizdir. Yuxarıda qeyd etdiyim kimi, bu qurumun bütün uğurlarına və nailiyyətlərinə öz şəxsi uğurum kimi sevinirəm!

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, №11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, №11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, №12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711) 51-1.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"51-1.1**. Elektron qaydada məhkəmə icraatı, həmçinin məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmələrdə aparılan icraat bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə aparılır. Cinayət prosesini həyata keçirən digər orqanların informasiya sistemləri prosessual sənədlərin və digər materialların bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq məhkəmələrlə elektron qaydada mübadilə edilməsi üçün "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiya olunur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 aprel 2022-ci il
№509-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268,

1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 99-4.5-ci maddədə "214–220, 233" rəqəmləri "206.2-206.4, 214–220, 233, 234, 237, 240" rəqəmləri ilə əvəz edilsin;

**1.2.** 206-cı maddə üzrə:

**1.2.1.** 206.2-ci maddədə "təsirli" sözü "təsir edən" sözləri ilə əvəz edilsin;

**1.2.2.** 206.3-cü maddədə "206.1 və ya 206.2-ci" sözləri "206.1–206.2-ci" sözləri ilə əvəz edilsin;

**1.3.** 234-cü maddə üzrə:

**1.3.1.** 234.1-ci maddədə "şəxsi istehlak miqdarından artıq" sözləri "xeyli" sözü ilə əvəz edilsin;

**1.3.2.** aşağıdakı məzmunda 234.1-1-ci maddə əlavə edilsin:

**"234.1-1.** Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə –

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.3.3.** 234.4.3-cü maddənin sonunda tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 234.4.4-cü maddə əlavə edilsin:

**"234.4.4.** kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə –";

**1.3.4.** aşağıdakı məzmunda 234.4-1-ci maddə əlavə edilsin:

**"234.4-1.** Bu Məcəllənin 234.1–234.4-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə –

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.3.5.** "Qeyd" hissəsinin 2-ci bəndində "şəxsi istehlak miqdarından artıq və külli" sözləri "xeyli, külli və xüsusilə külli" sözləri ilə, "xeyli və külli" sözləri "xeyli, külli və xüsusilə külli" sözləri ilə əvəz edilsin;

**1.4.** aşağıdakı məzmunda 235.5-ci maddə əlavə edilsin:

**"235.5.** Bu Məcəllənin 235.1–235.4-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə –

on ildən on yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.5.** 237-ci maddə üzrə:

**1.5.1.** 237.1-ci maddədə ", yetişdirmə və ya onları (onların hissələrini) toplama" sözləri "və ya yetişdirmə" sözləri ilə əvəz edilsin;

**1.5.2.** aşağıdakı məzmunda 237.3-cü maddə əlavə edilsin:

**"237.3.** Bu Məcəllənin 237.1 və 237.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə –

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.6.** 240-cı maddə üzrə:

**1.6.1.** aşağıdakı məzmunda 240.3-1-ci maddə əlavə edilsin:

**"240.3-1.** Bu Məcəllənin 240.1, 240.2 və 240.3-cü maddələrində nəzərdə tutulmuş əməllər güclü təsir edən maddələrə münasibətdə xüsusilə külli miqdarda törədildikdə –

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.6.2.** "Qeyd" hissəsinin 1-ci bəndinə "külli" sözündən sonra "və xüsusilə külli" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanunun 1.3.1-ci, 1.3.4-cü, 1.3.5-ci, 1.4-cü, 1.5-ci maddələri narkotik vasitələrin və ya psixotrop maddələrin xeyli və xüsusilə külli miqdarını, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

**2.2.** Bu Qanunun 1.6-cı maddəsi narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 aprel 2022-ci il
№516-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, №

2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** aşağıdakı məzmunda 131–1-ci maddə əlavə edilsin:

**"Maddə 131-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**

**131-1.1.** Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin miqdarı qanunla həmin maddələr üçün müəyyən edilmiş xüsusilə külli miqdarın aşağı həddindən artıq olduqda, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin maddələrdən bu Məcəllə ilə müəyyən edilmiş qaydada ekspert tərəfindən nümunənin götürülməsini, qalan hissəsinin isə məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görməlidirlər.

**131-1.2.** Ekspertizanın keçirilməsi üçün təqdim edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin müvafiq ekspertizası keçirildikdən sonra ekspert həmin maddədən qanunla müəyyən edilmiş xüsusilə külli miqdarının aşağı həddi miqdarında nümunə götürür, bu nümunəni və maddənin qalan hissəsini ayrılıqda qablaşdırır. Ekspert tədqiqatı nəticəsində ekspert həmçinin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəy verməlidir. Nümunə və həmin maddələrin qalan hissəsi ekspert rəyi ilə birlikdə ekspertiza təyin etmiş şəxsə təqdim edilir.

**131-1.3.** Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsinə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında baxılır. Müvafiq vəsatət və təqdimat ekspert rəyi cinayət təqibini həyata keçirən orqana daxil olduğu vaxtdan 10 gündən gec olmayaraq məhkəməyə təqdim edilməlidir.

**131-1.4.** Bu Məcəllənin 131-1.3-cü maddəsində nəzərdə tutulmuş vəsatətin təmin edilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada məhv edilir və ya tibbi məqsədlərlə istifadəsi üçün təhvil verilir.

**131-1.5.** Nümunələrin götürülməsi, habelə bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsinin məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məqsədilə müvafiq dövlət qurumuna verilməsi zamanı videoçəkilişdən istifadə edilməklə protokol tərtib olunur. Protokol videoçəkilişi əks etdirən müvafiq məlumat daşıyıcısı ilə birlikdə cinayət təqibi ilə bağlı materiallara əlavə edilir.

**131-1.6.** Bu Məcəllənin 131-1.2-ci maddəsində nəzərdə tutulmuş nümunələr barədə məsələ cinayət təqibi üzrə icraat başa çatdıqdan sonra bu Məcəllənin 132-ci maddəsində nəzərdə tutulmuş qaydada həll edilir. Cinayət prosesini həyata keçirən orqan iş üzrə yekun qərar çıxararkən nümunələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.";

**1.2.** 442.2.1-ci maddəyə "tətbiq edilməsinə" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə" sözləri əlavə edilsin;

**1.3.** 446-cı maddə üzrə:

**1.3.1.** maddənin adına və 446.1-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

**1.3.2.** 446.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 446.1.5-ci maddə əlavə edilsin:

**"446.1.5.** bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrdən nümunə götürüldükdən sonra həmin maddələrin qalan hissəsinin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə əlaqədar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı.";

**1.3.3.** 446.2-ci maddəyə "446.1.3-cü" sözlərindən sonra "və 446.1.5-ci" sözləri əlavə edilsin və həmin maddədən "hər hansı" sözləri çıxarılsın;

**1.3.4.** aşağıdakı məzmunda 446.2.9-1-ci maddə əlavə edilsin:

**"446.2.9-1.** bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olan miqdarı, saxlanılan nümunənin miqdarı, həmin maddələrin növü və digər xüsusi əlamətləri, ekspertin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəyi;";

**1.3.5.** 446.2.10-cu maddəyə "tətbiq edilməsinin" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinin və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin" sözləri əlavə edilsin;

**1.3.6.** 446.3-cü maddəyə "tətbiq edilməsi," sözlərindən sonra "maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

**1.4.** 447-ci maddə üzrə:

**1.4.1.** maddənin adına və 447.1-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

**1.4.2.** aşağıdakı məzmunda 447.4-1-ci maddə əlavə edilsin:

**"447.4-1.** Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri üzrə qapalı məhkəmə iclasında hakim, məhkəmə iclasının katibi, vəsatət vermiş şəxs, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya müvafiq prokuror, təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi, habelə hakimin zəruri hesab etdiyi digər şəxslər iştirak edirlər.";

**1.4.3.** 447.5-ci maddədə "və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələləri ilə bağlı məhkəmə iclasına ifadələr," sözləri ", prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri ilə bağlı məhkəmə iclasına" sözləri ilə əvəz edilsin;

**1.4.4.** 447.6-cı maddədə "447.3-cü maddəsində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi" sözləri "447.3-cü və ya 447.4-1-ci maddələrində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri ilə əvəz edilsin;

**1.4.5.** 447.7-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

**1.5.** 448-ci maddə üzrə:

**1.5.1.** maddənin adına, 448.1-ci və 448.1.1-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

**1.5.2.** 448.1.2-ci və 448.4-cü maddələrə "tətbiq edilməsinə" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə" sözləri əlavə edilsin;

**1.5.3.** aşağıdakı məzmunda 448.4-1-ci və 448.6-1-ci maddələr əlavə edilsin:

**"448.4-1.** Hakim maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələlərinə dair vəsatətin təmin edilməsi barədə qərar qəbul etdikdə, qərarda həmin maddələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.";

**"448.6-1.** Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsi ilə bağlı hakimin qərarının surəti həmin qərar çıxarıldıqdan sonra 3 (üç) gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə, vəsatət təmin edildikdə isə həmçinin maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini icra etməli olan müvafiq dövlət orqanının (qurumunun) rəhbərinə göndərilir.";

**1.6.** 449.3.6-cı və 454-cü maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 aprel 2022-ci il
№518-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

**"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 131-1.4-cü maddəsinə uyğun olaraq, cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının

və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla beş ay müddətində müəyyən etsin;

**1.2.** "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**2.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424) 2-ci hissəsinin beşinci abzasına "156-1.1-ci" sözündən əvvəl "131-1.4-cü maddəsində," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 may 2022-ci il
№1684

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanunu) 208.1-ci maddəsinin dispozisiyasında "Təşkilat rəhbərləri tərəfindən xarici" sözləri "Xarici" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 aprel 2022-ci il
№519-VIQD

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

# QƏRARI

## "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.3-cü maddəsinin "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 2.4, 20.5 və 20.15-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**22 aprel 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.3-cü maddəsinin "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 2.4, 20.5 və 20.15-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikasının Baş Prokuroru K.Əliyevin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri A.Vəliyevin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri X.Məmmədovun və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini A.Kərimovun mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanun) 2.1.3-cü maddəsinin "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanun) 2.4, 20.5 və 20.15-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2.1.3-cü maddəsinə görə, sığortaolunan dedikdə, barəsində sığorta fəaliyyəti həyata keçirilən hakimlər, prokurorluq işçiləri (hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla), müstəntiqlər, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər, habelə fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçiləri nəzərdə tutulur.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 20.5-ci maddəsində qeyd olunur ki, prokurorluq işçilərinin həyatı və sağlamlığı dövlət büdcəsi vəsaiti hesabına onların 5 illik əmək haqqı məbləğində sığorta edilir.

Sorğuda qeyd edilir ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısının təsdiq edilməsi haqqında" 2019-cu il 25 iyun tarixli Fərmanına əsasən, Hərbi Prokurorluq Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanı olmaqla, orada prokurorluq işçiləri ilə yanaşı, prokurorluq işçisi hesab olunmayan hərbi qulluqçular da xidmət edir.

Hərbi prokurorluq orqanlarında xüsusi və hərbi rütbəli olmaqla prokurorluq işçiləri qulluq edir, həmçinin rütbəsi olmayan prokurorluq işçiləri stajorluq və sınaq keçirlər.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun) 2.1.4-cü maddəsinə əsasən, sığortalı, yəni sığortaolunan üçün sığorta haqqı ödəyən anlayışının əhatə dairəsinə Hərbi Prokurorluq da daxil edilmişdir.

Sorğuverənin qənaətinə görə, hərbi prokurorluq orqanları işçilərinin "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunun tətbiqi dairəsindən istisna edilməsi Hərbi Prokurorluğun xüsusi rütbəli və ya stajorluq və sınaq müddətində olan, yəni hərbi qulluqçu olmayan prokurorluq işçilərinin barəsində hüquqi tənzimləmədə boşluqlara səbəb olmaqla, həmin şəxslərin ümumiyyətlə dövlət icbari şəxsi sığorta olunmaması ilə nəticələnə bilər.

Bu baxımdan sorğuverən "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2.1.3-cü maddəsində "hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla" ifadəsinin konkret olaraq hansı şəxsləri, yəni hərbi prokurorluq orqanlarında xidmət edən prokurorluq işçilərini, yaxud prokurorluq işçiləri

hesab olunmayan hərbi qulluqçuları və digər şəxsləri əhatə etməsinin müəyyənləşdirilməsi məqsədilə həmin normanın "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 2.4, 20.5 və 20.15-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 38-ci maddəsinin I hissəsində hər kəsin sosial təminat hüququ müəyyən edilmişdir. Həmin maddənin III hissəsinə əsasən, hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

Sosial təminat hüququnun realizə formalarından biri də qanunvericilikdə nəzərdə tutulmuş müxtəlif kateqoriya şəxslərin xidməti vəzifələrinin icrası ilə bağlı həyat və sağlamlığına dəyən zərərə görə onların dövlət tərəfindən məcburi şəkildə sığorta etdirilməsidir. Dövlət icbari şəxsi sığorta sığortaolunanların həyat və sağlamlığının qanunla müəyyən olunmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemidir.

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilməsi Konstitusiyanın 7-ci maddəsinin III hissəsində öz əksini tapmışdır. Bu prinsip qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin öz səlahiyyətləri çərçivəsində müstəqil fəaliyyət göstərmələrini nəzərdə tutur.

Konstitusiyanın "Məhkəmə hakimiyyəti" adlanan VII fəslində təsbit edilmiş 133-cü maddəsinin II hissəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Həmçinin "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Prokurorluq haqqında" Qanun) 2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş Prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Həmin Qanunun 8-ci maddəsinə görə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu Azərbaycan Respublikasının Prokurorluğu sisteminə daxildir.

Hərbi Prokurorluq ixtisaslaşdırılmış prokurorluq olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında və onların strukturuna daxil olan qurumlarda bu Qanunla və Azərbaycan Respublikasının digər qanunları ilə hərbi prokurorluqlara aid edilmiş səlahiyyətləri həyata keçirir. Hərbi Prokurorluq öz vəzifələrini hərbi idarəetmə orqanlarından və komandanlıqdan asılı olmayaraq icra edir.

Hərbi Prokurorluq tutulmuş və həbs edilmiş hərbi qulluqçuların saxlanıldığı yerlərdə, intizam hissələrində, eləcə də cəzaların hərbi hissələrdə icra edilməsi zamanı qanunlara və hərbi nizamnamələrə əməl olunmasına nəzarət edir, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində keçirilən idarədaxili yoxlamaların materiallarını tələb edir, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində əmlakın talanması, hərbi xidmət əleyhinə, habelə hərbi qulluqçular tərəfindən törədilən və ya hazırlanan digər cinayətlər barədə ərizə, şikayət, müraciət, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin məlumatları və qanunvericiliklə müəyyən edilmiş digər məlumatlar əsasında Azərbaycan Respublikası Hərbi prokurorunun qərarı ilə yoxlamanın aparılmasını, bu məqsədlə mütəxəssislərin ayrılmasını, habelə araşdırılan faktların cinayət işinin başlanmasına kifayət qədər əsas verib-verməməsindən asılı olaraq müvafiq qərarın qəbul edilməsini təmin edir ("Prokurorluq haqqında" Qanunun 12-ci maddəsi).

Qeyd olunan normaların məzmunundan göründüyü kimi, Hərbi Prokurorluq ixtisaslaşdırılmış prokurorluq kimi Azərbaycan Respublikasının Prokurorluğu sisteminə daxil olmaqla, Konstitusiya və "Prokurorluq haqqında" Qanunla müəyyən edilmiş səlahiyyətlərinə və fəaliyyət istiqamətlərinə uyğun olaraq hərbi xidmət sahəsində qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir və s.

Odur ki, prokurorluq orqanlarının hərbi prokurorluq işçiləri (hərbi rütbəli, xüsusi rütbəli və stajor və ya sınaq müddətində olan prokurorluq işçiləri) statusundan və rütbələrindən asılı olmayaraq Azərbaycan Respublikası Prokurorluğu sisteminə daxil olan digər prokurorluq işçiləri ilə eyni hüquq və vəzifələrə malikdirlər və Azərbaycan Respublikasının müvafiq prosessual qanunvericiliyində nəzərdə tutulmuş eyni səlahiyyətləri həyata keçirirlər.

"Prokurorluq haqqında" Qanunun 12-ci maddəsinə müvafiq olaraq, hərbi prokurorluq orqanlarının hərbi qulluqçuları "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hərbi xidmət keçir və onlar "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunlarla müəyyən edilmiş hüquq və imtiyazlara malikdirlər.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun prokurorluq işçilərinin sosial müdafiəsini müəyyən edən 20.15-ci maddəsində hərbi prokurorluq orqanlarının hərbi qulluqçularına əlavə olaraq Azərbaycan Respublikasının qanunları ilə hərbi qulluqçular üçün müəyyən edilmiş pensiya, tibbi və başqa növ maddi və sosial təminatların da şamil edilməsi öz əksini tapmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2.1.3-cü maddəsinin "hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla" ifadəsinin mənasının açıqlanması və Qanunun Hərbi Prokurorluq işçilərinə münasibətdə tətbiqi dairəsinin müəyyənləşdirilməsi məqsədilə hərbi prokurorluq orqanlarında prokurorluq işçiləri ilə yanaşı, prokurorluq işçisi olmayan hərbi qulluqçuların da xidmət etməsi nəzərə alınmalıdır.

Belə ki, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 3.4-cü maddəsinə görə, hərbi prokurorluq orqanlarında qulluq edən prokurorluq işçisi olmayan hərbi qulluqçuların hərbi xidmətlərinin əsasları və şərtləri "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının qanunları, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi" və hərbi qulluqçuların fəaliyyətini müəyyən edən digər normativ hüquqi aktlarla tənzimlənir.

Hərbi Prokurorluqda qulluq keçən prokurorluq işçilərinin və prokurorluq işçisi hesab olunmayan hərbi qulluqçuların dövlət icbari şəxsi sığortasının hansı Qanunla tənzimlənməsinə dair məsələyə gəldikdə isə "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunun və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun hüquqi təyinatı və məqsədlərinə, yönəldiyi subyektlərin dairəsinə diqqət yetirilməlidir.

"Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunun hüquqi təyinatı nəzərə alınaraq qeyd edilməlidir ki, bu Qanun məhkəmə və hüquq mühafizə orqanları işçilərinin sosial müdafiəsini

gücləndirmək məqsədilə onların həyatının və sağlamlığının icbari formada sığortası ilə bağlı münasibətləri tənzimləyir. Qeyd olunan Qanunla qanunverici təhlükəsizliklərinə qarşı qəsdlərə səbəb ola biləcək funksiyaları yerinə yetirən məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsini təmin etmək, habelə sosial müdafiələrini gücləndirmək məqsədilə onların icbari qaydada dövlət tərəfindən sığortalanmalı olmasını təsbit etmişdir. Buna müvafiq olaraq, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 20.5-ci maddəsində prokurorluq işçilərinin həyatı və sağlamlığının dövlət büdcəsinin vəsaiti hesabına onların 5 illik əmək haqqı məbləğində sığorta olunması müəyyən olunmuşdur. Vurğulanmalıdır ki, Qanunun bu norması bütün prokurorluq işçilərinə, o cümlədən hərbi prokurorluq orqanlarında qulluq edən prokurorluq işçilərinə şamil olunduğundan, hərbi prokurorluq orqanlarının prokurorluq işçilərinin icbari şəxsi sığorta olunması prokurorluq orqanlarında qulluq edən digər prokurorluq işçilərindən fərqlənməməlidir.

Bu baxımdan hərbi prokurorluq orqanları işçilərinin hərbi rütbəli olmalarına, yəni hərbi qulluqçu statusu daşımalarına baxmayaraq, həyata keçirdikləri fəaliyyət məhz prokurorluq fəaliyyəti olduğundan, onlar "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun əhatə etdiyi subyektlər dairəsinə aid edilə bilməz. Ona görə də hərbi prokurorluq orqanlarının prokurorluq işçilərinin dövlət icbari şəxsi sığortası məhz "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanuna və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 20.5-ci maddəsinə müvafiq olaraq həyata keçirilməlidir.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanuna gəldikdə isə bu Qanun hərbi qulluqçular barəsində dövlət icbari şəxsi sığortasının həyata keçirilməsi sahəsində münasibətləri tənzimləyir. Həmin Qanunun 2.1.3-cü maddəsində sığortaolunanlar dedikdə, barəsində sığorta fəaliyyəti həyata keçirilən Azərbaycan Respublikası Silahlı Qüvvələrində, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat orqanlarında, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərində, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətdə olan şəxslər və toplanışlarda olan hərbi vəzifəlilər nəzərdə tutulur.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunla da Hərbi Prokurorluq Qanunun məqsədləri baxımından hərbi prokurorluq orqanlarında xidmət edən prokurorluq işçisi olmayan hərbi qulluqçuların dövlət icbari şəxsi sığortasını təmin etmək üçün sığortalı kimi nəzərdə tutulmuşdur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlir ki, prokurorluq orqanlarının hərbi prokurorluq işçilərinin dövlət icbari şəxsi sığortası "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunla tənzimlənməlidir. Həmin Qanunun 2.1.3-cü maddəsində nəzərdə tutulmuş "hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla" ifadəsi hərbi prokurorluq orqanlarında qulluq edən prokurorluq işçisi hesab olunmayan hərbi qulluqçuları ehtiva edir ki, onların dövlət icbari şəxsi sığortası sahəsində yaranan münasibətlər isə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunla tənzimlənir.

Sorğuda qeyd olunan digər məsələ "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 20.5-ci maddəsi ilə prokurorluq işçiləri üçün müəyyən edilmiş onların həyat və sağlamlığının 5 illik əmək haqqı məbləğində sığorta olunması ilə bağlı təminatın prokurorluğun stajorlarına aid olub-olmaması ilə əlaqədardır.

Bununla bağlı qeyd olunmalıdır ki, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 3.1-ci maddəsinə əsasən, Bu Qanun "Prokurorluq haqqında" Qanunun 1-ci maddəsində göstərilən prokurorluq işçilərinə şamil edilir.

"Prokurorluq haqqında" Qanunun 1-ci maddəsinə müvafiq olaraq, prokurorluq işçiləri dedikdə, prokurorlar, prokurorluğun müstəntiqləri, prokurorluğun əməliyyatçıları və prokurorluğun stajorları nəzərdə tutulur. Qanunverici prokurorluğun stajorlarını da prokurorluq işçiləri sırasına aid etdiyindən, onların dövlət icbari şəxsi sığortası digər prokurorluq işçiləri ilə fərq qoyulmadan, eyni qaydada həyata keçirilməlidir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, prokurorluq orqanlarının stajorlarının dövlət icbari şəxsi sığortası digər prokurorluq işçilərinin icbari sığortası ilə eyni qaydada "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanun ilə tənzimlənməlidir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2.1.3-cü maddəsində "hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla" ifadəsi hərbi prokurorluq orqanlarında qulluq edən prokurorluq işçisi olmayan hərbi qulluqçuları nəzərdə tutur;
- hərbi prokurorluq orqanlarının prokurorluq işçilərinin dövlət icbari şəxsi sığortası "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanun ilə tənzimlənir;
- "Prokurorluq haqqında" Qanunun 1-ci və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 3.1-ci maddələrinə müvafiq olaraq, prokurorluğun stajorlarının dövlət icbari şəxsi sığortası "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanunla tənzimlənir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.3-cü maddəsində "hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla" ifadəsi hərbi prokurorluq orqanlarında qulluq edən prokurorluq işçisi olmayan hərbi qulluqçuları nəzərdə tutur.
2. Hərbi prokurorluq orqanlarının prokurorluq işçilərinin dövlət icbari şəxsi sığortası "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.
3. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddələrinə müvafiq olaraq, prokurorluğun stajorlarının dövlət icbari şəxsi sığortası "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.
4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
5. Qərar rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32, 33 və 34-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair**

**6 may 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32, 33 və 34-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim M.Muradovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini E.Əsgərovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü F.Həsənovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru M.Bayramovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) ünvanladığı sorğuda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 32, 33 və 34-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda qeyd olunmuşdur ki, Cinayət Məcəlləsinin 31-ci maddəsində iştirakçılıq iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı kimi göstərilmişdir. Həmin Məcəllənin 32.1-ci maddəsinə əsasən, icraçı, təşkilatçı, təhrikçi və köməkçi cinayətin iştirakçıları hesab olunurlar.

Cinayət Məcəlləsinin 33-cü maddəsinə görə, cinayətin iştirakçılarının məsuliyyəti, onların hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən asılı olaraq müəyyən edilir. Cinayətin birgə icraçıları birgə törətdikləri cinayətə görə, bu Məcəllənin 32-ci maddəsinə istinad edilmədən, həmin Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş müvafiq maddəyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilirlər.

Cinayət Məcəlləsinin 33.3-cü maddəsində isə cinayətin təşkilatçısı, təhrikçisi və köməkçisinin törədilmiş cinayətə görə, cinayətin törədilməsində onların eyni vaxtda birgə icraçı kimi iştirak etdiyi hallar istisna olunmaqla, bu Məcəllənin 32-ci maddəsinə istinad edilməklə həmin Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş müvafiq maddəyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilməsi göstərilmişdir.

Cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi halları Cinayət Məcəlləsinin 34-cü maddəsi ilə tənzimlənir.

Cinayətin təşkilatçısı, təhrikçisi və köməkçisi cinayətin törədilməsində birgə icraçı olmadıqda, yəni cinayətin obyektiv cəhətinə aid hərəkətlərin (tam və ya bir hissəsinin) icrasında iştirak etmədikdə, bir icraçı tərəfindən törədilən cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab olunub-olunmaması və bütün iştirakçıların əməllərinin müvafiq tövsifedici əlamət üzrə tövsif edilib-edilməməsinə dair təcrübədə müxtəlif cinayətlər üzrə fərqli mövqelər mövcuddur.

Bu səbəbdən sorğuverən vahid təcrübənin formalaşdırılması, cinayət qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə Cinayət Məcəlləsinin 32, 33 və 34-cü maddələrinin şərh olunmasının zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələyə aydınlıq gətirilməsi məqsədi ilə cinayətdə iştirakçılığın anlayışı, növləri və formalarına, iştirakçıların məsuliyyətinə dair cinayət qanununun normalarının nəzərdən keçirilməsini vacib hesab edir.

Cinayət Məcəlləsinin 1.2-ci maddəsinə müvafiq olaraq, bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanır.

Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsində, 28-ci maddəsinin I və II hissələrində, 60-cı maddəsinin I hissəsində, 63-cü maddəsində, 67-ci

maddəsində, 71-ci maddəsinin I və II hissələrində, 127-ci maddəsinin VII və IX hissələrində hər kəsin toxunulmaz, pozulmaz və ayrılmaz hüquq və azadlıqlarının olması, hər kəsin azadlıq hüququnun yalnız qanunda nəzərdə tutulmuş qaydada məhdudlaşdırılması, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilməsi, hər bir təqsirləndirilən şəxsin təqsirinin qanunla nəzərdə tutulmuş qaydada sübuta yetirilməli olması və s. nəzərdə tutulmuşdur.

Qeyd olunan prinsiplərin təmin edilməsi və şəxsin törətdiyi cinayətə görə məsuliyyətinin fərdiləşdirilməsi məqsədilə cinayətin tövsifi mühüm hüquqi əhəmiyyətə malikdir.

Belə ki, tövsif Cinayət Məcəlləsində müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi baxımından, cinayət qanununu tətbiq etməyə səlahiyyəti olan vəzifəli şəxslər tərəfindən həyata keçirilən mühüm məntiqi proses olub, onun yekununda konkret sosial hadisəyə, cəmiyyət üçün təhlükəli olan insan davranışına hüquqi qiymət verilir. Bu isə ilk növbədə işin faktiki hallarının hərtərəfli öyrənilməsini, cinayət hüquq normasının seçilməsini və onun məzmununun izah edilməsini tələb edir. Hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair" 2011-ci il 17 mart tarixli Qərarı).

Cinayət Məcəlləsinin 3-cü maddəsinə uyğun olaraq, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

İştirakçılıq törədilmiş cinayət əməlinin tövsifində və cəza təyinində nəzərə alınaraq cinayətkar fəaliyyətin xüsusi forması kimi çıxış edir. İştirakçılığın aksessor (müstəqil olmayan, törəmə) və müstəqil hüquqi təbiətə malik olmasına dair iki nəzəriyyə mövcuddur.

Birinci nəzəriyyəyə görə, icraçının cinayət əməli iştirakçılığın əsası kimi çıxış edir və digər iştirakçıların cinayətkar fəaliyyəti törəmə (aksessor) xarakter daşıyır. Yəni digər iştirakçıların məsuliyyətə cəlb edilməsi icraçının törətdiyi əməldə cinayət tərkibinin əlamətlərinin olmasından asılıdır.

Digər nəzəriyyəyə görə isə iştirakçıların cinayət məsuliyyəti icraçının cinayət əməli ilə şərtləndirilmir və müstəqil xarakter daşıyır.

İştirakçılığın obyektiv cəhəti kəmiyyət, keyfiyyət əlamətləri, bütün iştirakçılar üçün vahid cinayətkar nəticə, habelə əməl ilə vahid cinayətkar nəticə arasındakı səbəbli əlaqə ilə səciyyələnir.

Kəmiyyət əlaməti cinayətdə bir neçə şəxsin iştirak etməsində ifadə olunur. Adətən iştirakçılıq əlamətinin mövcud olması üçün cinayətin törədilməsində ən azı iki şəxsin iştirakı kifayətdir. Lakin bir sıra hallarda iştirakçılıq əlaməti cinayətin iştirakçılarının əhəmiyyətli sayda mövcud olmasını tələb edir. Məsələn, cinayətkar birlik (təşkilat) yaratma, kütləvi iğtişaşlar, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma kimi cinayət tərkibləri (Cinayət Məcəlləsinin 218, 220 və 279-cu maddələri).

Həmçinin qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 19-cu maddəsinə müvafiq olaraq bu Məcəllə ilə müəyyən edilmiş yaş həddinə çatmış və anlaqlı olaraq cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi müəyyən edildiyindən, yaş həddinə çatmadığına və ya anlaqlı olmadığına görə cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxsin iştirakı ilə cinayət əməlinin törədilməsi iştirakçılıq kimi tövsif edilə bilməz.

Keyfiyyət əlaməti isə cinayətin iştirakçılarının hərəkətlərinin müştərək şəkildə həyata keçirilməsini nəzərdə tutur. Bu əlamətə əsasən cinayət əməli bir neçə şəxs tərəfindən əlaqəli şəkildə törədildiyi zaman hər bir iştirakçı cinayətin törədilməsi üçün müvafiq hərəkətləri (hərəkətsizliyi) yerinə yetirərkən digər iştirakçılara müəyyən dərəcədə vasitəçilik etmiş olur.

İcra olunan hərəkətlərdən asılı olaraq onların rolu fərqlənir:

– cinayətin törədilməsində iştirak edən şəxslər cinayətin obyektiv cəhətinin əlamətlərini tamamilə əhatə edən hərəkətləri icra etdikdə onlar cinayətin icraçıları kimi çıxış edirlər;

– cinayətin törədilməsində iştirak edən şəxslər cinayətin obyektiv cəhətini təşkil edən hərəkətləri qismən icra etdikdə, onların hərəkətləri icraçının hərəkətini tamamlamış olur və bu cür iştirakçılar cinayətin birgə icraçısı sayılmaqla cinayət tərkibinin obyektiv cəhətini səciyyələndirən hərəkəti əlaqəli şəkildə icra edirlər. Məsələn, şəxs rolların bölgüsünə görə, cinayətin törədilməsində icraçıya bilavasitə yardım (dəstək) göstərməyə yönəlmiş hərəkətlər edərsə (şəxsin yaşayış sahəsinə girməsə də qapının, cəftənin, qıfılın sındırılmasında iştirak etməsi, əvvəlcədən əldə edilmiş razılığa əsasən talanmış əmlakın aparılması, törədilən cinayət aşkar ediləcəyi hallarda digər iştirakçıların sığortalalanması) o, Cinayət Məcəlləsinin 32.2-ci maddəsində göstərildiyi kimi, birgə icraçı hesab edilir. Həmin maddəyə görə, cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə birlikdə onun törədilməsində bilavasitə iştirak etmiş şəxs (birgə icraçılıq) icraçı sayılır.

Nəzərə alınmalıdır ki, iştirakçılıqla törədilən cinayətlərin əksəriyyəti aktiv hərəkətlərlə həyata keçirildiyi kimi, hərəkətsizliklə də baş verə bilər (məsələn, mühafizə xidmətinin əməkdaşının cinayətkarlarla əvvəlcədən sövdələşərək mühafizə olunan obyekti bilərəkdən tərk edib maddi dəyərlərin talan edilməsinə şərait yaratdığı hal);

– bir iştirakçının hərəkətinin icraçının hərəkəti üçün şərait yaratdığı hal təhrikçi, təşkilatçı və köməkçinin (mürəkkəb iştirakçılıq) hərəkətlərini ehtiva edir və heç bir halda birgə icraçılıq kimi tövsif edilə bilməz. Məsələn, özgə əmlakının talanmasında bilavasitə iştirak etməyən, lakin cinayətin izinin itirilməsi, cinayətin bilavasitə icraçısına kömək göstərməklə əlaqədar olmayan maneələrin aradan qaldırılması, oğurluq əmlakın özgəninkiləşdirilməsi və s. ilə əlaqədar məsləhətləri və göstərişləri ilə cinayətin törədilməsinə kömək etmiş şəxslərin əməlləri Cinayət Məcəlləsinin 32.5-ci maddəsinə müvafiq olaraq köməkçi formada iştirakçı kimi qiymətləndirilməlidir.

Həmçinin qeyd olunmalıdır ki, qanunverici iştirakçılığın aksessor nəzəriyyəsinə əsaslanmaqla təşkilatçının, təhrikçinin və köməkçinin məsuliyyətinin törəmə xarakter daşıdığını, icraçının törətdiyi cinayətdən asılı olduğunu müəyyən etmişdir. Belə ki, Cinayət Məcəlləsinin 33.5-ci maddəsinə müvafiq olaraq, icraçı onun iradəsindən asılı olmayan

səbəblərdən cinayəti başa çatdıra bilmədikdə, digər iştirakçılar cinayətə hazırlıqda və ya cinayət etməyə cəhddə iştirakçılığa görə cinayət məsuliyyətinə cəlb edilirlər.

Cinayət Məcəlləsinin ümumi niyyətdən kənara çıxan cinayətin törədilməsini (icraçının ekstsessi) tənzimləyən 35-ci maddəsində də iştirakçıların əməllərinin müstəqil deyil, icraçının törətmiş olduğu cinayətdən asılı olduğu göstərilmişdir. Bu maddənin mənasına görə, icraçı cinayətin digər iştirakçılarının qəsdi ilə əhatə olunmayan, ümumi niyyətdən kənara çıxan hərəkətlər etdikdə, digər iştirakçılar onun həmin (ümumi niyyətdən kənara çıxan) hərəkətinə görə cinayət məsuliyyətinə cəlb edilə bilməzlər.

Vahid cinayətkar nəticə (maddi tərkibli cinayətlər üçün) iştirakçılığın obyektiv tərəfinin üçüncü əlamətidir. O, iştirakçılığın növlərindən asılı olmayaraq bütün iştirakçıların müştərək səyləri nəticəsində əldə olunur, yəni birgə hərəkət (hərəkətsizlik) ümumi və hər kəs üçün ictimai təhlükəli əhəmiyyət kəsb edən vahid cinayətkar nəticəyə gətirib çıxarır.

Səbəbli əlaqə isə bütün iştirakçıların müştərək hərəkətləri ilə vahid cinayətkar nəticə arasında olan obyektiv əlaqə kimi çıxış edir. Burada qeyd olunmalıdır ki, iştirakçılıqla törədilən cinayət əməlində səbəbli əlaqə icraçının hərəkətləri ilə ictimai təhlükəli nəticə arasında olan obyektiv əlaqəni nəzərdə tutmur. Sözügedən əlaqənin xüsusiyyəti cinayət tərkibinin əlamətləri çərçivəsindən kənar hərəkət edən (cinayətin obyektiv tərəfini icra etməyən), Cinayət Məcəlləsinin 32.3-32.5-ci maddələrində göstərilən təhrikçi, təşkilatçı və köməkçi ilə (mürəkkəb iştirakçılıq) icraçının hərəkətləri arasındakı obyektiv əlaqədən ibarətdir.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 31-ci maddəsində iştirakçılıq anlayışı iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı kimi müəyyən edilmişdir. Həmin maddədə "qəsdən" ifadəsinin iki dəfə istifadə olunması ikili təqsir forması ilə törədilən cinayətlərdə ehtiyatsızlıqdan baş vermiş nəticə istisna olmaqla, iştirakçılıqla törədilmiş əməllərin birbaşa qəsd ilə icra edilməsi ilə izah olunur.

İştirakçılıqda birbaşa qəsdi fərqləndirən başlıca xüsusiyyət ondan ibarətdir ki, şəxs həm öz hərəkətlərinin (hərəkətsizliyinin), həm vahid cinayətin törədilməsində iştirak edən digər şəxslərin (heç olmazsa bu şəxslərdən birinin) hərəkətlərinin (hərəkətsizliyinin) ictimai təhlükəliliyini və öz hərəkətlərinin planlaşdırılan və ya artıq həyata keçirilən cinayətlə əlaqəsini dərk edir, digər iştirakçılarla birgə bunda iştirak etməyi arzulayır.

İştirakçılığın subyektiv cəhəti həmçinin cinayətin müştərək törədilməsi barədə qarşılıqlı məlumatlandırılma ilə səciyyələnir.

Cinayətdə iştirakçılığın formalarına gəlincə, onlar Cinayət Məcəlləsinin 34.2, 34.3 və 34.4-cü maddələrinə müvafiq olaraq, cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi kimi müəyyən edilmişdir. İştirakçılığın formaları Məcəllənin 61.1.3-cü maddəsində həm cəzanı ağırlaşdıran hal kimi, həm də Məcəllənin Xüsusi hissəsində cinayət əməllərinin tövsifedici əlaməti kimi nəzərdə tutulmuşdur.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, ictimai təhlükəlilik baxımından bir qrup şəxs cinayətkar qrupların digər növlərinə nisbətən az təhlükəlidir. Əvvəlcədən əlbir olan bir qrup şəxs və mütəşəkkil dəstə bir və ya bir neçə cinayət törədilməsi məqsədi ilə iki və yaxud daha çox şəxsin mürəkkəb formada birləşməsidir. Onları adi bir qrup şəxsdən əvvəlcədən əlbir olma əlamətinin mövcudluğu fərqləndirir. Bu cinayətkar qruplarda cinayətin birlikdə törədilməsinə dair razılıq cinayətin törədilməsi anına qədər əldə olunur. Burada cinayət törədilməsinə dair qərarın qəbul edilməsi ilə onun həyata keçirilməsi arasında müəyyən müddət mövcuddur (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan "mütəşəkkil dəstə" anlayışının şərh edilməsi haqqında" 1999-cu il 20 aprel tarixli Qərarı).

Cinayət Məcəlləsinin 34.1 və 34.2-ci maddələrində qabaqcadan razılaşmadan iki və ya daha çox icraçının birgə iştirakı ilə törədilən cinayət bir qrup şəxs tərəfindən törədilmiş, qabaqcadan razılaşmaqla iki və ya daha çox şəxsin birgə iştirakı ilə törədilən cinayət isə qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət kimi ifadə olunmuşdur.

Sadalanan maddələrin məzmunu cinayətin qabaqcadan razılaşmadan iki və ya daha çox icraçı tərəfindən icra edilməsinin yalnız bir qrup şəxs tərəfindən törədilmiş cinayətin əlaməti kimi təsbit edilməsini söyləməyə imkan verir. Qabaqcadan əlbir olan bir qrup şəxs əlamətinin mövcudluğu üçün isə cinayətin törədilməsində iki və daha çox icraçının olması ilə bağlı qanunvericinin göstərişi yoxdur.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, sorğuda qaldırılan məsələnin həlli üçün əhəmiyyətli məqam cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş kimi qiymətləndirilməsi üçün əməlin törədilməsində qabaqcadan cinayət əlaqəsinə girmiş iki və ya daha çox icraçının olmasının zəruriliyidir.

Qeyd olunmalıdır ki, cinayətin digər iştirakçıları - təşkilatçı, təhrikçi və ya köməkçi cinayətin törədilməsində birgə icraçı olmadıqda, yəni cinayətin obyektiv cəhətini təşkil edən hərəkətlərin icrasında (tam və ya qismən) iştirak etmədikdə, bir icraçı tərəfindən törədilən cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab edilib-edilməməsi və iştirakçıların əməllərinin Cinayət Məcəlləsinin Xüsusi hissəsində nəzərdə tutulmuş müvafiq maddəyə uyğun olaraq qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi kimi tövsif edilməsi məsələsinə dair hüquq nəzəriyyəsində vahid yanaşma yoxdur.

Mövcud yanaşmalardan birinə görə, iştirakçılığın "qabaqcadan əlbir olan bir qrup" formasında mümkünlüyü yalnız birgə icraçıların iştirakı ilə əlaqələndirilir və iştirakçılığın bu formasının zəruri əlaməti kimi onların hərəkətlərinin "məkan və zaman ümumiliyi" əlaməti zəruri hesab edilir. Yəni, cinayət əməlinin tövsifedici əlaməti kimi "qabaqcadan əlbir olan bir qrup" dedikdə, cinayətin iki və daha çox şəxs tərəfindən birgə (eyni vaxtda və yerdə) icra edilməsi nəzərdə tutulur.

Digər mövqeyə görə, cinayət hüquq normasında tövsifedici əlamət kimi göstərilmiş qabaqcadan əlbir olan bir qrup şəxs anlayışı hər hansı formada iştirakçılığı deyil, məhz qabaqcadan əlbir olan dəstənin cinayətin obyektiv cəhətinin icrasında birgə iştirakını nəzərdə tutur. Məsələn, əməl o halda Cinayət Məcəlləsinin 177.2.1-ci maddəsi ilə tövsif edilə bilər ki, özgənin əmlakını gizli olaraq talamada dəstə üzvlərindən ən azı iki nəfər iştirak etmiş olsun. Cinayətin obyektiv cəhətinin bir nəfər tərəfindən icra edildiyi, digər iştirakçıların isə başqa funksiyaları yerinə yetirdiyi halda, cinayət əməli qabaqcadan əlbir olan bir qrup şəxs əlaməti

üzrə deyil, Məcəllənin 177.1-ci maddəsinə müvafiq olaraq tövsif edilməlidir.

Daha bir yanaşmaya əsasən, qabaqcadan əlbir olan bir qrup şəxs anlayışı həm birgə icraçılığı, həm də rolların bölgüsünə əsaslanan iştirakçılığı ehtiva edir. Yəni, iştirakçılığın qabaqcadan əlbir olan bir qrup şəxs forması birgə icraçıların hərəkətləri ilə yanaşı, birgə icraçı sayılmayan digər iştirakçıların hərəkətləri ilə də baş verir.

Cinayət Məcəlləsinin 33.3-cü maddəsində cinayətin təşkilatçısı, təhrikçisi və köməkçisinin törədilmiş cinayətə görə, cinayətin törədilməsində onların eyni vaxtda birgə icraçı kimi iştirak etdiyi hallar istisna olunmaqla, bu Məcəllənin 32-ci maddəsinə istinad edilməklə həmin Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş müvafiq maddəyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilməsi təsbit edilmişdir.

Odur ki, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin göstərilən maddəsinin təşkilatçının, təhrikçinin, köməkçinin əməllərinin Məcəllənin 32-ci maddəsinə istinad edilməklə tövsif edilməsinə dair tələbi adıçəkilən cinayət iştirakçılarının birləşməsinin qabaqcadan əlbir olan bir qrup şəxs əlamətini təşkil etməməsindən və onların əməllərinin hüquqi tövsifinin icraçının törətdiyi cinayət ilə şərtləndirilməsindən irəli gəlir.

Yəni təşkilatçının, təhrikçinin, köməkçinin əməlləri cinayətin obyektiv cəhətinə daxil olmayan hərəkət və yaxud hərəkətsizlik olduğundan, faktiki olaraq cinayəti onların hərəkətləri (hərəkətsizliyi) deyil, məhz icraçının hərəkətləri formalaşdırır, törədilmiş əməlin Cinayət Məcəlləsinin Xüsusi hissəsinin hansı maddəsində nəzərdə tutulmuş cinayət olması məsələsi icraçının hərəkətlərinin məzmunundan asılı olaraq müəyyən edilir. Təşkilatçı da məhz həmin cinayəti təşkil etmiş, təhrikçi həmin cinayətə icraçını təhrik etmiş, köməkçi isə həmin cinayətdə icraçıya kömək etmiş şəxs hesab olunurlar.

Bu səbəbdən Məcəllənin 33.1-ci maddəsində iştirakçıların məsuliyyətinin onların hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən asılı olaraq müəyyən edilməsi öz əksini tapmışdır.

Həmçinin Cinayət Məcəlləsinin 33.3-cü maddəsinin mənasından görünür ki, cinayətin iştirakçıları əməlin törədilməsində birgə icraçı kimi iştirak etdikləri halda, iştirakçılığın növlərini müəyyən edən Məcəllənin 32-ci maddəsinə istinad edilmir.

Belə ki, cinayət qanununun tələbləri baxımından icraçıların əməllərinin həm Cinayət Məcəlləsinin 32-ci maddəsinə, həm də Məcəllənin Xüsusi hissəsinə əsasən "qabaqcadan əlbir olan bir qrup şəxs" əlaməti üzrə tövsif edilməsi istisna edilir. İştirakçılar qabaqcadan razılaşmaqla cinayətin obyektiv cəhətinin törədilməsində birgə icraçı kimi iştirak etdikləri təqdirdə, onların əməlləri qabaqcadan əlbir olan bir qrup şəxs əlamətini yaratdığından, Məcəllənin 32-ci maddəsinə istinad edilməsinə də ehtiyac yaranmır.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, təşkilatçının, təhrikçinin və ya köməkçinin iştirakı ilə yalnız bir icraçı tərəfindən törədilən cinayət qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət sayıla bilməz. Adıçəkilən iştirakçıların cinayət əməlinin obyektiv cəhətini təşkil edən hərəkətlərin icrasında bilavasitə iştirak etmədiyi və ya onların əməllərində cinayətin obyektiv cəhətinin tərkib əlamətlərinin mövcud olmadığı halda, əməl qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət kimi qiymətləndirilməməlidir.

Beləliklə, Cinayət Məcəlləsinin 34.2-ci maddəsi onu nəzərdə tutur ki, cinayətin "qabaqcadan əlbir olan bir qrup şəxs" tərəfindən törədilməsi üçün iki və daha çox şəxsin qabaqcadan razılaşmaqla cinayətin törədilməsində birgə icraçı kimi iştirak etməsi müəyyən edilməlidir. Cinayətin yalnız qabaqcadan cinayət əlaqəsinə girmiş iki və daha çox icraçı tərəfindən törədildiyi, təşkilatçı, təhrikçi, köməkçinin isə icraçıların törətdikləri cinayətdə iştirak etdiyi halda, onların əməlləri Məcəllənin 32.3, 32.4 və 32.5-ci maddələrinə istinad edilməklə, həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə cinayətin təşkilatçısının, təhrikçisinin və ya köməkçisinin əməli kimi tövsif edilməlidir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Cinayət Məcəlləsinin 33.3 və 34.2-ci maddələrinin mənasına görə, cinayətin iştirakçıları (təşkilatçı, təhrikçi və ya köməkçi) cinayət əməlinin obyektiv cəhətini təşkil edən hərəkətlərin icrasında bilavasitə iştirak etmədiyi və ya onların əməlində cinayətin obyektiv cəhətinin tərkib əlamətlərinin mövcud olmadığı halda, əməl qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət kimi qiymətləndirilə bilməz;

– Cinayət Məcəlləsinin 33.3 və 34.2-ci maddələrinin tələbləri baxımından cinayətin iştirakçısı icraçı ilə birlikdə cinayətin obyektiv cəhətinə daxil olan hərəkətlərdə iştirak etmədikdə, yəni cinayət qabaqcadan əlbir olan iki və daha çox şəxs tərəfindən törədilmədikdə, onun əməlləri həmin Məcəllənin 32-ci maddəsinə istinad edilməklə Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsinə uyğun tövsif edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 33.3 və 34.2-ci maddələrinin mənasına görə, cinayətin iştirakçıları (təşkilatçı, təhrikçi və ya köməkçi) cinayət əməlinin obyektiv cəhətini təşkil edən hərəkətlərin icrasında bilavasitə iştirak etmədiyi və ya onların əməlində cinayətin obyektiv cəhətinin tərkib əlamətlərinin mövcud olmadığı halda, əməl qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət kimi qiymətləndirilə bilməz.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 33.3 və 34.2-ci maddələrinin tələbləri baxımından cinayətin iştirakçısı icraçı ilə birlikdə cinayətin obyektiv cəhətinə daxil olan hərəkətlərdə iştirak etmədikdə, yəni cinayət qabaqcadan əlbir olan iki və daha çox şəxs tərəfindən törədilmədikdə, onun əməlləri həmin Məcəllənin 32-ci maddəsinə istinad edilməklə Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsinə uyğun tövsif edilməlidir.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**QƏRARI**

**"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-1-ci maddəsinin həmin Qanunun 33-cü, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair**

**19 may 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-1-ci maddəsinin həmin Qanunun 33-cü, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanova və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyid, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibov, Bakı Apellyasiya Məhkəməsinin hakimi H.Məmmədov, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Baş idarə rəisi A.Xudiyev, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mülahizələri, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti S.Əliyevin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) ünvanladığı sorğuda "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Yol hərəkəti haqqında" Qanun) 35 və 35-1-ci maddələrinin həmin Qanunun 33-cü, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 263-1-ci və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 332-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Qanunun 35-1-ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini ölkə ərazisinə daxil olduğu gündən bir ay ərzində idarə etmək hüququna malikdir. Azərbaycan Respublikasının vətəndaşı ölkə ərazisində nəqliyyat vasitələrini həmin müddətdən artıq idarə etmək üçün sürücülük vəsiqəsini bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

Həmin maddənin II hissəsinə görə, Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququna malikdir. Əcnəbi və vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə aldıqda, ölkə ərazisində nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsini həmin icazəni aldığı gündən bir ay müddətində bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması, sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi, sürücülük vəsiqələrinin verilməsi, dəyişdirilməsi və qaytarılması qaydaları haqqında" Təlimatın 6.12-ci bəndinə əsasən Azərbaycan Respublikası ərazisində daimi və ya müvəqqəti yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə sürücülük vəsiqəsi onların Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşama icazəsi müddətinə verilir.

Bununla belə, Azərbaycan Respublikasında qüvvədə olan qanunvericilikdə Azərbaycan Respublikasının vətəndaşı, o cümlədən Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs (apatrid) tərəfindən xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini

idarə etmək müddəti qeyd edilsə də, həmin müddət bitdikdən sonra göstərilən şəxslər tərəfindən xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsinin dəyişdirilmədiyi halda, həmin vəsiqələrin etibarlı olub-olmaması, habelə həmin şəxslərin nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxs hesab olunub-olunmaması öz əksini tapmamışdır.

Sorğuya əsasən, istintaq və məhkəmə təcrübəsində belə şəxslər tərəfindən yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar cinayətlər törədildiyi zaman həmin şəxslər nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs kimi qiymətləndirilir. Belə olan halda təqsirləndirilən şəxsin əməli Cinayət Məcəlləsinin 263-cü maddəsinə nisbətən daha ağır cinayət hesab edilən və bu Məcəllənin 263-1-ci maddəsi ilə nəzərdə tutulan nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilmiş cinayət kimi qiymətləndirilir.

Beləliklə, hüquq tətbiqetmə təcrübəsindəki ziddiyyətlərin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə sorğuverən xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında nəqliyyat vasitəsini idarə edən Azərbaycan Respublikası vətəndaşlarının, habelə qanunla müəyyən edilmiş müddətdə sürücülük vəsiqəsini dəyişdirmədiyi halda əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin müvafiq olaraq Cinayət Məcəlləsinin 263-1-ci və ya İnzibati Xətalar Məcəlləsinin 332-ci maddələrində nəzərdə tutulan "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" müddəasının təsiri altına düşüb-düşməməsini müəyyən etmək üçün "Yol hərəkəti haqqında" Qanunun 35 və 35-1-ci maddələrinin həmin Qanunun 33-cü, Cinayət Məcəlləsinin 263-1-ci və İnzibati Xətalar Məcəlləsinin 332-ci maddələri ilə əlaqəli şəkildə şərh olunmasının zəruri olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 12-ci maddəsinə müvafiq olaraq, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir (26-cı maddənin II hissəsi).

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər (69-cu maddə).

Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır (71-ci maddənin I və II hissələri).

Konstitusiyanın 72-ci maddəsinə uyğun olaraq, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək məsuliyyətdən azad etmir.

Qeyd edilməlidir ki, Konstitusiya ilə təsbit edilmiş hər kəsin təhlükəsiz və sağlam ətraf mühitdə yaşamaq hüquqlarının təmin edilməsi, mülkiyyət hüququnun qorunması məqsədi ilə qanunverici yüksək təhlükə mənbəyi olaraq nəqliyyat vasitələrinin istismarının, yol hərəkətinin xüsusi qaydalarını təsbit etmişdir.

Yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təşkil etmək məqsədi ilə kompleks tədbirlər həyata keçirilməsi, yol hərəkəti ilə bağlı insanların həyatının və sağlamlığının qorunması, ətraf mühitin, xüsusi, bələdiyyə və dövlət əmlakının mühafizəsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin aşağı salınması üçün tədbirlər görülməsinin hüquqi əsasları və bu sahədə dövlətin, habelə yol hərəkəti iştirakçılarının hüquqları və vəzifələri "Yol hərəkəti haqqında" Qanun ilə müəyyən edilir.

Həmin Qanunun 33-cü maddəsinə görə, bu maddənin ikinci hissəsində nəzərdə tutulan yaş həddinə çatmış, sağlamlıq cəhətdən sürücülüyə yararlı, yol hərəkəti qaydalarını bilən, sürmə vərdişi və sürücülük vəsiqəsi olan hər bir fiziki şəxs Azərbaycan Respublikasının ərazisində nəqliyyat vasitələrini idarəetmə hüququna malikdir. Azərbaycan Respublikasının ərazisindəki yollarda nəqliyyat vasitələrini idarəetmə hüququ sürücülük vəsiqəsi əsasında həyata keçirilir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" müddəasının şərh edilməsinə dair" 2014-cü il 24 sentyabr tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, "Yol hərəkəti haqqında" Qanunun qeyd olunan normasında (33-cü maddəsində) nəqliyyat vasitələrini idarəetmə hüququnun əldə edilməsinin şərtləri və qaydaları dəqiq müəyyən olunmuşdur və bu Qanuna uyğun olaraq sürücülük vəsiqəsini əldə etmiş şəxs nəqliyyat vasitələrini idarə etmək hüququ olan şəxs hesab edilir.

İnzibati Xətalar Məcəlləsinin 332-ci maddəsində nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsinin idarə edilməsinə görə inzibati məsuliyyət müəyyən edilmişdir. Eyni zamanda nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən Cinayət Məcəlləsinin 263-cü maddəsi ilə nəzərdə tutulmuş əməllərin (yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması) törədilməsi həmin Məcəllənin 263-1-ci maddəsi üzrə (daha ağır) cinayət məsuliyyətinin yaranmasına səbəb olur.

Yuxarıda qeyd olunan Qərarında Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlmişdir ki, Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" müddəası hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsi olmayan şəxsi, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilmiş şəxsi, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxsi, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan şəxsi ehtiva edir.

"Yol hərəkəti haqqında" Qanunun 33-cü maddəsinin V hissəsində fiziki şəxsin nəqliyyat vasitələrini idarə etmək

hüququnun məhdudlaşdırılmasından bəhs olunur. Həmin normaya əsasən Azərbaycan Respublikasının ərazisindəki yollarda hər hansı fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququ yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

1) şəxsin sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarıbsa – sürücülük vəsiqəsi dəyişdiriləndək;

2) şəxs tərəfindən yol hərəkətinin qaydaları bu Qanunla müəyyən edilmiş hallarda kobud surətdə pozulmuşdursa – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada beş ildən artıq olmayan müddətin qurtarmasınadək;

3) şəxsdə bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş xəstəliklər və ya fiziki qüsurlar müəyyən edilərsə – xəstəlik müalicə olunanadək və ya fiziki qüsur aradan qaldırılanadək.

Beləliklə, qanunverici şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnun məhdudlaşdırılmasının üç şərtini müəyyən etmişdir: sürücülük vəsiqəsinin etibarlıq müddətinin bitməsi; yol hərəkəti qaydalarının bu Qanunla müəyyən edilmiş hallarda kobud surətdə pozulması; şəxsdə müvafiq xəstəliklərin və ya fiziki qüsurların müəyyən edilməsi.

Sürücülük vəsiqəsinin etibarlıq müddəti "Yol hərəkəti haqqında" Qanunun 34-cü maddəsində göstərilmişdir. Belə ki, maddənin V hissəsinə görə sürücülük vəsiqəsinin etibarlıq müddəti aşağıdakı kimidir: 1) 60 yaşına çatmamış şəxslər üçün — 10 il; 2) 60 və daha çox yaşı olan şəxslər üçün — onların 70 yaşı tamam olanadək qalan müddət; 3) 70 və daha çox yaşı olan şəxslər üçün — 2 il; 4) siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəlikləri olan şəxslər üçün — təqdim etdikləri tibbi arayışda göstərilən, lakin 2 ildən artıq olmayan müddət.

Maddənin məzmununun təhlili belə nəticəyə gəlməyə əsas verir ki, onun müddəaları, o cümlədən vəsiqənin etibarlıq müddətinə dair tələblər Azərbaycan Respublikası tərəfindən verilən sürücülük vəsiqələrinə şamil edilir. Belə ki, bu maddənin II hissəsində Azərbaycan Respublikasında verilən sürücülük vəsiqəsinin növlərinin müəyyən olunması, III hissəsində sürücülük vəsiqəsində ellips işarəsi daxilində Azərbaycan Respublikasının beynəlxalq yol hərəkətində fərqlənmə nişanı - "AZ" və rəqəmlərlə nömrələnmiş müvafiq məlumatların göstərilməsinə dair tələblər, VI hissəsində isə sürücülük vəsiqəsindəki məlumatların Azərbaycan Respublikasının dövlət dilində və ingilis dilində qeyd olunması göstərilmişdir.

Xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqələri əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrinin idarə olunmasının şərtləri "Yol hərəkəti haqqında" Qanunun 35-1-ci maddəsi ilə müəyyən edilmişdir. Həmin maddədə bu cür vəsiqələrin Respublika ərazisində etibarlıq müddətinə dair müddəalar birbaşa müəyyən edilməmişdir. Bununla belə, qanunverici həmin normada Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan xarici vətəndaşların və apatridlərin üzərinə xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti bitməmiş sürücülük vəsiqəsini dəyişdirmək vəzifəsini qoymuşdur.

Belə ki, "Yol hərəkəti haqqında" Qanunun 35-1.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşı yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini ölkə ərazisinə daxil olduğu gündən bir ay ərzində idarə etmək hüququna malikdir. Azərbaycan Respublikasının vətəndaşı ölkə ərazisində nəqliyyat vasitələrini həmin müddətdən artıq idarə etmək üçün sürücülük vəsiqəsini bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər də yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququna malikdir ("Yol hərəkəti haqqında" Qanunun 35-1.2-ci maddəsinin birinci cümləsi).

Burada qeyd edilməlidir ki, Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı normalar Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi (bundan sonra – Miqrasiya Məcəlləsi) ilə təsbit edilmişdir. Həmin Məcəllənin 3.0.6-cı maddəsinə əsasən, Azərbaycan Respublikasında müvəqqəti olan - Azərbaycan Respublikasında yaşamaq üçün icazəsi olmayan, turizm, şəxsi iş, xidməti ezamiyyət və sair bu kimi müvəqqəti xarakter daşıyan hallarla əlaqədar Azərbaycan Respublikasına qanuni əsaslarla gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərdir.

Beləliklə, "Yol hərəkəti haqqında" Qanunun 35-1.2-ci maddəsinin mənasına görə, xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququ yalnız Respublikaya qanuni əsaslarla gəlmiş, burada yaşamaq üçün icazəsi olmayan, turizm, şəxsi iş, xidməti ezamiyyət və sair bu kimi müvəqqəti xarakter daşıyan hallarla əlaqədar gələn şəxslərə məxsusdur.

Həmin maddənin ikinci cümləsinə əsasən, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə aldıqda, ölkə ərazisində nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsini həmin icazəni aldığı gündən bir ay müddətində bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

Belə tənzimetmə Azərbaycan Respublikasının 29 aprel 1997-ci il tarixli Qanunla qoşulduğu "Yol hərəkəti haqqında" Vyana Konvensiyasının (bundan sonra – Konvensiya) 41-ci maddəsinin 2 və 6-cı hissələrinin müddəalarına uyğundur.

Konvensiyanın 41-ci maddəsinin 2-ci hissəsinə müvafiq olaraq,

a) Razılığa gələn Tərəflər bu Konvensiyanın 6 nömrəli Əlavəsinin müddəalarına uyğun olan istənilən milli vəsiqəni və bu Konvensiyanın 7 nömrəli Əlavəsinin müddəalarına uyğun olan və müvafiq milli vəsiqə ilə birgə təqdim edilən hər hansı beynəlxalq vəsiqəni, vəsiqədə qeyd olunan kateqoriyalara uyğun olaraq nəqliyyat vasitəsini öz ərazilərində idarə etmək üçün bir şərtlə tanıyırlar ki, vəsiqə qüvvədədir və həmin vəsiqə digər Razılığa gələn Tərəf, onun ərazi bölməsi və yaxud buna səlahiyyəti olan qurumu tərəfindən verilmiş olsun;

b) bir Razılığa gələn Tərəfin səlahiyyətli orqanı tərəfindən verilən sürücülük vəsiqəsi digər tərəfin ərazisində, həmin ərazi vəsiqə sahibinin yaşayış yeri olan ana qədər tanınır.

Həmin maddənin 6-cı hissəsinə əsasən, bu maddənin müddəaları Razılığa gələn Tərəflər üçün aşağıdakı öhdəlikləri yaratmır:

– milli vəsiqələrin verildiyi anda Razılığa gələn digər Tərəfin ərazisində adi yaşayış yeri olan və ya bu vəsiqə

verildikdən sonra öz adi yaşayış yerini onun ərazisinə keçirən şəxslərə verilmiş milli vəsiqələrin etibarlığını tanımaq;

– milli vəsiqələrin verildiyi anda vəsiqələrin verildiyi ərazidə adi yaşayış yeri olmayan və ya vəsiqələri verildikdən sonra öz yaşayış yerini başqa əraziyə keçirən sürücülərə verilmiş milli vəsiqələrin etibarlığını tanımaq.

Beləliklə, Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan xarici vətəndaşların və apatridlərin xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququ müəyyən vaxt çərçivəsi ilə məhdudlaşdırılmış, bununla da faktiki olaraq, belə vəsiqələrin Respublika ərazisində etibarlıq müddəti müəyyən edilmişdir.

Qeyd edildiyi kimi, "Yol hərəkəti haqqında" Qanunun 33-cü maddəsinin V hissəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının ərazisindəki yollarda hər hansı fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququ onun sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarıbsa – vəsiqə dəyişdirilənədək müvəqqəti məhdudlaşdırılmış şəxs kimi qiymətləndirilir və bu əsasla Cinayət Məcəlləsinin 263-1-ci maddəsində göstərilmiş "nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs" kimi tanınır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib hesab edir ki, xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilən sürücülük vəsiqələrinin müvafiq müddət ərzində dəyişdirilməsinə dair tələb ictimai maraqların qorunmasına yönəlməklə vəsiqə sahibinin üzərinə hər hansı ağır inzibati yük qoymur.

Sürücülük vəsiqəsinin dəyişdirilməsi onun sahibinin ərizəsi əsasında əvvəllər malik olduğu bütün kateqoriyalar (altkateqoriyalar) saxlanılmaqla, "Yol hərəkəti haqqında" Qanunun 35-ci maddəsinin VIII hissəsində nəzərdə tutulan sənədlər təqdim edildikdə və şəxs barəsində qanuni qüvvəyə minmiş və icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən inzibati cərimə ödənildikdə imtahansız Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən 30 dəqiqə ərzində həyata keçirilir ("Yol hərəkəti haqqında" Qanunun 35-ci maddəsinin VII hissəsi).

Burada məqsəd, sürücülük vəsiqəsinin ümumi reyestrə salınması, vəsiqədəki məlumatların mərkəzləşdirilmiş uçotunun aparılması, balla qiymətləndirilən inzibati xətalara görə bal sisteminin tətbiq edilməsidir. Əks yanaşma İnzibati Xətalar Məcəlləsinin 327.7-ci maddəsində göstərilən balla qiymətləndirilən xətaların törədilməsinə görə sürücülərin bir il ərzində 20 və daha çox bal topladığı təqdirdə, inzibati cərimə tətbiq edilmədən nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılmasına dair həmin Məcəllənin 27.4-cü maddəsinin tətbiqini qeyri-mümkün etmiş olar.

Beləliklə, yüksək təhlükə mənbəyi olaraq nəqliyyat vasitələrindən istifadə, yol hərəkəti sahəsində gücləndirilmiş nəzarət hərəkətin təhlükəsizliyinin təmin edilməsinə, bunun nəticəsi kimi insanların həyat və sağlamlığının, mülkiyyətinin qorunmasına yönəldiyindən, bu sahədə fərdin üzərinə qoyulan məhdudiyyətlər ictimai maraqlara tam mütənasib hesab edilməlidir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılmasına dair tədbirlər onların öz arzusu ilə həyata keçirilir (Miqrasiya Məcəlləsinin 77.1-ci maddəsi). Lakin Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilən sürücülük vəsiqəsinin qanunla müəyyən edilmiş müddət ərzində dəyişdirilməməsinin vəsiqə sahiblərinin Cinayət Məcəlləsinin 263-cü maddəsi ilə nəzərdə tutulmuş əməli törətdikləri təqdirdə onların əməlinin həmin Məcəllənin daha ağır sanksiya nəzərdə tutan 263-1-ci maddəsi ilə tövsif olunacağını, habelə İnzibati Xətalar Məcəlləsinin 332, 334, 343.4-343.7-ci maddələri ilə nəzərdə tutulmuş xətaların tərkibini yarada biləcəyini nəzərə alaraq, Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan şəxslərin "Yol hərəkəti haqqında" Qanunun 35-1-ci maddəsinin tələbləri və onlara əməl edilməməsinin hüquqi nəticələri barəsində xəbərdar edilməsi Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə tövsiyə edilməlidir.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsinə malik olan Azərbaycan Respublikasının vətəndaşı və Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan şəxslər "Yol hərəkəti haqqında" Qanunun 35-1-ci maddəsinin müvafiq tələblərinə əməl etmədikdə, həmin Qanunun 33-cü maddəsinin V hissəsinə əsasən hüququ məhdudlaşdırılmış şəxs kimi nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilir;

– Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan şəxslərin "Yol hərəkəti haqqında" Qanunun 35-1-ci maddəsinin tələblərinin yerinə yetirilməməsinin hüquqi nəticələri barədə xəbərdar edilməsi Dövlət Miqrasiya Xidmətinə tövsiyə edilsin.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsinə malik olan Azərbaycan Respublikasının vətəndaşı və Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan şəxslər "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-1-ci maddəsinin müvafiq tələblərinə əməl etmədikdə, həmin Qanunun 33-cü maddəsinin V hissəsinə əsasən hüququ məhdudlaşdırılmış şəxs kimi nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilir.

2. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alan şəxslərin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 35-1-ci maddəsinin tələblərinin yerinə yetirilməməsinin hüquqi nəticələri barədə xəbərdar edilməsi Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə tövsiyə edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**